Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
Milli Aviasiya Akademiyası

Mətanət Paşa qızı Əsgərova

CİNAYƏT İŞLƏRİ ÜZRƏ HÜQUQİ YARDIMIN CİNAYƏT-PROSESSUAL VƏ KRİMİNALİSTİK PROBLEMLƏRİ

Monoqrafiya

Milli Aviasiya Akademiyasının "Hüquq" kafedrasının 25 dekabr 2024-cü il tarixli qərarı (protokol№4) və "İqtisadiyyat və hüquq" fakultəsinin Elmi Şurasının 16 aprel 2025-ci il tarixli qərarı (protokol № 08) bəyənilmişdir və Milli Aviasiya Akademiyasının Elmi-metodik Şurasının 15 may 2025-ci il tarixli qərarı ilə (protokol №3/2) çap olunması tövsiyə edilmişdir.

Bakı – 2025

Müəllif: **Əsgərova Mətanət Paşa qızı**, elmləri doktoru, Milli Aviasiya Akademiyasının Hüquq kafedrasının professoru, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası kafedrasının müdiri

Elmi redaktoru: **Firuzə Məmməd qızı Abbasova**, Bakı Dövlət Universitetinin Hüquq fakultəsinin Cinayət prosesi kafedrasının müdiri, hüquq elmləri doktoru, professor

Rəyçilər: **Nazim Həsən oğlu Cəfərli,** hüquq elmləri doktoru, Azərbaycan Milli Aviasiya Akademiyasının Hüquq kafedrasının professoru

Midhəd Seyidəhməd oğlu Qəfərov, hüquq elmləri doktoru**,** Bakı Dövlət Universitetinin Cinayət prosesi kafedrasının professoru

Asif Xanoglan oğlu Qədirov, hüquq elmləri doktoru, Milli Aviasiya Akademiyasının Hüquq kafedrasının dosenti

Əsgərova, M.P. Cinayət işləri üzrə hüquqi yardımın cinayət-prosessual və kriminalistik problemləri: Monoqrafiya / M.P.Əsgərova. – Bakı: "Füyuzat", 2025. – 408 s.

Monoqrafiya dövlətlər arasında və beynəlxalq məhkəmələr çərçivəsində xarici elementli cinayət işləri üzrə hüquqi yardım göstərilməsinin, hüquqi yardım göstərilməsi çərçivəsində konkret istintaq, məhkəmə və digər hərəkətlərin aparılmasının hüquqi bazasının və təcrübəsinin təhlilinə, nəzəri və praktiki problemlərin müəyyən edilməsinə, ədalət mühakiməsinin daha səmərəli həyata keçirilməsinə, insan və vətəndaş hüquq və azadlıqlarının daha etibarlı müdafiəsinə yönəlmiş hüquqi yardım göstərilməsinin cinayət-prosessual, kriminalistik və beynəlxalq əsaslarının təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanmasına həsr olunmuşdur. Cinayət işləri üzrə hüquqi yardım göstərilməsinin doktrinal məzmunu müəyyən edilmiş, onun mahiyyətini, elementlərini və perspektiv inkişaf istiqamətlərini müəyyən edən konsepsiya işlənib hazırlanmış, müqavilə və müqaviləsiz əsasda hüquqi yardım göstərilməsinin nəzəri və praktiki problemləri müəyyən edilmiş, bu problemlərin qanunvericilik qaydasında həlli ilə bağlı təkliflər irəli sürülmüşdür. İlk dəfə olaraq Azərbaycan Respublikasında hüquqi yardım göstərilməsinin tarixi inkişafı və evolyusiyası, Qurani-Kərimdə və Məhəmməd Peyğəmbərin müqavilə təcrübəsində hüquqi yardım məsələləri araşdırma predmeti olmuşdur. Monoqrafiya cinayət prosesinin müasir nəzəri və praktiki problemləri, qanunvericilik bazasının təkmilləşdirilməsi ilə maraqlanan müstəntiqlər, prokurorlar, hakimlər, qanunvericilər, mütəxəssislər, hüquq institutlarının tələbələri, magistrlər, doktorantlar və müəllimlərə ünvanlanmışdır.

ISBN: 978-9952-8616-7-9

MÜNDƏRİCAT

Giriş 6

I fəsil. Dövlətlər arasında hüquqi yardım institutunun evolyusiyası və inkişaf tarixi.....10

1.1. Azərbaycan Respublikasında dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım institutunun inkişaf tarixi.....10

1.2. Qurani-Kərimdə və Peyğəmbərin müqavilə təcrübəsində dövlətlər arasında qarşılıqlı hüquqi yardım məsələləri.....28

1.3. Hüquqi yardım institutu və məhkəmə tapşırıqları.....47

1.4. Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardımın həcmi 56

II fəsil. Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım çərçivəsində ayrı-ayrı istintaq, məhkəmə və digər hərəkətlərin yerinə yetirilməsinin prosessual və kriminalistik problemləri 67

2.1. Dövlətlər arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım çərçivəsində yerinə yetirilən istintaq hərəkətləri 67

2.2. Dövlətlər arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım çərçivəsində yerinə yetirilən məhkəmə hərəkətləri.....77

2.3. İstintaq, məhkəmə və digər hərəkətlərin yerinə yetirilməsi barədə məhkəmə sorğularının icra edilməsinin prosessual problemləri.....82

2.4. Gizli şahidlərdən istifadə edilməsi problemləri 112

III fəsil. Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım çərçivəsində prosessual hərəkətlərin yerinə yetirilməsinə nəzarət və kriminalistik təminati problemləri.....122

3.1. Dövlətlər arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım çərçivəsində prosessual və digər hərəkətlərin yerinə yetirilməsi üzərində prosessual rəhbərlik, prokuror nəzarəti və məhkəmə nəzarəti 122

3.2. Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım göstərilməsinin kriminalistik təminatı problemləri.....138

IV fəsil. Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım göstərilməsinin müasir problemlərİ.....151

4.1. Müqavilələrlə bağlı olan dövlətlər arasında qarşılıqlı hüquqi yardım göstərilməsi problemləri.....151

4.2. Dövlətlər arasında hüquqi yardım göstərilməsi zamanı elektron sübutlardan və plandankənar informasiyadan istifadə edilməsinin perspektivləri.....169

4.3. Cinayət işləri üzrə hüquqi yardım göstərilməsində qarşılılıq prinsipi.....197

4.4. Dövlətlər arasında cinayət işləri üzrə müqaviləsiz əsasda hüquqi yardım göstərilməsi problemləri.....203

V fəsil. Beynəlxalq məhkəmələr çərçivəsində hüquqi yardım problemləri.....221

5.1. Beynəlxalq Cinayət Məhkəməsinin dövlətlərlə hüquqi məsələlər üzrə əməkdaşlıq problemləri.....221

5.2. Beynəlxalq Cinayət Məhkəməsinin beynəlxalq təşkilatlarla hüquqi məsələlər üzrə əməkdaşlıq məsələləri.....253

5.3. Beynəlxalq məhkəmələrdə amicus curiae icmallarının təqdim edilməsi.....267

5.4. AİHM və üzv dövlətlər arasında hüquqi yardımın inkişafı tendensiyaları: problemlər və perspektivlər.....280

Nəticələr.....293

İstifadə olunmuş ədəbiyyat siyahısı.....300

ƏLAVƏLƏR.....387

Əlavə 1. Azərbaycan Respublikasının cinayətlərin istintaqı və cinayət təqibi sahəsində beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqəsi.....387

Əlavə 2. Dövlətlər arasında hüquqi yardım göstərilməsi çərçivəsində hərəkətlərin alqoritmi.....388
Əlavə 3. Dövlətlər arasında hüquqi yardımın kriminalistik təminatı kontekstində hərəkətlərin yerinə yetirilməsi qaydası 389
Əlavə 4. Avropa İnsan Hüquqları Məhkəməsinə müraciətlərə baxılması mexanizmi 390
Əlavə 5. Avropa İnsan Hüquqları Məhkəməsinə müraciətlərin qəbuledilməzlik meyarları 391
Əlavə 6. AİHM: dövlətlər üzrə ümumi müraciətlər.....391
Əlavə 7. Azərbaycanda AİHM qərarlarının icrasının dinamikası.....392
Əlavə 8. AİHM: Azərbaycanla bağlı müraciətlər 392
Əlavə 9. Azərbaycan Respublikasının CPM-də nəzərdə tutulan məhkəmə hərəkətləri.....393
Əlavə 10. Azərbaycan Respublikası CPM-də nəzərdə tutulan digər hərəkətlər 396
Əlavə 11. Azərbaycan Respublikasının qanunvericilik aktlarına təklif olunan dəyişikliklərin siyahısı.....397
Əlavə 12. İxtisarlar.....406

GİRİŞ

İnteqrasiya prosesləri getdikcə daha çox dövlətin maraqlarına toxunan cinayətkarlığın beynəlxalq xarakterinə də təsir edir. Cinayətkarlığın beynəlmiləlləşməsinə baxmayaraq, onunla milli səviyyədə mübarizə öz aktuallığını itirmir və hüquq sistemlərinin özünəməxsusluğu ilə fərqlənən dövlətlərin cinayət siyasəti və ədalət mühakiməsi sahəsində də əməkdaşlığını tələb edir. Belə ki, son dövrlərdə Azərbaycanda və digər dövlətlərdə cinayət işləri üzrə daha fəal hüquqi yardım göstərilməsini, hüquqi yardımla bağlı ayrı-ayrı prosedurların həyata keçirilməsi barədə KİV-də verilən məlumatlar da təsdiq edir. Məsələn, "*son beş il ərzində Azərbaycana 200-dən artıq cinayətkar ekstradisiya edilmişdir*" [278]. Beynəlxalq səviyyədə cinayətkarlıqla mübarizə, cinayət işləri üzrə hüquqi yardım sahəsində daha sıx əməkdaşlığı şərtləndirir. Hüquqi yardım göstərilən cinayət işləri, prosesin iştirakçılarının və ya iş üzrə sübutların digər dövlətlərin ərazisində olması və onların cinayət prosesində iştirakının xüsusi xarakteri ilə fərqlənir, cinayət-prosessual fəaliyyətin obyekti və subyekti ilə bağlıdır. Bu səbəbdən, hüquqi yardımın cinayət-prosessual aspektləri qanunçuluğun təntənəsi, insan və vətəndaş hüquq və azadlıqlarına hörmət, dövlətlərin beynəlxalq öhdəliklərinin yerinə yetirilməsi baxımından aktualdır.

Ədalət mühakiməsi sahəsində əməkdaşlıq, cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında ikitərəfli və çoxtərəfli müqavilələr əsasında və ya qarşılıqlılıq prinsipi əsasında həyata keçirilən cinayət mühakimə icraatı sahəsində hüquqi yardımın göstərilməsi yolu ilə də həyata keçirilir.

Cinayət işləri üzrə hüquqi yardım milli qanunvericilik əsasında həyata keçirilir. Azərbaycan qanunvericiliyində "cinayət işləri üzrə hüquqi yardım" anlayışı yalnız dövlətlərarası hüquqi yardım mənasında işlədilir. CPM-də və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunda hüquqi yardım anlayışı vəkilin keyfiyyətli hüquqi yardım və nümayəndə kimi hüquqi yardım göstərməsi, həmçinin zərər çəkmiş

şəxsin (xüsusi ittihamçının), mülki iddiaçının, mülki cavabdehin və ya onların qanuni nümayəndələrinin, habelə barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin cinayət prosesi gedişində özlərinin müəyyən edilmiş qaydada dəvət etdiyi nümayəndənin hüquqi yardım göstərməsi, eləcə də pulsuz hüquqi yardım göstərilməsi aspektində işlədilir.

Bəzi beynəlxalq aktlarda fəaliyyəti və tətbiqi daxili qanunvericilikdən asılı olan ayrı-ayrı prosessual normalar mövcuddur, yəni onlar milli qanunvericiliyə transformasiya edildikdən sonra həyata keçirilirlər. Buna görə də, digər dövlətlərlə cinayət işləri üzrə hüquqi yardım göstərilməsi ilə bağlı beynəlxalq əməkdaşlıq milli cinayət prosesi olmadan həyata keçirilə bilmədiyindən, məhkəmə sorğularının icra edilməsinin beynəlxalq müqavilələrlə milli cinayət-prosessual qanunvericiliyin üzərinə qoyulmasından çıxış edərək, hüquqi yardım göstərilməsi məsələlərinin milli cinayət-prosessual qanunvericilik çərçivəsində öyrənilməsi müdafiə edilməlidir.

Söhbət beynəlxalq cinayət prosesinin formalaşdırılmasından deyil, cinayət prosesi sahəsində beynəlxalq əməkdaşlıqdan gedir. Çünki beynəlxalq müqavilələr prosesin iştirakçıları üçün ümumi olan qaydaları (reqlamenti, şərtləri), onların hüquq və vəzifələrinin vahid dairəsini, həyata keçirilməsinin vahid formalarını müəyyən etmir. Bu isə dövlətlərin həmin qaydaları öz suverenlikləri və müstəqilliklərindən çıxış edərək müəyyən etməsi ilə izah olunur. Bu qaydaların müxtəlif dövlətlərdə tam üst-üstə düşməsi mümkün deyil.

Hesab edirik ki, dövlətlərin cinayət-prosessual qanunvericiliklərinin yaxınlaşması cinayət işləri üzrə hüquqi yardım göstərilməsinin inkişafında perspektivli istiqamətdir. Mütəşəkkil və transmilli cinayətlərlə, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində cinayətkarlıqla mübarizə üzrə məqsədlərin ümumiliyi, ikitərəfli əməkdaşlıq sazişləri milli qanunvericiliklərin yaxınlaşmasını, həmçinin cinayət işləri üzrə ədalət mühakiməsi sahəsində əməkdaşlığı şərtləndirir və ölkələrin cinayət işləri üzrə qarşılıqlı hüquqi yardımı tənzim edən cinayət-prosessual qanunvericiliklərinin də yaxınlaşmasını tələb edir.

Qarşılıqlı hüquqi yardım göstərilməsi problemlərinin araşdırılmasının aktuallığı dövlətlər arasında qarşılıqlı hüquq münasibətlərinin genişlənməsi ilə izah olunur. Bu mövzuya həsr olunmuş tədqiqatların əksəriyyətində cinayət işləri üzrə hüquqi yardım əsasən beynəlxalq hüququn və ya beynəlxalq prosessual hüququn institutu kimi, yaxud hüquqi yardım göstərilməsinin ayrı-ayrı aspektləri araşdırılmışdır. Beynəlxalq hüququn ən son normalarını və son onilliklərin təcrübəsinin müddəalarını əhatə edən monoqrafik tədqiqatlar aparılmamışdır.

Azərbaycan Respublikasında hüquqi yardım göstərilməsi alimlərin cinayət işləri üzrə ədalət mühakiməsinin ümumi problemləri aspektində tədqiqat obyekti olmuşdur. Qarşılıqlı hüquqi yardım göstərilməsi sahəsində bağlanılan beynəlxalq müqavilə və sazişlər cinayət-prosessual qanunvericiliyin təkmilləşdirilməsi və yaxınlaşması sahəsində yeni tendensiyalarla bağlı əlavə tədqiqatlar aparılmasını tələb edir. Qeyd olunan vəziyyət hüquqi yardım göstərilməsinin ümumi problemlərinin dərin nəzəri təhlilini, son illərin təcrübəsinin nəzərə alınmasını, müqavilə və müqaviləsiz əsasda hüquqi yardım göstərilməsi institutu ilə bağlı ən son elmi, qanunvericilik və empirik materiallardan istifadə etməklə hərtərəfli tədqiqatların aparılmasını, həmçinin hüquqi yardım göstərilməsi problemlərinin aradan qaldırılması baxımından qanun yaradıcılığı və hüquq tətbiqetmə təcrübəsinin təkmilləşdirilməsini tələb edir.

Tədqiqatlar ən yeni normativ materiallardan, o cümlədən beynəlxalq hüquqi yardım göstərilməsi sahəsində universal və ikitərəfli sazişlərin müddəaları tətbiq edilməklə, müqaviləsiz əsasda hüquqi yardım göstərilməsi təcrübəsindən istifadə edilməklə aparılmışdır. Qarşılıqlı hüquqi yardıma konseptual yanaşma tətbiq olunmuş, anlayışlar aparatının formalaşdırılması və təkmilləşdirilməsinə diqqət yetirilmiş, ənənəvi prosessual institutlar hüquqi yardım göstərilməsi aspektində təhlil edilmiş, onların tətbiqi xüsusiyyətləri müəyyən edilmişdir.

Qarşılıqlı hüquqi yardım institutunun inkişaf mərhələləri və hüquqi yardımın həcmi müəyyən edilmiş, məhkəmə tapşırıqları, prosessual və digər hərəkətlər, məhkəmə yoxlaması və prokuror nəzarəti,

məhkəmə hərəkətləri, istintaq hərəkətləri və hüquqi yardım göstərilməsi ilə bağlı prosessual hərəkətlərin aparılması üçün ağlabatan müddətin müəyyən edilməsi ilə bağlı təkliflər hazırlanmışdır.

Cinayət işləri üzrə hüquqi yardım göstərilməsinin təkmilləşdirilməsi üçün cinayət-prosessual qanunvericiliyə təklif olunan dəyişikliklər hüquqi yardımın həcminin genişləndirilməsini, məsələn, üzləşdirmənin və məhkəmə ekspertizalarının aparılmasının daxil edilməsini, məhkəmə tapşırıqlarının icrası müddətlərinin azaldılması üçün səlahiyyətli icra orqanlarının dairəsinin genişləndirilməsini, beynəlxalq aktlara və ikitərəfli müqavilələrə plandankənar məlumatlarla bağlı müəyyən normaların daxil edilməsini və s. məsələləri əhatə edir.

Hüquqi yardım göstərilməsi təcrübəsinin təkmilləşdirilməsi üçün ilk dəfə Azərbaycan Respublikasında hüquqi yardım göstərilməsi tarixi və Qurani-Kərimin müddəaları, hədislər və Peyğəmbərin müqavilə təcrübəsi cinayət işlərində hüquqi yardım göstərilməsi aspektində öyrənilmiş, bu müddəalardan dövlətlər arasında cinayət işlərində hüquqi yardım göstərilməsinin təkmilləşdirilməsi üçün istifadə edilməsi əsaslandırılmışdır.

Son illərdə beynəlxalq məhkəmə orqanlarının fəaliyyəti nisbətən genişlənmiş və dövlətlərin beynəlxalq məhkəmə orqanları ilə hüquqi yardım və əməkdaşlıq məsələləri aktuallaşmışdır. Beynəlxalq Cinayət Məhkəməsi və Avropa İnsan Hüquqları Məhkəməsi çərçivəsində hüquqi yardım və əməkdaşlıq məsələləri araşdırılmış, bu əməkdaşlıq sahələri milli hüquq sistemi aspektlərində təhlil edilmiş, milli prosessual hüququn beynəlxalq əməkdaşlıqla bağlı müddəalarının təkmilləşdirilməsi və beynəlxalq məhkəmə orqanları ilə əməkdaşlıqda istifadə olunan anlayışların, məsələn, "amicus curiae" institutunun milli qanunvericiliyə daxil edilməsi üzrə təkliflər əsaslandırılmışdır.

Monoqrafiyada cinayət işləri üzrə hüquqi yardımın anlayış və kateqoriyalarının yeni aspektləri nəzəri cəhətdən əsaslandırılmış və cinayət prosesi elminə daxil edilməsi təklif edilmişdir.

I FƏSİL.
DÖVLƏTLƏR ARASINDA HÜQUQİ YARDIM İNSTİTUTUNUN EVOLYUSİYASI VƏ İNKİŞAF TARİXİ

1.1. Azərbaycan Respublikasında dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım institutunun inkişaf tarixi

Dövlətlər arasında hüquqi yardım institutu uzun inkişaf yolu keçmişdir. Birdəfəlik, bəzən diplomatik köməkdən daimi yardıma keçilmiş, hüquqi yardımın həcmi qaçan qulun verilməsindən prosessual və digər hərəkətlərin həyata keçirilməsinə, cinayət təqibinin digər dövlətə verilməsinə qədər genişlənmişdir. Dövlətlər arasında hüquqi yardım institutunun öyrənilməsinə tarixi yanaşma bu institutun təkmilləşdirilməsinə və daha da inkişaf etdirilməsinə kömək edir.

Hüquqi yardım institutu dövlətin tarixi və daxilindəki siyasi meyllərlə bağlı olmuşdur. Bu proseslərin öyrənilməsi hüquqi yardım göstərilməsi və cinayət işləri üzrə ədalət mühakiməsinin gedişində insan hüquqlarının daha etibarlı təmin edilməsinə kömək edir. Dövlətlər arasında hüquqi yardım institutunun tarixi inkişafının gedişində institut həmişə siyasi cinayətlərin anlayışı, siyasi məhbusların verilməsi və s. ilə əlaqəli siyasi müdaxilələrin təsirinə məruz qalmışdır. Buna görə də dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardımın tarixinin ətraflı öyrənilməsi getdikcə mürəkkəb və xüsusi xarakter alan mütəşəkkil cinayətkarlıqla mübarizədə daha müstəqil hüquqi yardımın formalaşdırılmasına imkan verir.

Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım institutunun tarixi ibtidai icma quruluşu ilə, daha doğrusu, icmalararası münasibətlərlə əlaqələndirilməlidir. Lukaşuk İ.İ. yazır ki, *"...Qəbilələrarası normalar tayfaların qarşılıqlı əlaqəsi üçün lazım olan, onların təcrübəsində formalaşan elementar oyun qaydaları idi. Bu*

normalar hüququn əsas xüsusiyyətlərinə uyğun gəlmirdi. Məlumdur ki, nəinki beynəlxalq, hətta daxili hüquq da dövlətsiz mövcud ola bilməz" [255, s.66].

Qəbilələrarası mübadilənin yaranması və inkişafı ilə qəbilələrarası əlaqələr də inkişaf edir. Qəbilələrarası münasibətlər qarşılıqlı yardım və hörmət xarakteri daşıyırdı və daha çox adətlərlə tənzimlənirdi, buna görə də burada hüquqi yardımdan danışa bilmərik. Çünki hüquqi yardım hüquqi təşkilatlanma və tənzimləmə texnikasının dövlətlərə xas yüksək səviyyəsi ilə xarakterizə olunur. "*Dövlətlərin cinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlığının hüquqi tənzimlənməsi dərin tarixi köklərə malikdir və dövlətin və hüququn mənşəyinə aid edilə bilər*" [154, s.52-57].

Dövlətlər arasında hüquqi yardım göstərilməsinin ilk formalarından biri qaçan qulların verilməsi hesab olunur [337]. Dövlətin qulları təqsirinin olmaması səbəbindən məsuliyyətdən azad etməsi öhdəliyinin, ekstradisiya edilən şəxsin şəxsi toxunulmazlığının və digər hüquqlarının təmin edilməsi öhdəliyinin nəzərdə tutulması diqqəti cəlb edir.

Azərbaycanın ərazisinin coğrafi mövqeyi və təbii sərvətləri xarici dövlətləri, habelə qonşu dövlətləri tarixən cəlb etmişdir. Buna görə də Azərbaycan tarixi müxtəlif təcavüz xarakterli hərbi əməliyyatlarla zəngindir. Tarixin müxtəlif dövrlərində bütövlükdə Azərbaycan və ya onun bəzi əraziləri Rusiya, İran, Türkiyənin bir hissəsi olmuş və müxtəlif dövlətlər arasında mübahisə predmetinə çevrilmişdir. Bu isə hüquq elmlərinin və hüquqi tənzimləmənin tarixinin, Azərbaycan tarixi kimi, Rusiya, Türkiyə, İran, İngiltərə, Fransa və digər Avropa dövlətləri ilə bağlı olmasını şərtləndirir. Sülh, təslim, ticarət və s. müqavilələr bağlanılarkən yurisdiksiya, cinayətkarların verilməsi və s. məsələlərə də toxunulurdu, ancaq güclülərin və qaliblərin hüququ hiss olunurdu.

Müqavilələrdə vətəndaşlarla əlaqədar olaraq yerli yurisdiksiyadan azad etmələr və ya təqsirləndirilən şəxsin vətəndaşı olduğu

ölkənin nümayəndəsinin iştirakı ilə məhkəmə icraatının aparılması və prosedur xarakterli digər məsələlərlə bağlı xüsusi qaydalar nəzərdə tutulurdu. Bəzən cinayət işləri üzrə prosessual məsələlər ticarət müqavilələrinə də daxil edilirdi. Hesab edirik ki, Azərbaycan tarixinə ekskursiya dövlətlər arasında hüquqi yardımın tarixini izləmək və digər dövlətlər arasında ayrı-ayrı müqavilələrin müasir Azərbaycan ərazisinə olan münasibətini anlamaq imkanı verir.

Azərbaycan tarixində aşağıdakı dövrlər fərqləndirilir: qədim dövr: Qafqaz Albaniyası; orta əsrlər: ərəblərin fəthi və islamlaşma, Şirvanşahlar dövləti, Sacilər əmirliyi, Salaridilər əmirliyi, Şəddadilər dövləti, Rəvvadilər əmirliyi, Səlcuqluların fəthi və türkləşmənin başlanğıcı, Səfəvi dövləti; yeni dövr: Azərbaycan xanlıqları, Azərbaycan Rusiyanın tərkibində, inqilab və Rusiya İmperiyasının parçalanması, Azərbaycan Xalq Cümhuriyyəti; sovet Azərbaycanı; müstəqil Azərbaycan.

Qədim zamanlarda Cənubi Azərbaycanın ərazisi, müasir Azərbaycanın ərazisində ilk dövlət qurumu olan Manna və Midiya dövlətlərinin tərkibinə daxil olmuş, coğrafi baxımdan indiki İran Azərbaycanının ərazisində yerləşirdi, Araz çayı ilə məhdudlaşırdı və 1918-ci ilə qədər Azərbaycan ilk növbədə Araz çayının cənubunda, Urmiya gölünün ətrafı kimi qəbul edilirdi.

"*VII əsrin əvvəllərində demək olar ki, bütün Orta Şərq, o cümlədən Zaqafqaziya iki güclü rəqib — Bizans və Sasanilər İranı arasında bölündü*" [148, s. 32].

VII–IX əsrlərdə ərəblər Azərbaycanı fəth etdi və Azərbaycanın ərazisi Ərəb Xilafətinin tərkibinə daxil edildi. Bu dövr Azərbaycanın ərazisində şimalda Məzyədilər–Şeybanilər və cənubda Sacilər dövlətlərinin yaranması ilə başa çatır. "*Bu dövlətlərin Azərbaycan ərazisində yaranması və formalaşması prosesi bir zamanlar birləşmiş Ərəb Xilafəti dövründə oxşar hadisələrə bənzəyirdi və Yaxın Şərqdə feodal münasibətlərinin daha da inkişaf etməsinin əksi idi*" [148, s. 3-4].

Şirvanın ərəb valiləri Şirvanşahlar titulunu qəbul etdilər və XII əsrdə Şirvanın paytaxtı Bakıya köçürüldü. Şirvanşahlar dövlətini XVI əsrdə Səfəvilər əvəz etdi. VIII əsrin ortalarından XII əsrin ortalarına qədər Rəvvadilər və Salaridlər İran Azərbaycanını idarə etmiş, sonradan isə Səlcuqlar tərəfindən məhv edilmişdir. 100 ildən sonra Səlcuq dövlətinin zəifləməsi ilə birlikdə onun tərkibində qıpçaq Şəmsəddin Eldəgiz yüksəldi. O, Azərbaycan əyalətini ələ keçirdi, irsi Atabəy titulu aldı və parçalanan Səlcuq imperiyasının qalıqlarının hakim ağası oldu. Atabəylər Şərqi İranı ələ keçirən Xarəzmşahlarla toqquşdu və sonda Atabəylər dövləti 1225-ci ildə son Xarəzmşah Cəlaləddin tərəfindən dağıdıldı.

1231-ci ildə Monqol ordusu Cəlaləddini asanlıqla məğlub edərək Azərbaycanı (indiki İran Azərbaycanını) işğal etdi. Şirvanda Monqol sülaləsinin süqutundan sonra Şirvanşahlar dövləti yenidən dirçəlməyə başladı. Azərbaycanda (Arazın cənubunda), keçmiş Eldəgizlər dövlətinin yerində 1410-cu ildə Təbrizdə yeni bir türk dövləti olan Qaraqoyunlu quruldu. Yarım əsr sonra, 1467-ci ildə Qaraqoyunlu dövləti Şərqi Anadolu ərazisindən qohum türkmən tayfası olan Ağqoyunlu tərəfindən fəth edildi.

Teymurun ölümü onun imperiyasının sürətlə dağılmasına səbəb oldu. Zaqafqaziya ölkələri əvvəlcə Qaraqoyunlu, sonra da Ağqoyunlu dövlətlərinin hakimiyyəti və ya təsir dairəsinə daxil oldu. Bu dövlətlərdə əsasən türkmən adlanan, yəni oğuz mənşəli köçəri türk tayfalarının zadəganları hökmranlıq edirdi.

1501-ci ildə Ağqoyunlu dövlətinin parçaları üzərində, paytaxtı əvvəlcə Təbriz, sonra Qəzvin olan Səfəvi dövləti quruldu. 1501-ci ildə Azərbaycan şahı titulunu alan Şah İsmayıl I Səfəvi 1502-ci ildə İranın ilhaqı ilə Azərbaycan və İran Şahənşahı titulunu qazandı.

XVI–XVIII əsrlərdə Osmanlı İmperiyası ilə Səfəvilər arasında Zaqafqaziya və ona bitişik torpaqlarda hökmranlıq, İslamda şiə və sünni ideologiyasının üstünlük təşkil etməsi uğrunda bir sıra mü-

haribələr davam etdi. Azərbaycan ərazisi bu dövrdə Rusiya, Osmanlı İmperiyası və İran arasında mübadilə və işğal predmetinə çevrildi.

İranda etnik türk Nadir Şah Afşar 1747-ci ildə öldürüldükdən sonra ölkədə müasir Azərbaycan, Ermənistan və İran (İran Azərbaycanı) ərazisində türk sülalələrinin başçılıq etdiyi bir sıra xanlıqlar yarandı: "*Azərbaycan ərazisində aşağıdakı xanlıqlar yarandı: Şəki, Qarabağ, Şamaxı, Bakı, Naxçıvan, Təbriz, Sərab, Ərdəbil, Xoy, Urmiya, Qaradağ, Talış, Marağa, Maku, Cavad. Daha kiçik dövlət birlikləri olaraq Qutqaşen, Qəbələ, Ərəş, Qazax, Şəmşəddil sultanlıqları...*" [212, s.142].

XV–XVI əsrlər Azərbaycan dövlətçiliyinin tarixi inkişaf dövrü hesab olunur. Şah İsmayıl Xətai bütün Azərbaycan torpaqlarını (həm şimal, həm də cənub) birləşdirməyi bacardı və Səfəvi dövlətini yaratdı. Şah İsmayıl Xətai Səfəvilər dövlətini regionun güclü dövlətinə çevirməyi bacardı. Səfəvilər dövründə Azərbaycanda dövlət idarəetmə mədəniyyəti daha da gücləndi. Azərbaycan dili nəhəng bir imperiyanın dövlət dili oldu.

Səfəvilərin 200 ildən artıq davam edən hakimiyyəti dövründə Azərbaycan tarixi sülh, dostluq və digər oxşar müqavilələrlə zəngindir. XVI əsrin əvvəllərində bütün qonşu dövlətlər Səfəviləri Qaraqoyunlu və Ağqoyunluların varisləri kimi qəbul etdilər. XVI əsrdə Osmanlı hökmdarı Qanuni Sultan Süleymanın hücumlarından sonra 1555-ci ildə Amasyada Təhmasiblə dostluq müqaviləsi imzalandı. Əcnəbilərin hüquqlarının tanınmasında I Təhmasibin 1566-cı il fərmanı mühüm rol oynadı. "*...hakimlərin üzərinə ingilis tacirlərinə kömək etmələri, onları yad ünsürlərdən qorumaları və s. vəzifələr qoyulmuşdu*" [75, s.178].

I Təhmasibin ölümündən sonra Osmanlı sultanı III Murad 1590-cı ildə İstanbulda Səfəvilərlə sülh müqaviləsi imzaladı və Azərbaycan Osmanlı Xilafətinin bir hissəsi oldu. Səfəvi dövlətinin paytaxtı Təbrizdən Azərbaycanın Qəzvin şəhərinə köçürüldü.

Səfəvilər dövründə Azərbaycan Qara və Aralıq dənizlərindən tutmuş uzaq İngiltərə və Skandinaviyaya qədər bir çox Avropa dövləti ilə diplomatik əlaqələr qurmuşdur. Qərbi Avropanın diplomatları Səfəvi hökmdarları ilə münasibətlər qurmaq üçün saraya gəlirdilər.

Artıq qeyd edildiyi kimi, sülh, dostluq və ya hətta təslim müqavilələrində cinayət işləri və ticarət məsələlərində dövlətlər arasında hüquqi yardımla bağlı ayrı-ayrı müddəalar tapmaq olar.

Rusiya ilə Osmanlı İmperiyası arasında 1700-cü ildə bağlanmış İstanbul müqaviləsinin VIII maddəsində hüquqi yardım barədə müddəalara rast gəlmək olur. Bu müddəalar bağlanmış sülhlə bağlı pozuntular halında hər iki tərəfin təbəələrinin istisnasız cəzalandırılmasını və qanunsuz əldə edilmiş əmlakın geri qaytarılmasını nəzərdə tuturdu: "*Rusiya və Osmanlı İmperiyasının təbəələri quruda və dənizdə basqın, düşmənçilik və narahatlıqlar törətməməli, heç kimə zərər verməməlidir; sülhə qarşı çıxanlar şiddətlə cəzalandırılacaqdır. Bu əməllərin pozulması halında ... öz təqsirlərinin ağırlığına uyğun olaraq cəzalandırılacaqlar, hər iki tərəfdən soyulmuşlar ağalarına qaytarılacaqlar*" [91, s.38].

Səfəvi dövləti ilə Fransa arasında 1708-ci ildə bağlanmış təslim müqaviləsinin XVI və XVIII maddələrində yerli yurisdiksiyadan istisnalar nəzərdə tutulurdu: "*Fransızlar arasında mübahisə yarandığı təqdirdə, müsəlman (yəni İran) hakimiyyəti yalnız Fransa konsulunun iştirakı ilə araşdırma apara bilər. Heç bir fransız günahı sübut edilmədən və etiraf etmədən həbs oluna və ya cəzalandırıla bilməz*" [91, s.44].

Səfəvi dövləti ilə Fransa arasındakı 1715-ci il Versal müqaviləsinin X maddəsində də fransızlarla bağlı yerli araşdırmalarda və məhkəmə baxışında istisnalar nəzərdə tutulmuşdur: "... həm mülki, həm də cinayət işlərinin Fransa konsulunun iştirakı ilə yerli hakimiyyət orqanları tərəfindən həll edilməsi" [91, s.56–57].

Rusiya imperiyası ilə İran dövləti arasında bağlanmış 1735-ci il Gəncə traktatı cinayətkarların təhvil verilməsi məsələlərini tənzimləyirdi. Traktatın VI maddəsinə əsasən, "*tərəflər axtarışda olan cinayətkarların tutularaq qarşı tərəfə qaytarılmasını*" öhdələrinə götürürdülər [91, s. 136].

Rusiya ilə Osmanlı İmperatorluğu arasında bağlanmış 1774-cü il Küçük Qaynarca traktatının 1-ci və 2-ci maddələrində cinayət işlərində hüquqi yardım məsələlərinə toxunulurdu. Hər iki tərəfin bir-birinə qarşı hər hansı bir cinayət törətmiş şəxslərə qarşı qarşılıqlı amnistiya və ümumi bağışlanma tətbiq edəcəyi, cinayətkarların geri qaytarılacağı və onlara sığınacaq verilməyəcəyi nəzərdə tutulurdu. Traktatda qeyd olunurdu ki: "*...ciddi cinayət və ya vətənə xəyanət edərək gizlənmək üçün iki tərəfdən birinə müraciət edən şəxslər qəbul edilməməli, qorunmamalı, dərhal geri qaytarılmalı və ya heç olmasa gizləndikləri dövlətin ərazisindən qovulmalıdırlar... Hər hansı bir cinayət törədərək və ya başqa səbəbdən bir imperiyadan digərinə müraciət edən şəxs dərhal geri qaytarılmalıdır*" [91, s. 157–158].

Azərbaycanda xanlıqlar dövrü 1800–1830-cu illərdə Rusiyaya birləşdirildikdən sonra da davam edir. Rusiya ilə ayrı-ayrı xanlıqlar arasında bağlanan traktatlarda həm azərbaycanlılara, həm də Rusiya vətəndaşlarına aid olan ayrı-ayrı işlərin aidiyyətinə, yerli yurisdiksiyadan istisnalara dair normalar var idi. Əslində, işğalçılıq siyasətinə xas olan idarəçilik sisteminin qurulmasından, o cümlədən məhkəmə hakimiyyətinin də tam bu sistemə uyğunlaşdırılmasından söhbət gedirdi. Polis və məhkəmə hakimiyyətinin Rusiya tərəfindən və onun tam nəzarəti altında həyata keçirilməsi şəraitində dövlətlərarası hüquqi yardımdan deyil, işğalçı dövlətin idarəçilik və məhkəmə hakimiyyətinin tətbiqindən danışmaq düzgün olardı. Rusiya–İran müharibəsi 1828-ci ildə Türkmənçay sülh müqaviləsinin imzalanması ilə başa çatdı. İşğalın ilk mərhələsində əvvəlki idarəetmə sistemi və aparatı saxlanıldı, 1820-ci illərdə çarizm öz

vassallarının xidmətlərindən imtina etdi və bütün xanlıqlar ləğv edildi. Şimali Azərbaycan ərazisində altı əyalət – Talış, Şirvan, Şəki, Qarabağ, Bakı və Quba, Yelizavetpol qəzası, Car-Balakən vilayəti (1830-cu ildə qurulmuş) və "*iki sülalə: Qazax və Şəmşəddil yaradılmışdır. Vilayətdə faktiki olaraq bütün güc çarizmin müstəmləkəçilik siyasətinin birbaşa icraçısı və dirijoru olan komendantın əlində cəmləşmişdi"* [211, s. 41]. Buna görə, tam vassallıq və sonra vassallığın ləğvi ilə bağlı xanlarla digər dövlətlər arasında bağlanan müqavilələrdən, o cümlədən hüquqi yardımdan danışmaq düzgün olmazdı.

1828-ci il Türkmənçay "Xüsusi ticarət aktı" iki dövlət arasındakı ticarət məsələlərinə həsr olunmasına baxmayaraq, cinayət işləri üzrə hüquqi yardımın ayrı-ayrı prosedur məsələlərini də tənzimləyirdi. Burada Rusiya vətəndaşlarının işlərinin yerli yurisdiksiyadan tam çıxarılması, məhkəmə və yerli hakimiyyət tərəfindən cinayət işi ilə bağlı materialların toplanması, lakin məhkəmə hakimiyyətinin Rusiya tərəfindən həyata keçirilməsi nəzərdə tutulurdu. Hətta bəzi işlər üzrə yerli məhkəmələrin Rusiya təbəələri barədə hökm çıxarması nəzərdə tutulsa da, hökmlər yalnız Rusiyada icra olunmalı idi. Ancaq belə istisnalar birtərəfli xarakter daşıyırdı. Belə ki, Azərbaycan təbəələri ilə bağlı işlər üzrə eyni prosedurların keçirilməsi nəzərdə tutulmurdu. Bu müddəaları müasir anlamda hüquqi yardım hesab etmək mümkün olmasa da, məhkəmə aidiyyəti, prosesin iştirakçılarının dairəsi, hakimiyyət nümayəndəsinin nəzarəti kimi məsələlər birtərəfli üstünlük versə belə, qanunda dəqiq müəyyən edilməklə hüquqi məsələlərə aydınlıq gətirilməsi aspektində maraq kəsb edir. Aktın VIII maddəsində göstərilirdi ki, "*rus təbəələri arasında ... işlər üzrə məhkəmə hakimiyyəti verilmiş Rusiya Nazirinə, müvəqqəti işlər vəkilinə və ya Konsuluna həvalə edilməlidir. ... Təqsirləndirilənlərə bəraət verən və ya günahlandıran ifadələr, hakim və yerli məhkəmə tərəfindən dəqiqliklə toplanmalı, imzaları ilə möhürlənməli və bu formada cinayətkarın mühakimə olunacağı yerə çatdırılmalıdır...*" [91, s. 331].

Hüquqi yardım məsələləri Rusiya ilə Osmanlı İmperiyası arasında 1791-ci il Yassi müqaviləsinin VI maddəsində də öz əksini tapmışdır. Müqavilədə bəzi cinayət işləri üzrə sadələşdirilmiş prosedurlar, məsələn, məhkəmələrin rus təbəələri barəsində işlərə Rusiya nümayəndələrinin iştirakı ilə baxması nəzərdə tutulmuşdur. Belə ki, göstərilirdi ki, "*...Rusiya insanları... ilə bağlı bu şəxslər tərəfindən vurulmuş ziyanın təsdiqlənməsi şərt qoyula bilməz və təyin olunan Rusiya sərhəd idarələrindən olan komissarların iştirakı ilə günahkarlar sərhəddə cəzalandırılmalıdır*" [91, s. 193].

İran və İngiltərə arasında 1801-ci il Siyasi və Ticarət Müqaviləsi zərərçəkmişlərin təmin edilməsini, təmin edilmənin növbəliliyini və soyğunçuluqla əlaqədar digər məsələləri tənzimləyirdi. Müqavilənin IV maddəsi müəyyən edirdi ki, "*İranlı borclunun ölümü halında, yerli hökmdar əvvəlcə Britaniya hökumətinin... tələblərini ödəmək üçün öz hakimiyyətini tətbiq etməlidir... qalan borclar ölən şəxsin ondan sonra qalan əmlakından ödənilməlidir*" [91, s. 307].

Bəzi müqavilələrdə müəyyən işlərin, xüsusən başqa bir dövlətin vətəndaşına qarşı olan işlərin, mövcud qaydalar cinayət və cinayət-prosessual qanunvericiliyə zidd olduqda, yerli yurisdiksiyadan çıxarılması və ya şəxsin təbəəliyindən olan nümayəndənin məcburi iştirakı ilə bağlı xüsusi maddələr var idi. Məsələn, İran və Fransa arasında 1808-ci il Tehran müqaviləsinin XI maddəsində qeyd olunurdu ki, "*Fransız təbəələrini... yalnız onların (konsulların) mühakimə etmək hüququ vardır. İran hakimiyyəti Fransa konsullarının iştirakı olmadan Fransa və İran vətəndaşları arasında mülki və cinayət işlərini və mübahisələri həll etmək hüququna malik deyildir*" [91, s. 262].

Əslində, yerli yurisdiksiyadan çıxarma bəzi hallarda "*asılı dövlətlərdə ərazi prinsipindən geri çəkilməni müəyyən edən*" [171, s. 14] himayəçilik prinsipinin təzahürü sayıla bilərdi və təbii ki, belə geri çəkilmə təbəələrin müdafiəsi məqsədi ilə yanaşı, həm də öz

təbəələrinə üstünlüklərin təqdim edilməsi, əksər hallarda isə siyasi üstünlüyün nümayiş etdirilməsi məqsədi daşıyırdı.

Zəngin təbii ehtiyatları və son dərəcə əhəmiyyətli hərbi-strateji mövqeyinə görə Azərbaycan xarici qüvvələr, xüsusən İran, Türkiyə və Rusiya arasında "nifaq alması" olaraq qalırdı. "*XVIII əsrin sonlarında – XIX əsrin əvvəllərində beynəlxalq münasibətlərin kəskinləşməsi və Azərbaycan xanlıqlarının Rusiyanın protektoratına qəbul edilməsi Rusiyanın Azərbaycan torpaqlarının təhlükəsizliyini tam təmin edə bilməyəcəyini göstərdi*" [270, s. 57–58].

Xanlıqların Rusiyaya birləşdirildiyi zaman bağlanılan müqavilələrə əsasən, xanlıqlar Rusiya ərazisi sayılırdı və daxili idarəçilik, məhkəmə və cəza ilə bağlı bütün məsələlər xanların ixtiyarında qalırdı. Məsələn, Rusiya ilə Qarabağ xanı arasındakı 1805-ci il Kurəkçay traktatının beşinci maddəsinə görə, "*İbrahim xan və varisləri Şuşa xanlığında hakimiyyəti və daxili nəzarət, məhkəmə və cəza ilə bağlı hakimiyyəti, habelə mülklərdən gəlirləri özlərində saxladılar*" [91, s. 243–244].

Azərbaycan xanlıqlarının Rusiyaya birləşdirilməsindən sonra cinayət işləri üzrə hüquqi yardım məsələləri əsasən Rusiya İmperiyasının qanunları ilə tənzimlənirdi, Rusiyanın müqavilələri Azərbaycana da şamil edilirdi. XVIII əsrin Rusiya qanunvericiliyində dövlətlər arasında cinayət işlərində hüquqi yardım haqqında xüsusi normalar var idi.

Rusiya ilə Çin arasında 1858-ci il Traktatın qarşılıqlı münasibətlərin müəyyən edilməsi haqqında 7-ci maddəsi, Azərbaycanla Rusiya arasında bağlanılan müqavilələrdən fərqli olaraq, birtərəfli xarakter daşımırdı, Çin təbəələrinə də tətbiq olunurdu, yəni, təbəənin aid olduğu dövlətin qanunları üzrə və öz ölkəsində cəzalandırılması göstərilirdi: "*Ruslar... Rusiya qanunlarına görə mühakimə olunurdu. Çin təbəələri... öz dövlətlərinin qərarları ilə məhkəməyə verilirdi və cəzalandırılırdı...*" [353].

Rusiyanın 1864-cü il Məhkəmə nizamnamələrində əcnəbilərə, diplomatlara və s. münasibətdə məhkəmə aidiyyatı ilə bağlı yurisdiksiya məsələləri tənzim edilirdi. Məhkəmə nizamnamələrinin 228-ci maddəsi "*xarici dövlətlə bağlanmış müqavilədə bu qaydalardan istisna olmadığı təqdirdə məhkəmə aidiyyatının ümumi qaydalarının tətbiq olunmasını*" müəyyən edirdi. Nizamnamələrin 229-cu maddəsi diplomatik toxunulmazlığı olan şəxslərlə bağlı işlərin "*yalnız təqsirləndirilən şəxslərin birbaşa rəisləri ilə lazımi diplomatik münasibətlər əsasında başlanmalı olduğunu*" müəyyən edirdi [344, s. 107]. Daha sonra məhkəmə aidiyyatı ilə bağlı məsələlərə də aydınlıq gətirilirdi və aidiyyat cinayət işlərinin vacibliyi ilə əlaqələndirilirdi, xaricdə yaşayan şəxsin xarici dildə nəşr olunan xəbərlər vasitəsilə məhkəməyə çağırılması nəzərdə tutulurdu. Fikrimizcə, əslində bəzi istisnalarla belə məlumatlandırmanın günümüzdə də tətbiqi mümkündür.

Rusiya Məhkəmə qanunları müəssisəsində "hüquqi yardım" ifadəsindən istifadə olunmur, ancaq əlaqələrdən danışılır, əlaqələrin diplomatik yolla, ədliyyə və xarici işlər nazirlikləri vasitəsilə qurulması nəzərdə tutulur. Müəssisənin 190-cı maddəsi ilə müəyyən edilmiş ümumi qaydaya görə, "*İmperiyanın məhkəmələri və vəzifəli şəxslərinin xarici dövlətlərin məhkəmə və digər orqanları ilə əlaqələri diplomatik yolla, ədliyyə və xarici işlər nazirləri vasitəsilə həyata keçirilməli idi, lakin bu, hər zaman müvafiq dövlət orqanlarının səmərəli fəaliyyəti üçün optimal variant deyildi*" [375]. Əslində qeyd olunan vasitələrin optimallığı ümumi qaydada göstərilir, ancaq qeyd olunan vasitələrdən kənara çıxılması nəzərdə tutulmur. Belə başa düşmək olar ki, göstərilən üç variant arasında optimal variantın seçilməsindən söhbət gedir.

Rusiyanın əlavələri olan yeni Cinayət Məcəlləsinin ikinci bölməsində Məcəllənin məkana görə qüvvəsi, cinayətkarların verilməsi məsələləri və s. tənzim olunurdu. Məsələn, Məcəllənin 13-cü maddəsi müəyyən edirdi ki, "*Rusiyadan kənarda ağır cinayət və ya cinayət*

törətmiş əcnəbi... təhvil verilməni tələb edən dövlətlə razılaşmaya və ya bu vəziyyətlə əlaqədar olaraq dövlətlə müəyyən edilən münasibətlərə uyğun olaraq ekstradisiya edilməlidir" [277, s. 14].

Artıq XIX əsrdə Rusiyada cinayətkarların verilməsi məsələlərini daha ətraflı tənzimləyən xüsusi "Xarici dövlətlərin tələblərinə uyğun olaraq cinayətkarların verilməsi haqqında" 1911-ci il Qanunu qəbul edilmişdi və yeni ekstradisiya müqavilələri bu Qanuna uyğun olmalı idi. Qanunda ekstradisiya olunan şəxsin cəzasının hədləri ilə bağlı məsələlər də nəzərdə tutulmuşdu. Qanunun 8526-cı maddəsinə əsasən, "*ekstradisiya məsələləri Ədliyyə Nazirliyinin səlahiyyətinə*" aid idi. "*Həbsdən aşağı olmayan cəzalar nəzərdə tutulan ən əhəmiyyətli cinayət əməlləri üzrə ekstradisiyaya icazə verilirdi*" [338, s. 139].

Dövlətlər arasında hüquqi yardım ticarət münasibətlərinin bir hissəsi olaraq formalaşmış, əsasən mülki hüquq məsələlərini tənzimləmişdir. Lakin dövlətlərin ticarət müqavilələrində cinayət işləri və cinayət icraatı ilə bağlı hüquqi yardımın bəzi aspektlərinə də rast gəlmək olur. XIX əsrə qədər dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım yalnız cinayətkarların verilməsi məsələlərində qarşılıqlı əlaqə və hüquqi yardım göstərilməsinin bəzi cinayət-prosessual aspektləri ilə məhdudlaşırdı. Hüquqi yardım göstərilməsinin prosessual məsələləri digər dövlətlərin vətəndaşlarına qarşı açılan cinayət işlərinin məhkəmə aidiyyatı, xarici dövlətin nümayəndəsinin cinayət prosesində iştirakı və s. ilə bağlı idi.

Cəmi iyirmi üç ay mövcud olmasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti demokratik qanunvericiliyin inkişafında mühüm rol oynadı və ayrı-ayrı institutların qanunvericiliklə tənzimlənməsi üçün presedentlər yaratdı. Azərbaycan Xalq Cümhuriyyətinin qanunvericilik aktlarının təhlili göstərir ki, dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardımla bağlı xüsusi aktlar olmamışdır. Lakin, "Əvvəllər qüvvədə olmuş qanunların müvəqqəti qüvvədə saxlanılması haqqında" Qərara əsasən, "*hazırda bütün idarəçilik*

sahələrində və məhkəmələrdə qüvvədə olan bütün qanunlar qanunla müəyyən edilmiş qaydada hökumət tərəfindən ləğv olunana və ya dəyişdirilənə qədər qüvvədə saxlanılırdı" [124, s. 193]. Bu qayda keçid dövründə olan bütün dövlətlər üçün xarakterik olan hüquqi tənzimləmə üsuludur. Bundan başqa, Sovetlər dövründə hüquqi yardım sahəsini tənzimləyən qanunvericlik bir sıra sovet ideologiyasına xas olan əlamətlərinə, müttəfiq respublikalara münasibətdə tətbiqinin formal xarakterinə baxmayaraq, mahiyyətcə tətbiq edildikdə müəyyən dərəcədə mütərəqqi hesab edilə bilərdi. Buna görə də, dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım məsələləri Rusiya İmperiyasının yuxarıda qeyd olunan qanunvericilik aktları ilə tənzimlənirdi.

1920-ci ildə Azərbaycan SSRİ-nin tərkibinə daxil olduqdan sonra Azərbaycan SSR qanunvericiliyi ittifaq qanunvericiliyinə uyğun olmalı idi. SSRİ Konstitusiyaları (1924 və 1936) SSRİ-nin beynəlxalq münasibətlərdə təmsil olunması, SSRİ-nin digər dövlətlərlə müqavilələrinin bağlanması, ratifikasiyası və ləğv edilməsi, müttəfiq respublikaların xarici dövlətlərlə münasibətlərində ümumi qaydanın müəyyən edilməsi kimi məsələləri SSRİ-nin ən yüksək dövlət hakimiyyəti və idarəçilik orqanlarının səlahiyyətinə aid edirdi. Bu müddəadan çıxış edərək, beynəlxalq hüquqi yardım göstərilməsi məsələləri də SSRİ-nin yurisdiksiyasına aid idi. SSRİ-nin çoxtərəfli və ikitərəfli müqavilələrinin təhlili göstərir ki, SSRİ-nin ideoloji mülahizələri ilə diktə edilən cəmiyyətin qapalı təbiəti və dövlətlərarası münasibətlərin xüsusi xarakteri səbəbindən cinayət işləri üzrə hüquqi yardım göstərilməsi ilə bağlı heç bir müqavilə bağlanmamışdır.

SSRİ-nin 1924-cü il Konstitusiyasının I fəsilində "SSRİ-nin ali hakimiyyət orqanlarının səlahiyyətlərinin predmetləri" və "SSRİ-nin yaranması haqqında" 1922-ci il müqaviləsi ilə məhkəmə quruculuğunun və ədalət mühakiməsinin, həmçinin mülki və cinayət

qanunvericiliyinin əsaslarının müəyyən edilməsi SSRİ-nin ali orqanlarının səlahiyyətinə aid edilmişdi.

1924-cü il "SSRİ və müttəfiq respublikaların cinayət mühakimə icraatının əsasları" cinayət işləri üzrə müəyyən prosessual hərəkətlərin həyata keçirilməsini və cinayətkarların verilməsini tənzimləyirdi. Belə ki, Əsasların 16-cı maddəsinə uyğun olaraq, cinayət işləri üzrə müəyyən prosessual hərəkətlərin həyata keçirilməsi zəruri olduqda, məhkəmə müəssisələri xarici ölkələrin müvafiq məhkəmə və ya inzibati orqanları ilə Xarici İşlər Xalq Komissarlığı vasitəsi ilə əlaqə saxlayırdılar. Prosessual hərəkətlər etmək üçün tapşırıq yalnız Xarici İşlər Xalq Komissarlığı vasitəsilə verilirdi. SSRİ-nin "Məhkəmə quruculuğu" haqqında 1938-ci il tarixli Qanunu dövlətlər arasında hüquqi yardım məsələlərinə toxunmadı.

Azərbaycan Respublikasının ilk CPM-si 21 iyul 1923-cü ildə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi tərəfindən təsdiq edilmiş və dərc edildiyi andan qüvvəyə minmişdir. CPM-də hüquqi yardım göstərilməsi ilə bağlı müddəalar yoxdur. 1 fevral 1944-cü il tarixli Qanunla SSRİ Konstitusiyasına dəyişikliklər edildikdən sonra, 8-a maddəsinə uyğun olaraq, "*hər bir müttəfiq respublikanın xarici dövlətlərlə birbaşa əlaqələr qurmaq, onlarla müqavilələr bağlamaq, diplomatik və konsulluq nümayəndələri mübadiləsi etmək hüququ vardı. Lakin bu hüquq formal xarakter daşıyırdı. Azərbaycan SSR əslində beynəlxalq münasibətlərdə müstəqil olaraq və SSRİ-nin mərkəzi orqanları vasitəsi ilə iştirak etmirdi, SSRİ-nin mərkəzi orqanlarının rəhbərliyi və nəzarəti altında xarici dövlətlərin ayrı-ayrı tapşırıqlarını yerinə yetirirdi*" [188].

İkinci Dünya Müharibəsindən sonra SSRİ sosialist düşərgəsindəki dövlətlərlə və digər dövlətlərlə, o cümlədən hüquqi yardım sahəsində fəal əməkdaşlığa başladı.

"SSRİ və müttəfiq respublikalarının cinayət mühakimə icraatının əsasları" (1958) cinayət işləri üzrə hüquqi yardım göstərilməsini nəzərdə tutmurdu.

Azərbaycan Respublikasında hüquqi yardım göstərilməsi ilə bağlı qanunvericiliyin olmaması 1983-cü ilədək mövcud oldu. Hətta Azərbaycan SSR-nin 8 dekabr 1960-cı il tarixli ikinci CPM-də də hüquqi yardım göstərilməsini tənzimləyən müddəalar yox idi. Yalnız 30 sentyabr 1983-cü il tarixli Fərmanla CPM-ə müttəfiq respublikalar arasında hüquqi yardım məsələlərinə həsr olunmuş 23-1 və xarici dövlətlərin müvafiq qurumları ilə hüquqi yardımla bağlı əlaqələrin qurulması qaydasını tənzim edən 23-2-ci maddələr daxil edilmişdi.

SSRİ hökuməti hüquqi yardım haqqında beynəlxalq müqavilələrinin icra edilməsini təmin etmək üçün SSRİ Ali Sovetinin Rəyasət Heyətinin 1988-ci il xüsusi qərarı ilə müqavilə bağlayan dövlətlərin müvafiq orqanları ilə hüquqi yardım göstərilməsi üzrə ünsiyyət orqanlarına Ədliyyə Nazirliyi, Ali Məhkəmə, Prokurorluq, Xarici İşlər Nazirliyi aid edilmişdi.

SSRİ Ali Məhkəməsinin Plenumu məhkəmələr tərəfindən hüquqi yardım göstərilməsi ilə əlaqədar xarici dövlətlərlə bağlanmış müqavilələrin yerinə yetirilməsi məsələlərini üç dəfə müzakirə etmişdir (19 iyun 1959-cu il tarixli 2 №-li qərar; 30 may 1967-ci il tarixli 5 №-li qərar; 11 iyul 1972-ci il tarixli 6 №-li qərar).

Ali Məhkəmənin 19 iyun 1959-cu il tarixli Plenumunun 2 nömrəli qərarında izah edildi ki, SSRİ ilə hüquqi yardım haqqında müqavilələr bağlamış dövlətlərin vətəndaşları və hüquqi şəxsləri, şəxsi və mülkiyyət hüquqları ilə əlaqədar olaraq, SSRİ ərazisində vətəndaşlar və hüquqi şəxslər ilə eyni hüquqi müdafiədən istifadə edirlər, Sovet məhkəmələrinə sovet vətəndaşları və hüquqi şəxsləri ilə eyni qaydada sərbəst və maneəsiz müraciət etmək hüququna malikdirlər. Bu dövlətlərin öz vətəndaşları və hüquqi şəxsləri olaraq və bu dövlətlərin vətəndaşları ilə eyni şərtlərlə sərbəst və maneəsiz olaraq bu dövlətlərin məhkəmələrinə müraciət edə bilərlər. Lazım gələrsə, sovet məhkəmələri hüquqi yardım göstərilməsi (sənədlərin verilməsi, təqsirləndirilənlərin, şahidlərin, ekspertlərin

dindirilməsi, tərəflərin dindirilməsi və s.) ilə bağlı xarici dövlətlərin məhkəmələrinə müraciət edə bilərlər. Xarici dövlətlərin məhkəmələrinin tapşırıqlarını yerinə yetirərkən sovet prosessual qanunvericiliyi tətbiq olunurdu. Bununla birlikdə, tapşırığı göndərən qurumun tələbi ilə, sovet qanunvericiliyinə zidd olmadığı təqdirdə, müvafiq xarici dövlətin prosessual qanunvericiliyi tətbiq oluna bilərdi və bu məsələ SSRİ Ali Məhkəməsi tərəfindən həll olunurdu.

Sovet İttifaqı xarici dövlətlərlə hüquqi yardımla bağlı 40-dan çox müqavilə bağlamışdır [324].

SSRİ və Albaniya Xalq Respublikası arasında 1958-ci il "Mülki, ailə-nikah və cinayət işləri üzrə hüquqi yardım göstərilməsi haqqında" müqavilənin 4-cü maddəsi hüquqi yardımın həcmini müəyyənləşdirir: "*...sənədlərin tərtib edilməsi və göndərilməsi, axtarışların aparılması, maddi sübutların götürülməsi, göndərilməsi və verilməsi, ekspertizanın aparılması, təqsirləndirilən şəxslərin, şahidlərin, ekspertlərin dindirilməsi, tərəflərin və digər şəxslərin sorğulanması, bilavasitə məhkəmə baxışının keçirilməsi, habelə sənədlərin təqdim edilməsi ilə*". Ekstradisiyanın şərtləri, cinayət təqibinə başlamaq öhdəliyi və s. nəzərdə tutulurdu [177].

SSRİ ilə Macarıstan arasında 1958-ci il, Koreya Xalq Demokratik Respublikası arasında 1957-ci il, Rumıniya Xalq Respublikası arasında 1958-ci il, Finlandiya Respublikası arasında 1978-ci il, İraq Respublikası arasında 1973-cü il tarixli hüquqi yardım müqavilələri oxşar müddəaları özündə ehtiva edirdi.

Dövlətlər arasında hüquqi yardım göstərilməsinin Sovet dövrü keçən əsrin səksəninci illərinə qədər qanunvericiliklə yalnız SSRİ-nin mərkəzi orqanlarının səlahiyyətlərinə aid olması ilə xarakterizə olunur və daimi konvensiya və müqavilə xarakteri daşıyırdı. Azərbaycan Respublikası da daxil olmaqla müttəfiq respublikaların 1944-cü ildə beynəlxalq müqavilələr bağlamaq imkanının tanınmasından və qanunvericilikdə möhkəmləndirilməsindən sonra da

müttəfiq respublikalar tərəfindən hüquqi yardım göstərilməsi formal xarakter daşıyırdı.

Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra qanunvericiliyin təkmilləşdirilməsi üçün geniş proseslərə başladı. Qısa müddət ərzində müasir tələblərə, o cümlədən suverenlik prinsiplərinə cavab verən qanunvericilik aktları, o cümlədən CPM və digər qanunlar qəbul edildi. Qüvvədə olan CPM-nin LVII fəslinin 488.2-ci maddəsi müəyyən edir ki, digər dövlətlə bağlanılmış xüsusi müqavilə olmadıqda, CPM və 2001-ci il tarixli Qanunun müddəaları tətbiq olunur. Azərbaycan Respublikası dövlətlər arasında hüquqi yardım göstərilməsinə dair əsas beynəlxalq konvensiyalara qoşulmuşdur. Azərbaycan cinayət işləri üzrə hüquqi yardım göstərilməsi və hüquqi yardım göstərilməsi ilə bağlı digər məsələlər üzrə on bir dövlətlə ikitərəfli müqavilələr bağlamışdır [5, s.7-274].

Cinayət işləri üzrə dövlətlər arasında hüquqi yardımın tarixinə dair aparılan araşdırmanın nəticələrini təhlil edərək aşağıdakı dövrləri ayırmaq olar:

1. Cinayət işləri üzrə hüquqi yardım sahəsində dövlətlərarası münasibətlərin qədim dövrü və orta əsrlər – Manna, Midia, Qafqaz Albaniyası dövlətlərindən islamlaşmadan əvvələ qədər olan dövr. Hüquqi yardım sahəsində münasibətlərin demək olar ki, tamamilə olmaması ilə xarakterizə olunur; bu münasibətlərdə əsasən cinayətkarların ekstradisiyası ilə bağlı hallara rast gəlmək olar.

2. Qaraqoyunlu, sonra Ağqoyunlu dövlətləri dövrü – cinayət işlərində hüquqi yardım məsələlərinin diplomatik həlli ilə xarakterizə olunan diplomatik əlaqələrin qurulması xarakterikdir.

3. Şirvanşahlar, Səfəvilər dövlətlərindən 1747-ci ildə Nadir Şahın öldürülməsinədək olan dövr – dövlətçilik və dövlətlərarası münasibətlərin möhkəmlənməsi dövrü. Cinayət işləri üzrə hüquqi yardım məsələlərinin danışıqlar yolu ilə həlli ilə xarakterizə olunur.

Dostluq, sülh və təslim müqavilələrində, ticarət müqavilələrində cinayət işlərinin aidiyyatı, cinayətkarların verilməsi və bəzi prosedur məsələləri ilə bağlı normalar var idi.

4. Xanlıqlar dövrü: Qarabağ, Şəki, Şirvan, Bakı, Gəncə, Quba, Naxçıvan, Talış, İrəvan xanlıqları dövrü, XVIII əsrin əvvəllərində Rusiyaya birləşməzdən əvvəl olan dövrü əhatə edir, yerli hökmdarların və ticarət əlaqələrinin güclənməsi ilə xarakterizə olunur. Hüquqi yardım birdəfəlik xarakter daşıyırdı və ekstradisiya məsələlərini əhatə edirdi.

5. Xanlıqların 1917-ci ilə qədər Rusiyaya birləşdirilməsi dövrü – Rusiya İmperiyası qanunvericiliyinin təkmilləşdirilməsi, mülki və cinayət hüququ sahəsində müqavilələrin bağlanması, həm mülki, həm də cinayət hüququ sahəsində çoxlu sayda xüsusi traktatların bağlanması ilə xarakterizə olunur. Bu dövr hüquqi yardımın epizodik halları ilə xarakterizə olunur və məhdud xarakter daşıyırdı.

6. 1918-ci ildən SSRİ-nin yaranmasına qədər olan Azərbaycan Xalq Cümhuriyyəti dövrü – digər dövlətlərlə dostluq, əməkdaşlıq və sülh haqqında müqavilələr bağlanır, demokratik təsisatlar inkişaf edir, qanunvericilik aktları qəbul edilir. Ancaq cəmi 23 ay fəaliyyət göstərdiyindən Cümhuriyyət ikitərəfli müqavilələr bağlayaraq hüquqi yardım göstərmək üçün lazımi qanunvericilik aktlarını hazırlaya və fəaliyyətini genişləndirə bilmədi. Bu dövrdə 23 iyun 1918-ci il tarixli 155 saylı qərara əsasən, idarəçilik və məhkəmə sahəsində mövcud olan qanunvericilik aktları yeniləri ilə əvəz olunana qədər qüvvədə saxlanılmışdır. Buna görə də, dövlətlər arasında cinayət işlərində hüquqi yardım məsələləri Rusiya İmperiyasının qanunvericilik aktları ilə tənzimlənirdi.

7. 1991-ci ildə müstəqilliyin elan edilməsindən əvvəlki sovet dövrü – hüquqi yardımın SSRİ-nin mərkəzi orqanlarının səlahiyyətinə aid olması ilə xarakterizə olunur. Azərbaycan SSR də daxil olmaqla, müttəfiq respublikaların müvafiq orqanları xarici ölkələrin

məhkəmə sorğularını mərkəzi orqanların nəzarəti altında yerinə yetirirdilər. Müttəfiq respublikaların 1944-cü ildə dövlətlərarası münasibətlərdə iştirak etmək imkanı əldə etməsinə baxmayaraq, bu fəaliyyət keçən əsrin 80-ci illərinə qədər fraqmentar xarakter daşıyırdı. 1980-ci illər daxili qanunvericilikdə hüquqi yardım göstərilməsinin qanunvericilik konsolidasiyası ilə xarakterizə olunur, lakin yenə də aktiv və müstəqil fəaliyyətdən danışmaq olmaz; xarici dövlətlərin məhkəmə sorğuları SSRİ-nin mərkəzi orqanlarının nəzarəti və rəhbərliyi altında həyata keçirilirdi.

8. Müstəqil Azərbaycan dövrü – dövlətlərarası münasibətlərin, cinayət işləri üzrə hüquqi yardım sahəsində qanunvericiliyin inkişafı, çoxtərəfli müqavilələrə qoşulma, cinayət işləri üzrə hüquqi yardım haqqında ikitərəfli müqavilələrin bağlanması ilə xarakterizə olunur.

1.2. Qurani-Kərimdə və Peyğəmbərin müqavilə təcrübəsində dövlətlər arasında qarşılıqlı hüquqi yardım məsələləri

Dövlətlər tarixin müxtəlif dövrlərində dövlətlərarası münasibətləri, o cümlədən cinayət işlərində hüquqi yardımı asanlaşdıran dini, linqvistik, ailə münasibətləri və s. birləşdirmişlər. Əksər dövlətlərin dünyəvi olmasına baxmayaraq, dini normaların dövlətlərarası münasibətlərə, o cümlədən dövlətlər arasında hüquqi yardımın göstərilməsi sahəsində əməkdaşlığa təsiri danılmazdır. Qurani-Kərimin müddəaları müsəlmanların bütün həyatını, eləcə də dövlət fəaliyyətini və dövlətlərarası münasibətləri əhatə edir. Qurani-Kərimdə yardım aydın şəkildə ifadə edilmiş və geniş tətbiq olunan müddəalardan biridir və qarşılıqlı hüquqi yardımın göstərilməsi baxımından da tətbiq edilir. İnteqrasiya prosesləri və cinayətkarlığın beynəlmiləlləşməsi cinayət işləri üzrə hüquqi yardımın göstərilməsində yeni problemlər yaradır ki, bu da tarixi təcrübə nəzərə alınmaqla, bu institutun daha da təkmilləşdirilməsini və inkişafını tələb

edir. Cinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlıq aspektində Qurani-Kərimin müddəalarının, Hədislərin və Məhəmməd Peyğəmbərin müqavilə təcrübəsinin təhlili cinayət işləri üzrə dövlətlər arasında hüquqi yardım göstərilməsi institutunun inkişafında islam hüququnun rolunu daha aydın göstərir.

Siyasət və din bir-biri ilə əlaqəli anlayışlardır və bu qarşılıqlı təsir, dinin siyasi əhəmiyyəti tarixi inkişafda tam siyasiləşmədən formal təcridə qədər dəyişikliklərə məruz qalmış və qeyri-sabitliyi ilə xarakterizə olunur. Dinin dövlət siyasətinə təsiri bəşəriyyətin bütün inkişafı boyu müxtəlif aspektlərdə müşahidə edilir. Cinayətkarlıqla mübarizə və insan hüquqlarına hörmət bütün səmavi dinlərin ən yüksək dəyərləri və dindarların davranış normalarıdır. İslamın cinayətkarlıqla mübarizəyə münasibəti və dini inanclara hörməti bəllidir. İstənilən islam qaydasının əsas məqsədi ədalətli cəmiyyət qurmaqla, insanların bu dünyada və axirətdə rifahının qayğısına qalmaqdır. "*Allah sizin üçün çətinlik istəməz. O, sizin üçün asanlıq istəyər...*" (Qurani-Kərim, əl-Bəqərə 2:185).

İslam tarixi müxtəlif sahələrdə – əməkdaşlıq, təhlükəsizlik, ticarət və s. –, o cümlədən hüquqi yardım göstərilməsi sahəsində müxtəlif müqavilələrlə zəngindir. Dövlətlərarası səviyyədə hüquqi yardım göstərilməsi lap əvvəldən Qurani-Kərimin və islam hüququnun digər mənbələrinin müddəalarından qaynaqlanır. Buna görə də, hüquqi yardım institutunun Qurani-Kərimin müddəaları və islam hüququnun digər mənbələri aspektindən tədqiq edilməsi onun inkişafına kömək edə bilər.

İslam hüququnun müddəaları müsəlman dövlətlərində dövlətlərarası münasibətləri tənzimləyir və hətta din dövlətdən ayrıldıqdan sonra da islam dininin təsiri davam edir. Hüquqi yardım məsələlərinin hüquqi tənzimlənməsində islam hüququ öz izlərini qoymuşdur. Məsələn, Azərbaycanın tarixi ərazilərinin çoxsaylı ələ keçirilməsi və başqa dövlətlərə verilməsi faktları hüquqi yardım mə-

sələlərinin hüquqi tənzimlənməsinə də təsir göstərmişdir. Azərbaycanın islamlaşmasından sonra SSRİ-yə daxil olmasına qədər Azərbaycan hüququ demək olar ki, islam hüququ idi və dini müddəalar dövlətlərarası hüquqi yardım məsələlərini də tənzimləyirdi.

Qloballaşma və cinayətlərin transmilli xarakteri cinayətkarlıqla mübarizədə dövlətlərin ən geniş əməkdaşlığını tələb edir. Qurani-Kərim cinayətlərin qarşısının alınmasına və pozuntuların aradan qaldırılmasına kömək etməyi nəzərdə tutur. Qurani-Kərim dövlətlər və insanlar arasındakı yardımları fərqləndirmir, yardımı dini mənsubiyyətlə əlaqələndirmir, yardımın nəticəsiz qalmamasını təmin edir və əslində yardımı qarşılıqlı mövcudluğun şərti hesab edir. Yardımın ümumi şərtlərini belə bildirir: "*Əgər Allah insanlardan bir qisminin şərini digər bir qismi ilə dəf etməsəydi, içində Allahın adı çox-çox zikr olunan monastırlar, kilsələr, sinaqoqlar və məscidlər dağılıb gedərdi. Allah Özünə (dininə) yardım edənə mütləq yardım edər. Şübhəsiz ki, Allah çox güclüdür, yenilməz qüvvət sahibidir*" (Qurani-Kərim, əl-Həcc 22:40). "*Sizinlə vuruşanlara qarşı siz də Allah yolunda vuruşun və həddi aşmayın! Şübhəsiz ki, Allah həddi aşanları sevmir*" (Qurani-Kərim, əl-Bəqərə 2:190).

İslamın təməl prinsiplərindən biri əməkdaşlıqdır və bu əməkdaşlıq xalqlar, tayfalar arasında nəzərdə tutulur: "*Ey insanlar! Şübhəsiz, Biz sizin hamınızı bir kişi və qadından (Adəm ilə Həvvadan) yaratdıq (və ya sizin hər birinizi bir ata və anadan yaratdıq) və sizi bir-birinizi tanıyasınız deyə böyük və kiçik qəbilələr etdik (Odur ki, sizin aranızda irqi üstünlük yoxdur). Həqiqətən, sizin Allah yanında ən hörmətliniz sizin ən pəhrizkarınızdır. Həqiqətən, Allah çox bilən və xəbərdardır!*" (Qurani-Kərim, əl-Hucurat 49:13).

Əməkdaşlıq dövlətlərarası müqavilələrin yerinə yetirilməsini də əhatə edir. Qurani-Kərim vədlərin və razılaşmaların məcburi şəkildə yerinə yetirilməsini nəzərdə tutur: "*Və əhd-peymanınıza (istər Allahın sizlə olan əhd-peymanı olsun, istər sizin Allahla olan əhd-*

peymanınız, yaxud sizin özünüzün bir-birinizlə olan əhd-peymanınız) vəfa edin. Həqiqətən, (Qiyamət günü) peymandan soruşulacaqdır (peyman sahibindən, ya canlandırılaraq peymanın özündən soruşacaqlar)!" (Qurani-Kərim, əl-Isra, 17:34), "*Allahla əhd-peyman bağladığınız zaman öz peymanınıza vəfalı olun və öz andlarınızı onları möhkəmlətdikdən sonra (Allahın adını çəkərək) pozmayın. Şübhəsiz, Allah etdiklərinizi bilir*!" (Qurani-Kərim, ən-Həhl 16:91).

Məhəmməd Peyğəmbərin fəaliyyəti qarşılıqlı yardımın ən gözəl nümunəsidir. O, xahiş edənləri heç vaxt rədd etməz və özü də ehtiyacı olanlara kömək etməyə çağırardı. Hədisdə xəbər verilir: *"(Bir dəfə) Peyğəmbərlə yolumuza gedərkən, dəvəsinə minmiş bir kişi yanımıza gəldi və sağa-sola baxmağa başladı. (Bunu görüb) Rəsulullah buyurdu: "Əlavə minik heyvanı olan, olmayana versin; və kimin əlavə ehtiyatı varsa, onu olmayana versin", və o, mülkün növlərindən bizdən heç kimin əlavə bir şeyə malik olmalı olmayacağımızı anlayana qədər yada saldıqlarını qeyd etdi (onları sadaladı)*" (Sahih Muslim, 1722a) [543].

Müsəlmanlar bir-birinə yalnız xeyirxah işlərdə kömək etməlidirlər. Cinayətkarlıqla mübarizə Qurani-Kərimdə də yaxşı əməllərdən sayılır. Uca Allah buyurur: "*Yaxşılıq və təqvada (günahlardan çəkinməkdə) yardımlaşın! Günah və düşmənçilikdə isə yardımlaşmayın! Allahdan qorxun! Həqiqətən, Allahın cəzası şiddətlidir*" (Qurani-Kərim, əl-Maidə 5:2). "*Şübhəsiz ki, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara haqqını verməyi əmr edir, əxlaqsızlığı, pisliyi və haqsızlığı isə qadağan edir! O, düşünüb ibrət alasınız deyə sizə öyüd verir*" (Qurani-Kərim, ən-Nəhl 16:90).

İslamda rifaha nail olmaq üçün həyatın, dinin, ağlasığanlığın, nəsilin və malın qorunması təmin edilir. Bu əsas obyektlərin müdafiəsi məqsədilə islam hüququ müxtəlif cəzalar müəyyən etmişdir: həyatın qorunması üçün əvəz (diyə), dini qorumaq üçün Allahdan dönməyə görə cəza, ağlasığanlığı qorumaq üçün sərxoşluğa

görə cəza, nəsil və şəcərəni qorumaq üçün zinaya görə cəza, malmülkü qorumaq üçün isə oğurluğa görə cəza kimi tədbirlər nəzərdə tutulmuşdur.

İslam hüququ insanların rifahına nail olmaq məqsədi daşıyır: "*Şübhəsiz ki, Biz peyğəmbərlərimizi açıq-aydın dəlillərlə göndərdik. İnsanlar ədalətə riayət etsinlər deyə onlarla birlikdə kitab və mizanı (tərəzini) nazil etdik. İnsanlar üçün bir çox faydası olan möhkəm dəmiri də Biz nazil etdik. Bu, Allahın görmədiyi halda Ona və peyğəmbərlərinə yardım edənləri bilib ayırd etməsi üçündür. Şübhəsiz ki, Allah güclüdür, qüdrətlidir*." (Qurani-Kərim, əl-Hədid 57:25). "*Allah (bilmədiklərinizi) sizə açıqlamaq, sizdən əvvəlkilərin getdiyi (yaxşı) yolları sizə göstərmək və sizin tövbələrinizi qəbul etmək istəyir. Allah hər şeyi biləndir, hikmət sahibidir. Allah tövbələrinizi qəbul etmək istəyir. (Nəfsani) arzularına uyanlar isə sizin böyük bir əyriliyə (əyri yola) meyil etməyinizi istəyirlər. Allah sizin yükünüzü yüngülləşdirmək istəyir. Axı, insan zəif olaraq yaradılmışdır.*" (Qurani-Kərim, ən-Nisa 4:26-28).

İnsanların rifahına nail olunmasının vasitələrindən biri də cinayətkarlıqla mübarizədir. Cinayətkarlıqla mübarizə İslam hüququnun əsas məqsədlərindən biridir və bu, xeyirxah iş sayılır. Buna görə də, xeyirxah işlərdə əməkdaşlıq və köməklik dövlətlər arasında hüquqi yardıma da aid edilir. İslam mövcud müqavilələri pozan müsəlmanlardan dəstək istəyənlərə kömək etməyi qadağan edir. Allah buyurur: "*...Əgər onlar din mövzusunda sizdən yardım istəsələr, sizinlə müqaviləsi olan bir tayfa əleyhinə olmaması şərtilə, onlara yardım etmək sizin borcunuzdur...*" (Qurani-Kərim, əl-Əhfal 8:72).

Qurani-Kərimdə və Peyğəmbərin Sünnəsində İslamda qarşılıqlı yardım və qardaşlığın böyük əhəmiyyəti vurğulanır. İslam, digər xalqlarla münasibətlərdə qarşılıqlılıq prinsipi ilə hərəkət edir. Qardaşlıq İslamın təməl prinsiplərindən biridir və tarix boyu müsəl-

manlar arasında olduğu kimi, İslam dövlətlərinin ərazisində yaşayan digər xalqlarla münasibətlərdə də fərq qoymadan tətbiq edilmişdir. Çünki İslam məxluqatın və Yaradanın vəhdətinə, bəşər övladının nəsil birliyinə və insanların sarsılmaz qardaşlığına əsaslanır. Allah-Təala yaradandır, insanlar isə Onun məxluqlarıdır. Allahın iradəsinin hikməti ilə insanlar fərqli yaradılmışdır. Allah buyurur: "*İnsanlar tək bir ümmət idi. Allah müjdə verən və xəbərdarlıq edən peyğəmbərlər göndərdi. Onlarla birlikdə haqq olaraq kitabı da nazil etdi ki, ixtilafa düşdükləri məsələlərdə insanlar arasında hökm versin. Özlərinə açıq-aşkar dəlillər gəldikdən sonra aralarındakı kin ucbatından ixtilafa düşənlər kitab verilənlərdən başqası deyildi. Allah Öz izni ilə iman gətirənləri, onların (əhli-kitabın) ixtilafda olduqları həqiqətə yönəltdi. Allah dilədiyi kimsəni doğru yola yönəldər!*" (Qurani-Kərim, əl-Bəqərə 2:213).

Qarşılıqlılıq prinsipi qədim dövrlərdən etibarən müxtəlif fəlsəfi təlimlərdə əks olunmuşdur. Bu prinsip Konfutsinin fəlsəfəsində belə ifadə olunur: "*Özünüz üçün istəmədiyinizi başqalarına da etməyin*" [439]. Aristotelin məşhur kəlamında isə bu fikir belə səslənir: "*Dostlarımızın bizə qarşı necə davranmasını istəyiriksə, biz də dostlarımıza elə davranmalıyıq*" [412].

Qurani-Kərim müsəlmanlarla digər səmavi dinlərin nümayəndələri (yəhudilər, xristianlar və s.) arasındakı münasibətləri də tənzimləyir. İki ayədə digər dinlərə mənsub şəxslərlə tolerant münasibət və dinc yanaşı yaşama prinsipi bəyan edilmişdir. Belə ki, Qurani-Kərimdə buyurulur: "*Allah sizinlə din uğrunda vuruşmayan və sizi yurdunuzdan çıxartmayan şəxslərə yaxşılıq etməyinizi və onlara qarşı ədalətlə davranmağınızı qadağan etmir. Həqiqətən, Allah ədalətli olanları sevir!*" (Qurani-Kərim, əl-Mumtəhənə, 60:8). Digər ayədə isə bildirilir: "*Allah yalnız sizinlə din uğrunda vuruşanları, sizi yurdunuzdan çıxardanları və sizi çıxartmağa yardım edənləri özünüzə dost tutmağınızı qadağan edir. Kim onları özünə dost tutarsa, məhz onlar zalımlardır.*"(Qurani-Kərim, əl-Mumtəhənə, 60:9).

A.V.Petrovski yazır ki "*... Şəriət aşağıdakı üç kateqoriyanı fərqləndirir: 1) müsəlmanlar – İslam dövlətinin əhalisinin İslama etiqad edən bir hissəsidir, onlara münasibətdə cinayət qanunu tam şəkildə tətbiq edilməlidir; 2) Əhli-Zimmə – müsəlman dövlətində daimi yaşayan, can vergisi (ciziyə) ödəyən və bunun üçün müsəlmanlardan xarici düşmənlərdən müdafiə (zimmə) və müsəlmanlarla bərabər əsasda şəxsiyyət və mülk toxunulmazlığına zəmanət alan digər dinlərə inananlardır (xristianlar, yəhudilər); 3) harbi - İslam dövlətinin ərazisində olarkən şəxsi və əmlak toxunulmazlığına yalnız hakimiyyət orqanlarının icazəsi ilə təminat verilən düşmən dövlətə mənsub olan digər dinlərə inanan şəxslərdir...müsəlmanı sübuta yetirilməmiş qəzf zinasında ittiham istisna olmaqla, hüdud kateqoriyasındakı cinayətlərin törədilməsinə görə məsuliyyət əhl-zimmə və harbilərə şamil edilmir*" [285, s.25-26].

Qurani-Kərimin "*...Şübhəsiz ki, möminlər qardaşdırlar...*" (əl-Hucurat, 49:10) və "*...Onun neməti sayəsində qardaş oldunuz...*" (Ali İmran, 3:103) kimi ayələri – yəni qardaşlıq, qarşılıqlı yardım və dəstək barədə müddəalar – dövlətlərarası münasibətlərə də aiddir.

Qurani-Kərim, həmçinin xalqlar, icmalar və dövlətlər arasında bağlanmış müqavilələrin, o cümlədən qarşılıqlı hüquqi yardım haqqında razılaşmaların yerinə yetirilməsini də nəzərdə tutur: "*Bir tayfa digər tayfadan (say və güc baxımından) daha çox olduğu üçün andlarınızı aranızda fitnə vasitəsinə çevirməyin! İpliyi möhkəm əyirdikdən sonra açıb sökən qadın kimi olmayın! Allah bununla sizi imtahan edir...*" (Qurani-Kərim, ən-Nəhl, 16:92). Ayənin məzmunundan da göründüyü kimi, burada təkcə müsəlmanlar deyil, müxtəlif tayfalar da nəzərdə tutulur.

Cənai Mehdi, Peyğəmbərlik missiyası dövründə bağlanılan müqavilələri beynəlxalq müqavilə hesab edir: "*...Ərəbistan yarımadasında siyasi birliyin mövcud olmadığı bir şəraitdə, erkən İslam dövründə tayfaların hər biri ayrı-ayrı siyasi vahid sayılırdı.*

Buna görə də bu tayfalar arasında bağlanan istənilən müqavilə beynəlxalq statusa malik hesab olunurdu" [321, s. 45–46].

Həzrəti Peyğəmbərin dövründə elçilik fəaliyyəti ilə bağlı məsələləri araşdıran Həsən ibn Məhəmməd Səfər, Peyğəmbərin dövründə beynəlxalq müqavilələrin bağlanmasını Şəriət tərəfindən icazə verilən maraqlarla əlaqələndirir: "*...Şəriət tərəfindən icazə verilən maraq islamı qəbul etmək, sülh yaratmaq, iqtisadi qarşılıqlı münasibətlərin qurulması, müsəlmanlara zərər vurulmasının qarşısının alınması, qonşularla əməkdaşlıq qurmaq təklifi ilə müraciət etmək ehtimalını ehtiva edirdi*" [379]. Şəriətlə icazə verilən maraqlar içərisində qonşularla əməkdaşlıq, təbii olaraq – tarixin də göstərdiyi kimi – qarşılıqlı hüquqi yardım sahəsini də əhatə edirdi. Belə ki, tayfalar siyasi qurum hesab olunduğundan, qonşularla əməkdaşlıq dövlətlərarası əməkdaşlıq kimi qiymətləndirilməlidir.

Qarşılıqlılıq prinsipi bütün ideologiyalar və dini cərəyanlar tərəfindən qəbul edilir və həm sülh, həm də müharibə dövründə tətbiq olunur. İslamda qarşılıqlılıq prinsipi daha çox cəzanın törədilmiş əmələ uyğun olması aspektində istifadə edilir. Şeyx Vahbeh əl-Zuhili islamda bu prinsipin tətbiqi ilə bağlı qeyd edir: "*...Bununla bağlı ən azı Qurani-Kərimin son dərəcə vacib olan bir ayəsini qeyd etmək lazımdır: 'Əgər cəzalandırsanız, onda sizə olunan haqsızlıq miqdarında cəzalandırın. Əgər səbr etsəniz, şübhəsiz ki, bu, səbr edənlər üçün daha xeyirlidir'*" [394, s. 55].

Müsəlman hüququ adam öldürməyə yalnız qanuni əsaslar mövcud olduqda icazə verir; bu hallar istisna olmaqla, hər hansı şəxsin həyatına qəsd cinayət hesab olunur və Allahın yaratdığı insana qarşı yönəlmiş ciddi hüquq pozuntusu kimi qiymətləndirilir. İslam hüququ, insanın müsəlman və ya mömin olmaması səbəbindən öldürülməsini qəti şəkildə qadağan edir. Qurani-Kərimdə bu barədə belə buyurulur: *"Ey iman gətirənlər! Allah yolunda (cihad etmək üçün) səfərə çıxdığınız zaman qarşılaşdığınız kimsənin (müsəlman olub-olmadığını) diqqətlə araşdırın. Sizə salam verən bir*

kimsəyə dünya həyatının müvəqqəti mənfəətini arzulayaraq: 'Sən mömin deyilsən!' – deməyin!" (Qurani-Kərim, ən-Nisa, 4:94). Bu ayə islamda günahsız insanların həyatına son qoymağın yalnız dini kimlik əsasında əsla əsaslandırıla bilməyəcəyini və diqqətli, ədalətli yanaşmanın vacibliyini vurğulayır.

Müsəlman hüququ adam öldürməyə yalnız qanuni səbəblərə görə icazə verir, əks halda bu cinayətdir, yəni Allahın yaratdığına qəsddir. Müsəlman hüququ insanları müsəlman olmadıqları, mömin olmadıqları üçün öldürməyi qadağan edir: "*Ey iman gətirənlər! Allah yolunda (cihad etmək üçün) səfərə çıxdığınız zaman (qarşılaşdığınız kimsənin müsəlman olub-olmadığını) yaxşıca araşdırın! Sizə salam verən bir kimsəyə, dünya həyatının müvəqqəti mənfəətini arzulayaraq: "Sən mömin deyilsən!"- deməyin!"* (Qurani-Kərim, ən-Nisa 4: 94).

Qurani-Kərim həmçinin sülh təklif edənlərin, təslim olanların da öldürülməsini qadağan edir: *"Əgər sizdən aralanıb bir tərəfə çəkilsələr və sizinlə vuruşmayıb sülh təklif etsələr, Allah sizə onlara qarşı bir yol izləmək (onlarla döyüşmək) haqqı verməz"* (Qurani-Kərim, ən-Nisa [4]:90). *"Əgər onlar sülhə yönəlsələr, sən də sülhə yönəl və Allaha təvəkkül et! Şübhəsiz ki, O eşidəndir, biləndir!"* (Qurani-Kərim, əl-Ənfal 8:61).

Allah İslamın tam qəbul edilməsini nəzərdə tutur. Bu isə o deməkdir ki, Onun bütün göstərişlərini yerinə yetirmək və qadağalarından çəkinmək lazımdır, onların bəzilərini yerinə yetirmək və seçim etmək hüququ verilmir: *"Ey iman gətirənlər, bütövlüklə İslama daxil olun (İslamın bütün əmrlərini yerinə yetirin)! Şeytanın addımlarını izləməyin! Şübhəsiz ki, o sizin açıq-aydın düşmənizdir!"* (Qurani-Kərim, əl-Bəqərə 2:208). İslamda yardım göstərilməsi nəzərdə tutulursa, ya göstərişlər, ya da qadağalar formasında buyurulmuşdursa, əməl olunmalıdır.

Yardım göstərilməsi ilə bağlı müddəalara Peyğəmbərin hədislərində də rast gəlinir. Abdullah ibn Ömər rəvayət edir: *"Allah Rəsulu buyurur: "Müsəlman müsəlmanın qardaşıdır, ona zülm etməz, ona xəyanət etməz və Allahın (müsəlman) qardaşının ehtiyacı olmayan bir kəsə ehtiyacı var. Kim bir müsəlmana çətinlikdə kömək edərsə, Allah da ona Qiyamət gününün bəlalarından birində kömək edər, və kim bir müsəlmanı gizlətsə, Allah da Qiyamət günü onu gizlədər."* (Sahih al-Bukhari 2442) [542].

Ənəsin sözlərindən rəvayət edirlər ki, Rəsulullah buyurmuşdur: *"Qardaşına istər zalım, istərsə də məzlum olmasından asılı olmayaraq kömək et". (İnsanlar) soruşdular: "Ya Rəsulullah, məzlumlara kömək etməyə başlasaq (doğru olar), bəs zalıma necə kömək edə bilərik?!" (Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Onun əllərindən tutaraq"* (Sahih al-Bukhari, 2444) [542]. Bu müddəa cinayətlərin qarşısının alınması və profilaktikası ilə müqayisə oluna bilər; "qarşısını almaqla" sözləri qabaqlayıcı tədbirlərin görülməsi mənasında da başa düşülməlidir.

Əbu Hureyrə rəvayət edir ki, Allah Rəsulu buyurdu: *"Dinar və dirhəmlər yoxa çıxmamış qardaşına qarşı namusuna və ya başqa bir şeyə toxunan ədalətsizlik etmiş olsun, bu gün ondan azad olsun. (Qiyamət günündə) əgər (ehtiyatda) yaxşı əməlləri varsa, onun əməlinin ağırlığına uyğun olaraq ondan alınacaqlar; əgər yaxşı əməli yoxdursa, zərərçəkmiş şəxsin pis əməllərindən (bir şey) götürülüb onun üzərinə qoyular."* (Sahih al-Bukhari, 6534) [*542]*.

İbn Ömərdən rəvayət olunur ki, Allah Rəsulu buyurdu: "Möminə bir dəlikdən iki dəfə sancmaq olmaz." (Sunan İbn Məcah, 3983) [555]. Bu, Roma hüququnun *Non bis in idem* formuludur (heç kim eyni cinayətə görə iki dəfə cəzalandırılmamalıdır) və Avropa İnsan Hüquqları Konvensiyasının 7 saylı Protokolunun 4-cü maddəsində, Konstitusiyanın 64-cü maddəsində, milli prosesual məcəllənin 34-cü maddəsində öz əksini tapmışdır.

İslam mənbələrində yardım göstərilməsinin qarşılıqlılıqla əlaqələndirilməsinə dair normalara rast gəlinmir. Dövlətlərarası münasibətlərdə islam hüququ qarşılıqlılıq prinsipinə əsaslanır, lakin onu şərt kimi qoymur. Məsələn, Peyğəmbərin müqavilə təcrübəsində bununla bağlı nümunələrə rast gəlinir. Hudeybiyyə sülh müqaviləsinin şərtlərinə əsasən: " *1. Peyğəmbər (sallәllahu aleyhi və sәlləm) müşriklərdən (çoxallahlılar, bütpərəstlər, paqanlar) hər hansı bir şəxsi onlara qaytarır. 2. Əl-Müşrikun müşrikləri isə onlara gedən müsəlmanların heç birini geri qaytarmırlar"* (Sahih al-Bukhari 2700) [542, 514]. Bu, mahiyyət etibarilə qarşılıqlılıq prinsipindən istisnadır.

Peyğəmbər Qureyşin təklif etdiyi müqavilənin şərtlərini yerinə yetirməyə razı oldu və müqavilənin qaçaqlarla bağlı bəndi elə ilk gün icra edildi. *"Katiblər bu müqavilənin mətnini yazarkən Süheylin oğlu Əbu Candal sığınmaq üçün müsəlmanların yanına gəldi və islamı qəbul etdi. Süheyl dərhal tələb etdi ki, bağlanmış müqaviləyə əsasən oğlumu mənə qaytarın! Hudeybiyyə günü Rəsulullah Süheyl ibn Amrla barış zamanı Süheyl ibn Amrin qoyduğu şərtlərdən biri o oldu ki, o, Peyğəmbərə dedi: "Əgər bizdən (yəni, dinsizlərdən) kimsə nə vaxtsa sizə gəlsə, sizin dininizi qəbul etsə də, onu bizə qaytarmalısınız və onunla bizim aramızdakı münasibətlərə qarışmamalısınız." Möminlərin bu şərt xoşuna gəlmirdi, nifrət yaradırdı və bu barədə mübahisə edirdilər. Lakin Süheyl Rəsulullahla bu şərt olmadan barışmaqdan imtina etdikdə, Rəsulullah müqaviləni bağladı. Müvafiq olaraq Rəsulullah sonra Əbu Candalı öz atası Süheylə qaytardı, sonra onlardan gələn, hətta müsəlman olanları da qaytardı"* (Sahih al-Bukhari 4180, 4181) [542].

Hal-hazırda dövlətlər suveren bərabərlik prinsipinə əsaslanırlar, bu prinsipdən kənara çıxmaq istəmirlər və cinayətkarların qarşılıqsız qaytarılmasına dair birtərəfli öhdəliklərə dair razılaşmalar demək olar ki, yoxdur. Buna görə də Hudeybiyyə müqaviləsi qarşılıqlı hüquqi yardım olmadan birtərəfli hüquqi yardımın göstərilməsi baxımından nümunəvidir.

Mədinə Konstitusiyasının 10-cu maddəsində göstərilir ki, *"Allahdan qorxan möminlər üsyankar ünsürlərə və möminlər arasında zülmə, günaha, düşmənçiliyə və fitnə-fəsad törətməyə təşviq edənlərə qarşı çıxacaqlar"* [441]. Mədinə Konstitusiyası sülh və əmin-amanlıq proseslərinə mane olanlara qarşı çıxılmasını nəzərdə tutur. Maraqlı cəhət ondan ibarətdir ki, Məhəmməd Peyğəmbərin digər tayfalarla bağladığı müqavilələrdə də belə müddəalar yalnız tayfanın (dövlətin) başçısının deyil, bütövlükdə möminlərin üzərinə qoyulmuşdur. 44 günlük İkinci Qarabağ müharibəsinin nəticələri ilə bağlı Üçtərəfli bəyanatın müddəalarının yerinə yetirilməsi çərçivəsində, Məhəmməd Peyğəmbərin müqavilə təcrübəsində də tətbiq edilən sülhə müqavimət göstərənlərə (*düşmənçiliyə və fitnə-fəsad törətməyə təşviq edənlərə qarşı*) qarşı çıxmaqla bağlı hüquqi yardım təcrübəsi bu gün də Azərbaycan üçün aktuallığını qoruyub saxlayır.

Məhəmməd Peyğəmbərin Nəcran xristianları ilə müqaviləsinin 6-cı maddəsinə əsasən: *"6. Nəcran əhalisi və ətrafının həyatı, dini, torpaqları, malları, mal-qarası və orada olan və ya olmayanlar, elçiləri və ibadət yerləri Allahın müdafiəsində və Onun Peyğəmbərinin himayəsindədir. Onların indiki vəziyyətinə qarışılmamalıdır, onların hüquqları pozulmamalıdır...7. Nə insanlar keçmiş cinayətə və ya qətlə görə cəzalandırıla bilməzlər…"* [515]. Bu müddəalarda Müqavilələr hüququ haqqında Vyana Konvensiyasının 28-ci maddəsində nəzərdə tutulan beynəlxalq müqavilələrin geriyə qüvvəsinin olmaması prinsipi öz əksini tapmışdır.

Məhəmməd Peyğəmbərin dövründə qəbul edilmiş qanunların və müqavilələrin demək olar ki, hamısı müasir hüquq yaradıcılığı üçün nümunə hesab edilməlidir. Bu sənədlər hüquqi yardım aspektində də əhəmiyyətlidir, çünki tarixi şəraitdən asılı olaraq, müttəfiq tayfalarla bağlanılan müqavilələr onlara da tətbiq olunurdu. Belə ki, Mədinə Konstitusiyasının 27-ci maddəsində göstərilir: *"27. Hər hansı bir kafir mömini üzrlü səbəb olmadan öldürərsə, yaxın qohumları razı olmadıqca, əvəzində öldürülməlidir (çünki bu hüquq*

qaydası üçün problemlər yaradır və dövlətin müdafiəsini zəiflədir). Bütün möminlər belə bir təqsirkarın əleyhinə olmalıdırlar. Heç bir möminə belə bir insanı gizlətməyə icazə verilmir" [441]. Burada Cinayət Məcəlləsinin 307.2-ci maddəsində nəzərdə tutulan qabaqcadan vəd etmədən ağır cinayəti gizlətmənin qadağan edilməsi əks olunur (CM-nin 32.5-ci maddəsinə əsasən, cinayət törətmiş şəxsi qabaqcadan gizlətməyi vəd etmiş şəxs köməkçi sayılır).

Mədinə Konstitusiyasının 36-cı maddəsinə əsasən: "*36. Hər kəs xəbərdarlıq etmədən başqasını öldürərsə (bunun üçün heç bir səbəb yoxdursa), öldürmə ona edilən yanlışlıq səbəbi ilə edilmədiyi halda, özünü və ailəsini qətlə yetirməsinə bərabərdir"* [441]. Bu müddəa Azərbaycan Respublikasının 1999-cu il tarixli Cinayət Məcəlləsinin 36-cı maddəsində nəzərdə tutulmuş zəruri müdafiə prinsipinə uyğundur (zəruri özünümüdafiə vəziyyətində zorakılıq edən şəxsə zərər vurmaq cinayət sayılmır).

Mədinə Konstitusiyasının 45-ci maddəsinə əsasən: *"(Bu Pakta tərəf olan hər hansı bir şəxs tərəfindən) himayə edilmiş qərib (şəxs) heç bir zərər vurmadığı və heç bir cinayət törətmədiyi halda onun ev sahibi (onu müdafiə edən) kimi qəbul ediləcəkdir"* [441]. Qorunan, lakin dövlət əleyhinə fəaliyyət göstərənlər cəzalandırılacaqlar. Bu müddəa müasir dövlətlər arasında tətbiq olunan əcnəbilərə milli rejimin verilməsi prinsipinə uyğundur. "*Bir şəxs döyüşə getsə (bu Paktın şərtlərinə uyğun olaraq) və ya öz evində qalsa, o, cinayət törətmədikcə və ya günahkar olmasa (yəni, Mədinə Konstitusiyasının 56-cı maddəsinə əsasən) təhlükəsiz olacaqdır. Heç kim bu paktın şərtlərinə uyğun olaraq döyüşə çıxmadığına görə fərdi olaraq cəzalandırılmayacaq"* [441]. Burada vəzifələrinə vətənin müdafiəsi daxil olmayan əcnəbilərin statusunun elementlərinin tətbiqini müşahidə edirik. Mədinə Konstitusiyasının qeyd olunan müddəaları 1-ci maddədə nəzərdə tutulduğu kimi möminlərə — yəni Qüreyş və Yəsrib müsəlmanlarına, onlara tabe olanlara və onlarla birlikdə çalışanlara, yəni bir millət kimi Ümmətə aiddir və xaricilərə

münasibətdə ayrı-seçkiliyin tətbiq edilməməsini təsdiqləyir, həmçinin cinayət törətmiş şəxslərə kömək göstərilməsinin sərhədlərini müəyyən edir.

Məhəmməd Peyğəmbərin digər tayfalarla bağladığı müqavilələrdə yardım məsələləri nəzərdə tutulmuşdur. Banu Dəmrə qəbiləsi ilə bağlanan Müqavilədə (623) belə qeyd olunmuşdur: *"Onların malları və canları əmin-amanlıqdadır. Qəddarcasına hücuma məruz qaldıqda onlara kömək göstərilməlidir. Onlar da Peyğəmbərə kömək edəcəklər... Peyğəmbər onlardan kömək istədikdə, onun çağırışına cavab verəcəklər... Öhdəliklərinə əməl edən və bu müqavilənin pozulmasından qorxanlara yardım göstəriləcək"* [441]. Bu müqavilədə tayfa başçısı, yəni dövlət başçısı Peyğəmbərə yardım göstərilməsi, cinayət işlərində yardım məsələlərini də özündə ehtiva edən ümumi mənada yazılmışdır.

Bəni Ğifar qəbiləsi ilə imzalanmış müqavilədə deyilir ki, *"Allahın Peyğəmbəri (s.a.v.) tərəfindən yardım çağırıldığı zaman bu insanlara kömək etmək lazımdır. Amma dini müharibələrdə tərəflərdən hər biri tərəfsiz qalacaq"* [441]. Peyğəmbər bir-birinə kömək etmək, dəstək olmaq və mehriban qonşuluq münasibətləri yaratmaq məqsədilə Bəni Ğifar qəbiləsi ilə müqavilə bağlamışdır. O dövrün mehriban qonşuluq münasibətləri bu gün cinayət işlərində hüquqi yardımın göstərilməsini də əhatə edir. Lakin din uğrunda müharibələr bu qaydadan istisna edilmişdir.

Cüheynə tayfası ilə imzalanmış müqavilə onlara qarşı döyüşən və zülm edənlərə qarşı yardım alacaqlarını nəzərdə tutur. *"Cüheynə qəbiləsindən kim İslamı qəbul edər, namaz qılar, zəkat verər, Allaha və Peyğəmbərinə itaət edərsə, müharibədə əldə edilən qazanclardan xüms verməyə davam edər, İslamı qəbul edər və kafirlərdən uzaq olarsa, o, Allahın və Peyğəmbərinin himayəsindədir"*. Cüheynə tayfasının zülm və ədalət kimi İslam əhkamlarına zidd olan is-

tismarından qaçaraq insanların rifaha çatması təmin edilir. *"Vəzifələrini yerinə yetirən və heç bir şəkildə heç bir şeyi pozmayan köçəri üzvlər yerlilərə verilən bütün hüquqlara malikdirlər"* [502].

Peyğəmbərin Cüheynə tayfası ilə bağladığı bu müqavilə təcavüz halında bir-birinə kömək etməyi qanuniləşdirmişdir. Burada yenə də aralarında heç bir razılaşma olmayan yerlilərə kömək və müdafiə, yəni birtərəfli yardım nəzərdə tutulur.

Məhəmməd Peyğəmbər müşriklərlə bağladığı müqavilənin şərtlərinə uyğun olaraq, müqavilənin öhdəliklərini yerinə yetirmiş, müşriklər tərəfindən həbs olunan, zindandan Mədinəyə qaçan Əbu Bəsiri Məkkədən gələn iki səlahiyyətli şəxsə təhvil verərək geri göndərmişdir. Hudeybiyyə sülh müqaviləsinə əsasən, tərəflər on il sülhü qorumalı və ona nə gizli, nə də aşkar xəyanət etməməli idilər. Lakin Məkkəlilərlə müttəfiq olan Bənu Bəkr qəbiləsi, Allah Rəsulunun müttəfiqi olan Xuza qəbiləsinə qarşı müqaviləni pozaraq hücuma keçdi. Nəticədə, bu müqavilənin pozulması müsəlmanların Məkkəni fəth etməsinə səbəb oldu.

Bu misallar əslində cinayətkarların ekstradisiyadan yayınmaq üçün bir dövlətin ərazisindən qeyri-qanuni şəkildə başqa yerə keçməsi, oğurluq etməsi və həmin dövlətin hakimiyyət orqanlarının xəbəri olub-olmamasından, həmçinin hüquqi yardım müqavilələrinin mövcudluğundan asılı olmayaraq, cinayətkarların oğurlanmasına haqq qazandırmaq istəyənlər üçün yaxşı nümunədir.

Taif sakinləri ilə bağlanmış razılaşmaya [502] əsasən, Taif və ətrafı müqəddəs ərazi elan edilmiş, onun sakinlərinin Şəriət hökmlərinə bağlı olmadığı və müsəlmanlarla eyni icmanı təşkil etmələri şərtləndirilmişdi. Müqavilənin mətnində həmçinin sülhün qorunması, borc vermək və əmlakın təhlükəsizliyi, ticarət əlaqələri, qəbilə başçılarını müstəqil seçmək hüququ, Qüreyş-Səkifi münasibətlərinə aid maddələr, Taif sakinləri tərəfindən tutulan məhkumların taleyi ilə bağlı müddəalar və digər bir sıra maddələr yer alırdı. Mü-

qavilənin bu şərtləri əslində cinayətlərin beynəlxalq səviyyədə unifikasiyasına bənzəyir və hazırda onların prototipləri Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutu (1998), BMT-nin Korrupsiyaya Qarşı Konvensiyası (2003), Avropa Şurasının Korrupsiyaya qarşı Cinayət Məsuliyyəti haqqında Konvensiyası (1999), Kibercinayətkarlığa qarşı Konvensiya (2001), Terrorçuluğa qarşı Avropa Konvensiyası (1977) və digər beynəlxalq müqavilələrdə öz əksini tapmışdır.

Ərəbistan yarımadasında əldə edilən bu razılaşmalar sayəsində sülh təmin olundu, keçmişdəki cahiliyyət dövrünün adətləri bir kənara qoyuldu və müsəlmanlara qarşı hücumların qarşısı alındı. Hicrətin 9-cu ilində nazil olan "Tövbə" surəsi gələcəkdə müşriklərlə münasibətdə necə davranılması lazım olduğunu göstərmişdir.

Peyğəmbərin müqavilələri mehriban qonşuluq münasibətləri yaratmaq məqsədi ilə bağlanmış və qarşılıqlı yardım göstərilmişdir. Digər icmalarla münasibətlərdə qarşılıqlı yardım, o cümlədən cinayət işlərində əməkdaşlıq nəzərdə tutulurdu.

Hesab edirik ki, bəzi hallarda, məsələn, ağır cinayətlərə qarşı mübarizədə qarşılıqlılıq prinsipindən imtina etmək sonrakı genişlənmə ilə əməkdaşlıq üçün presedent yarada bilər. Bütün dövlətlər cinayətkarlıqla milli və beynəlxalq səviyyədə mübarizədə maraqlıdırlar və bu mübarizənin effektivliyi əməkdaşlıq səviyyəsindən asılıdır.

Qurani-Kərimin və İslam hüququnun digər mənbələrinin hüquqi yardım göstərilməsi ilə bağlı müddəalarının öyrənilməsi, təhlili və müasir milli və beynəlxalq normalarla müqayisəsinin nəticələri ilk növbədə hüquq-mühafizə orqanlarının əməkdaşları və tədqiqatçılar üçün faydalıdır.

Cinayət işlərində dövlətlər arasında hüquqi yardım məsələləri Qurani-Kərimin müddəaları, Peyğəmbərin hədisləri və qonşu qəbilələrlə bağlanmış müxtəlif müqavilələri ilə tənzimlənir və müasir beynəlxalq hüquqi yardım müqavilələrinin normaları ilə uyğunluq təşkil edir. Odur ki, cinayət işlərində dövlətlərarası hüquqi yardıma

dair normaların işlənib hazırlanmasında İslam hüququ normalarının və müqavilə təcrübəsinin təsiri tarixi kontekstdə qiymətləndirilməli, bəzi müddəalar müasir hüquqi yardım müqavilələrinə daxil edilməlidir. İslam hüququnun aşağıdakı normaları və Peyğəmbərin müqavilələri bütün tədqiqatlarda tarixi fakt kimi qəbul edilməlidir:

– Cinayətkarlıqla mübarizə Şəriətin məqsədlərindən biridir və bu, xeyirxah əməldir; buna görə də dövlətlər arasında hüquqi yardım xeyir işlərdə köməklik hesab olunur.

– İslam mövcud müqavilələri pozan müsəlmanlardan dəstək istəyənlərə kömək etməyi qadağan edir.

– Qurani-Kərimdə və Peyğəmbərin Sünnəsində qarşılıqlı yardım və qardaşlığın vacibliyi təsdiq edilir; İslam digər xalqlarla münasibətlərdə qarşılıqlılıq prinsipini rəhbər tutur.

– İslam qaynaqlarında yardımın hər hansı şərtlə yüklənməsi ilə bağlı müddəalara rast gəlinmir; qarşılıqlılıq kömək ediləndən yox, Allahdan gözlənilir.

– Qardaşlıq İslamın nəcib prinsiplərindən biridir və tarix boyu müsəlmanlar və İslam dövlətləri ərazisində yaşayan digər insanlarla münasibətlərdə fərq qoyulmadan tətbiq olunmuşdur.

– Dövlətlərarası münasibətlərdə İslam hüququ qarşılıqlılıq prinsipinə əsaslanır, lakin Peyğəmbərin müqavilə təcrübəsində bu prinsipdən kənara çıxmalarla bağlı nümunələr mövcuddur. Məsələn, Hudeybiyyə müqaviləsinə əsasən, müsəlmanlar Qüreyşi onlara tərəf dönmüş müsəlmanları qaytarmağa məcbur etmirlər, əksinə, müsəlmanlara tərəf dönən Qüreyşi geri qaytarırlar; bu mahiyyət etibarilə qarşılıqlılıq prinsipindən istisnadır.

– Peyğəmbər müqavilələri mehriban qonşuluq münasibətləri yaratmaq məqsədilə bağlamış və bu müqavilələr çərçivəsində qarşılıqlı yardım göstərilmişdir. Digər icmalarla münasibətlərdə qarşılıqlı yardıma, o cümlədən cinayət işlərində əməkdaşlıq da daxil idi.

Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardımın tarixi göstərir ki, hüquqi yardım institutunun effektivliyi siyasi iradədən,

dövlətlərin demokratikliyi səviyyəsindən və digər subyektiv amillərdən asılıdır. Müqaviləyə əsaslanan hüquqi yardım institutu mütəşəkkil transmilli cinayətlərlə müqayisədə daha ləng inkişaf etmişdir. Bəzən suverenliyin formal mülahizələri, Peyğəmbərin Hudeybiyyə müqaviləsində olduğu kimi, dövlətlərin hüquqi yardımın əhatə dairəsini birtərəfli şəkildə genişləndirməsinə mane olur.

Bu aspektdə, ərazi, dini, iqtisadi və digər əsaslarla birləşmiş dövlət qrupları arasında müqavilə əsaslı hüquqi yardım, iki dövlət arasında olduğundan daha inkişaf etmişdir. Dini normaların, o cümlədən Qurani-Kərimin və İslam hüququnun digər mənbələrinin beynəlxalq münasibətlərə, xüsusən də hüquqi yardım sahəsində dövlətlərin əməkdaşlığına təsiri, linqvistik və dini əlamətlərə görə yaradılmış Ərəb Dövlətləri Liqası, eləcə də ərazi və dini əlamətlərə görə təşkil olunmuş Avropa İttifaqı kimi qurumlara daxil olan dövlətlərin daha sıx əməkdaşlığında özünü göstərir.

Hesab edirik ki, müəyyən hallarda, məsələn, ağır cinayətlərə qarşı mübarizədə qarşılıqlılıq prinsipindən imtina sonradan genişlənərək əməkdaşlıq üçün presedent yarada bilər. Bütün dövlətlər cinayətkarlıqla milli və beynəlxalq səviyyədə mübarizədə maraqlıdırlar və bu mübarizənin effektivliyi əməkdaşlıq səviyyəsindən asılıdır.

Hesab edirik ki, Qurani-Kərimin digər dinlərə riayət edənlərə, müqavilələrə və müqavilələrin məcburi icrasına münasibəti, eləcə də Peyğəmbərin müqavilə təcrübəsi qəbilələr və digər xalqlar arasında cinayətkara münasibət, ekstradisiya və digər hüquqi yardım məsələlərini də əhatə edir. Azərbaycan dünyəvi dövlət olmaqla yanaşı, əhalisinin əksəriyyəti islam dininə riayət edir və Qurani-Kərim normalarının dövlətlərarası münasibətlərə, o cümlədən cinayət işləri üzrə hüquqi yardım göstərilməsi sahəsində təsirini inkar etmək mümkün deyil.

Azərbaycanda dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım elementar qaçaq təhkimlərdən, diplomatik qaydada birdəfəlik yardım göstərilməsindən başlayaraq, digər dövlətlərlə çoxtərəfli və

ikitərəfli müqavilələr əsasında qurulmuş institutlaşdırılmış hüquqi yardıma qədər inkişaf etmişdir. Bu prosesdə qanunvericilik bazasının olmamasından dostluq, sülh, əməkdaşlıq və hətta təslim olma haqqında müqavilələrə hüquqi yardımın müəyyən aspektləri ilə bağlı ayrı-ayrı normaların daxil edilməsinə, son olaraq isə cinayət işləri üzrə hüquqi yardım göstərilməsinə dair xüsusi ikitərəfli müqavilələrin bağlanması və hüquqi yardım məsələlərinin məcəllələşdirilməsinə qədər yol keçilmişdir. Tarixin müəyyən dövrlərində hüquqi yardım əcnəbi şəxsə qarşı ədalətli mühakimənin həyata keçirilməsində təqsirləndirilən şəxsin aid olduğu dövlət nümayəndəsinin iştirakı, ağır cinayət törətmiş şəxslərin qeyd-şərtsiz verilməsi, sülhə qarşı çıxanların amansız cəzalandırılması, ayrı-ayrı cinayətkarların yurisdiksiyadan çıxarılması və s. kimi institutları əhatə etmişdir. Bu təcrübələrdən müasir dövrdə cinayət işləri üzrə hüquqi yardım institutunun tənzimlənməsi və təkmilləşdirilməsində istifadə etmək mümkündür. İnteqrasiya prosesləri və cinayətkarlığın beynəlmiləlləşməsi cinayət işləri üzrə hüquqi yardım göstərilməsində yeni problemlər yaradır və tarixi təcrübə nəzərə alınmaqla bu institutun daha da təkmilləşdirilməsini və inkişaf etdirilməsini tələb edir.

Tarixin müxtəlif dövrlərində dövlətləri din, dil, qohumluq əlaqələri və s. birləşdirmişdir ki, bu da dövlətlərarası münasibətləri, o cümlədən cinayət işləri üzrə hüquqi yardım göstərilməsini asanlaşdırırdı. Tarixi təcrübə göstərir ki, bu birləşdirici elementlər həmin dövlətlərin işğaldan və müharibədən etibarlı müdafiəsinə kifayət etməmişdir. Buna görə də dövlətlərlə, o cümlədən cinayət işləri üzrə hüquqi yardım göstərilməsi də daxil olmaqla, hörmət və beynəlxalq hüquq normalarına uyğun münasibətlərin qurulması dövlətlər arasındakı əlaqələr üçün etibarlı əsasdır. Ədalətlilik əslində həm də cinayət mühakimə icraatının səmərəlliliyinin göstəricisidir. Müqəddəs Quranın "Bal arısı" surəsində qeyd edilir: *"Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara haqqını verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və azğınlıq*

etməyi isə qadağan edir. O sizə öyüd-nəsihət verir ki, bəlkə düşünüb ibrət alasınız" [Qurani-Kərim, ən-Nəhl 16:80].

Ümumiyyətlə, ədalətlilik və ədalətli mühakimə cəmiyyətin sabitliyinin, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsinə yönəldilmişdir. Buna görə də hüquqi yardım institutu dövlətlərdə vahid məhkəmə təcrübəsinin yaranmasına xidmət edir və ədalət mühakiməsinin fəaliyyətinin cəmiyyətin maraqlarına uyğun təmin edilməsində mühüm rol oynayan institutdur.

1.3. Hüquqi yardım institutu və məhkəmə tapşırıqları

Cinayət işləri üzrə hüquqi yardım institutu cinayətkarlıqla mübarizədə dövlətlərarası hüquqi əməkdaşlığın bir forması kimi artıq özünü təsdiq etmiş prosessual institutdur. Bu institut cinayətkarlığın qarşısının alınmasında və ədalət mühakiməsinin həyata keçirilməsində dövlətlərin əməkdaşlığının forması kimi uzun inkişaf yolu keçmişdir. Beynəlxalq münasibətlərin sabitliyi və beynəlxalq təhlükəsizlik də cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlığın səviyyəsindən asılıdır.

Cinayət ədalət mühakiməsi sahəsində beynəlxalq əməkdaşlıq ədalət mühakiməsinin son məqsədlərinə — o cümlədən cinayətkarlığın qarşısının alınmasına, cinayətlərin ağır nəticələrinin aradan qaldırılmasına və cinayətkarların cəzalandırılmasına — xidmət edir. Bəzən cinayət işləri üzrə hüquqi yardım sahəsində əməkdaşlıqdan imtina ilə bağlı problemlərdən biri dövlətlərin cinayətkarları ağır cəzalandırmaması və ya cəzadan yayındırması ilə bağlı narahatlıqdır. Çünki "*cəza, dövlətin əlində insanları cəzalandırmaqdan çəkindirmək üçün xüsusi bir vasitədir; mahiyyəti qisas almaq, məzmunu cəza, xüsusiyyəti isə xəbərdarlıq və qorxutmaqdır"* [305, s.211]. *"Cəzanın qaçılmazlığı ilk növbədə törədilmiş cinayətə tətbiqi baxımından diqqəti cəlb edir... Cinayət varsa və ya törədilmişsə, yaxud gələcəkdə törədilməsi ehtimalı varsa, deməli, cəza qaçılmazdır"* [90, s.203].

Hüquqi yardım, xüsusi olaraq müəyyən edilməsə də, hüquqi yardımı tənzimləyən sənədlərin təhlilindən göründüyü kimi, sorğuların tərtib edilməsi və tapşırıqların göndərilməsi yolu ilə göstərilir. Əgər sorğu məhkəmə orqanlarından gəlirsə, onu məhkəmə tapşırığı adlandırırlar. Hüquqi yardım müvafiq hərəkətlərin icra edilməsini nəzərdə tutur (Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 489.1-ci maddəsi), məhkəmə tapşırıqları isə həmin müvafiq hərəkətlərdən biridir.

Bəzi alimlər cinayət işləri üzrə hüquqi yardımı ümumiyyətlə beynəlxalq hüququn, beynəlxalq cinayət hüququnun, bəziləri isə beynəlxalq cinayət prosesinin institutu hesab edirlər. Məsələn, Lazutin L.A. bildirir ki, *"həm maddi, həm də prosessual qaydaları beynəlxalq cinayət hüququnu məcəllələşdirən normalar sisteminə daxil etmək qəbul edilmişdir"* [251, s.17], *"...maddi və prosessual qaydalara aid olan üçüncü qrup normalar"* beynəlxalq cinayət hüququnun sisteminə daxil edilmişdir [249, s.140], *"beynəlxalq əməkdaşlığın ayrılmaz bir hissəsi kimi normalar toplusudur"* [253, s.120]. Daha sonra Lazutin L.A. formalaşma mərhələsində olan, tərkibində cinayət işləri üzrə hüquqi yardımı tənzimləyən normalara dominant rol ayrılan beynəlxalq cinayət-prosessual hüququndan bəhs edir: *"Onlar beynəlxalq cinayət-prosessual hüququ məcəllələşdirən ümumi normalar sistemində müstəqil bir beynəlxalq hüquqi institutu təmsil edirlər"* [251, s.16-17]. Lazutin L.A. sonrakı əsərlərində cinayət işləri üzrə hüquqi yardım institutunun beynəlxalq cinayət hüququna aid olduğu qənaətində qalır, lakin cinayət işləri üzrə hüquqi yardım normalarının daxili qanunvericilikdə məcəllələşdirilməsinin mümkün inkişaf yollarından bəhs edərkən, *"hüquqi yardım haqqında xüsusi qanunun qəbul edilməsini və ya Rusiya Federasiyasının qüvvədə olan Cinayət-Prosessual Məcəlləsi və Cinayət Məcəlləsinə dəyişikliklər edilməsini təklif edir"* [250, s.80]. Müəllif əslində hüquqi yardım institutunun ikili xarakterə malik olmasını, yəni beynəlxalq hüququn və daxili qanunvericiliyin institutu olmasını müdafiə edir. Biz isə müəllifin bu fikri ilə

razılaşmırıq və qeyd etmək istəyirik ki, bu institut daxili cinayət-prosessual qanunvericilik səviyyəsində möhkəmləndirilməlidir.

Bəzi alimlər dövlətlər arasında hüquqi yardım institutunu milli hüququn institutu, digərləri isə kompleks və bəzən fənlərarası institut hesab edirlər. Əksər alimlər isə dövlətlər arasında hüquqi yardım institutunu daxili qanunvericiliyə əsaslanan *"daxili hüquq institutu"* kimi qəbul edirlər [184, s.410]. Onlar bildirirlər ki, bu institut sorğu verilən *"dövlətin səlahiyyətli orqanlarının fəaliyyəti"dir [214], "müəyyən prosessual və digər hərəkətlərin icrası ilə bağlıdır"* [22, s.1267] və xüsusi icraatların bir növü olmaqla, cinayət mühakimə icraatının həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının *"digər dövlətlərlə beynəlxalq əməkdaşlıq fəaliyyətinin prosessual formasıdır"* [51, s.406-407; 53, s.33].

H.L.A. Hartın milli hüquq və beynəlxalq hüquq arasındakı münasibətlə bağlı fikirləri hüquqi yardım institutunun milli hüquq institutlarına aid edilməsində də tətbiq oluna bilər: *"... beynəlxalq hüquqda qanunverici hakimiyyət yoxdur, dövlətlər əvvəlcədən razılıq olmadan beynəlxalq məhkəmələrə verilə bilməzlər və mərkəzləşdirilmiş, mütəşəkkil və səmərəli sanksiya sistemi mövcud deyil"* [479, s.3-4]. Əgər bu fikirləri cinayət işləri üzrə hüquqi yardım institutuna tətbiq etsək, hüquqi yardımla bağlı qanunverici hakimiyyətin olmamasını, bu institutun tətbiqi zamanı yaranan pozuntuların ikitərəfli qaydada həll edilməsini, hüquqi yardım çərçivəsində sorğuların icrası ilə bağlı pozuntuların isə milli qanunvericiliyə əsasən tənzimlənməsini və milli məhkəmələrin prosessual pozuntulara görə müəyyən tədbirlər görməsini qeyd edə bilərik.

Zaxarenkova V.V. hüquqi yardımı *"ayrı-ayrı cinayət işləri üzrə istintaq, məhkəmə baxışı və cəzanın icrası ilə əlaqədar müəyyən məsələlərin həllini asanlaşdırmalı olan, dövlətlər arasında bağlanmış müqavilələrdə nəzərdə tutulmuş müəyyən hərəkətlərin yerinə yetirilməsi"* kimi müəyyən edir [203, s.163]. Lakin burada müqavilədən kənar hüquqi yardım göstərilməsi bu tərifə daxil edilmir.

Milinçuk V.V. cinayət işləri üzrə hüquqi yardımı *"...tərkibinə yalnız prosessual deyil, həm də beynəlxalq-hüquqi aspektləri, eləcə də daxili və xarici siyasət məsələlərinin mürəkkəb kompleksini daxil edən, xüsusi bir sahəyə toxunan spesifik, fənlərarası hüquqi institut kimi"* müəyyən edir [267, s.17–18]. O, təklif etdiyi tərifə xarici siyasət məsələlərini də daxil edir ki, bununla razılaşmaq düzgün olmazdı. Çünki hüquqi yardım bütün xarici siyasət məsələlərini deyil, yalnız razılaşdırılmış müddəaları əhatə edir.

Dövlətlərarası hüquqi yardım institutunun inkişafına beynəlxalq təşkilatlar və məhkəmə orqanları təsir göstərsələr də, əsas münasibətlər dövlətlərarası sferada baş verir və bu institut dövlətlərin iradəsi ilə formalaşır. Əks halda, bu institut konkret sərhədləri olmayan bir anlayışa çevrilə bilərdi. Davıdova M.V. cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım anlayışına, beynəlxalq hüquq və daxili hüquq normaları ilə tənzimlənən cinayət mühakimə icraatı sahəsində beynəlxalq əməkdaşlıq çərçivəsində *"dövlətlər və beynəlxalq təşkilatlar arasında, həmçinin beynəlxalq məhkəmə orqanları çərçivəsində münasibətlərin bir növü"* kimi yanaşır [172, s.9].

Abdulloyev P.S. qeyd edir ki, *"cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım (BHY) fənlərarası bir institutdur və beynəlxalq hüquqla cinayət-prosessual hüquqa əsaslanır. Beynəlxalq hüquq bir hüquq sistemidir, buna görə də cinayət işləri üzrə BHY beynəlxalq cinayət prosesi sahəsinə daxildir"* [120, s.8, 14].

Mixaylenko K.E. ümumiləşdirmədən qaçaraq, dövlətlərin hüquqi yardım göstərilməsi üzrə fəaliyyət istiqamətlərini sadalayır [266, s.10].

Zuev S.V. və Sutyagin K.I. cinayət mühakimə icraatı sahəsində beynəlxalq əməkdaşlığı *"...iki və ya daha çox dövlətin iştirakını tələb edən prosessual fəaliyyət"* kimi müəyyən edirlər [369, s.541]. Bu tərifdə yalnız prosessual hərəkətlərə toxunulur, digər növ fəaliyyətlər isə nəzərə alınmayıb. Buna görə də, bu tərifi tam hesab etmək mümkün deyil.

Hesab edirik ki, qarşılıqlı hüquqi yardım milli cinayət-prosessual hüququn institutudur və məhkəmə tapşırıqlarının yerinə yetirilməsi məsələləri bu institut çərçivəsində həll olunur. Qarşılıqlı hüquqi yardımı tənzimləyən beynəlxalq aktlar milli qanunvericiliyə daxil edilməklə və tətbiq olunmaqla həyata keçirilir. Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardımın dövlətlərin səlahiyyətli orqanları və vəzifəli şəxsləri arasında qarşılıqlı əlaqə forması olduğu fikri ilə razılaşmırıq. Qarşılıqlı əlaqə, daha çox, beynəlxalq müqavilələrin icrası vasitəsilə həyata keçirilən əməkdaşlıq forması kimi çıxış edə bilər.

Dövlətlər arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardımın beynəlxalq cinayət prosesi çərçivəsində qiymətləndirilməsi də düzgün deyildir, çünki hüquqi yardım barədə sorğuların icrası zamanı milli cinayət-prosessual normalar tətbiq olunur. Hazırda məhkəmə tapşırıqları hüquqi yardımın yerinə yetirilməsinin əsasını təşkil edir. Bununla belə, hesab edirik ki, dövlətlərarası münasibətlərin mövcud inkişaf səviyyəsində hüquqi yardımla bağlı sorğuların icrası üçün digər müstəqil əsaslar nəzərdə tutulmamışdır və istənilən halda məhkəmə tapşırığı göndərilməlidir. Bu yanaşma hüquqi yardım institutunun müasir inkişaf səviyyəsi ilə bağlıdır. Bəlkə də gələcəkdə məhkəmə tapşırıqlarının daha sadələşdirilmiş və səmərəli formaları meydana çıxacaq və ya icra üçün əsasların dairəsi genişləndiriləcəkdir. Şübhəsiz ki, hüquqi yardım institutu ilə bağlı suverenlik, bəzi hallarda isə formal suverenlik mülahizələrinin aradan qaldırılması daha uzun və mürəkkəb təkamül prosesini tələb edə bilər.

Məhkəmə tapşırığının anlayışı aşağıdakı kimi müəyyən edilməlidir:

Məhkəmə tapşırığı – hüquqi yardım çərçivəsində, sorğu edən xarici dövlətin məhkəmə baxışında olan cinayət işi üzrə milli qanunvericiliyin müddəalarına uyğun olaraq müvafiq prosessual və digər hərəkətlərin yerinə yetirilməsi barədə sorğu edilən dövlətin

səlahiyyətli orqanına təqdim edilən rəsmi xahişdir. Təklif edirik ki, **Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 7.0.14-cü maddəsi 7.0.15-ci maddə kimi qeyd olunsun və 7.0.14-cü maddə aşağıdakı redaksiyada verilsin: 7.0.14. Məhkəmə tapşırığı** – sorğu edən orqanda istintaq edilən və ya məhkəmədə baxılan cinayət işi ilə əlaqədar sübutların toplanılması məqsədilə digər şəhərin, rayonun və ya dövlətin cinayət təqibi orqanına, müvafiq cinayət-prosessual qanunvericilikdə nəzərdə tutulmuş qaydada, prosessual və digər hərəkətlərin həyata keçirilməsi barədə göndərilən rəsmi xahişdir.

Tərəflər bəzən hüquqi yardım göstərərkən, sorğu edilən tərəfin qanunvericiliyində nəzərdə tutulmuş, lakin əsaslı fərqlər ehtiva edən prosessual və digər hərəkətləri yerinə yetirirlər. Dövlətlərin cinayət-prosessual qanunvericiliyində mövcud olan prinsipial fərqlər və bəzi hallarda hüquqi yardımın verilməsinin qəbuledilməz hesab olunması səbəbindən, hüquqi yardım çərçivəsində sorğuların icrası zamanı ciddi problemlər və imtina hallarının yaranması mümkündür.

Sorğu edən dövlətin məhkəmə tapşırığının icrası milli cinayət prosesinin prinsiplərinə zidd olduğu hallarda, sorğu edilən tərəf tapşırığı icra etməkdən imtina edir. "Cinayət işlərinə dair hüquqi yardım haqqında" Azərbaycan Respublikası Qanununun 3.1-ci maddəsi müəyyən edir ki, sorğu siyasi, hərbi xidmət əleyhinə cinayətlərlə, cinayət hesab edilməyən əməllə bağlı olarsa, ayrı-seçkiliyin istənilən formasına əsasən təqib etmə məqsədi daşıyarsa, cinayət ölkə ərazisində istintaq edilirsə və hüquqi yardımla bağlı rəsmiləşdirmə qaydalarına əməl edilməmişdirsə, imtina edilir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin XII Bölməsinin 35-ci fəslində nəzərdə tutulan cinayətlər hərbiçilər və vəzifəli şəxslər tərəfindən törədilir. Təbii ki, bu cinayətlərlə əlaqədar məhkəmə tapşırıqları göndərilə bilməz, çünki cinayətin subyektləri Azərbaycan Respublikasının vətəndaşlarıdır və bu cinayətlərlə

bağlı cinayət işinin başlanması milli hakimiyyət orqanlarının səlahiyyətlərinə aiddir.

Azərbaycan Respublikası Konstitusiyasının 64-cü maddəsi eyni cinayətə görə təkrar məhkumluğun qəbul edilməməsi prinsipini müəyyən edir. Milli CPM-nin 39.1.6 və 39.1.7-ci maddələri cinayət təqibinin başlanılmaması və başlanmış cinayət təqibinə xitam verilməsinin əsaslarını müəyyən edir və bu əsasları eyni ittiham üzrə qanuni qüvvəyə minmiş hökmün olmaması, rədd və ya xitam haqqında ləğv edilməmiş qərarın olması ilə əlaqələndirir. Buna görə də, şəxsin fərqli dövlətlərdə eyni cinayətə görə ittiham olunması üzrə paralel icraatın aparılması, yenidən məhkum edilmənin yolverilməzliyi və şəxsin ikiqat cinayət təqibinə məruz qalmaması konstitusiya prinsipinə ziddir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 75-ci maddəsi cinayət məsuliyyətinə cəlb etmə müddətinin ötürülməsi ilə bağlı cinayət məsuliyyətindən azad etməyə həsr edilmişdir və təbii ki, Azərbaycan tərəfi bu cür cinayətlərlə bağlı məhkəmə tapşırıqlarını qanunvericiliyə zidd olduğu üçün icra etmir.

Minsk və Kişinyov konvensiyalarında, 2004-cü il BMT-nin "Korrupsiyaya qarşı" Konvensiyasında və 1999-cu il "Korrupsiyaya görə cinayət məsuliyyəti haqqında" Avropa Konvensiyasında Azərbaycan Respublikasının bəyanatlarına əsasən, hüquqi yardım və ekstradisiya ilə bağlı sorğuların yerinə yetirilməsi, qarşılıqlı hüquqi yardım göstərilməsi zamanı sorğuların qəbul edilməsi və ya göndərilməsi üzrə məsul müvafiq səlahiyyətli orqan kimi Azərbaycan Respublikası Prokurorluğu müəyyən edilmişdir. 1957-ci il "Ekstradisiya haqqında", 1959-cu il "Cinayət işlərində qarşılıqlı hüquqi yardım haqqında" və 1990-cı il "Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılması, aşkar olunması, götürülməsi və müsadirə edilməsi haqqında" Avropa konvensiyaları ilə nəzərdə tutulmuş öhdəliklərlə bağlı sorğuların icrası Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə həvalə edilmişdir.

Cinayət işlərinə dair hüquqi yardımı tənzimləyən 2001-ci il Qanununa əsasən, icra hakimiyyəti orqanı qismində Ədliyyə Nazirliyi çıxış edir. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamənin 9.42-ci maddəsinə əsasən, Ədliyyə Nazirliyi xarici dövlətlərin müvafiq dövlət orqanlarına mülki, ailə və cinayət işlərinə dair hüquqi yardım göstərir.

Azərbaycan Respublikası CPM-nin 47.2-ci maddəsi cinayət təqibi ilə bağlı sorğuların icrasını prokurorun, müstəntiqin və məhkəmənin vəzifələrinə aid edir.

Lakin, istintaq orqanlarının və məhkəmənin işini tənzimləyən sənədlərdə, milli prosessual qanunvericilikdə sorğu edən xarici dövlətin məhkəmə və istintaq orqanlarının tapşırıqlarının qeyd olunan subyektlərdən hansı tərəfindən icra olunması ilə bağlı konkret göstəriş yoxdur. Bu məsələlər RF CPM-nin 453 və 457-ci maddələri ilə ətraflı tənzimlənir, yəni konkret məhkəmə, prokurorluq, istintaq və təhqiqat orqanları birbaşa göstərilir.

Hüquqi yardım çərçivəsində məhkəmə tapşırıqlarının icrası sahəsində Azərbaycan qanunvericiliyinin ümumi hüquq (anqlo-sakson) ölkələrinin qanunvericiliyi ilə müqayisəsi hüquqi yardımın göstərilməsində müəyyən prosessual ziddiyyətlərin mümkün olduğunu göstərir. Misallar göstərək.

Hüquqi yardımı tənzimləyən Qanunun 5.3-cü maddəsi sorğu göndərən dövlətin rəsmi nümayəndələrinin Ədliyyə Nazirliyi tərəfindən verilən razılıq əsasında yardımla bağlı hərəkətlərin icrasında iştirakına yol verir. ABŞ "Xarici Əlaqələr sahəsində hüquqi normalar Məcmuəsinin" §432 (2) maddəsi *"bu və ya digər dövlətin hüquq-mühafizə orqanlarının əməkdaşlarının digər dövlətin ərazisində öz səlahiyyətlərini həyata keçirmək hüququ"*nu nəzərdə tutur [371, s.1097–1098].

Digər dövlətin ərazisində istintaq hərəkətlərinin aparılması tarixi bir institutdur. Lakin bir qayda olaraq, istintaq hərəkətlərini

aparan dövlətin imtiyazı olaraq tətbiq olunurdu. Əslində, bunu vassallıqla, işğalla bağlı olan müqavilələrdə tam izləmək mümkündür. Lakin son dövrlərin Avropa təcrübəsi bu institutun asılılıq əlaməti olmadan, səmərəli tətbiqini sübut etdi. Hesab edirik ki, bu institutun tətbiqi tarixi təcrübə nəzərə alınaraq böyük problemlər doğurmur, milli qanunvericiliyə daxil edilməsini, daha çox təşkilati məsələlərin operativ həllini, daha dəqiq desək, istintaq hərəkətlərinin aparılmasına texniki yardım göstərilməsini tələb edir.

Dövlətlər arasında dil problemi olmadıqda, prokurorun prosessual rəhbərliyi altında istintaq hərəkətlərinin həyata keçirilməsi hüquqi yardım haqqında çoxtərəfli və ikitərəfli müqavilələrə daxil edilməlidir.

Digər dövlətin ərazisində istintaq hərəkətlərinin aparılması ilə bağlı Cinayət işlərinə dair hüquqi yardım haqqında Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinə yeni hissənin əlavə edilməsini təklif edirik: "2.4.6. prokurorun prosessual rəhbərliyi altında istintaq hərəkətlərinin aparılması".

Məhkəmə tapşırıqlarının icrası ilə bağlı Azərbaycan Respublikası qanunvericiliyinin təhlili göstərir ki, Azərbaycan Respublikasının cinayət işləri üzrə hüquqi yardım göstərilməsi ilə bağlı ikitərəfli müqavilələrlə və beynəlxalq konvensiyalarla bağlı olduğu ölkələrin qanunvericiliklərinin oxşarlığı səbəbindən, əsasən də roman-german hüquq sisteminə aid olmasına görə, hüquqi yardım çərçivəsində məhkəmə tapşırıqlarının icrasında heç bir hiss olunan çətinlik yoxdur. **Problemlər əsasən ayrı-ayrı istintaq hərəkətlərinin aparılması ilə bağlı ümumi tələblərlə deyil, nəticələrin rəsmiləşdirilməsi və bir sıra texniki xarakterli xüsusiyyətlərlə bağlıdır. Ancaq digər ölkələrlə, o cümlədən ümumi hüquq ölkələri ilə münasibətlərin inkişafı və genişləndirilməsi məhkəmə tapşırıqlarının icrasında prosessual problemlər yarada bilər ki, bunlar da ikitərəfli müqavilələr bağlanarkən nəzərə alınaraq, dəqiqləşdirilmə yolu ilə aradan qaldırılmalıdır.**

1.4. Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardımın həcmi

Hüquqi yardımın həcmi qarşılıqlı hüquqi yardımın əsas göstəricilərindən biri, onun səmərəliliyinin artırılmasının, dövlətlərin mövqelərinin yaxınlaşmasının əksidir. Hüquq ədəbiyyatında "cinayət işləri üzrə hüquqi yardım" anlayışı birmənalı şərh edilməmişdir. Belə ki, hələ 1974-cü ildə Şupilov V.P. hüquqi yardıma "*cinayətkarların verilməsi, həbsdə olan şahidlərin dindirilməsinə icazə verilməsi, cinayət yolu ilə əldə edilmiş əşyaların verilməsi (və ya dəyərinin ödənilməsi)"*ni aid edirdi [397, s.85]. D.V. Jukovanın qeyd etdiyi kimi, o, *"dövlətlərin cinayətkarlığa qarşı mübarizədə beynəlxalq əməkdaşlığının bütün digər formalarını əhatə edir"* [183, s.156].

Azərbaycan Respublikası və RF arasında hüquqi yardımla bağlı Müqaviləyə uyğun olaraq hüquqi yardım, sorğu göndərilən tərəfin qanunvericiliyində nəzərdə tutulan bütün prosessual hərəkətlərin icrasına, o cümlədən tərəflərin, təqsirləndirilən şəxslərin və müttəhimlərin, şahidlərin, ekspertlərin dindirilməsini, ekspertizaların keçirilməsini, məhkəmə baxışını, maddi sübutların verilməsini, cinayət işinin qaldırılmasını və cinayət törədən şəxslərin verilməsini, mülki işlər üzrə məhkəmə qərarlarının tanınmasını və icra edilməsini, digər tərəfin xahişi ilə təqsirləndirilən şəxsin məhkumluğu haqqında məlumatların təqdim edilməsini əhatə edir [2, s.358].

Azərbaycanın Türkiyə, Bolqarıstan, Gürcüstan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, İran, Litva və digər dövlətlərlə hüquqi yardım haqqında müqavilələrində, həmçinin Azərbaycan Respublikasının tərəf olduğu bir sıra konvensiyalar və çoxtərəfli müqavilələrdə oxşar məzmunlu normalar vardır.

Beləliklə, hüquqi yardımı tənzim edən Azərbaycan Respublikası Qanununun 2.1-ci maddəsində hüquqi yardımın sorğu verildiyi zaman sorğu edən xarici dövlətin müvafiq səlahiyyətli orqanı tərəfindən istintaq edilən və ya məhkəmə baxışında olan cinayətlə

bağlı bu Qanunun müddəalarına uyğun olaraq müvafiq hərəkətlərin həyata keçirilməsindən ibarət olması barədə təfsiri müvəffəqiyyətli hesab edilə bilər.

ETS №30 Avropa Konvensiyasının 1-ci maddəsinin I hissəsində hüquqi yardım ən geniş şəkildə verilmişdir, tərəflər Konvensiyaya uyğun olaraq geniş hüquqi yardım göstərilməsini nəzərdə tuturlar.

Azərbaycanın üzv olduğu beynəlxalq təşkilatlarla cinayətlərin araşdırılması və cinayət təqibi sahəsində geniş qarşılıqlı əlaqələri vardır (Əlavə 1). Azərbaycan Respublikasının milli qanunvericiliyi ilə müvafiq icra hakimiyyəti və ya başqa səlahiyyətli orqanın sorğunu milli qanunvericiliklə nəzərdə tutulmuş qaydada icra etməsi, hakimlərin sübutları CPM-nə uyğun olaraq qiymətləndirməsi nəzərdə tutulmuşdur. Hüquqi yardımın səlahiyyətin verilməsi kimi fərqləndirici xüsusiyyətinə diqqət yetirmək vacibdir, çünki digər dövlətin ərazisində cinayət təqibi zamanı və şəxsin cinayət təqibi üçün verilməsi zamanı bu səlahiyyətlər verilmir.

P.S. Abdulloyevin haqlı olaraq qeyd etdiyi kimi, *"yalnız cinayət təqibinin davam etdirilməsi üçün iş materiallarının sadəcə verilməsi deyil, məhz səlahiyyətlərin verilməsi vacibdir, çünki iş materialları göndərilərkən yalnız cinayət təqibi davam etmir, həm də iş müdafiə edilir və həll olunur"* [121, s.87].

Jukova D.V. qeyd edir ki, *"cinayətkarlıqla mübarizənin bütün üsulları içərisində hüquqi yardımın sorğu kimi forması, həmçinin cinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlığın yeni forması – birgə (beynəlxalq) istintaq və ya istintaq-əməliyyat qrupları ilə istintaqın aparılması ən təsirli üsullardır"* [183, s.158].

Beləliklə, hüquqi yardım problemi ilə bağlı olan çoxtərəfli hüquqi sənədlərə Azərbaycanın da qoşulduğu ETS №30 Avropa Konvensiyası və Əlavə Protokolu (1978); Minsk Konvensiyası və Kişinyov Konvensiyası aiddir.

Azərbaycan cinayət işlərinin araşdırılması və cinayət təqibi prosesində iştirakçı dövlətlər arasında beynəlxalq əməkdaşlığa yardım etmək məqsədi ilə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində bağlanmış bir sıra müqavilələrə, "Korrupsiyaya qarşı" Konvensiyaya (2003), "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyaya (2000), CED №141 Konvensiyasına (1990) və qarşılıqlı hüquqi yardım göstərilməsini nəzərdə tutan digər çoxtərəfli sənədlərə qoşulmuşdur.

Həmçinin GUAM-a üzv olan dövlətlərin hökumətləri arasında (Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovanın daxil olduğu regional təşkilat) terrorizm, mütəşəkkil cinayətkarlıq və digər təhlükəli cinayət növləri ilə mübarizə sahəsində əməkdaşlıq haqqında Sazişdə belə əməkdaşlıq çərçivəsində də yardım göstərilməsi nəzərdə tutulmuşdur. Azərbaycanın maliyyə kəşfiyyat bölmələri "Egmont" qrupunun üzvüdür; bu şəbəkənin üzvləri qarşılıqlı əlaqə əsasında terrorizmin maliyyələşdirilməsi, çirkli pulların yuyulması və predikat cinayətlər (korrupsiya daxil olmaqla) haqqında məlumat mübadiləsi edə bilirlər. Azərbaycanın cinayətlərin araşdırılması və təqibi sahəsində üzv olduğu beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqəsi Əlavə 2-də qrafik olaraq göstərilmişdir.

Azərbaycan Respublikasında beynəlxalq müqavilələr ratifikasiya aktları ilə qüvvəyə minir. Kişinyov Konvensiyasının 6-cı maddəsi hüquqi yardımın həcmini xahiş olunan dövlətin qanunvericiliyi ilə möhkəmləndirilmiş prosessual və digər hərəkətlərin icra olunması kimi müəyyən edir və onları sadalayır. ETS №030 Avropa Konvensiyasının 3-cü maddəsi hüquqi yardımın həcmini şahidlərin ifadələrinin alınması, maddi sübutların, materialların və ya sənədlərin verilməsi üzrə göndərilən istənilən tapşırıqların yerinə yetirilməsi kimi müəyyən edir.

Azərbaycan Respublikası CPM-nin 489.1-ci maddəsinə və hüquqi yardımı tənzim edən Qanunun 2.1-ci maddəsinə əsasən, hüquqi yardım xarici dövlətdə istintaq edilən və ya məhkəmə baxışında

olan cinayətlərlə bağlı müvafiq hərəkətlərin həyata keçirilməsindən ibarətdir. Qanunun 2.3-cü maddəsi göstərilən hüquqi yardımın tərkibinə daxil olan hərəkətləri sadalayır. Müqayisəli təhlillər göstərir ki, müxtəlif sənədlərdə həcm fərqli şəkildə təyin olunur: prosessual və digər hərəkətlər, hərəkətlər, cinayət işləri ilə bağlı istənilən göstəriş.

Azərbaycan Respublikası CPM-nin 7.0.37-ci maddəsi prosessual hərəkətləri proses iştirakçılarının hərəkətləri kimi, Türkmənistan CPM-nin 6-cı maddəsi prosessual hərəkətləri cinayət işinin gedişində görülən hərəkətlər kimi müəyyən edir. RF CPM-nin 5-ci maddəsinin 32-ci bəndində prosessual hərəkət bu Məcəllədə nəzərdə tutulmuş istintaq, məhkəmə və ya digər hərəkət kimi başa düşülür. Aydındır ki, RF CPM digər hərəkət altında istintaq və məhkəmə hərəkətlərinə daxil olmayan prosessual hərəkətləri nəzərdə tutmuşdur.

RF CPM-nin 453-cü maddəsi hüquqi yardımın həcminə xarici dövlətin ərazisində dindirmə, baxış, götürmə, axtarış, məhkəmə ekspertizası və ya bu Məcəllə ilə nəzərdə tutulmuş digər prosessual hərəkətlərin edilməsini daxil edir.

Qazaxıstan Respublikasının CPM-nin 557-ci maddəsi hüquqi yardımın həcminə prosessual və digər hərəkətləri daxil edir, lakin CPM prosessual hərəkətləri ümumi qaydada müəyyən edir, onların strukturunu vermir, yəni təsnifatını müəyyən etmir.

Milinchuk V.V. hüquqi yardımı *"...prosessual hərəkətlərin və əməliyyat-axtarış tədbirlərinin aparılması ilə bağlı istintaq tapşırıqlarının icrası üzrə sorğu edilən dövlətin daxili qanunvericiliyinə əsaslanan fəaliyyəti kimi"* müəyyən edir [267, s.19].

Mixaylenko K.E. və Evdokimov V.B. qeyd edirlər ki, *"Yardımın həcmi konkret ölkə ilə beynəlxalq əlaqələrin, münasibətlərin vəziyyətindən asılıdır. Beynəlxalq müqavilələr, ənənəvi olaraq hüquqi yardıma aid edilən münasibətlər kompleksi və ya konkret məsələlər üzrə bağlana bilər. Beynəlxalq hüquqi yardım göstərilməsi haqqında müqavilələrin yuxarıda göstərilən müddəaları ilə yanaşı,*

razılığa gələn dövlətlərin qanunvericiliyində ziddiyyətləri aradan qaldıran normalar ola bilər" [266, s.32].

Cinayət işləri üzrə hüquqi yardımın həcmi dövlətlərin cinayət-prosessual qanunvericiliyində nəzərdə tutulmuş prosessual hərəkətlərdən daha genişdir. Hesab edirik ki, dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardımın həcmi aşağıdakı kimi müəyyən edilməlidir: "Dövlətlər arasında hüquqi yardım sorğu edən dövlətin ərazisində baş verən, istintaq edilən və ya məhkəmə baxışında olan cinayətlə bağlı sorğu edilən dövlətin müvafiq səlahiyyətli orqanlarının daxili qanunvericilik əsasında müvafiq hərəkətlər barədə sorğularını yerinə yetirməsindən ibarətdir". "Cinayət işlərinə dair hüquqi yardım haqqında" Azərbaycan Respublikası Qanununun 2.1-ci maddəsinə "müvafiq" sözündən sonra "prosessual və digər hərəkətlərin" sözləri əlavə edilməklə dəyişiklik edilməsini təklif edirik.

Hüquqi yardımın həcmində hüquqi yardımın növlərini də fərqləndirirlər. Hüquqi yardımın həcminə daxil olan bu növlər beynəlxalq müqavilələr və dövlətin daxili qanunvericiliyi ilə müəyyən edilir.

Lazutin L.A. beynəlxalq hüquqi yardımın növlərinə "*axtarış, ekspertiza, götürmə, şahidlərin, təqsirləndirilən şəxslərin, müttəhimlərin dindirilməsi, hadisə yerinə baxış və s., sənədlərin verilməsi və göndərilməsi, ekspertlərin, zərərçəkmişlərin və ya şahidlərin dəvət edilməsi, iş üzrə sübut əhəmiyyəti ola biləcək və ya cinayət yolu ilə əldə edilmiş əşyaların verilməsini"* aid edir [252, s.44-45].

Hesab edirik ki, Lazutin L.A. tərəfindən təklif olunan təsnifatda digər prosessual hərəkətlər təsnifatın xaricində qalır, o cümlədən təşkilati xarakterli digər prosessual hərəkətlər nəzərə alınmır. Qeyd olunan digər prosessual hərəkətlər, o cümlədən təşkilati xarakterli digər prosessual hərəkətlərin kənarda qalması prosessual hərəkətlərin həyata keçirilməsinin, yəni icra edilməsinin rəsmiləşdirilməsi zamanı problemlərin yaranmasına, o cümlədən gələcəkdə onların sübut əhəmiyyətinin mübahisələndirilməsinə gətirə bilər. Hüquqi

yardımın bəzi hallarda əsas prosessual hərəkətlərlə məhdudlaşdırılmasını düzgün hesab etmək olmaz, belə yanaşma gələcək problemləri özü ilə gətirir.

Bojev V.P. və Qavrilov B.Y. cinayət işləri üzrə beynəlxalq hüquqi yardımın əsas növlərinə *"...- istintaq və digər prosessual hərəkətlər haqqında tapşırıqların yerinə yetirilməsi; - sorğu edən dövlətin ərazisində cinayət törətmiş sorğu edilən dövlətin vətəndaşlarının cinayət təqibi haqqında..."* və s. aid edirlər [367, s.463]. Bojev V.P. və Qavrilov B.Y. "beynəlxalq hüquqi yardım" ifadəsindən istifadə edir, ümumi anlayış vermədən yardımın əsas növlərini qeyd edirlər. Əlbəttə, yardımın növlərinin fərqləndirilməsi ilə razılaşırıq, ancaq yardımın hansı növünün əsas olması münasibətlərin hüquqi əsaslarından və intensivliyindən asılıdır.

Mixeenkova M.A. cinayət mühakimə icraatı sahəsində beynəlxalq əməkdaşlığın növlərini deyil, üç əsas formasını müəyyən edir: *"...(ekstradisiya);... sorğuların (tapşırıqların) icrası; prosessual sənədlərin, çağırışların və bildirişlərin təqdim edilməsi; və şəxslərin cəzasının çəkilməsi üçün verilməsi"*. Mixeenkova M.A. beynəlxalq hüquqi yardımın ən yeni formalarına *"... cinayət yolu ilə əldə edilmiş əmlakın və gəlirlərin beynəlxalq axtarışı, həbsi və müsadirəsini... müsadirə haqqında Avropa orderini... dövlətlərarası istintaq qruplarının yaradılmasını, Avropa həbs orderini"* aid edir [246, s.1255-1256, 1275-1278]. M.A. Mixeenkovanın vurğuladığı formalar cinayət işləri üzrə hüquqi yardım göstərilməsi çərçivəsində prosessual və digər hərəkətlərin tətbiqi üsullarıdır; əvvəlcə bu hərəkətlər müəyyən edilməli, sonra onların tətbiqi üsullarına keçilməlidir.

Qriqoryev V.N. hüquqi yardım göstərilməsi ilə bağlı dövlətlərin qarşılıqlı fəaliyyətinin əsas sahələrini fərqləndirir: "1. ...istintaq və digər prosessual hərəkətlərin yerinə yetirilməsi; 2. ...prosessual hərəkətlərin aparılması üçün çağırılmaya yardım etmək; 3. ...cinayət işinin materiallarının göndərilməsi; 4. ekstradisiya; 5. ...şəxsin

vətəndaşı olduğu dövlətdə cəza çəkməsi üçün verilməsi" [365, s.785]. Qriqoryev V.N. tərəfindən vurğulanmış istiqamətlər hüquqi yardımın növləridir və həm prosessual, həm də digər hərəkətləri əhatə edir, daha əhatəli hesab edilməlidir. Ancaq istiqamətlərin verilməsi sonrakı detallaşdırmanı, yəni bütün hüquqi yardım növlərinin istiqamətlər üzrə bölünməsini tələb edir. Bu isə nəzəri cəhətdən mübahisəli olmaqla yanaşı, təcrübəni də mürəkkəbləşdirir.

Voljenkina V.M. cinayət işləri üzrə hüquqi yardımın aşağıdakı növlərini müəyyən edir: *"1) prosessual və istintaq hərəkətlərinin aparılması; 2) ekstradisiya; 3) xarici məhkəmələr tərəfindən məhkum edilmiş şəxslərin vətəndaşı olduqları dövlətə verilməsi; 4) cinayət təqibinin həyata keçirilməsi; 5) əşyaların verilməsi"* [157]. Voljenkina V.M. cinayət işləri üzrə hüquqi yardımın formalarını deyil, yalnız növlərini fərqləndirir.

Cinayət təqibi subyektlərinin qarşılıqlı əlaqəsi prosessual və qeyri-prosessual formada həyata keçirilir. Cinayət təqibinin prosessual tərəfi cinayət-prosessual qanunvericiliklə ətraflı şəkildə tənzimlənir. Cinayət təqibinin prosessual forması mahiyyətcə cinayət təqibi orqanları arasında qarşılıqlı əlaqənin formasıdır. Cinayət təqibinin qeyri-prosessual formaları prosessual formalarla əlaqədardır və prosessual formanın realizəsi üçün həyata keçirilir. Azərbaycan Respublikası CPM-nin təhlili əsasında cinayət təqibinin aşağıdakı prosessual formaları fərqləndirilə bilər: 1) prokurorun istintaq qrupuna tapşırıq verməsi (84.5.4-cü maddə); 2) prokurorun ƏAT-nin keçirilməsini tapşırması (84.5.17-ci maddə); 3) prokurorun prosessual hərəkətlərin icrasını təhqiqat orqanına tapşırması (84.5.19-cu maddə); 4) yuxarı prokurorun prosessual rəhbərliyi digər prokurora tapşırması (84.8-ci maddə); 5) müstəntiqin təhqiqat orqanına ƏAT-nin aparılmasını tapşırması və məlumatlar alması (85.4.5-ci maddə); 6) müstəntiqin təhqiqat orqanına tapşırıqlar verməsi (85.4.6-cı maddə); 7) müstəntiqin ayrı-ayrı istintaq hərəkətlərinin

aparılmasını tapşırması (85.4.7-ci maddə); 8) prokurorun ibtidai istintaqın aparılmasını digər müstəntiqə tapşırması (85.5-ci maddə); 9) istintaq şöbəsinin (bölməsinin, idarəsinin) rəisinin (rəis olmadıqda müavininin) müstəntiqə və ya müstəntiqlər qrupuna tapşırıq verməsi (85.6.1-ci maddə); 10) təhqiqatçının tapşırıqlar verməsi (86.4.5-ci maddə); 11) təhqiqat orqanının ixtisaslaşmış təhqiqat qurumunun rəhbərinin təhqiqatçıya, yaxud təhqiqatçılar qrupuna tapşırıq verməsi (86.7.1-ci maddə); 12) Ali Məhkəmənin sədrinin hakimlərə tapşırıq verməsi (456.2; 466.1-ci maddələr).

Qeyd olunan qeyri-prosessual formalar prosessual hərəkətlərlə bağlıdır və onların icra olunması üçün həyata keçirilir. Onlar prosessual fəaliyyət çərçivəsində yerinə yetirilir və prosessual qərarların icrasının təmin edilməsi üçün vasitələr kimi xarakterizə oluna bilərlər.

Zuev S.V. cinayət təqibi subyektlərinin qarşılıqlı əlaqəsinin qeyri-prosessual formalarına "*1) məlumat mübadiləsi, 2) müsbət təcrübənin yayılması, 3) istintaq-əməliyyat qruplarının yaradılması, 4) birgə məqsədyönlü tədbirlərin həyata keçirilməsi, 5) ixtisasın artırılması, birgə seminarların, konfransların keçirilməsi, 6) təşkilati-sərəncamverici sənədlərin hazırlanması, 7) birgə məlumat nəşrlərinin buraxılması, 8) fəaliyyətlərin planlarının hazırlanması və təsdiq edilməsi"*ni daxil edir [208, s. 21]. Qeyd olunan qeyri-prosessual qarşılıqlı əlaqə formalarını qəbul edirik, lakin onlar məhdud xarakter daşıyır, qeyd olunanları nümunə kimi qəbul etmək olar.

Hüquqi yardımın qeyri-prosessual formaları prosessual formadan daha genişdir, lakin onlar birbaşa və ya dolayı yolla prosessual və digər hərəkətlərlə əlaqəlidir. Hüquqi yardımın qeyri-prosessual formalarına şahidlərin iştirakının təmin edilməsi, şahidlərə və digər şəxslərə çağırış vərəqəsinin təqdim edilməsi və s. aiddir (Əlavə 11).

Matveyçev Y.A. cinayət işləri üzrə standart hüquqi yardım növlərini sadalayır: *"- istintaq və digər prosessual hərəkətlərin*

aparılması; - cinayət məsuliyyətinə cəlb edilməsi və ya hökmün icra edilməsi üçün şəxslərin verilməsi; - cinayət təqibinin həyata keçirilməsi; - xarici dövlətin məhkəmə qərarının icrası; - digər yardım, o cümlədən informasiyanın verilməsi ilə əlaqədar yardımlar" [263, s.17]. Matveyçev Y.A. tərəfindən standart hüquqi yardım növlərinin müəyyən edilməsi nümunə kimi maraqlıdır, ancaq standartlaşdırma ilə razı deyilik, çünki standart növlər müxtəlif səbəblərdən, o cümlədən qarşılıqlı hüquqi yardım müqavilələrinin məzmunundan asılı olaraq dəyişir.

Dövlətlər arasında hüquqi yardım göstərilməsi üçün subyektlərin qarşılıqlı təsirinin prosessual və qeyri-prosessual formalarını tədqiq edərək belə qənaətə gəlmək olar ki, bu formalar dövlətlərin cinayət təqibi orqanlarının qarşılıqlı fəaliyyəti sahəsinə də tətbiq edilə bilər. Hüquqi yardımın növlərini təsnif edərkən həm prosessual, həm də qeyri-prosessual formalar nəzərə alınmalıdır. Bu məqsədlə aşağıdakı təsnifatı təklif edirik: 1) dövlətlərin beynəlxalq müqavilələrində və daxili qanunvericiliyində nəzərdə tutulmuş prosessual və digər hərəkətlər; 2) sorğu edilən dövlətin beynəlxalq müqavilələri və qanunvericiliyi ilə nəzərdə tutulmuş hər hansı digər yardım növü.

Hüquqi yardımın həcminin müəyyən edilməsinə üç əsas yanaşma mövcuddur: 1) yalnız prosessual hərəkətlər göstərilir və prosessual çərçivədə icra olunan digər hərəkətlərin də onun tərkibinə daxil olması nəzərdə tutulur; 2) həm prosessual, həm də digər hərəkətlər açıq şəkildə göstərilir; 3) hüquqi yardımın həcmi və ona daxil olan fəaliyyətlərin siyahısı konkret işlə məhdudlaşdırılır. Məsələn, korrupsiya, insan alveri və s. kimi sahələrdə, qarşılıqlı və ya müqaviləsiz əsasda yardım göstərildikdə belə məhdudiyyətlər tətbiq oluna bilər. Qeyd etmək lazımdır ki, hüquqi yardımın həcminin müəyyən edilməsində həm konvensiya, həm ikitərəfli müqavilələr, həm də müqaviləsiz əsaslarla göstərilən hüquqi yardımlarda bu yanaşmalardan biri və ya kombinasiyası tətbiq olunur.

Cinayət işləri üzrə sübut etmə və sübutetmənin həyata keçirilməsinin prosessual vasitələri geniş və dəqiq hüquqi tənzimlənməni tələb edir. Prosessual və digər hərəkətlər prosessual sübutetmə vasitəsi kimi tənzimlənməyə məruz qalmalıdır, çünki ən azı bir vasitənin hüquqi tənzimləmədən kənarda qalması qaçılmaz olaraq səhvlərə yol açır və iş üzrə qərarın qanuniliyinə mənfi təsir göstərir. Bu səbəbdən hesab edirik ki, iş üzrə sübutların nəticələrinin tanınması ilə bağlı problemlərin aradan qaldırılması üçün cinayət-prosessual qanunvericiliyə prosessual hərəkətlərin növləri və anlayışı ilə bağlı əlavələrin edilməsi zəruridir. Bu, istintaqı aparılan iş üzrə digər hərəkətlər barədə sorğuların icrası zamanı yaranan qeyri-müəyyənliklərin aradan qaldırılmasına yardım göstərə bilər.

Doğan Soyaslan hüquqi yardımın həcmini daha da genişləndirərək, ona aşağıdakıları da aid edir: *"Məhkəmə qərarları və prosessual icraat haqqında bildiriş, şahidlərin, zərərçəkmişlərin, müttəhimlərin və ya ekspertlərin xaricdə dinlənilməsi, cinayət* qeydlərinin mənşə ölkəsinə bildirilməsi, cinayət təqibi məqsədilə cinayət işi üzrə şikayət verilməsi" [115, s.117].

Hüquqi yardımın həcminə böyük əhəmiyyət verilməsi onun hüquqi yardımla bağlı sənədlərdə ilkin müəyyən olunması zamanı daha geniş əməkdaşlıq üçün imkanlar yaratması ilə bağlıdır. Bəzi hallarda dövlətlər daha az həcmlə qarşılıqlı hüquqi yardım münasibətlərinə başlamağa üstünlük verirlər ki, biz bunu doğru hesab etmirik. Çünki hüquqi yardımın həcmi geniş olduqda, bu, dövlətləri həm daxili qanunvericiliklərini təkmilləşdirməyə, həm də qarşılıqlı yardım zamanı məhkəmə tapşırıqlarının yerinə yetirilməsinin səmərəliliyinin artırılmasına kömək edir. Əlbəttə, insan hüquqlarının formalaşması prosesinin tarixən formal elan olunmadan keçməsini nəzərə alsaq, hüquqi yardımın həcminin geniş müəyyən edilməsi — yəni bəzi prosessual hərəkətlərin formal olaraq həcmə daxil edilməsini — dövlətlərin əməkdaşlıq marağının təzahürü kimi qiymətləndirmək olar. İkitərəfli və çoxtərəfli müqavilələrdə nəzərdə

tutulan prosessual və digər hərəkətlərin icrası təcrübəsinə müraciət etsək, görərik ki, nəzərdə tutulan hərəkətlərin qarşılıqlı icrasına başlanılması müəyyən zaman tələb edir, hətta bəzən nəzərdə tutulsa belə, hələlik onlardan istifadə olunmamışdır. Ancaq bu məsələnin əks aspekti də nəzərə alınmalıdır: yəni, formallığın uzun müddət davam etdirilməsi və formallığın aradan qaldırılması üçün qanunvericilik və digər tədbirlərin görülməməsi düzgün hesab edilməməlidir.

Əslində, hüquqi yardım haqqında müqavilələrdə hüquqi yardımın həcmi geniş nəzərdə tutulduqda, müqaviləyə dövlətlər tərəfindən müəyyən qeyd-şərtlər edilməlidir; yəni, müqavilələrin ayrı-ayrı müddəalarının qüvvəyə minməsi üçün konkret müddətlər və ya əlavə razılaşdırmalar nəzərdə tutula bilər. Buna görə də hüquqi yardımın həcminin geniş nəzərdə tutulması orada göstərilən prosessual və digər hərəkətlərin həyata keçirilməsi üzrə fəaliyyətlərin təkmilləşdirilməsinə və təcrübənin formalaşmasına xidmət edir.

II FƏSİL.
DÖVLƏTLƏR ARASINDA CİNAYƏT İŞLƏRİ ÜZRƏ HÜQUQİ YARDIM ÇƏRÇİVƏSİNDƏ AYRI-AYRI İSTİNTAQ, MƏHKƏMƏ VƏ DİGƏR HƏRƏKƏTLƏRİN YERİNƏ YETİRİLMƏSİNİN PROSESSUAL VƏ KRİMİNALİSTİK PROBLEMLƏRİ

2.1. Dövlətlər arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım çərçivəsində yerinə yetirilən istintaq hərəkətləri

Kişinyov və Minsk Konvensiyalarının 6-cı maddəsi müəyyən edir ki, razılığa gələn tərəflər onların qanunvericiliyi ilə nəzərdə tutulmuş prosessual və digər hərəkətlərin yerinə yetirilməsi yolu ilə qarşılıqlı hüquqi yardım göstərirlər. Kişinyov Konvensiyasının 6-cı maddəsi prosessual və digər hərəkətləri fərqləndirmir, onları sadalayır, onlara aid olan hərəkətlərin bir hissəsini qeyd edir. Azərbaycan qanunvericiliyi artıq qeyd etdiyimiz kimi "hərəkətlər" ifadəsindən istifadə edir və bu hərəkətləri sadalayır.

Hesab edirik ki, RF CPM-nin 5-ci maddəsinin 32-ci bəndi prosessual hərəkətləri daha dəqiq və ətraflı şəkildə müəyyən edir — bu Məcəllədə nəzərdə tutulmuş istintaq, məhkəmə və ya digər hərəkətlərdir. Lakin qanun prosessual hərəkətlərin tərkib hissələrinin tərifini vermir.

Rusiya, Azərbaycan, Qazaxıstan və Moldovanın CPM-də istintaq hərəkətlərinin anlayışı və növləri haqqında ümumi normanın olmaması təcrübədə iş üzrə nəticələrin sübut kimi tanınması ilə əlaqədar çətinliklər yarada bilər. Belə ki, bir sıra dövlətlərin qanunvericiliyində, məsələn, istintaq hərəkətlərinin siyahısı müxtəlifdir və ya bəzi hərəkətlərin istintaq hərəkətlərinə aid edilməsi mübahisəlidir və s. Bu problemlər özünü cinayət işləri üzrə hüquqi yardım göstərilməsində daha aydın göstərə bilər.

RF CPM-nin 157-ci maddəsi təxirəsalınmaz istintaq hərəkətlərinin aparılmasına, 164-cü maddəsi istintaq hərəkətlərinin aparılmasının ümumi qaydalarına, 165-ci maddəsi istintaq hərəkətlərinin aparılmasına məhkəmə qaydasında icazə alınmasına, 166-cı maddəsi istintaq hərəkəti protokoluna həsr edilmişdir. Bu maddələri təhlil edərək, hansı hərəkətlərin istintaq hərəkətləri olması qənaətinə gələ bilərik.

İstintaq hərəkətləri prosessual hərəkətlər kimi müxtəlif dövlətlərin cinayət-prosessual qanunvericiliyində az və ya çox dərəcədə hərtərəfli şəkildə işlənmişdir.

Azərbaycan Respublikası CPM-nin 134.2-ci maddəsi protokolları sübut kimi istifadə edilə bilən istintaq hərəkətlərini sadalayır: baxış; şəxsi müayinə; əşyaların və şəxsin tanınması; əmlak üzərinə həbs qoyulması, götürmə; axtarış; göndərişlərə həbs qoyulması; danışıqların, məlumatların əldə edilməsi və digər hərəkətləri əhatə edir.

Qazaxıstan Respublikası CPM istintaq hərəkətlərini birbaşa müəyyən etmir, lakin onları 119-cu maddədə dolayısı ilə sadalayır. Cinayət işi üzrə sübutlar, istintaq hərəkətlərinin protokollarında olan, cinayət prosesini aparan şəxs tərəfindən bilavasitə dərk edilən, baxış, müayinə, götürmə, axtarış, tutma, əmlak üzərinə həbs qoyulması, tanınmaya təqdim etmə, nümunələrin alınması, meyidin eksqumasiyası, ifadələrin yerində yoxlanması, sənədlərin təqdim edilməsi, istintaq eksperimenti, gizli istintaq hərəkətlərinin nəticələrinin təqdim edilməsi, maddi sübutların tədqiq edilməsi, istintaq hərəkətlərinin gedişində maddi sübutların tədqiqatı zamanı müəyyən edilən, həmçinin məhkəmə hərəkətlərinin gedişini və nəticələrini əks etdirən məhkəmə iclas protokolunda olan faktiki məlumatlar kimi müəyyən edilir.

Moldova Respublikası CPM-nin 163-cü maddəsi müəyyən edir ki, prosessual hərəkətlərin bu Məcəllənin tələblərinə uyğun olaraq tərtib edilmiş protokolları o halda sübutetmə vasitəsi hesab olunur

ki, baxış, şəxsi axtarış, yaşayış yerində axtarış, predmetlərin, sənədlərin və ya yazışmaların götürülməsi, ekspertiza üçün nümunələrin alınması, cinayət haqqında şifahi məlumatlar, tanınmaya təqdim etmə, eksqumasiya, ifadələrin yerində yoxlanılması, hadisələrin təkrar qurulması, telefon və digər danışıqlara qulaq asılması və digər sübutetmə üsullarının həyata keçirilməsi zamanı müəyyən edilmiş hallarla təsdiq olunurlar.

Azərbaycan Respublikası CPM-nin 177-ci maddəsi məcburi aparılan istintaq hərəkətlərini sadalayır. Lakin RF CPM-nin 157-ci maddəsi təxirəsalınmaz istintaq hərəkətlərinin aparılmasına həsr olunmasına baxmayaraq, bu hərəkətləri sadalamır və belə çıxır ki, bütün istintaq hərəkətləri təxirəsalınmaz hərəkətlərə aid edilə bilər. Əlbəttə, ilk baxışda bu maddə digər maddələrlə əlaqəli təfsir edilmədikdə bu nəticəni çıxarmaq olar.

A.Y. Suxarevin fikrincə, *""istintaq" və "prosessual" hərəkətlər arasında fərq istintaq hərəkətlərinin sübutların toplanmasına və ya yoxlanılmasına yönəldilməsindən ibarətdir; prosessual hərəkətlər daha geniş anlayışdır, tərkibinə yalnız istintaq hərəkətləri deyil, sübut etmə bazasının formalaşması ilə bilavasitə bağlı olmayan digər hərəkətlər də daxildir (məsələn, şəxsə ittiham elan edilməsi)"* [223, s.33]. Suxarev A.Y. istintaq hərəkətlərinin geniş mənasından çıxış edir, prosessual hərəkətlərin tərkibinə digər hərəkətləri də daxil edir.

Şeyfer S.A. istintaq hərəkətini *"sübutların toplanılması üsulu, ...sübutetmə informasiyasının* səmərəli axtarılmasına, dərk edilməsinə və möhkəmləndirilməsinə uyğunlaşdırılmış kompleksi" kimi müəyyən edir [389, s.38].

Adiqamova Q.Z. hesab edir ki, *"istintaq hərəkətləri digər prosessual hərəkətlərə münasibətdə ilkin mövqe tutur, çünki onlar cinayət işi üçün mühüm əhəmiyyəti olan halların sübut edilməsinə yönəlmişdir. İkincisi, digər prosessual hərəkətlər köməkçi xarakter daşıyır və cinayət işində sübutların daha obyektiv araşdırılmasına,*

qiymətləndirilməsinə və istifadəsinə, habelə cinayət prosesinin iştirakçılarının hüquqlarının qorunmasının təmin edilməsinə kömək edir" [123, s.9].

Şeyfer S.A. və Adiqamova Q.Z. ilə razılaşmaq olar, ancaq istintaq hərəkətlərinin ilkin mövqeyi ilə tam razılaşmaq olmaz, çünki bəzən digər prosessual hərəkətlərin də ilkin mövqe tutduğu hallar vardır; bu konkret müəyyən edilən halların cinayət işi üzrə əhəmiyyətindən asılıdır.

Azərbaycan Respublikası CPM-nin 124-cü maddəsi sübutların, 138.1-ci maddəsi isə sübutetmənin anlayışını verir və məntiqi olaraq, istintaq hərəkətləri cinayət işinin düzgün həll edilməsi üçün vacib olan halların müəyyən edilməsinə yönəldilmişdir və sübutların toplanmasına, iş üzrə faktiki halların müəyyən edilməsinə yönəldilməsə belə, bu hərəkətlər öz prosessual mahiyyətini itirmir.

Kuznetsov A.N. "istintaq hərəkəti" terminin yeni qanunvericilik anlayışını təklif edir: *"prokuror, müstəntiq, istintaq şöbəsinin müdiri, təhqiqat orqanı və ya təhqiqatçı tərəfindən həyata keçirilən və sübutların toplanılmasına yönəldilmiş prosessual hərəkətdir"* [243, s.8]. Bu tərifdə istintaq hərəkətlərinin geniş mənada tərifindən söhbət gedir, istintaq hərəkətləri ibtidai araşdırmanın həyata keçirilməsi ilə məhdudlaşdırılır, bütün prosessual hərəkətlər istisnasız daxil edilir.

Hesab edirik ki, prosesdə iştirak edən digər şəxslərin hərəkətləri sözün əsil mənasında prosessual hərəkətlərin sırasına aid deyildir. Onların hərəkətlərini yalnız ümumi mənada prosessual adlandırmaq olar. Ancaq onların iştirakı hərəkətlərin sübut əhəmiyyətinin yüksəldilməsinə, sübutların təmin edilməsinə yönəldilmişdir.

"Məhkəmə hərəkətləri" anlayışı qanunvericiliyin müəyyən etməsindən kənarda qalmışdır. S.A. Aleksandrovanın bu fikri ilə razılaşırıq ki, *"məhkəmə hərəkətləri, məhkəmənin cinayət mühakimə icraatında ... cinayət-prosessual qanunvericiliklə nəzərdə tutulmuş*

qaydada təşkilati rəhbərliyi altında məhkəmə iclasında həyata keçirilən prosessual hərəkətlər kimi müəyyən olunurlar" [125, s.7]. Aleksandrova S.A. məhkəmənin təşkilati rəhbərliyini qeyd edir, ancaq məhkəmə hərəkətlərini məhkəmə iclası ilə məhdudlaşdırır.

S.V. Starodumovun fikrincə, *"məhkəmə hərəkətləri öz təbiətlərinə görə prosessual hərəkətlərin sisteminə daxildirlər, tərkibinə təşkilati-təminat və istintaq xarakterli məhkəmə hərəkətləri daxil olan xüsusi struktura malikdirlər. İstintaq xarakterli məhkəmə hərəkətləri prosessual hərəkətlər sisteminə daxildir, lakin dəqiq bir anlayış və tərifə malik deyildirlər"* [342, s.127]. Məhkəmə hərəkətləri xüsusi struktura malikdirlər, ancaq onların istintaq xarakterli prosessual hərəkətlərlə məhdudlaşdırılması düzgün olmazdı.

Qanunverici tərəfindən məhkəmə hərəkətlərinin müəyyən edilməməsini onların məhkəmə tərəfindən həyata keçirilən, istisnasız olaraq prosessual hərəkətlər olan, təşkilati və istintaq xarakterli hərəkətlər kimi müəyyən edilməsi ilə əlaqələndiririk. Ancaq bu hərəkətlərin müəyyən edilməsi təşkilati və istintaq xarakterli hərəkətlərin müxtəlif kombinasiyalarda birləşməsinin də sübut əhəmiyyətinin artırılmasına, hüquqi müəyyənliklə təmin olunmasına xidmət edir.

Digər prosessual hərəkətlərə istintaq və məhkəmə hərəkətlərinin tərkibinə daxil olmayan prosessual hərəkətlər aiddir. Digər hərəkətlər əsasən sübutların toplanılması ilə bağlı olan prosessual xarakterli hərəkətlərdir (Əlavə 10).

Müstəntiqin digər prosessual hərəkətlərinə, cinayət işinin başlanması da daxil olmaqla, iş üzrə müstəntiq tərəfindən müxtəlif prosessual qərarların qəbulu daxil ola bilər.

Digər prosessual hərəkətlərə aid olan – cinayət işi üzrə sənədlərin, məlumatların, predmetlərin və onların yoxlanılmasının təhqiqat orqanı, təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən tələb edilməsi; məcburi gətirilmə haqqında qərarın çıxarılması; qətim-

kan tədbirinin seçilməsi; cinayət prosesi iştirakçılarından və ya ərizəçilərdən izahatların alınması; mütəxəssisin fikrinin öyrənilməsi və bir çox digər hərəkətlər həm də məhkəmə hərəkətləridirlər.

Bəzən "digər hərəkətlər"i təşkilati xarakterli qeyri-prosessual fəaliyyət adlandırırlar [137, s.13], ancaq bununla, əlbəttə, razılaşmaq olmaz, çünki təşkilati xarakterli hərəkətlər prosessual hərəkətlərlə bağlıdır və onların icra edilməsinə xidmət edir.

Balakşin V.S. hesab edir ki, "*Cinayət-prosessual qanunvericilikdə digər prosessual hərəkətlərin konkret və tam siyahısı olsaydı, onların həyata keçirilmə qaydasını, gedişatını və nəticələrinin qeyd edilmə formasını tənzimləsəydi, vəziyyət bu qədər kəskinlik əldə etməzdi. Lakin bu məsələlər də lazımi qaydada tənzim olunmamışdır"* [138, s.25]. Hesab edirik ki, digər prosessual hərəkətlərin tam siyahısı verilsəydi, həm istintaq, həm də məhkəmə hərəkətləri məhdudlaşdırılmış olardı.

Cinayət-prosessual qanunvericilik izahatların alınmasını və sübutların tələb edilməsini nəzərdə tutur, lakin onların icrasını tənzimləmir. Onlar cinayət-prosessual hüquq normaları əsasında vəzifəli şəxslər tərəfindən həyata keçirilir və buna görə də əməliyyat-axtarış tədbirləri sayıla bilməzlər – onlar prosessual hərəkətlərdir. Əməliyyat-axtarış tədbirlərinin aparılması qanunla və xüsusi qaydalarla müəyyən edilir.

Cinayət-prosessual qanunvericiliyə görə, tutma istintaq hərəkətlərinə aid edilmir. Nazarov S.N. hesab edir ki, *"tutma istintaq hərəkətlərindən onunla fərqlənir ki, istintaq hərəkətləri zamanı cinayət-prosessual idrak metodlarından (müşahidə, sorğu-sual, müqayisə, ölçmə, eksperiment, modelləşdirmə və təsvir) istifadə olunur".* Tutma zamanı bu üsullar tətbiq edilmir. *"...tutma istintaq hərəkəti deyil, digər prosessual hərəkətdir"* [271, s.48]. Hesab edirik ki, yalnız tutma deyil, bütün prosessual məcburiyyət tədbirləri digər prosessual hərəkətlərə aiddir.

Cinayət-prosessual hüquq elmində "istintaq hərəkəti" anlayışına fərqli yanaşmalar mövcuddur.

Qutsenko K.F. *"istintaq hərəkətlərinə... iştirakçıların prosessual mövqeyini müəyyən etməyə, onların gəlməsini və prosessual hüquqlarının həyata keçirilməsini, sübut əhəmiyyətli məlumatların əldə edilməsi imkanını təmin edən hərəkətləri"* aid edir [362, s.210]. Bu yanaşma ümumi yanaşmadır, istintaq hərəkətlərinin ümumi elementlərini təsvir edir, orijinallığı ilə fərqlənmir.

Bəzi müəlliflər bu mövqe ilə razılaşmırlar və bunu mübahisəli hesab edirlər, çünki bu, digər prosessual hərəkətlər arasında istintaq hərəkətlərinin əsassız olaraq fərqləndirilməsinə səbəb olur. Məsələn, istintaq hərəkətlərinin ciddi müəyyən edilmiş prosessual qaydada həyata keçirilməsi əlaməti istintaq və digər prosessual hərəkətlər arasında sərhəd xəttini çəkməyə imkan verir [327, s.5].

Prosessualistlərin əksəriyyəti, şübhəsiz ki, baxış, müayinə, istintaq eksperimenti, axtarış, götürmə, dindirmə, üzləşdirmə, tanınmaya təqdim etmə, ekspertizanın təyin edilməsini istintaq hərəkətləri hesab edirlər. Ancaq müəlliflər demək olar ki, bu siyahını qəti hesab etmirlər. Bu mövqe anlaşılandır, çünki, məsələn, Azərbaycan qanunvericiliyində istintaq hərəkətlərinin qəti siyahısı verilməmişdir. Ancaq eksqumasiya, şübhəli şəxsin tutulması, müqayisəli tədqiqat üçün nümunələrin alınması, ifadələrin yerində yoxlanılması, əmlakın üzərinə həbs qoyulması, telefon və digər danışıqlara nəzarət edilməsi və yazılması, ekspertizanın aparılması kimi hərəkətlərin istintaq hərəkətlərinə aid edilməsi mübahisəli olaraq qalır. Hesab edirik ki, bu hərəkətlər istintaq hərəkətlərinin cinayət-prosessual hüquq elmində işlənib hazırlanmış aşağıdakı xarakterik spesifik xüsusiyyətlərinə cavab verirlər: 1) sübutların əldə edilməsi imkanı; 2) istintaq hərəkətlərinin aparılmasının cinayət-prosessual qanunvericilikdə tənzimlənməsi; 3) cinayət mühakimə icraatının qanunla icazə verilən iştirakçıları tərəfindən həyata keçirilməsi.

Vnukov A.V. istintaq hərəkətlərinin *"ciddi şəkildə tənzimlənmə, toplama, yoxlama və qiymətləndirmə"* kimi əlamətlərini qeyd edir [333, s. 744]. Əslində, bu əlamətlər müxtəlif interpretasiyalarda digər müəlliflərdə də təkrar olunur.

Kalnitskiy V.V. və Larin E.Q. istintaq hərəkətlərinin *"iş üçün əhəmiyyətli olan halların müəyyən edilməsinə yönəldilməsi; müstəqil, ətraflı aparılması prosedurunun olması"* [328, s. 111] kimi əlamətlərini qeyd edirlər. Müəlliflərlə razılaşırıq ki, istintaq hərəkətlərinin nəticələri iş üçün sübut əhəmiyyətinə malik olduqlarına görə, onların aparılması prosedurunun detallı olması tələb olunur.

Bıxovskiy İ.E. *"istintaq hərəkətlərinin dərkedici mahiyyətini"* vurğulayır [150, s. 6–7]. Müəllifin istintaq hərəkətləri ilə bağlı "dərkedici" mahiyyəti vurğulaması anlaşılan deyil. Çünki istintaq hərəkətləri işin mahiyyətinin və iş üzrə həqiqətin aşkar edilməsinə yönəldiyindən, onları dərkedici mahiyyətdən kənarda təsəvvür etmək mümkün deyil.

Çuvilev A.A. və Dobrovolskaya T.N. *"prosessual hərəkətin iş üçün əhəmiyyətli olan halların müəyyən edilməsinə istiqamətlənməsi"* xüsusiyyətini fərqləndirirlər [385, s. 35]. Bıkov V.M. və Jmurova E.S. bu mövqe ilə razılaşmır və qeyd edirlər ki, *"...sübutların toplanmasının digər üsulları da iş üçün əhəmiyyətli olan halların müəyyən edilməsinə istiqamətlənə bilər"* [330, s. 131].

A.A. Çuvilev və T.N. Dobrovolskaya həmçinin *"istintaq hərəkətlərinin cinayət-prosessual normalarla tənzimlənməsi"*ni də bu hərəkətlərin əlaməti kimi göstərirlər [385, s. 33].

Qeyd olunan müəlliflərin fikirlərinin təhlili əsasında belə nəticəyə gəlmək olar ki, istintaq hərəkətləri qanunla tənzimlənməlidir. Bu hərəkətlər cinayət mühakimə icraatında yalnız qanunla səlahiyyət verilmiş iştirakçılar – təhqiqatçı, müstəntiq, istintaq şöbəsinin rəisi və prokuror tərəfindən aparılmalıdır. Çünki istintaq hərəkətinin səlahiyyətsiz şəxs tərəfindən həyata keçirilməsi həmin hərəkət

üzrə tərtib olunmuş protokolun sübut əhəmiyyətini itirməsinə səbəb olur.

Bıkov V.M. və Jmurova E.S. istintaq hərəkətlərini *"səlahiyyətli vəzifəli şəxslər tərəfindən müəyyən əsaslar olduqda və xüsusi, ciddi müəyyən edilmiş qaydada həyata keçirilən və nəticədə iş üzrə sübut əldə etmək mümkün olan prosessual hərəkətlər qrupu*" kimi müəyyən edirlər [330, s. 130–131]. İstintaq hərəkətlərinin ciddi müəyyən edilmiş qaydada həyata keçirilməsi meyarı onun sübut əhəmiyyətinin etibarlı təmin edilməsi ilə bağlıdır.

Poluyanova E.V. istintaq hərəkətinə aşağıdakı anlayışı verir: *"İstintaq hərəkəti — cinayət işləri üzrə sübutlar qismində əldə edilmiş məlumatların aşkar edilməsi, toplanılması, yoxlanılması, qiymətləndirilməsi və istifadə edilməsi üçün məhkəmə istintaqı çərçivəsində sübutetmə subyekti tərəfindən həyata keçirilən dərkedici xarakterli prosessual hərəkətdir"* [290, s. 10–11]. Poluyanova E.V. prosessual hərəkətlərin dərkedici xarakterini qeyd edir. Fikrimizcə, ümumilikdə bütün prosessual hərəkətlərin dərkedici xarakteri qəbul edilməlidir, ancaq onu həlledici meyar kimi qiymətləndirmək düzgün olmazdı. Əlbəttə, birbaşa dərkedicilik xüsusiyyəti qeyd oluna bilər.

Kuznetsov A.N. istintaq hərəkətlərini *"...sübutların toplanmasına yönəlmiş, prokuror, müstəntiq, istintaq şöbəsinin rəisi, təhqiqat orqanı və ya təhqiqatçı tərəfindən həyata keçirilən prosessual hərəkət"* hesab edir [243, s. 8; 244, s. 12].

Rossinski S.B. yazır ki, *"istintaq hərəkətinin ilk əsas əlaməti onun prosessual xarakteridir"* [309, s. 12].

Rossinski S.B. ilə razılaşmırıq və hesab edirik ki, ifadələrin yerində yoxlanılması, şübhəli şəxsin tutulması, telefon və digər danışıqların yoxlanılması və qeydə alınması, əmlakın üzərinə həbs qoyulması, meyitin eksqumasiyası, müqayisəli tədqiqat üçün nümunələrin alınması, məhkəmə ekspertizası kimi prosessual hərəkətlə-

rin istintaq hərəkətlərinə aid edilməsi nöqteyi-nəzərindən onlar mübahisəli sayılsalar da, göstərilən istintaq hərəkəti əlamətlərinə cavab verdiklərinə görə istintaq hərəkətləri kimi tanınmalıdırlar. Rossinski S.B. onları ənənəvi (tipik) istintaq hərəkətləri hesab etmir, onları *"prosessual kombinasiyalar"* adlandırır [309, s. 54–56]. Hesab edirik ki, bu hərəkətlər də prosessual xarakter daşıyırlar və digər meyarlarla yanaşı, bu xüsusiyyətin də mövcudluğu onları istintaq hərəkəti edir. S.B. Rossinskinin yanaşmasından çıxış edərək bu əsasda sonrakı təsnifat aparmaq mümkündür.

RF, Azərbaycan Respublikası, Moldova Respublikası və Qazaxıstan Respublikasının qanunvericiliyinin müqayisəsi göstərir ki, istintaq hərəkətləri əsasən adlarında prinsipial hesab edilməyəcək fərqlər olsa da, məzmunca fərqlənmirlər.

Məhkəmə iclasında həyata keçirilə bilən istintaq hərəkətləri dairəsi dindirmə, məhkəmə ekspertizalarının aparılması, ərazilərə və binalara baxış keçirilməsi, istintaq eksperimenti, tanıma və müayinə ilə məhdudlaşır. Bu istintaq hərəkətlərinin özünəməxsus xüsusiyyətləri vardır: onların aparılmasında hal şahidlərinin iştirakı nəzərdə tutulmur, onlar məhkəmənin təşəbbüsü ilə həyata keçirilir, formal əsasları ilə fərqlənirlər, və onların sırasında qəflətiliklə səmərəliliyi müəyyən edilən axtarış və digər istintaq hərəkətləri yoxdur.

Yuxarıda göstərilənlərdən çıxış edərək hesab edirik ki, cinayət işləri üzrə hüquqi yardım göstərilməsi prosessual hərəkətlərdən ibarətdir və istintaq hərəkətləri bu hərəkətlərin tez-tez yerinə yetirilən əsas hissəsidir. Demək olar ki, bütün istintaq hərəkətləri hüquqi yardım qaydasında icra oluna bilər. Buna görə də, hüquqi yardım haqqında beynəlxalq və ikitərəfli müqavilələrlə bağlı olan ölkələrin cinayət-prosessual qanunvericiliyində istintaq hərəkətlərinin daha ətraflı tənzimlənməsi, habelə prosessual hərəkətlərin tərkib hissələrinin müəyyən edilməsi tələb olunur.

Cinayət-prosessual qanunvericilikdə istintaq hərəkətlərinin anlayışı və növləri haqqında normaların olmaması səbəbindən iş üzrə

sübutların nəticələrinin tanınması ilə bağlı problemlərin aradan qaldırılması məqsədilə qanunvericiliyə aşağıdakı məzmunda müvafiq dəyişikliklərin edilməsini təklif edirik: İstintaq hərəkəti – baxış; müayinə; istintaq eksperimenti; axtarış; götürmə; poçt, teleqraf və digər göndərişlərin üzərinə həbs qoyulması, axtarış və götürmə; telefon və digər rabitə qurğuları ilə aparılan danışıqların, eləcə də digər texniki kanallar vasitəsilə ötürülən məlumatların tutulması; dindirmə; üzləşdirmə; tanınmaya təqdim etmə; ifadələrin yerində yoxlanılması; məhkəmə ekspertizasının aparılması; eksqumasiya; əmlakın üzərinə həbs qoyulması; istintaq eksperimenti; tədqiqat üçün nümunələrin götürülməsi; elmi-texniki və məhkəmə-tibbi tədqiqatlar – bir qayda olaraq başlanmış cinayət işi üzrə və məhkəmə istintaqı mərhələsində, iş üzrə sübutların aşkar edilməsi, toplanılması, yoxlanılması, qiymətləndirilməsi və istifadə edilməsi məqsədilə prokuror, müstəntiq və məhkəmə tərəfindən həyata keçirilən prosessual hərəkətdir.

2.2. Dövlətlər arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım çərçivəsində yerinə yetirilən məhkəmə hərəkətləri

Qarşılıqlı hüquqi yardımın həcmini müəyyən edən Kişinyov Konvensiyasının 6-cı maddəsində məhkəmə hərəkətləri ayrıca olaraq göstərilmir; ümumilikdə isə prosessual və digər hərəkətlər arasında fərqləndirmə aparılmır. Hüquqi yardım göstərilməsini tənzimləyən milli qanunvericilik də bu anlayışdan istifadə etmir və onun konkret hüquqi məzmununu müəyyən etmir (Azərbaycan Respublikasının "Cinayət işləri üzrə hüquqi yardım haqqında" Qanunu və Cinayət-Prosessual Məcəlləsinin 7.0.37-ci maddəsi).

Azərbaycan Respublikası CPM-də məhkəmə hərəkətlərinin tərifinin verilməməsinə baxmayaraq, Məcəllənin müəyyən hissələrində bu ifadədən istifadə olunur. Məsələn, Azərbaycan Respubli-

kası CPM sübutlara istintaq və məhkəmə hərəkətlərinin protokollarını aid edir (124.2.4-cü maddə); şəxsi həyat haqqında məlumatların yayılmaması üçün tədbirlər görülməsini, bu barədə iltizam alınmasını möhkəmləndirir (199.2-ci maddə); eyni qaydaları peşə və kommersiya sirrinin qorunmasına da aid edir (201.2-ci maddə); prosesdən kənarlaşmış hakim digər hakimlə əvəz edildikdə, məhkəmə hərəkətləri təkrarlandıqdan sonra məhkəmə baxışının davam etdirilməsi nəzərdə tutulur (309.3 və 309.4-cü maddələr); hökm və ya qərarlara yeni açılmış hallar üzrə baxılması üçün əsaslarla bağlı məhkəmə hərəkəti protokollarının saxtalığının müəyyən edilməsi qaydasını göstərir (461.0.1-ci maddə).

Hüquqi yardımı tənzim edən Azərbaycan Respublikası Qanununun 2.3-cü maddəsi hüquqi yardım göstərilməsi ilə bağlı yalnız "hərəkətlər" anlayışından istifadə edir.

Azərbaycan Respublikası və Moldova Respublikası arasında (2004) və Litva Respublikası arasında (2001) bağlanmış müqavilələrin 3-cü maddəsi hüquqi yardımın sorğu edilən dövlətin qanunvericiliyi ilə müəyyən edilmiş bütün prosessual hərəkətlərin icrasını əhatə etdiyini göstərir. "Məhkəmə hərəkətləri" anlayışının qanunvericilik qaydasında müəyyən edilmədən kənarda qalması, artıq qeyd etdiyimiz kimi, bu ifadənin sadəliyi və ilk baxışda, istisnasız olaraq, prosessual hərəkətlər olan məhkəmənin həyata keçirdiyi hərəkətlər kimi başa düşülməsi ilə bağlıdır. Ancaq qeyd etdiyimiz kimi, məhkəmə hərəkətləri prosessual xarakter daşıyır, sübutetmə prosesinə xidmət edir və onun anlayışının, həyata keçirilməsinin qanunvericilik qaydasında möhkəmləndirilməsi vacibdir.

Aleksandrova S.A. məhkəmə hərəkətlərini *"...məhkəmənin (hakimin) təşkilati rəhbərliyi altında ...cinayət-prosessual qanunvericiliklə nəzərdə tutulmuş qaydada həyata keçirilən prosessual hərəkətlər"* kimi müəyyən edir və məhkəmə hərəkətləri sisteminin yarımsistemlərini müəyyənləşdirir: *"məhkəmə-nəzarət hərəkətləri,*

istintaq xarakterli məhkəmə hərəkətləri, məhkəmənin təşkilati-təminat hərəkətləri" [125, s. 7–8]. S.A. Aleksandrovanın məhkəmə hərəkətlərinin yarımsistemlərə bölgüsü bu hərəkətlərin prosessual xarakterini bir daha göstərir, onların dairəsinin düzgün müəyyən edilməsinə, onlardan hər hansı birinin kənarda qalmamasına kömək edir.

Rumyantseva İ.V. qeyd edir ki, *"...əraziyə və binalara baxış, istintaq eksperimenti, tanınmaya təqdim etmə və müayinə məhkəmə tərəfindən taktiki tövsiyələrdən istifadə edilməklə həyata keçirilir və buna görə də məhkəmə tərəfindən həyata keçirilən hərəkətlər kimi məhkəmə istintaqının taktikasının strukturuna aid edilə bilər"* [312, s. 11]. Qeyd olunan hərəkətlərin məhkəmə istintaqının taktikasına aid edilməsi ilə razılaşmaq olar, çünki onlar prosessual xarakter daşıyır və bu xarakter prosessual qanunvericilikdə detallı tənzimlənməklə bir daha müəyyən edilməlidir. Ayrıca məhkəmə istintaqının taktikasından danışılmasını da düzgün hesab etmək olar, çünki istintaq taktikasının ümumi müddəalarından istifadə olunsa da, bu taktikada istintaqı aparan subyektlə bağlı xüsusiyyətlər öz əksini tapmalıdır.

Ədəbiyyatda məhkəmə hərəkətlərinin onu həyata keçirən subyektdən asılı olaraq yalnız məhkəmə iclasının keçirilməsi ilə məhdudlaşdırılması barədə fikirlərə rast gəlmək olur və bunu ilk baxışda hərəkətlərin məhkəmənin adı ilə bağlı olması ilə əlaqələndirmək olar. Lakin məhkəmənin iclasdan kənar prosessual fəaliyyəti də vardır, məsələn, yaşayış yerinə, xidməti və ya istehsalat binalarına baxış məhkəmə tərəfindən də həyata keçirilə bilər.

Aleksandrova S.A. məhkəmə hərəkətlərini məhkəmə iclası ilə məhdudlaşdırır: *"Məhkəmə hərəkətləri yalnız məhkəmə iclası çərçivəsində həyata keçirilir; məhkəmə hərəkətinin nəticəsi prosessual sənədlə (məhkəmə iclasının protokolu və (və ya) qətnamə (qərar)) ilə möhkəmləndirilir*" [125, s.8].

Azərbaycan Respublikasının qanunvericiliyi prosessual hərəkətləri müəyyən etmədən istintaq və digər prosessual hərəkətlərə bölür.

Suxareva A.Y. istintaq və prosessual hərəkətlərin fərqini belə izah edir ki, *"... istintaq hərəkətləri sübutların toplanılmasına və ya yoxlanılmasına yönəldilmişdir, prosessual hərəkətlər isə tərkibinə təkcə istintaq hərəkətlərini deyil, həm də sübut bazasının formalaşması ilə birbaşa bağlı olmayan digər hərəkətləri daxil edən daha geniş bir anlayışdır (məsələn, şəxsə ittiham elan edilməsi)"* [223, s.33]. Suxareva A.Y. ilə razılaşmayaraq qeyd etmək istərdik ki, əslində bütün prosessual və digər hərəkətlər sübut bazasının formalaşmasına xidmət edir, bunun birbaşa və dolayısı ilə olmasının heç bir əhəmiyyəti yoxdur.

İstintaq hərəkətləri cinayət işinin düzgün həll edilməsi üçün vacib olan halların müəyyən edilməsinə yönəldilmişdir və onlar sübutların toplanılmasına, işə aid olan faktiki halların müəyyən edilməsinə yönəlmədikdə belə öz prosessual mahiyyətlərini itirmirlər. *"Sübutun forması onun əldə edilməsi və xarici ifadəsinin üsuludur ... işə aid olan məlumatlar yalnız qanunda göstərilən qaydada əldə edildikdə və qanunla müəyyən edilmiş forma aldıqda sübut olacaqlar"* [392, s.14].

Kalnitskiy V.V. və Larin E.Q.-nin *"İstintaq hərəkətləri prosessual hərəkətlərdir"* fikri ilə tam razılaşırıq və bu iddianı istisnasız hesab edirik [328, s.17].

Araşdırmanın nəticələrini ümumiləşdirərək bildirmək olar ki, məhkəmə hərəkətləri məhkəmə tərəfindən baxılan cinayət işi üzrə aparılan prosessual xarakterli hərəkətlərdir, iş üzrə sübutların toplanılmasına xidmət edir və Azərbaycan Respublikası CPM-də kifayət qədər geniş nəzərdə tutulmuşdur (Əlavə 9).

Bu məhkəmə hərəkətləri təbiətinə görə nəzarət, istintaq və təşkilati-təminat hərəkətləridir. Bütün bu məhkəmə hərəkətlərinin əsas fərqləndirici xüsusiyyəti onların məhkəmənin səlahiyyətinə

aid olması, iş üzrə cinayət təqibi çərçivəsində həyata keçirilməsi və prosessual hərəkətlər kimi məhkəmə qərarı ilə rəsmiləşdirilməsidir. Məhkəmənin həyata keçirdiyi bütün istintaq və digər hərəkətlər məhkəmə hərəkətlərinə aiddir. Qanunla nəzərdə tutulmuş bütün məhkəmə hərəkətləri cinayət işləri üzrə hüquqi yardım göstərilməsi qaydasında həyata keçirilə bilər. Bu hərəkətlərdən bəziləri bilavasitə məhkəmə tapşırıqlarının predmeti ola bilər, digərləri isə məhkəmə tapşırıqlarının yerinə yetirilməsi üçün tətbiq olunur. Qanunvericilikdə "məhkəmə hərəkətləri" anlayışının olmaması məhkəmə tapşırıqlarının icrası zamanı onların başa düşülməsində və həyata keçirilməsində, dolayısı ilə sübutların qiymətləndirilməsində çətinliklər yarada bilər.

"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa əsasən, məcəllələşdirilmiş normativ hüquqi aktın ümumi hissəsi fundamental müddəaları (prinsiplər, anlayışların tərifi, əsas təsisatlar) əks etdirməlidir (31.2.1-ci maddə). Prosessual hərəkətlərin konsepsiyasından, mahiyyətindən və rolundan çıxış edərək hesab edirik ki, prosessual hərəkətlər — yəni istintaq, məhkəmə və digər prosessual hərəkətlər — CPM-nin fundamental müddəalarına aiddir və CPM-də öz əksini tapmalıdır. Bu fundamental müddəaların cinayət-prosessual qanunvericilikdə əks olunması onların sübut əhəmiyyətinin artırılmasına və daha dəqiq aparılmasına xidmət edir. Məhkəmə hərəkətlərinin təbiətinə görə nəzarət, istintaq və təşkilati-təminat hərəkətləri olması onun prosessual xarakterinə heç bir təsir göstərmir, bütün hərəkətlərə qarşı eyni tələblər irəli sürülməlidir. Məhkəmə hərəkətlərinin təbiətinə görə bölgüsü həm nəzəri xarakter daşıyır, həm də məhkəmə hərəkətlərinin qruplaşdırılmasına və həyata keçirilməsi taktikasının dəqiqləşdirilməsinə xidmət edir.

Araşdırmanın nəticələrini ümumiləşdirərək hesab edirik ki, bütün anlayışların başa düşülməsi və həyata keçirilməsində vahid yanaşmanın tətbiqinin təmin olunması və dövlətlər arasında cinayət

işləri üzrə hüquqi yardım haqqında qanunvericiliyin formallığının artırılması məqsədilə Azərbaycan Respublikası CPM-nə prosessual hərəkətlərin tərifi daxil edilməli, həmçinin CPM-in 7.0.37-ci maddəsi aşağıdakı redaksiyada verilməlidir: "Prosessual hərəkətlər — cinayət prosesi iştirakçılarının bu Məcəllədə nəzərdə tutulmuş və onun müddəalarına uyğun olaraq həyata keçirdikləri istintaq, məhkəmə və digər prosessual hərəkətlərdir; məhkəmə hərəkətləri — məhkəmənin və məhkəmənin göstərişi ilə digər iştirakçıların həyata keçirdiyi prosessual hərəkətlərdir."

2.3. İstintaq, məhkəmə və digər hərəkətlərin yerinə yetirilməsi barədə məhkəmə sorğularının icra edilməsinin prosessual problemləri

Tərəflər, sorğu edilən tərəfin qanunvericiliyində nəzərdə tutulan, bəzən əsas fərqləri ehtiva edən prosessual və digər hərəkətləri yerinə yetirməklə hüquqi yardım göstərirlər. Cinayət-prosessual qanunvericiliyin müddəalarında bu əsaslı fərqliliklərə və bəzi hallarda qəbuledilməzliyə görə, hüquqi yardım çərçivəsində sorğuların icrasında hüquqi yardımdan imtina ilə bağlı ciddi problemlər yarana bilər.

Sorğu edən dövlətin məhkəmə tapşırığının icrası cinayət prosesinin prinsipləri ilə ziddiyyət təşkil etdiyi hallarda Azərbaycan tərəfi tapşırığı yerinə yetirməkdən imtina edir.

Təcrübədə sorğu edən tərəfin məhkəmə tapşırığının icrası, milli qanunvericiliyə əsasən ifadə vermək öhdəliyindən azad edilmiş şəxslərin iştirakı ilə bağlı hallarla əlaqəli ola bilər. Azərbaycan Respublikasının qanunvericiliyi ifadə vermək öhdəliyindən azad edilmənin xüsusi hallarını nəzərdə tutur.

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin (CPM) 20.1-ci maddəsi əlavə olaraq ifadə verməyə görə təqib olunmasını qadağan edir. CPM-nin 20.2-ci maddəsi isə öz mülahizəsinə

əsasən ifadə vermək və ya ifadə verməkdən imtina etmək məsələsinin həll edilməsinə imkan verir.

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən vəkillər hüquqi yardım göstərilməsi ilə əlaqədar onlara məlum olmuş hallar üzrə şahid kimi çağırıla və dindirilə bilməzlər. ABŞ Nümunəvi Qaydalarında isə konfidensiallıqla bağlı Azərbaycan qanunvericiliyində nəzərdə tutulmayan iki istisna mövcuddur. Birincisi, *"vəkil müştərinin qaçılmaz olaraq ölümə və ya ağır yaralanmaya səbəb ola biləcək bir cinayət törətmək niyyətində olduğuna inanırsa, müvafiq orqanlara məlumat vermək hüququna malikdir"*. İkincisi isə, *"vəkil müştəri ilə münaqişə halında mövqeyini sübut etmək və ya müdafiə etmək məqsədilə müştərinin məxfi məlumatlarını açıqlaya bilər"* [371, s.289].

RF, Qazaxıstan Respublikası, Moldova Respublikası və Azərbaycan Respublikası CPM-nin müvafiq müddəalarının müqayisəsi göstərir ki, Moldova Respublikası CPM-də şahidlik immuniteti hüququ olan şəxslərin dairəsi digərlərindən daha genişdir. Məsələn, digər qanunvericilik aktlarında nəzərdə tutulmasına baxmayaraq, Azərbaycan Respublikası CPM-də deputatların və İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) ifadə verməkdən azad edilməsi nəzərdə tutulmamışdır.

Hesab edirik ki, Müvəkkilin də şahidlik immuniteti hüququ olmalıdır, müraciət edən şəxslərin şəxsi və ailə həyatı barədə məlumatlar haqqında ifadə verməkdən imtina etmək hüququna malik olmalıdır.

"Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 53-cü maddəsi həkim sirrini tənzimləyir və buraya tibbi yardımla bağlı müraciət etmə, diaqnozu və s. məlumatlar aiddir. Bu məlumatlar xəstənin müayinə və müalicəsinin mənafeyi naminə və s. məqsədlərlə yalnız xəstənin və ya onun nümayəndəsinin razılığı ilə verilə bilər. Fikrimizcə, Moldova Respu-

blikası CPM ailə həkimlərinin və xəstəyə qulluq edən digər şəxslərin şahidlik immunitetini təmin edir, xidmət etdikləri şəxslərin şəxsi həyatı ilə əlaqədar olaraq, onların şəxsi toxunulmazlığını daha etibarlı şəkildə qoruyur və eyni müddəalar milli qanunvericiliyə də daxil edilməlidir.

Azərbaycan qanunvericiliyi din xadiminin vəzifələrini yerinə yetirməsi ilə əlaqədar onlara məlum olan hallar üzrə ifadə verməkdən azad edilməsini nəzərdə tutmur. Azərbaycanda qeydiyyatdan keçmiş bəzi dini qurumlarda və təriqətlərdə din xadiminə etiraf və günahların bağışlanılması institutu vardır. Buna görə də hesab edirik ki, Azərbaycan Respublikası CPM-nə müvafiq dəyişikliklər edilməlidir.

Təcrübədə sorğu edən dövlətin məhkəmə tapşırığının icrası zamanı milli qanunvericiliyə əsasən ifadə vermək vəzifəsindən azad edilən şəxslərin cəlb olunması ilə bağlı olan hallar mümkündür. Ancaq ifadə vermək vəzifəsindən azad edilmə həmin şəxsin şahid kimi digər istintaq hərəkətlərinin yerinə yetirilməsindən azad olunmasını bildirmir.

Şahidlik immunitetini toxunulmazlıqdan fərqləndirmək lazımdır, əsas fərq ondan ibarətdir ki, toxunulmazlıq onu təqdim edən orqan tərəfindən götürülə bilər, məsələn, diplomatın statusundan məhrum edilməsi.

Başqa bir məsələ şahidlik immunitetindən şəxsin imtina etməsidir. Hesab edirik ki, şahid immunitetindən yalnız könüllü imtina edilə bilər. Əlbəttə, insan hüquqlarının qorunması, cinayətlərin qarşısının alınması və digər məqsədlə şahidə immunitetdən imtina etməsi təklif oluna bilər və bu təzyiq xarakteri daşımamalıdır. Şahid immunitetdən imtina edirsə, ona edilən təklif də dindirmə sənədlərində öz əksini tapmalıdır.

Şahidlik immuniteti olan şəxslərə insan həyatının qorunması, cinayətlərin qarşısının alınması məqsədilə ifadə vermələri təklif

olunduqda, bu təklif əsaslandırılmalıdır və yenə də hesab edirik ki, şahid immunitetindən imtina etməmək hüququnu özündə saxlayır.

Müxtəlif dövlətlərin qanunvericiliyinin müqayisəli tədqiqi göstərir ki, bəzi istintaq və digər hərəkətlərin edilməsi qaydaları fərqlidir. Məsələn, obyektlərin və sənədlərin axtarışı və ya götürülməsi zamanı iştirak edənlərin dairəsi fərqli şəkildə müəyyən olunur. Moldovada axtarış və ya götürmə aparılan şəxsin və ya onun yetkinlik yaşına çatmış ailə üzvlərinin və ya onun maraqlarını təmsil edən şəxslərin iştirakı təmin edilir. Bu şəxslərin iştirakı mümkün olmadıqda, yerli dövlət idarəçiliyinin icra orqanının nümayəndəsi dəvət olunur. Qazaxıstan Respublikasının qanunvericiliyinə görə, axtarış və götürmə zamanı binada yaşayan şəxslərin iştirakı məcburi deyildir, qanunla yalnız onların razılığının alınması nəzərdə tutulur. Azərbaycan Respublikası CPM axtarış və ya götürmə zamanı hal şahidlərinin və digər şəxslərin iştirakını qeyd edir (244-cü maddə). RF CPM binada axtarış zamanı barəsində axtarış aparılan şəxsin, yaxud onun həddi-buluğa çatmış ailə üzvünün iştirakını nəzərdə tutur (182-ci maddə). Axtarış zamanı mənzilində axtarış aparılan şəxsin müdafiəçisi, həmçinin vəkil iştirak edə bilər.

Azərbaycan Respublikasının, Moldova Respublikasının, RF-nın axtarış və götürmə haqqında qanunvericiliyinin müqayisəsi göstərir ki, axtarış və götürmədə iştirak edən şəxslərin əhatə dairəsinə görə Qazaxıstan Respublikasının qanunvericiliyi fərqlənir. Buna görə də müvafiq prosessual sənədlərin tanınmasında problemlər yaranması mümkündür və mümkün ziddiyyətlərin aradan qaldırılması üçün bu məsələlər ikitərəfli müqavilələrlə ətraflı tənzimlənməlidir.

Hüquqi yardım çərçivəsində məhkəmə tapşırıqlarının icrası sahəsində Azərbaycan qanunvericiliyinin ümumi hüquq ölkələrinin qanunvericiliyi ilə müqayisəsi hüquqi yardım göstərilməsində ayrı-ayrı prosessual ziddiyyətlərin mümkün olduğunu göstərir. Bəzi nümunələr gətirək.

Mübahisəli məsələlərdən biri qaçaq cinayətkarların başqa bir dövlətin ərazisindən zorla qaçırılması və ya oğurlanmasıdır. Bu, dövlət siyasi və ya digər səbəblərə görə verilməsini istəmədiyi və ya verməni həyata keçirmək iqtidarında olmadığı hallarda və ya sonradan zorla qaçırılmanın asanlaşdırılması üçün verilmənin rədd edilməsi ilə pərdələndiyi hallarda baş verir. Məsələn, 1960-cı ildə İsrail kəşfiyyatı II dünya müharibəsində yəhudi xalqının genosidi ilə bağlı hərbi cinayətkar olan Adolf Eyxmanı Argentinadan oğurladı, əməliyyat qeyri-rəsmi keçirildi. Argentina təbii olaraq İsraili onun suverenliyini pozmaqda təqsirləndirdi. İsrail öz hərəkətlərinə Eyxmanın cinayətlərinin presedentsiz olması ilə bəraət qazandırmağa çalışdı. Yalnız 40 il sonra Argentina Xolokost millətçilərinə sığınacaq verdiyi üçün rəsmi üzr istədi [62].

Son dövrlərdə dövlətlər milli təhlükəsizliyin qorunması və mütəşəkkil cinayətkarlıqla mübarizə kimi maraqlarına istinad edərək cinayətkarların oğurlanmasına haqq qazandırmağa çalışırlar. ABŞ-ın başçılığı ilə terrorizmlə mübarizə şüarı altında şübhəli şəxslərin fövqəladə verilməsi proqramı nəticəsində oğurlama, işgəncə, gizli və özbaşına həbsə alma, hətta insanların yoxa çıxması halları məlumdur.

1995-ci il Şengen razılaşmasının realizəsi haqqında Konvensiya üzv dövlətlərin ərazisində isti izlər üzrə təqibə yol verir, ilkin razılıq alınması nəzərdə tutulmur. Ancaq bu vəziyyətlərə nadir hallarda yol verilir, situasiyanın təxirəsalınmaz xarakteri nəzərə alınır. Təqibi həyata keçirən əməkdaşın qaçmaqla gizlənən şəxsi həbs etməyə səlahiyyəti yoxdur, onu yalnız müvəqqəti tuta bilər, yerli hakimiyyət orqanları həbsi lazımi qaydada rəsmiləşdirməlidir.

Hazırda təcrübədə "qeyri-hüquqi vermə" ("renditions") ifadəsindən istifadə olunur, ekstradisiya və deportasiyanı tənzim edən normativ-hüquqi tələblərə tabe olmayan dövlətlərarası yerdəyişmə başa düşülür. "Qeyri-hüquqi vermə" hüquqi anlayış deyildir, qanuni prosedurlardan yan keçmək üçün tətbiq edilir və təcrübədən çıxış edərək verilən bir anlayışdır, buna görə də onun vahid anlayışı ola bilməz.

AİHM *"həbsdə saxlamaq məqsədilə qeyri-hüquqi vermə"ni bir dövlətin və ya dövlətlərin yurisdiksiyasından şəxslərin həbsdə saxlamaq və dindirilməsi üçün hüquq sisteminin adi tələblərindən kənar olaraq digər yurisdiksiyaya yerdəyişməsi*" kimi başa düşür [427, b.113; 428, b.221].

Venesiya Komissiyası qeyri-hüquqi vermənin iki növünü fərqləndirir: *"digər dövlətin ərazisində ağır cinayət törətməkdə şübhəli olan şəxsin həbsə alınması və belə şəxsin birinci dövlətin ərazisində və ya onun yurisdiksiyası altında olan yerdə həbsə alınması, yaxud onun üçüncü dövlətin ərazisinə yerinin dəyişdirilməsi"* [428, b.30].

""Fövqəladə vermə" şəxsin həbsə alınmasının onun ərazisində yerləşdiyi dövlətdə tətbiq olunan mövcud hüquqi prosedurlara uyğun olmaması ilə bağlı şübhə olmadıqda tətbiq olunur" [437, b.31]. Bu orqanlar üçün qeyri-hüquqi vermə və fövqəladə vermə oğurlama və ya qeyri-qanuni azadlıqdan məhrum etmə ilə əlaqədar olur, yəni xüsusi və ya vəzifəli şəxslər tərəfindən qeyri-qanuni tutma, həmçinin qeyri-qanuni yeri dəyişdirilən şəxsin hüquqi müdafiədən məhrum edilməsi baş verir. Qeyri-hüquqi vermə non-refoulement prinsipinin pozulmasına təhlükə olduqda fövqəladə olur. Bir çox hallarda belə vermə özü-özlüyündə gizli olaraq həbsdə saxlamaya və qanunsuz və ya özbaşına azadlıqdan məhrum etmənin digər formalarına, zorakılıqla yoxa çıxma təcrübəsinə gətirir. ABŞ MKİ məqsədli olaraq şəxsləri qanunun müdafiəsindən kənara çıxarır və buna görə də fövqəladə vermə hesab edilməlidir, çünki təcrübədə bu əməliyyatlar özbaşınalıqla demək olar ki, eynidir. Dövlətlər qeyri-hüquqi verməyə o zaman müraciət edirlər ki, adi vasitələrin və prosedurların köməyi ilə gözlənilən nəticələrə nail olunması mümkün deyildir və ya əlçatan deyildir, yaxud kifayət qədər çətindir.

Hazırda demək olmaz ki, dövlətlər ekstradisiya prosedurlarının mürəkkəbliyindən və vaxt aparmasından qaçaraq, şübhəli şəxsin

cinayət təqibini asanlaşdırırlar, ondan şəxsi kəşfiyyat məlumatlarının əldə edilməsi üçün dindirmə və ya qeyri-rəsmi cəzalandırma üçün istifadə edirlər. Əlbəttə, bu təcrübənin yayılmasında MKİ-nin "rolu" böyükdür. Təcrübə göstərir ki, MKİ tərəfindən belə vermələrin həyata keçirilməsi insan hüquqlarının pozulmasına, cəzaların tətbiqinə gətirir. AİHM qeyd edir ki, *""fövqəladə vermə" adi hüquq sisteminin çərçivəsindən kənara çıxan həbsdə saxlamaya gətirir, bu isə prosessual təminatların pozulması ilə bağlı qəsdən edilən hərəkətlər nəticəsində Avropa Konvensiyasını pozur"* [430, b.452]. Burada insan hüquqları pozulur, məcburi yoxa çıxma xarici aləmlə təmas olmadan gizli və təsdiq olunmamış həbsdə saxlama nəticəsində qanunsuz azadlıqdan məhrum etməyə gətirir. AİHM göstərir ki, *"əgər dövlət şəxsi real təhlükəyə məruz qaldığı situasiyada ekstradisiya edirsə və ya digər formada göndərirsə, o, fövqəladə vermədir və Avropa Konvensiyasını pozmuş olur"* [427, b.114; 428, b.454; 429, b.45].

Artıq qeyd etdiyimiz kimi, qeyri-qanuni vermə həm də məcburi yoxa çıxmaya gətirə bilər. Milli təhlükəsizlik mülahizələri üzrə şəxslərin yerinin dəyişdirilməsinə bir çox hallarda hər iki dövlətin razılığı ilə yol verilir. Bu halda dövlət, onun yurisdiksiyasından kənara çıxarılmış şəxsin taleyi ilə bağlı, əgər həqiqətən iştirak etməmişdirsə, bəzi hərəkətlər etməlidir, bunu həmin şəxsin hüquqlarının qorunması və suverenliyə hörmət edilməsi də tələb edir. Dövlət, şəxs hansı dövlətin ərazisində saxlanılırsa, onunla bağlı diplomatik qaydada bəyanat verməlidir. ABŞ Ali Məhkəməsinin Alvarez-Maçeyn işi üzrə qərarında Meksikalı həkimin qeyri-qanuni verilməsinin nəticələrinə baxıldı. Həmin həkimin ABŞ-ın narkotiklərlə mübarizə İdarəsinin əməkdaşına Meksikanın ərazisində işgəncə verən və öldürən şəxslərə kömək etməsi ehtimal olunurdu. Ali Məhkəmə belə bir qərar qəbul etdi ki, *"ABŞ və Meksika arasında müqavilədə*

qaçırılmalar haqqında ayrıca müddəa yoxdur və onu qadağan etmir, buna görə də həmin şəxsin zorla oğurlanması işə ABŞ-da yerli qanunlar əsasında baxılmasına mane olmur" [430, s.670, 674].

2001-ci il terror aktından sonra ABŞ qeyri-hüquqi vermənin daha qəddar formalarına keçdi, hərbi əmrlə MKİ-nə ölkə üçün ciddi təhlükə törədən şəxslərin gizli saxlanılması və həbsdə saxlanılması ilə bağlı səlahiyyətlər verildi. Bu isə qeyri-hüquqi vermənin rəsmiləşdirilməsi idi. Rəsmi məqsədi hərbi əməliyyatların səmərəli aparılması və terror aktlarının qarşısının alınması olan proqramlar Al-Kaidə təşkilatının üzvü olmaqda şübhəli bilinən istənilən ABŞ vətəndaşı olmayan şəxsə tətbiq edilə bilərdi və gizli xarakter daşıyırdı. Lakin sonralar QHT və KİV-lər bu əməliyyatlar barədə məlumatlar verdikdən sonra ABŞ-ın dövlət katibi Kondoliza Rays 5 dekabr 2005-ci ildə "düşmən kombatantlarının" gizli yerdəyişdirilməsi və həbsdə saxlanılması proqramının olmasını qəbul etdi. KİV-in təzyiqi ilə Buş 6 sentyabr 2006-cı ildə proqram barədə məlumatları açıqlamağa məcbur oldu. AİHM *"MKİ-nin proqramları aspektində baxılan işlər üzrə bütün qeyri-hüquqi vermə hallarının bəzilərini zorakılıqla yoxa çıxarılma kimi*" qiymətləndirdi [428, b.240]. Xaled el-Masri Al-Kaidə təşkilatı ilə əməkdaşlıqda şübhəli kimi Makedoniyada sərhəd məntəqəsində yeni il tətili üçün səyahət edərkən saxlanıldı, onu öldürməklə hədələyən şəxslər tərəfindən dindirildi. Onu qandallanmış və gözləri bağlı şəkildə Əfqanıstanın ərazisinə, Bahram aviabazasına gətirdilər, işgəncələr tətbiq etdilər və yenidən Makedoniyaya qaytardılar. Onu sərhəddən Albaniyanın ərazisinə atdılar, Albaniya hakimiyyəti tərəfindən saxlanıldı və Almaniyaya repatriasiya edildi. AİHM müəyyən etdi ki, *"Xalid Əl-Masri MKİ-nin rəsmiləri tərəfindən qəddar rəftar növlərinə məruz qalmışdır"* [428, b.168].

Avropa Şurasının Nazirlər Komitəsi İskəndərov işi ilə bağlı qəbul etdiyi qərarında xatırladır ki, bu işdə AİHK-nın pozuntuları

Məhkəmənin Rusiya dövlətinin nümayəndələri olduğunu qəbul etdiyi naməlum şəxslər tərəfindən ərizəçinin qaçırılması və Rusiya hakimiyyəti onu təhvil verməkdən imtina etdikdən sonra Tacikistana məcburi yerdəyişməsi ilə bağlı olmuşdur. *"Daimi Nümayəndələr... 4. Təəssüf hissi ilə qeyd edirlər ki, bu günə qədər İskəndərov işi üzrə ərizəçinin Tacikistan hakimiyyət orqanlarına qanunsuz verilməsinə görə heç bir şəxs müəyyən edilməmişdir"* [425].

Bir dövlətin nümayəndələrinin başqa bir dövlətin ərazisindəki qanunsuz hərəkətləri də məlumdur. Belə ki, Tacikistan prokurorluğu vətəndaş S. Curayevi axtarışa verdi, Rusiya polisi əvvəlcə S. Curayevi Moskvada ekstradisiya üçün saxladı, daha sonra prosedurlardan kənar, o, təyyarəyə minməyə məcbur edildi, Tacikistana göndərildi və məhkum edildi. *"Tacikistan hakimiyyəti, lazımi hüquqi prosedur hüququnun pozulması barədə fikrini bildirmədi"* [317].

Cinayətkarların zorla yerdəyişməsinin digər mürəkkəb vəziyyətləri də məlumdur. Məsələn, Kürd Fəhlə Partiyasının lideri, Türkiyə vətəndaşı A. Öcalan uzun illər yaşadığı Suriyadan qovulduqdan sonra Yunanıstan, Rusiya, İtaliya ərazilərində dövlətlərin razılığı ilə olmuş, lakin ona qaçqın statusu və sığınacaq verilməmiş, həmçinin Türkiyəyə ekstradisiya olunmamışdır. Yalnız 15 fevral 1999-cu ildə Keniya onu Türkiyəyə verdi və bildirdi ki, *"ərizəçi tutulmuş və iki dövlət arasında əldə edilmiş əməkdaşlıq haqqında saziş əsasında Türkiyə hakimiyyətinə təhvil verilmişdir*" [279].

Səfərov N.A. hesab edir ki, *"...zorla adam oğurluğu, şəxsin ərazisindən qaçırıldığı dövlətin suveren səlahiyyətləri sahəsinə ən ciddi müdaxilədir"* [322, s.214-215].

Araşdırmanın nəticələrinə yekun vuraraq, *"Qüvvədə olan CPM ilə xarici dövlətin səlahiyyətli orqanları tərəfindən öz daxili qanunvericiliyinə uyğun olaraq əldə etdiyi sübutların hüquqi qüvvəsi ilə bağlı uzun müddətdir vaxtı çatmış məsələnin həll edilməsinə"* baxmayaraq [362, s.780], qanunvericiliyin konsolidasiyası və cinayətkarların oğurlanması, qaçırılması və s. kimi "təcrübələrin"

aradan qaldırılması üçün cinayətkarların yerinin qanunsuz məcburi dəyişdirilməsinin yolverilməzliyi haqqında müddəalar qarşılıqlı hüquqi yardım haqqında, həmçinin əməkdaşlıq və dostluq haqqında ikitərəfli müqavilələrə daxil edilməlidir, həmçinin dövlətin birtərəfli öhdəliyi və dövlətin suverenliyə hörmətinin göstəricisi ola bilər.

Həmçinin, şahid toxunulmazlığı ilə əlaqədar Azərbaycan Respublikası CPM-nin 95.2-ci maddəsi ilə nəzərdə tutulan şahid kimi çağırıla və dindirilə bilməyən şəxslərin sırasına aşağıdakılar aid edilməlidir:

"95.2.6. din xadimi - etirafdan ona məlum olan hallar haqqında;

95.2.7. ailə həkimi və xəstəyə xidməti həyata keçirən digər şəxslər - xidmət etdikləri şəxslərin şəxsi həyatı ilə bağlı;

95.2.8. Azərbaycan Respublikası Milli Məclisinin deputatları - səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar onlara məlum olan hallar barədə;

95.2.9. İnsan Hüquqları üzrə Müvəkkil - şikayətdə əks olunan hallara baxılarkən ona məlum olan ərizəçilərin şəxsi və ailə həyatı haqqında.

95.2.10. Bu Məcəllənin 95.2.5-95.2.9-cu maddələrində nəzərdə tutulan şəxslər 1) insan həyatının qorunması; 2) ağır cinayətlərin qarşısının alınması; 3) ağır cinayət törətməkdə təqsirləndirilən və ya təqsirli bilinən şəxsin müdafiəsi məqsədilə, xüsusi olaraq əsaslandırılmaqla, dindirilə bilərlər."

Həm beynəlxalq sənədlərdə, həm də milli qanunvericiliklərdə üzləşdirmə hüquqi yardımın həcminə daxil edilməmişdir. Ancaq Hüquqi yardım haqqında Qanunun 2.3.11-ci maddəsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq digər hərəkətlərin həyata keçirilməsi imkanını nəzərdə tutur. Cinayət işləri üzrə hüquqi yardım çərçivəsində üzləşdirmənin aparılması hüquqi yardımın əhatə dairəsinə daxil olmasa da, digər prosessual hərəkətlər kimi onun aparılması istisna edilmir.

Üzləşdirmə demək olar ki, bütün dövlətlərin cinayət-prosessual qanunvericiliyində əks olunan istintaq hərəkətidir. Fərqli hüquq ailələrinə aid olan müxtəlif dövlətlərin cinayət-prosessual qanunvericiliyində üzləşdirmənin anlayışı bir-birindən fərqlənmir və ondan ibarətdir ki, əvvəllər dindirilmiş şəxslərin ifadələrində əhəmiyyətli ziddiyyətlər varsa, müstəntiq üzləşdirmə aparmaq hüququna malikdir.

Üzləşdirmə şahid, zərərçəkmiş, şübhəli, təqsirləndirilən şəxslər arasında aparıla bilər. Əvvəllər dindirilmiş mütəxəssislərin və ya ekspertlərin iştirakı ilə üzləşdirmənin nəzəri cəhətdən mümkün olmasına baxmayaraq, onlar praktikada elm, texnika, sənət və ya peşə üzrə xüsusi məsələlərlə bağlı fikirlərini aydınlaşdırmaq üçün dindirilirlər. Mütəxəssisin, ekspertin və prosesin digər iştirakçılarının ifadələri arasındakı ziddiyyətlərin üzləşdirmə yolu ilə aradan qaldırıla bilməyəcəyi aydındır, yəni göstərilən ziddiyyətləri aradan qaldırması üçün üzləşdirmə tətbiq edilmir.

Cinayət işlərində hüquqi yardım çərçivəsində üzləşdirmə aparılması hüquqi yardımın perspektiv istiqamətidir və əsasən sorğu edən dövlətin ərazisində cinayət törətmiş və cinayət işi başlanılanadək həmin ölkəni tərk etmiş, verilməli olmayan digər ölkə vətəndaşının cinayət məsuliyyətinə cəlb edilməsi məqsədilə cinayət təqibinin həyata keçirilməsi üçün cinayət işinin bir dövlətdən onun vətəndaşı olduğu dövlətə verilməsi zamanı tətbiq edilə bilər. Cinayət prosesinin iştirakçısının rifahına ciddi ziyan vurulması təhlükəsi və başqa cür qarşısının alınması mümkün olmadıqda, xəstəlik, zəifliklər, üzləşdirmənin tərəflərinin yaşayış yerləri arasında böyük məsafə olduqda və s. hallarda da cinayət prosesinin müxtəlif dövlətlərin ərazisində yerləşən müxtəlif iştirakçıları arasında üzləşdirmə aparılması mümkündür. Üzləşdirmə hüquqi yardım göstərilməsi çərçivəsində istintaq, cinayətlərin açılması, habelə ədalət mühakiməsinin həyata keçirilməsi və cəzanın icrası zamanı operativ hüquqi yardım göstərilməsi baxımından da aktualdır.

Bütün dövlətlərdə üzləşdirmənin aparılmasının taktikası və ümumi qaydaları qanunvericiliklə müəyyən edilmişdir və fərqlənmir. Üzləşdirmənin qanunvericilik qaydasında müəyyən edilmiş ümumi qaydasından çıxış edərək, üzləşdirməni bir müstəntiq eyni otaqda olan iki şəxs arasında aparır. Buna görə də müxtəlif dövlətlərin ərazisində yerləşən iki şəxs arasında üzləşdirmə onun aparılması və nəticələrinin rəsmiləşdirilməsi qaydalarının əlavə detallaşdırılmasını, əsaslandırılmasını və qanunvericiliklə möhkəmləndirilməsini tələb edir.

Dövlətlər arasında hüquqi yardım qaydasında üzləşdirmənin aparılması imkanı proses iştirakçılarının qorunması, milli qanunvericilik çərçivələrinin və texniki imkanların mövcudluğu ilə əlaqədardır.

Cinayət prosesində, o cümlədən dindirmənin və üzləşdirmənin aparılmasında texniki vasitələrdən istifadə edilməsi, yəni audio və (və ya) video yazıların, kino çəkilişinin, fotoşəkilçəkimin tətbiqinə demək olar ki, bütün dövlətlərin cinayət-prosessual qanunvericiliyində rast gəlinir. Texniki vasitələr əsasən prosessual hərəkətlərin gedişatını və nəticələrini möhkəmləndirmək üçün istifadə olunur. Ancaq uzaqdan dindirmə və videokonfrans özü texniki vasitələr olmadan mümkün deyil.

Müxtəlif dövlətlərin cinayət-prosessual qanunvericiliyi proses iştirakçılarının dövlət müdafiəsi tədbirlərini nəzərdə tutur, məhkəmənin digər iştirakçıları tərəfindən əyani müşahidə edilmədən şahidin dindirilməsini, müəyyən şərtlər olduqda şahidin cinayət təqibi orqanının olduğu yerdə və ya məhkəmə iclas zalında deyil, texniki vasitələrin köməyi ilə dindirilməsini nəzərdə tutur. Hətta Moldovanın CPM-nə əsasən şahid zahiri görkəmini və səsini dəyişdirməklə qapalı telekonfrans yolu ilə də dindirilə bilər (110 (5)-ci maddə). Eyni müddəalar Türkiyə qanunvericiliyində də nəzərdə tutulmuşdur.

Müxtəlif ölkələrin qanunvericiliyində uzaqdan dindirmə və ya dindirilən şəxsin uzaqdan iştirakı ilə dindirmə müxtəlif adlandırılsa

da, mahiyyəti eynidir (RF CPM-nin 240-cı maddəsinin 4-cü bəndi, Sinqapur CPM-nin 28-ci maddəsi [559], Ukrayna CPM-nin 303-cü maddəsinin 4-cü hissəsi).

Uzaqdan dindirmə və ya telekonfranslar Azərbaycanda təhlükəsizlik tədbirləri kimi, o cümlədən üzləşdirmənin aparılması zamanı da nəzərdə tutulmur. Uzaqdan dindirmə və üzləşdirmə nəticəsində əldə edilən sübutların bilavasitəliyi və mümkünlüyü ilə əlaqədar bəzi etirazlar yaranır. Azərbaycan Respublikasının CPM-nin 125.1-ci maddəsi məlumatların və s. sübut kimi qəbul edilməsinin şərtlərini göstərir. Mövcud qanunvericiliyə görə, sübutların mümkünlüyü baxımından uzaqdan dindirmə yolu ilə əldə edilən məlumatlar işdə sübut kimi istifadə edilə bilərlər, çünki bu, qanunvericilik qaydasında möhkəmləndirilmişdir. Lakin nəzəri problemlərin həlli üçün cinayət prosesində uzaqdan dindirmənin mümkünlüyünün ümumi şərtləri, dindirilən şəxsin uzaqdan iştirakı ilə dindirilmənin prosessual şərtləri, uzaqdan dindirmədə iştirak edən şəxslərin prosessual vəziyyəti qanunvericiliklə dəqiq müəyyən edildikdən sonra onun nəzəri problemlərinin aradan qaldırılması barədə danışmaq olar.

Dindirilən şəxslərin şəxsiyyətinin müəyyən edilməsi üçün biometrik sistemlərin hazırlanması, hüquq-mühafizə orqanlarının bu sistemdən səmərəli istifadəsi, vəkilin iştirakından söhbət gedirsə, onun fiziki hansı tərəfdə iştirak etməsi və s. bu kimi məsələlər də həllini gözləyən məsələlər sırasına aiddir. Ümumi ədəbiyyatda foto və video təsvirlərin özbaşına dəyişdirilməsi və seans başa çatanadək qəsdən və ya təsadüfən hər hansı dəyişiklik edilməsinin qarşısını alan xüsusi proqramın (kompüter əlavəsinin) hazırlanması ilə bağlı fikirlər mövcuddur.

Məsafədən dindirmə və ya üzləşdirmə əleyhinə digər mümkün etiraz ondan ibarətdir ki, bu hallarda hakim tərəfindən sübutların qəbul edilməsinin bilavasitəliliyi pozulur. Sübutların tədqiq edilməsinin bilavasitəliliyi o deməkdir ki, bütün sübutlar kənar yardım

olmadan ilkin mənbədən əldə edilir, onlar birbaşa məhkəmə prosesində tədqiq edilirlər.

Bəzi maddi sübutların bilavasitə tədqiq edilməsi obyektiv mümkün olmadıqda da qanunvericilik bilavasitə tədqiqat prinsipindən istisnalara yol verir. Məsələn, Azərbaycan Respublikasının CPM ifadələrin audio yazısının səsləndirilməsini, video və ya kino çəkilişinin göstərilməsini (327 və 329-cu maddələr), istisna olaraq vəfat etmiş şəxslərin sözlərindən alınmış məlumatların sübut kimi qəbul oluna bilməsi ehtimalını (126.3-cü maddə) nəzərdə tutur.

Qanunvericiliyə uyğun olaraq, bəzi maddi sübutlar, məsələn, tez xarab olan əşyalar məhkəmə tərəfindən bilavasitə tədqiq edilə bilməz, müstəntiq tərəfindən baxış keçirildikdən və protokolda təsvir edildikdən sonra sahiblərinə verilir, satılır və ya məhv edilir. Bu hallarda da sübutların tədqiq edilməsinin bilavasitəliliyi pozulur.

Yuxarıdakıları nəzərə alaraq məhkəmə bu və digər hallarda müstəqil sübut olan müvafiq istintaq hərəkətlərinin protokollarını bilavasitə elan edir və tərəfləri bilavasitə dinləyir (Azərbaycan Respublikasının CPM-nin 131.1-ci maddəsi, RF CPM-nin 82-ci maddəsi).

Müxtəlif ölkələrin cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi ilə bağlı müvafiq qanunlarında qapalı məhkəmə iclaslarının keçirilməsi, sənədlərin və müdafiə olunan şəxsin zahiri görkəminin dəyişdirilməsi nəzərdə tutulur, yəni şahidlərin və digər iştirakçıların həqiqi deyil, şəxsiyyətləri ilə bağlı dəyişdirilmiş məlumatların elan edilməsi imkanı tanınır.

Rabitə vasitələri ilə aparılan danışıqların, yaxud məlumatların ələ keçirilməsi, məzmununda cinayət təqibi üçün sübut əhəmiyyəti olan danışıqların dinlənilməsi zamanı sübutların bilavasitə tədqiq edilməsi prinsipindən istisnaya yol verilir (Azərbaycan Respublikasının CPM-nin 259-cu maddəsi, RF CPM-nin 186-cı maddəsi, Moldova Respublikası CPM-nin 1388, 1329, 13210, 133, 134-cü

maddələri və Qazaxıstan Respublikasının CPM-nin 231-237-ci maddələri).

Ələ keçirilən danışıqlar və ya məlumatlar kağız və ya maqnit daşıyıcılarda qeyd olunur, onları ələ keçirən şəxsin imzası ilə təsdiqlənir və müstəntiqə verilir. İşə aidiyyatı olan danışıqların və ya məlumatların ələ keçirilməsi ilə əlaqədar cinayət işinin materiallarına əlavə edilən qısa məzmunlu protokol tərtib edilir, məhkəmədə protokol tədqiq olunur və ya fonoqram dinlənilir.

Bəzi ölkələrin qanunvericiliyi məhkəmə araşdırılması keçirilmədən, yəni sübutlar tədqiq olunmadan hökm çıxarılmasına yol verir. Məsələn, RF CPM-nin X bölməsi təqsirləndirilən şəxsin irəli sürülən ittihamla razılaşdığı təqdirdə məhkəmə baxışının xüsusi prosedurunu tənzimləyir və RF CPM-nin 314-cü maddəsinə əsasən, təqsirləndirilən şəxsin ona qarşı irəli sürülən ittihamla razı olduğunu bildirmək, məhkəmə araşdırılması aparılmadan hökm çıxarılması barədə vəsatət vermək hüququ vardır. Məhkəmə bununla razılaşa və sübutları bilavasitə tədqiq etmədən ümumi qaydalarla hökm çıxara bilər.

Hesab edirik ki, videokonfrans vasitəsilə dinləmə — texniki vasitələrdən istifadə etməklə sübutların bilavasitə tədqiq edilməsi üsuludur və ona sübutların vasitəli tədqiq edilməsinə yol verən müstəsna hal kimi yanaşmaq lazımdır. Həyatın rəqəmsallaşmasının daha da inkişafı belə tədqiqatları adiləşdirir və bəlkə də gələcəkdə bilavasitə anlayışının dəyişməsi ilə bağlı dəyişikliklər olacaqdır.

Müstəsnalıq ondan ibarətdir ki, videokonfrans sübutların bilavasitə əldə edilməsi və tədqiq edilməsinin mümkün olmadığı hallarda tətbiq olunur və *"əhəmiyyətli halların qeyd edilməsinin əyaniliyi üçün rəqəmsal texnologiyaların seçilməsinin adekvatlığı"* tələblərinə cavab verir [168, s.116].

Cinayət prosesi sahəsində beynəlxalq əməkdaşlıq çərçivəsində üzləşdirmə də daxil olmaqla digər istintaq hərəkətlərinin aparılması zamanı videokonfransdan istifadənin perspektivliyi Volevodz A.Q.

tərəfindən də qeyd edilmişdir: *"... bu, təkcə dindirmə və üzləşdirmə üçün deyil, həm də dünyanın müxtəlif ölkələrinin cinayət-prosessual qanunvericiliyi ilə tətbiq edilməsinə yol verilən videokonfransın istifadəsinə səbəb olacaqdır..."* [154, s.24-25].

Açıq dinləmələrin keçirilməsi prinsipindən istisna kimi videokonfrans vasitəsilə şahidin dindirilməsi BCM-nin Roma Statutu (69-cu maddə) və BCM-nin Prosedur və Sübutetmə Qaydalarının 68-69-cu maddələri ilə də nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Moldova Respublikası bu Statutun tərəfi deyillər.

Kişinyov Konvensiyasının 105-ci maddəsi videorabitə vasitələrindən istifadə olunmasını və onun tətbiqinin daxili qanunvericiliklə tənzimlənməsini nəzərdə tutur.

Videokonfransdan və dinlənilәcək şəxsin təhlükəsizliyinin təmin edilməsi üzrə tədbirlərdən istifadə ETS №030 Avropa Konvensiyasının İkinci Əlavə Protokolunun 9-cu maddəsində də nəzərdə tutulmuşdur [52]. Azərbaycan Respublikası və RF bu Konvensiyanın tərəfləridir. Azərbaycan Respublikası videokonfrans və telefon konfransı ilə dinləməni nəzərdə tutan II Əlavə Protokola hələlik qoşulmayıb.

"Avropa Birliyinin üzv dövlətləri arasında cinayət işləri üzrə hüquqi yardım haqqında" Konvensiyanın 11-ci maddəsi *"Şahidlərin və ekspertlərin telefonla dinlənilməsini"* [443], Türkiyə Cumhuriyyətinin CPM *"Telekommunikasiya vasitəsi ilə ünsiyyətin yoxlanılmasını"* [118], Türkiyə Cumhuriyyətinin "Cinayət işləri üzrə beynəlxalq məhkəmə əməkdaşlığı haqqında" Qanunu *"Vizual və səsli ünsiyyətdən istifadə edərək hüquqi yardımı"* [119] nəzərdə tutur.

II Əlavə Protokol videokonfrans yolu ilə şahid və ya ekspertin dinlənilməsini tənzimləyir, lakin tərəflər öz mülahizələrinə görə səlahiyyətli məhkəmə orqanlarının razılığı ilə təqsirləndirilən və ya şübhəli şəxslə videokonfrans vasitəsilə dindirmə apara bilərlər.

Təqsirləndirilən və ya şübhəli şəxsin iştirak etdiyi dinləmələr yalnız onların razılığı ilə aparılır.

Üzləşdirmənin dindirmənin bir növü olmasına baxmayaraq, onun aparılması taktikası dinləmənin taktikasından fərqlənir. Üzləşdirmə zamanı şəxslərin bir-birini tanıması və onlar arasındakı münasibətlərin xarakteri dəqiqləşdirilir. Onlara ifadə verməkdən imtinaya və s. görə məsuliyyət elan olunur və digər hərəkətlər yerinə yetirilir. Üzləşdirmə zamanı müxtəlif texniki qeyd etmə, yazı üsullarından istifadə olunur.

Məsafədən dinləmələrə və videokonfransa yol verən beynəlxalq sənədlərin və milli qanunvericiliyin təhlili göstərir ki, bu sənədlərdə videokonfransa icazə verilsə də, müəyyən təşkilati və taktiki məsələlər öz əksini tapmamışdır, bu da hüquqi yardım göstərilməsində problemlər yarada bilər. Bəzi sənədlərdə şahidlərin və ya ekspertlərin məsafədən dindirilməsindən danışılır, təqsirləndirilən və ya şübhəli şəxsin dindirilməsinə icazə verilir, digərlərində isə üzləşdirmənin aparılması nəzərdə tutulur. Üzləşdirmə əvvəllər dindirilmiş iki şahid, zərərçəkmiş, təqsirləndirilən şəxslər arasında müxtəlif birləşmələrdə aparılır. Buna görə də, hüquqi yardım göstərilməsi qaydasında üzləşdirmənin keçirilməsi tanınarsa, hesab edirik ki, məsafədən dindirmə cinayət prosesində dindirilə biləcək bütün iştirakçıları əhatə etməlidir.

Dövlətlər arasında hüquqi yardım qaydasında üzləşdirmənin aparılması üçün milli cinayət-prosessual qanunvericiliyinə müvafiq dəyişikliklər və ya əlavələr edilməlidir.

Hesab edirik ki, bütün internet istifadəçiləri üçün əlçatan olan kompüter texnologiyasının və ya kompüter texnologiyasından istifadə edərək məsafədən ünsiyyətin müasir imkanlarından çıxış edərək videokonfransın anlayışı problemli deyil. Videokonfrans vasitəsilə videokonfransın mahiyyətini təşkil edən təsvir və səslər ötürülür və qəbul edilir.

II Əlavə Protokol videokonfrans aparılması barədə sorğu və ya xahişin yerinə yetirilməsinin prosessual məsələlərinin tənzimlənməsini milli cinayət-prosessual qanunvericiliyin səlahiyyətlərinə aid edir.

Elmi ədəbiyyatlarda məhkəmə proseslərində videokonfrans rejimində sübutların tədqiqi zamanı dindirilən şəxsə kadr arxası mümkün təsirinə görə əldə edilən sübutların qəbuledilməzliyi məsələsi ortaya çıxır. Volevodz A.Q. *"videokonfransın tətbiq edilməsi ilə əlaqədar olaraq RF CPM-nə müvafiq dəyişikliklər edilməsini"* təklif etmişdir [155, s.35].

Smirnov M.İ. *"cinayət prosesində məsafədən dindirmənin aparılmasının həqiqiliyinin ümumi şərtlərinə "onun elmi həqiqiliyini" aid edir, "yəni məsafədən dindirmənin əsasında duran elmi prinsiplərə uyğunluq; ədalət mühakiməsinin məqsəd və vəzifələrinə uyğunluq; tətbiqinin qanuniliyi; əxlaq normalarına uyğunluq"* [333, s.184].

Şkaplerov Y.P. və Danko İ.V. texniki vasitələrdən istifadənin mümkünlüyünün meyarlarına *"proses iştirakçılarının hüquqlarına, etik normalara riayət edilməsini"* aid edir [329, s.14].

Antonoviç E.K. hesab edir ki, *"RF hüdudlarından kənarda əldə edilən sübutların mümkünlüyü meyarları cinayət işləri üzrə hüquqi yardım göstərilməsi çərçivəsində məsafədən dindirməyə də tətbiq oluna bilər..."* [130, s.134].

RF CPM-də cinayət işləri üzrə məhkəməyəqədər icraat və qarşılıqlı hüquqi yardım videokonfransın tətbiq edilməsi imkanlarından kənarda qalır.

Aparılan araşdırmaların nəticələrini təhlil edərək belə bir nəticəyə gələ bilərik ki, bəzi dövlətlərin milli qanunvericiliyi və beynəlxalq aktlar yalnız dindirmənin aparılması və əsasən də şahidlərin ifadələrinin alınması məqsədilə videokonfrans rejimində dinləmələrə icazə verir. Ədəbiyyatda üzləşdirmənin aparılması üçün videokonfransın tətbiq edilməsi imkanı haqqında ayrı-ayrı fikirlər ifadə edilmişdir. Hesab edirik ki, şahid, zərərçəkmiş şəxs, şübhəli

və təqsirləndirilən şəxs arasında həm öz aralarında, həm də hər hansı bir kombinasiyada videokonfrans rejimində üzləşdirmənin aparılması dövlətlər arasında hüquqi yardımın perspektivli bir sahəsidir və milli qanunvericilik səviyyəsində öz qanunvericilik həllini gözləyir.

Azərbaycan Prezidentinin Fərmanı (2019) ilə məhkəmə icraatında müasir informasiya texnologiyalarından geniş istifadə edilməsini bir vəzifə kimi qoymuşdur [96].

Videokonfrans sistemindən istifadə edərək cinayət mühakimə icraatının, daha doğrusu, prosessual hərəkətlərin aparılması imkanı Azərbaycan Respublikası CPM-nin 51-2-ci maddəsində məhdud şəkildə nəzərdə tutulmuşdur, yalnız fövqəladə hallarda videokonfrans sistemindən istifadə edilməsinə icazə verilir. Dindirmənin, üzləşdirmənin və s. aparılması üçün texniki vasitələrin, o cümlədən videokonfransın tətbiq edilməsi, dindirilən şəxsə fiziki və psixoloji təzyiq göstərmək təhlükəsini də aradan qaldırır.

Azərbaycan Respublikası CPM-nin 51-2.13-cü maddəsi müəyyən edir ki, cinayət prosesinin iştirakçısı ölkənin sərhədlərindən kənarda olduqda onun videokonfrans əlaqə sistemi vasitəsilə dindirilməsi mümkündür, müvafiq qərar icra olunması üçün xarici dövlətin hüquqi yardımla bağlı sorğunu icra edən dövlət orqanına göndərilir. Bununla belə, Azərbaycan tərəfindən digər dövlətlərin belə dindirmə barədə xahişlərinin yerinə yetirilməsi nəzərdə tutulmamışdır. CPM-in 51-2.1-ci maddəsində prosessual hərəkətlərin aparılmasından bəhs edilməsinə baxmayaraq, maddənin digər hissələrində dindirmənin aparılması tənzimlənir.

Hesab edirik ki, üzləşdirmə və tanınmaya təqdim etmənin mahiyyətinə əsaslanaraq videokonfransdan istifadə etməklə onların da aparılması perspektivli bir istiqamətdir. Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım göstərilməsində qarşılıqlılıq prinsipinə əsaslanaraq, CPM-nin 51-2.13-cü maddəsinə aşağıdakı məzmunda

yeni abzasın əlavə edilməsini təklif edirik: "Xarici dövlətdən Azərbaycan Respublikasının ərazisində olan şəxsin videokonfrans sistemlərinin köməyi ilə dindirilməsi barədə məhkəmə tapşırığı da eyni qaydada icra olunur. Videokonfrans vasitəsi ilə dindirmə, üzləşdirmə və tanınmaya təqdim etmə təqsirləndirilən və ya şübhəli şəxsin razılığı ilə aparılır".

"Cinayət işlərinə dair hüquqi yardım haqqında" Azərbaycan Respublikası Qanununa aşağıdakı dəyişikliklərin edilməsini təklif edirik: Qanunun 2.3.11-ci maddəsi 2.3.13-cü maddə hesab edilsin və aşağıdakı məzmunda yeni hissələr – "2.3.11. üzləşdirmənin aparılması, 2.3.12. identifikasiyanın aparılması" əlavə edilsin.

Videokonfransdan və digər təhlükəsizlik tədbirlərindən istifadə olunması bəzən müdafiə olunan şəxslərin təhlükəsizliyini tam təmin edə bilmir. Söhbət ağır və xüsusilə ağır cinayətlərlə bağlı proses iştirakçılarının təhlükəsizliyindən gedir. Bu halda, fikrimizcə, təhlükəsizlik tədbirlərinə müdafiə olunan şəxslərin anonimləşdirilməsi də daxil edilməlidir. Müvafiq olaraq, cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında Azərbaycan Respublikası Qanununun müdafiə olunan şəxslər barəsində tətbiq edilən təhlükəsizlik tədbirlərinin növlərini müəyyən edən 7-ci maddəsinə "8) müdafiə olunan şəxslərin anonimləşdirilməsi," məzmunlu yeni bənd, "Müdafiə olunan şəxslərin və onların yaxın qohumlarının təhlükəsizliyi tələb etdiyi hallarda məhkəmənin (hakimin) qərarı ilə Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada müdafiə olunan şəxslərin anonimləşdirməsinə yol verilir. Bu halda şahidə onun eyniləşdirilməsini istisna edən şərti ad verilir, texniki vasitələrdən istifadə edilir." məzmunlu yeni 15-1-ci maddə (Müdafiə olunan şəxslərin anonimləşdirilməsi) daxil edilməlidir.

Dövlətlər arasında hüquqi yardım göstərilməsi qaydasında məhkəmə ekspertizalarının aparılması hüquqi yardımın həcminə daxil edilmir. "Cinayət işlərinə dair hüquqi yardım haqqında" Qanun isə

"ekspert rəylərinin təqdim edilməsini" hüquqi yardımın göstərilməsi qaydasında həyata keçirilən hərəkətlərə aid edir. Kişinyov Konvensiyasında da ekspertizanın keçirilməsi, ekspertlərin dindirilməsi, ekspert təhqiqatlarının aparılmasının təşkili nəzərdə tutulur.

"Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 42-ci maddəsi digər dövlətlərin məhkəmə ekspertizası idarələri və bu sahədə fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığı tənzim edir.

Kişinyov Konvensiyası (10-cu maddənin 2-ci bəndi) müəyyən edir ki, ekspertizalar daxili qanunvericiliyə uyğun olaraq təşkil edilir və aparılır.

Bütün məhkəmə ekspertizalarının təcrübə ilə yoxlanılmış və etibarlı biliklərə əsaslanmasına baxmayaraq, hüquqi yardım qaydasında həyata keçirilən ekspertiza rəylərinin qiymətləndirilməsində tətbiq olunan məhkəmə metodikaları ilə bağlı problemlər ola bilər. Əslində bütün metodikalar ümumi elmi biliklərə əsaslanırlar və elmi aspektdə düzgün tətbiq edilməsi problemlər doğurmamalıdır. Lakin, metodikanı tətbiq edən şəxsin yanaşmasının da əhəmiyyətini unutmamaq lazımdır. Bu yanaşmanın sərhədləri düzgün müəyyən edilməzsə, nəticələrin mötəbərliyi ilə bağlı problemlər yarada bilər. Buna görə də hüquqi yardım qaydasında məhkəmə ekspertizası apararkən vahid metodologiyanın tətbiqi məsələsi aktualdır.

Vahid metodologiyanın tətbiqi məsələsi, dövlət və qeyri-dövlət məhkəmə-ekspert müəssisələrinin olduğu dövlətlər üçün də milli səviyyədə aktualdır. Azərbaycan Respublikası CPM-nin 264.4.6-cı maddəsinə əsasən ekspertiza təyin edilərkən konkret ekspert idarəsi və ya konkret ekspert göstərilməlidir. CPM-nin 268.1.4-cü maddəsi alternativ ekspertizaların aparılmasını da nəzərdə tutur. Artıq Azərbaycan Respublikasında özəl məhkəmə ekspertizası qurumları yaradılmışdır.

Bütün məhkəmə-ekspert müəssisələrində tətbiq olunan məhkəmə-ekspert metodikaları müxtəlif səviyyələrdə təsdiqlənir. Bir qurumun ekspertləri həmin qurumda təsdiq edilmiş və etibarlı olan məhkəmə ekspert metodikalarını tətbiq edirlər. Bəzi dövlətlərdə məhkəmə-ekspert metodikaları dövlət səviyyəsində təsdiqlənir. Məsələn, Qazaxıstan Respublikasının "Məhkəmə-ekspert fəaliyyəti haqqında" Qanununun 10-cu maddəsinin 2-ci bəndinə uyğun olaraq, məhkəmə eksperti məhkəmə ekspertizası apararkən Qazaxıstan Respublikasının "Məhkəmə-ekspert tədqiqatlarının Dövlət Reyestrinə" daxil edilmiş metodikaları tətbiq edir. Ədliyyə nazirinin 30 mart 2017-ci il tarixli əmri ilə təsdiq edilmiş "Qazaxıstan Respublikası məhkəmə-ekspert tədqiqatlarının metodikalarının Dövlət Reyestrinin formalaşdırılması, aparılması və istifadəsi Qaydaları"na uyğun olaraq, Dövlət Reyestrinin aparılması Ədliyyə Nazirliyinə həvalə edilmişdir.

Ekspertiza idarələrinin akkreditasiyası üçün məhkəmə-ekspert metodikalarının təsdiqlənməsi, milli standartların hazırlanması və məhkəmə ekspertlərinin attestasiyası tələb olunur.

Hesab edirik ki, Azərbaycan Respublikasında bir neçə məhkəmə ekspertizası qurumunun fəaliyyət göstərməsi şəraitində vahid metodologiya əsasında məhkəmə tədqiqatlarının aparılması aktualdır. Məsələnin aktuallığı onunla bağlıdır ki, Azərbaycan Respublikası CPM-nin 268.1.6-cı maddəsinə əsasən təqsirləndirilən şəxsin müstəntiqin icazəsi ilə ekspertizada iştirak etmək, bu zaman tətbiq edilmiş tədqiqat üsullarının mahiyyətinin və alınmış nəticələrin izahını tələb etmək və izahlar vermək hüququ vardır.

"Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə əsasən ekspert tədqiqatı müvafiq ixtisaslı mütəxəssislər tərəfindən, elmi və təcrübi əsaslar üzərində obyektiv, hərtərəfli və tam həcmdə aparılmalıdır. Ekspertin rəyi elmi inkişafın müasir tələblərinə uyğun olan və hamı tərəfindən qəbul edilmiş elmi dəlillər əsasında yoxlanmasına imkan verən

müddəalara əsaslanmalıdır. Təsdiq edilmiş vahid bir metodologiyanın olması ekspertin rəyinin elmi inkişafın müasir tələblərinə uyğunluğunu yoxlamağa imkan verir.

Ekspertiza sahəsində hüquqi yardım məhkəmə ekspertizasının inteqrasiyasını və məhkəmə ekspertizalarının vahid metodologiya əsasında aparılmasını və ümumi beynəlxalq standartların tətbiqini tələb edir. Hesab edirik ki, vahid metodologiyanın tətbiqi məhkəmə ekspertizasının inteqrasiyasında ilk addımdır. "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 11-4-cü maddəsi Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestrinin aparılmasını tənzimləyir.

Vahid metodologiyanın tətbiqindən əvvəl ekspert metodologiyalarının istifadəyə yararlılığı yoxlanılmalıdır. Uyğunluq isə öz növbəsində validasiya ilə yoxlanılır. *"Validasiya analitik sınaqların nəticələri, avadanlıqların və texnoloji sistemlərin istismarının parametrləri üzrə aparılır"* [280, s.10].

Məhkəmə-ekspert müəssisələrində ekspert metodikalarının validasiyası müxtəlif məhkəmə-ekspert laboratoriyalarında əldə edilən tədqiqat nəticələrini müqayisə etmək imkanını təmin etməlidir və tədqiqat nəticələrinin etibarlılığı haqqında məsələnin həllinə kömək etməlidir.

Ekspert metodikalarının validasiyasından sonra, məhkəmə ekspertizalarının inteqrasiyasında ikinci addım vahid metodologiyaya əsaslanan milli standartların hazırlanmasıdır. Omelnyuk Q.Q. ilə razılaşırıq ki, *"məhkəmə-ekspert fəaliyyətinin həyata keçirilməsində ekspert metodikalarının attestasiyası deyil, onların validasiyası ön plana çıxır. Validasiyadan sonra ekspert metodikalarının attestasiyası zaman məsələsidir"* [280, s.8].

"Standartlaşdırma haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsi göstərir ki, standart - təkrar və ümumi istifadə üçün nəzərdə tutulan, mala (işə, xidmətə), onunla əlaqəli prosesə (o cümlədən idarəetmə sisteminə) və istehsal metodlarına dair norma,

qayda və tövsiyələri müəyyən edən, tətbiqi könüllü olan normativ sənəddir. Azərbaycan Respublikasının Standartlar Fondunda məhkəmə-ekspert tədqiqatlarının keçirilməsi sahəsində standartlar nəzərdə tutulmur. Belə bir standart bəzi ölkələrdə mövcuddur, məsələn, Rusiyada *"ГОСТ Р ИСО/МЭК 52960-2008 "Məhkəmə-ekspert laboratoriyaları"* [273], Qazaxıstan Respublikasında isə *"CT PK 3.15.2-2009"* [341] milli standartı mövcuddur.

Məhkəmə-ekspert tədqiqatlarının standartlaşdırılmasından sonra bu standartlara əsaslanaraq məhkəmə-ekspert müəssisələrinin akkreditasiyasına keçmək mümkündür. Məhkəmə-ekspert fəaliyyətinə tətbiq edildikdə, akkreditasiya hüquqi şəxsin (və ya onun ayrı-ayrı struktur bölmələrinin) məhkəmə-ekspert fəaliyyəti sahəsində səlahiyyətlərinin rəsmi tanınmasıdır. Standartlaşdırma akkreditə olunmuş təşkilatlar tərəfindən aparılmalı və hər bir standartda bu standarta uyğun olaraq sertifikatlaşdırma aparan təşkilatlar konkret göstərilməlidir.

Məhkəmə ekspertlərinin fəaliyyəti müvafiq icra hakimiyyəti orqanının məhkəmə ekspertizası idarələrində, elmi müəssisə və təşkilatlarda, ali təhsil müəssisələrində, "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq akkreditasiyadan keçmiş sınaq laboratoriyalarında, özəl hüquqi şəxslərdə, habelə özəl məhkəmə eksperti tərəfindən ayrıca şəkildə təşkil edilə bilər.

Hər bir ayrı-ayrı dövlətdə məhkəmə-ekspert müəssisələrinin akkreditasiyası üzrə xüsusi standartların olması, bütün problemləri, o cümlədən qarşılıqlı hüquqi yardım qaydasında ekspert rəylərinin qiymətləndirilməsi ilə bağlı problemləri həll etmək iqtidarında deyil.

"Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsi müəyyən edir ki, ölçmələrin vəhdətinin təmin edilməsinin dövlət tənzimlənməsinə aid olan ölçmələr tipi təsdiq edilmiş və yoxlamadan keçmiş ölçmə vasitələrindən istifadə edilməklə, attestasiya edilmiş ölçmə metodikaları

(metodları) ilə (birbaşa ölçmələrin yerinə yetirilməsi üçün nəzərdə tutulmuş ölçmə metodikaları (metodları) istisna olmaqla) yerinə yetirilməlidir. Ölçmələrin nəticələri Azərbaycan Respublikasında tətbiqinə icazə verilmiş kəmiyyət vahidləri ilə ifadə olunmalıdır. Ancaq qanunda hüquq-mühafizə sahəsində ölçmələrin vəhdəti haqqında heç nə deyilmir.

Omelnyuk Q.Q. hesab edir ki, *"məhkəmə ekspertizaları zamanı tez-tez həll olunan qeyri-standart ekspert vəzifələrinin icrası zamanı əksər hallarda standart prosedurların tətbiq edilməsi mümkün deyil*" [280, s.20]. Ancaq hesab edirik ki, hətta qeyri-standart obyektlərin tədqiqatının müəyyən mərhələlərində standart prosedurların tətbiqi həmişə mümkündür. Məhkəmə-ekspert metodikalarının attestasiyasına məhkəmə-ekspert tədqiqatlarının xarakterindən və vəzifələrindən çıxış edərək yanaşmaq lazımdır.

Azərbaycan Respublikası ENFSI-nin daimi üzv-nümayəndəsidir və ENFSI sənədlərinə uyğun olaraq ISO 17025 standartı əsasında akkreditasiyanı həyata keçirməli və ya həyata keçirməyi planlaşdırmalıdır. Azərbaycan Respublikası müvafiq akkreditasiya sertifikatını almışdır.

Məhkəmə Ekspertizası Mərkəzi özəl mütəxəssislərin hazırlanması üçün həm elmi, həm də metodiki mərkəzə çevrilə bilər. **Məhkəmə ekspertlərinin seçimi ilə əlaqədar məhkəmə və istintaq orqanlarının məhdudiyyətlərinin aradan qaldırılması üçün "Xüsusi razılıq (lisenziya) alınması tələb olunan sahibkarlıq fəaliyyəti növlərinə xüsusi razılıq (lisenziya) verilməsi üçün dövlət rüsumunun dərəcələri", "Xüsusi icazə (lisenziya) tələb olunan fəaliyyətlərin siyahısı və bunun üçün xüsusi icazə (lisenziya) verilməsi üçün ödənilən dövlət rüsumunun ölçüsü"ndə (Əlavə 2) "58. Ekspert fəaliyyəti" bəndi əlavə edilməlidir.**

Məhkəmə ekspertizası orqanlarının fəaliyyətini tənzimləyən qanunvericilik beynəlxalq əməkdaşlığı nəzərdə tutur, amma onun mahiyyəti açıqlanmır. Hesab edirik ki, bütün dövlətlərin məhkəmə

ekspertizasını tənzim edən qanunvericiliyində metod və metodikalara, elmi-texniki vasitələrə qanunda birbaşa nəzərdə tutulduğu kimi elmi əsaslılıq, mötəbərlik və təhlükəsizlik kimi ümumi tələblər irəli sürülürsə, o zaman praktikada əməkdaşlığın elm sahəsi ilə məhdudlaşdırılması qarşılıqlı hüquqi yardımı da məhdudlaşdırmış olur.

Ayrı-ayrı dövlətlər mahiyyətcə ekvivalent olan tədqiqat metodları, tədqiqat standartları və dövlət standartlarının reyestrini yaratmışlar. Əgər metod və metodikalara qarşı eyni tələblər irəli sürülürsə, hüquqi yardım göstərilməsi çərçivəsində məhkəmə ekspertizalarının həyata keçirilməsi müəyyən istisnalar tətbiq olunmaqla zaman və qanunvericilik tənzimləməsi məsələsidir. Yeganə maneə ekspertlərin vətəndaşlığıdır, lakin başqa bir dövlətdə mütəxəssis kimi tədqiqat prosesinə məhkəmə ekspertlərinin cəlb edilməsi qanunvericilik baxımından tam mümkündür, mütəxəssis cəlb edilməsi vətəndaşlıqla əlaqələndirilmir.

Hazırda müxtəlif dövlətlərin regional birlikləri formalaşmaqdadır. Bu regional birliklər, məsələn GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, BRİKS və s., əsasən iqtisadi əməkdaşlığın gücləndirilməsinə yardım etməyi ön plana çəksələr də, istisnasız olaraq qarşılıqlı hüquqi yardım məsələlərini də inkişaf və əməkdaşlıq perspektivlərinə daxil etmişlər. Buna görə də ekspertiza tədqiqatlarının digər dövlətlərdə keçirilməsinin, digər dövlətlərin ekspert-mütəxəssislərinin dəvət edilməsinin bu regional birliklər çərçivəsində mümkün olmasına və səmərəliliyinə inanırıq.

Suşenko S.A. Rusiya qanunvericiliyini anqlo-sakson hüquq ailəsinin qanunvericiliyi ilə müqayisə edərək belə bir nəticəyə gəlir ki, *"... sübutların mümkünsüzlüyünün ciddi meyarlarının olmaması,... sübutların və istintaq hərəkətlərinin tam siyahısının olmaması, tərəflərin çəkişməsi prinsipinin maksimal dərəcədə həyata keçirilməsi mümkünlüyün qiymətləndirilməsində geniş hakim mülahizəsi üçün şərait yaradır"* [340, s.12]. Suşenko S.A.-nın fikri ilə razılaş-

mayaraq qeyd etmək istəyirik ki, sübutların mümkünlüyünün meyarları və mümkünsüzlüyünün daha sərt meyarları presedent hüququ ilə müəyyən edilmişdir.

Anqlo-sakson hüquq ailəsinin qaydalarının roman-german hüquq ailəsi ölkələrində tətbiqi problemlərlə qarşılaşır, lakin gələcəkdə cinayət prosesinin mümkün inkişaf istiqamətidir. Məsələn, 2020-ci ildə "vahid məhkəmə təcrübəsi" anlayışı Azərbaycan Respublikasının CPM-nə daxil edildi və ya daha əvvəl, AİHM-nin presedent hüququnun öyrənilməsinin təşkil edilməsi və onun məhkəmə təcrübəsində nəzərə alınması hüquqi dövriyyəyə daxil edildi. Bu dəyişikliklər, mahiyyətcə anqlo-sakson hüquq ailəsinin elementlərinin qanunvericiliyə daxil edilməsidir.

AİHM öz qərarlarında *"məhkəmə təcrübəsinin ardıcıllığını və məhkəmə qərarlarının vəhdətini təmin edən mexanizmlərin yaradılmasının vacibliyini"* dəfələrlə bəyan etmişdir [434, § 55]. Vahid məhkəmə təcrübəsi cinayət mühakimə icraatının ədalətliliyi prinsipinin də təminatlarından biridir.

Qanunvericilik Azərbaycan Respublikasının Ali Məhkəməsinin məhkəmələrin təcrübəsinə aid məsələlər üzrə izahatlar verməsi səlahiyyətini nəzərdə tutur. Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikası Qanununun 79-1-ci maddəsi Ali Məhkəmə tərəfindən məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və ədalət mühakiməsi həyata keçirilərkən maddi və prosessual hüquq normalarının eyni cür tətbiq edilməsini təmin etmək məqsədilə vahid məhkəmə təcrübəsinin formalaşdırılmasına həsr edilmişdir.

Vahid məhkəmə təcrübəsində söhbət hüquqi məsələlərin həllinə eyni yanaşmadan gedir. Hüquqi məsələlərin həllinə eyni yanaşma ümumiyyətlə hüquq normalarının fraqmentar, ümumi aspektlərdən və məzmundan kənarda tətbiqinin qarşısını alır və bununla da vahidliyi təmin edir.

Azərbaycan Respublikasının Ali Məhkəməsinin və Konstitusiya Məhkəməsinin qərarlarında [33,34,35,36,37,38] *"İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hüquqi mövqeyi", "Konstitusiya Məhkəməsinin hüquqi mövqeyi", "qanunvericinin hüquqi mövqeyi"* anlayışlarından istifadə olunur. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi hüquqi mövqeyinin məhkəmələr tərəfindən nəzərə alınmasının vacibliyini öz qərarında belə izah edir ki, *"Konstitusiya məhkəmə icraatında hüquq və azadlıqların pozulmasının müəyyən olunması və Konstitusiya Məhkəməsi tərəfindən məhkəmə aktlarının Konstitusiyaya və qanunlara uyğun olmayan hesab edilməsindən sonra pozulmuş hüquq və azadlıqlar ümumi yurisdiksiyalı məhkəmələrdə bərpa olunmalıdır. Bu zaman Konstitusiya Məhkəməsinin hüquqi mövqelərinin nəzərə alınması, Ali Məhkəmənin Plenumunun qəbul etdiyi qərarın mahiyyəti, işin yenidən baxılmaq üçün hansı mərhələyə göndərilməsi, prosessual müddətlərə riayət edilməsi və s. məsələlər böyük əhəmiyyət kəsb edir"* [39].

Cinayət işi üzrə məhkəmənin hüquqi mövqeyi təqsirləndirilən şəxsə elan edilmiş ittihama və onun təqsirliliyinə, cəzalandırılmasına olan münasibəti bildirir. Hüquqi mövqenin seçilməsi təqsirləndirilən şəxsin cinayəti törətməsindən, onun əməlində cinayət tərkibinin olmasından, təqsirləndirilən şəxsin təqsirini sübut edən dəlillərin olmasından, onun məsuliyyətini ağırlaşdıran və yüngülləşdirən halların olub-olmamasından asılıdır.

Boldırev S.N. hüquqi mövqenin aşağıdakı spesifik xüsusiyyətlərini qeyd edir: *"... onlar RF-nın Konstitusiyasını və digər normativ aktları şərh etmək vasitələridir; RF-nın Konstitusiyasının birbaşa təsirini təmin edir; konstitusiya nəzarəti obyektlərinin konstitusiyaya uyğunluğu və ya konstitusiyaya zidd olması barədə qənaətləri ifadə edir"* [145, s.258].

Bəzi alimlər Konstitusiya Məhkəməsinin fəaliyyətini həmçinin "məhkəmə presedenti" hesab edirlər [169, s.23,26]. Konstitusiya

Məhkəməsinin qərarlarının və Ali Məhkəmənin məhkəmə təcrübəsinin ümumiləşdirilməsinin qanunvericiliyin tətbiqində rolu ilə bağlı fikirləri qismən dəstəkləyərək, qeyd etmək istərdik ki, qeyd olunan qərarların qanunvericiliyin tətbiqi ilə bağlı əhəmiyyətinə baxmayaraq, bütövlükdə onların məhkəmə presedenti hesab edilməsi düzgün olmazdı. Çünki onlar yalnız müəyyən kateqoriya işlər üzrə tətbiq olunmaq üçün nəzərdə tutulurlar və bütövlükdə qanunyaradıcılıq prosesini əvəz etmirlər. Onların yalnız əlavə mənbələr qismində qəbul edilməsi mümkündür.

Məhkəmə presedentinin Azərbaycan qanunvericiliyinə daxil edilməsi onun məhkəmə baxışının nəticələrinə dair yekun qərar çıxarılarkən deyil, məhkəmə prosesinin bütün mərhələlərində tətbiqi deməkdir. Əslində mövcud vəziyyəti məhkəmə presedenti anlayışının Azərbaycan hüquq sisteminə daxil olması kimi qiymətləndirmək olar, ancaq bütövlükdə hüquq sistemini presedent hüquq sistemi kimi qiymətləndirmək düzgün olmazdı.

Vahid məhkəmə təcrübəsinin formalaşması proseduru da məhkəmə presedentlərinin yaradılması prosedurundan fərqlənir. Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi nəticəsində məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanlar müəyyən edildikdə Ali Məhkəmənin Plenumu məsələyə baxır və belə nöqsanlara yol verilməməsi üçün müvafiq izahı nəzərdə tutan qərar qəbul edir.

Qanunvericilik "sistemli nöqsanlar" ifadəsindən istifadə edir. "Sistemli nöqsanlar" konsepsiyası AİHM-nin Reqlamentinin 61-ci Qaydasında nəzərdə tutulmuşdur və eyni tip şikayətlərə səbəb olmuş və ya ola biləcək sistem və struktur çatışmazlıqlarını nəzərdə tutur. Pilot qərarların qəbul edilməsi üçün *"Nazirlər Komitəsi əhəmiyyətsiz pozuntuları ciddi pozuntulardan fərqləndirmək üçün "sistem" və "struktur" problemləri" anlayışlarından istifadə edir"* [429,s.715].

AİHM-nin "İllik Hesabat 2003"-də *"təkrarlanan işlər"* anlayışından istifadə olunur [465, s.51-52].

AİHM Broniowski Polşaya qarşı ilk pilot qərarında (2004) xüsusi tarixi və siyasi keçmişi, müxtəlif sosial, hüquqi və iqtisadi mülahizələri, işdə iştirak edən şəxslərin böyük sayını mütləq "ədalətli balans"ın əldə edilib-edilmədiyini müəyyən etmək üçün nəzərə alınmalı olan amillərə aid etmişdir [436, §162].

Pilot qərarlar gələcəkdə belə xarakterli işlərin aradan qaldırılmasına, onların milli yurisdiksiya çərçivəsində həll edilməsinə kömək edir. Ali Məhkəmənin Plenumu məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanlarla bağlı, AİHM-də "pilot qərarlar" adlandırılan qərarlara oxşar qərar qəbul edir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının 2023-cü il 06 noyabr tarixli qərardadında göstərilir ki, *"38. Məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməməsi hüquqi müəyyənlik prinsipinin pozulmasına gətirib çıxarır. Belə ki, hüquqi müəyyənlik prinsipi hüququn aliliyinin əsas xüsusiyyətlərindən biri kimi çıxış edir. Hər bir qanunun və ya onun hər hansı bir müddəasının hüquqi müəyyənlik prinsipinə cavab verməsi olduqca vacibdir. Bunun təmin edilməsi üçün həm hüquq normaları birmənalı və aydın olmalıdır, həm də xüsusilə məhkəmə təcrübəsində vahid qaydada tətbiq edilməlidir. Bu isə öz növbəsində hər kəsə onun hüquq və azadlıqlarının müdafiə olunacağına, hüquq tətbiq edənin hərəkətlərinin isə proqnozlaşdırıla bilən olacağına əminlik verməlidir"* [40].

Hüquqi ədəbiyyatda vahid məhkəmə təcrübəsinin prosessual prinsip adlandırılmasına rast gəlinir. Məsələn, Quk P.A. və Quk E.P. onun məzmununu *"hüquqi qərarların qəbulu zamanı qanunvericilik normalarının vahid başa düşülməsi və tətbiq edilməsi*" kimi müəyyən edir [170, s.88]. *"Yüksək məhkəmələrin məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi mexanizmində hüquqi mövqelərin hüquqi qüvvəsini müəyyən etmək üçün əsas hüquqi meyar*

onların "məcburiliyi" və ya "fərdiləşdirilməmiş" subyektlər dairəsi üçün məcburi olmamasıdır" [259, s.10-11]. Məhkəmə təcrübəsinin vahidliyi konkret məhkəmələr tərəfindən konkret işlərə baxılması təcrübəsinin ümumiləşdirilməsi, təhlil edilməsinin nəticəsi kimi formalaşır və məcburi xarakter daşıyır. Ancaq qanunvericilik vahid məhkəmə təcrübəsinin pozulmasına yol verdiyinə görə, onun pozulmasını ədalət mühakiməsinin həyata keçirilməsinin heç bir mərhələsində yol verilməyən ədalət mühakiməsinin prinsipləri ilə eyniləşdirmək düzgün olmazdı.

Vahid məhkəmə təcrübəsi Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində nisbətən yeni institut olmasına baxmayaraq, artıq Ali Məhkəmənin məhkəmə kollegiyalarının məhkəmə təcrübəsinin vahidliyini təmin edən qərardadları qəbul edilmişdir və məhkəmə təcrübəsində hüquq normalarının eyni qaydada tətbiq edilməsi müvəffəqiyyətlə təmin edilir. Vahid məhkəmə təcrübəsinin nöqsanları sırasında *"işlərə şablon yanaşma"* da qeyd olunur [229, s.700]. Lakin bu amilin Azərbaycan cinayət-prosessual qanunvericiliyinə əsasən vahid məhkəmə təcrübəsinin tətbiqində problem yaradacağı inandırıcı görünmür, çünki qanunvericilikdə ondan kənara çıxılması ilə bağlı müddəalar mövcuddur. Burada əsas problem hakimlərin bu şablonu tətbiq etməyə meyilli olmaları və ya hakimin mülahizəsinin tətbiqində laqeyd davranmalarıdır ki, bu da məhkəmələrin fəaliyyətinin monitorinqinin təşkili ilə aradan qaldırıla bilər.

2.4. Gizli şahidlərdən istifadə edilməsi problemləri

Cinayət işləri üzrə ədalət mühakiməsinin həyata keçirilməsinə kömək edən şəxslərə, o cümlədən xüsusilə ağır cinayətlər üzrə şahidlərə, zərərçəkmişlərə, həmçinin təqsirləndirilən şəxslərə və s. müxtəlif təzyiqlərin göstərilməsi ədalət mühakiməsi sisteminin pozulmasına yönəlmiş ən təhlükəli vasitələrdən biridir. İstisna hallar

istisna olmaqla, gizli ifadə vermək hüquqa uyğun bir tənzimləmə deyildir. C. Beccarianın dediyi kimi: *"Zorakılıq ən sağlam, ən güclü qalxanı olan gizlilik silahını ələ aldığı zaman etirafdan kim özünü qoruya bilir*" [437, s.25].

Bəzi hallarda ədalət mühakiməsinin səmərəliliyi məhz bu təzyiqlərin aradan qaldırılmasından, proses iştirakçılarının, o cümlədən şahidlərin təhlükəsizliyinin təmin edilməsindən asılıdır. Şahidlərin təhlükəsizliyinin təmin edilməsi üsullarından biri də onların anonimliyinin təmin edilməsidir. Şahid araşdırılan cinayətə heç bir aidiyyəti olmadığı halda, iş üzrə həqiqətin müəyyən edilməsi, cinayətin elementlərinin aydınlaşdırılması baxımından əhəmiyyətli iştirakçılardan biridir.

Şahid tərəfindən təqsirləndirilən şəxsin və ya zərərçəkmişin vəziyyətini ağırlaşdıran və ya yüngülləşdirən ifadələrin verilməsi bəzi hallarda onu çətin vəziyyətə salır, həyatı və sağlamlığı üçün təhlükəli situasiyaya düşür və bu isə ədalət mühakiməsinin həyata keçirilməsi və ondan sonrakı dövrlərdə onların təhlükəsizliyinin etibarlı təmin edilməsini tələb edir. Anonim şahidlərə daha çox mütəşəkkil və ağır cinayət işlərində ehtiyac yaranır.

"Hal-hazırda ona qarşı anonim ifadə vermək perspektivi ilə üzləşən təqsirləndirilən şəxs müdafiəsini formalaşdırmaq üçün ittiham tərəfinin açıqlamasından asılıdır və andlı iclasçılar onun məruz qalacağı danılmaz qərəzdən asılıdır; şahidin anonimliyini təmin etməklə məhkəmə təqsirləndirilən şəxsin və ya onun tərəfdaşlarının andlılar heyətinin bu ittiham iddiasını müstəqil şəkildə nəzərdən keçirmək şansına malik olmasından əvvəl təhlükə yaratdığına qərar verir" [407, s.91].

AİHM Reqlamentinin 33-cü Qaydasının 2-ci bəndinə əsasən, demokratik cəmiyyətdə mənəviyyat, ictimai qayda və ya milli təhlükəsizlik maraqları naminə, habelə yetkinlik yaşına çatmayanların maraqları, yaxud tərəflərin və ya hər hansı maraqlı şəxsin şəxsi hə-

yat sirrinin qorunması bunu tələb etdikdə, yaxud da aşkarlığın ədalət mühakiməsinin maraqlarına xələl gətirə biləcəyi xüsusi hallarda Palata Sədrinin rəyinə görə ciddi zərurətin tələb etdiyi dərəcədə sənədlərə və ya onların bir hissəsinə ictimaiyyətin çıxışı məhdudlaşdırıla bilər.

BCM-nin Roma Statutunun 64-cü maddəsinə əsasən, məhkəmə araşdırması zərərçəkmişlərin və şahidlərin zəruri müdafiəsi nəzərə alınmaqla həyata keçirilməlidir və Məhkəmə zərərçəkmişlərin və şahidlərin təhlükəsizliyini, fiziki və mənəvi rifahını, ləyaqətini və şəxsi toxunulmazlığını qorumaq üçün müvafiq tədbirlər görməlidir. Bu cür müdafiənin əsasları Statutun 7(3)-cü maddəsində müəyyən edilmiş yaş, cinsiyyət və sağlamlıq, habelə cinayətin xarakteri, xüsusən də, lakin bununla məhdudlaşmayaraq, cinayətin cinsi zorakılıqla, gender əsaslı zorakılıq və ya uşaqlara qarşı zorakılıqla bağlı olması faktıdır (Statutun 68-ci maddəsi).

Anonim şahidlərdən istifadə üçün qanunvericilik bazasının mövcud olmasına baxmayaraq, anonim şahidlərdən alınan ifadələri şübhə altına alan bəzi məsələlər tənzimləmədən kənarda qalır. Məsələn, beynəlxalq aktlar və milli qanunvericilik anonim şahidlərin istifadəsinə dair ümumi məsələləri tənzimləyir. Anonim şahidlərdən istifadə ilə bağlı bəzi tələblər AİHM-in qərarlarında müəyyən edilmişdir. Hesab edirik ki, anonim şahidlər institutu sübutların bilavasitə tədqiqindən istisna kimi milli və beynəlxalq səviyyədə müfəssəl tənzim olunmalıdır.

"Cinayət prosesinin iştirakçılarının dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanunu proses iştirakçıları barəsində tətbiq edilən təhlükəsizlik tədbirlərinə müdafiə olunan şəxslərin sənədlərinin və xarici görkəminin dəyişdirilməsini də aid edir. Bu tədbirlər müdafiə olunacaq şəxslərin təhlükəsizliyinin başqa tədbirlərlə təmin edilməsinin mümkün olmadığı hallarda və onların razılığı əsasında müstəsna hallarda tətbiq edilir. Müdafiə altında olan şəxslərə anket məlumatları dəyişdirilməklə şəxsiyyətini təsdiq

edən sənəd və digər sənədlər verilir, habelə onların xarici görkəmi dəyişdirilir. Qanun bununla yanaşı, müdafiə olunan şəxsin təhlükəsizliyi mülahizələri tələb etdikdə, onun iştirak edəcəyi məhkəmə proseslərinin məhkəmənin (hakimin) qərarı ilə qapalı keçirilməsini, həmin şəxslərin təqsirləndirilən şəxsin iştirakı olmadan, təqsirləndirilən şəxslərin ayrılıqda dindirilməsini nəzərdə tutur və bu barədə məhkəmənin (hakimin) əsaslandırılmış qərarı olmalıdır. Beləliklə, Qanun şahidlərin və digər iştirakçıların şəxsiyyətləri barədə həqiqi məlumatların elan edilməsindən imtina edilməsini, onların dəyişdirilmiş yeni məlumatlarının elan edilməsi ilə onların dindirilməsini nəzərdə tutur.

Azərbaycan Respublikasının CPM-nin 51-2.1-ci maddəsi təhlükəsizlik məqsədilə videokonfrans əlaqə sistemindən istifadə edilməsini və bu tədbirin tətbiq edilməsinin şərtlərini nəzərdə tutur. Belə ki, bu tədbirin tətbiqi üçün proses iştirakçılarının həyatı və sağlamlığı üçün təhdidlər real olmalıdır, həmçinin onlara kənar təsirlərin qarşısının alınmasına ehtiyac olmalıdır. Yalnız bu hallarda cinayət mühakimə icraatının videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilməsinə yol verilir.

Proses iştirakçılarının təhlükəsizliyinin təmin edilməsi ilə dindirilməsi və anonim şahidlərdən istifadə edilməsi eyni deyildir. Anonim şahidləri, RF CPM-nin 278-ci maddəsində göstərildiyi kimi, məhkəmə qərardad və ya qərar çıxarmaqla, şahidin şəxsiyyəti haqqında həqiqi məlumatları açıqlamadan, şahidin məhkəmə baxışının digər iştirakçılarının vizual müşahidəsini istisna edən şəraitdə onu dindirmək hüququna malikdir.

Anonim şahidlərdən istifadə olunması zamanı şahidlərin şəxsiyyəti haqqında məlumatlar müdafiə tərəfinə məlum olmur və müdafiə tərəfi bu şahidlərin ifadələrini yoxlamaq imkanından məhrum olur, həmçinin onları qiymətləndirmək və onların doğruluğunu şübhə altına almaq imkanından məhrum olur. Şahidin şəxsiyyəti barədə məlumatlar gizlədildiyindən, şahidin işin gedişində maraqlı

olduğunu, həmin şəxsin ifadə verdiyi halları düzgün qavramaq qabiliyyətini qiymətləndirmək olmur.

Anonim şahidlərdən istifadə edilməsi ilk baxışda cinayət mühakimə icraatının tərəflərin çəkişməsi, Konstitusiya ilə təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması, cinayət mühakimə icraatında sübutların qiymətləndirilməsi kimi prinsiplərinin pozulmasına gətirib çıxarır. Konstitusiyanın 71-ci maddəsinin II bəndinə əsasən, hər kəsin hüquq və azadlıqları digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşır. CPM-nin 19.4.5-ci maddəsinə əsasən, şübhəli və ya təqsirləndirilən şəxs nəzərdə tutulmuş hallar və qaydalar rəhbər tutulmaqla, onun əleyhinə ifadə vermiş şəxsləri məhkəmə prosesində, məhkəmə istintaqı zamanı dindirmək hüququna malikdir və şübhəli və ya təqsirləndirilən şəxsin bu hüququ cinayət prosesini həyata keçirən orqan tərəfindən bu Məcəllədə nəzərdə tutulmuş hallarda təmin edilməlidir.

Azərbaycan Respublikası CPM-nin 125.1-ci maddəsinə əsasən, məlumat, sənədlər və digər əşyalar onların həqiqiliyinə, mənbəyinə və əldə edilmə şəraitinə şübhə olmadıqda sübut kimi qəbul edilə bilər. Anonim şahidlərin dindirilməsinə birinci yanaşmada məhkəmə baxışının bilavasitəliyi prinsipi və məhkəmənin sübutları bilavasitə qavraması prosesi pozulur. Sübutların tədqiqinin birbaşa olması o deməkdir ki, bütün sübutlar ilkin mənbədən kənar yardım olmadan əldə edilir, onlar bilavasitə məhkəmə prosesində araşdırılır, o cümlədən şahidlərin ifadələri dinlənilir. Dövlətlərin qanunvericiliyi müəyyən maddi sübutların birbaşa tədqiqi obyektiv olaraq qeyri-mümkün olduqda, birbaşa tədqiqat prinsipindən istisnalara yol verir. Məsələn, Azərbaycan Respublikası CPM-nin 327 və 329-cu maddələrinə əsasən, müvafiq olaraq, təqsirləndirilən şəxsin və şahidin ifadələrinin açıqlanmasına icazə verilir (Qazaxıstan CPM-nin 353-cü maddəsi (şahidin və zərərçəkmiş şəxsin ifadələrinin elan edilməsi), Moldova Respublikası CPM-nin 371-ci maddəsi

(şahid ifadələrinin açıqlanması)). Anonim şahidlərin AİHM-in presedent hüququnda müəyyən edilmiş bəzi tələblərin yerinə yetirilməsi şərti ilə məhkəmə prosesində iştirakı bilavasitə tədqiqat prinsipindən də istisnadır.

AİHK-nın 6-cı maddəsinin (d) bəndi şübhəli və təqsirləndirilən şəxslərin onların əleyhinə və lehinə ifadə vermiş şahidləri dinləmək və onların dindirilməsini tələb etmək hüququnu, 8-ci maddənin 2-ci bəndi isə müəyyən istisnalarla bu hüquqların həyata keçirilməsinin təmin olunmasını nəzərdə tutur. Əslində, müvafiq hallarda *"müdafiə tərəfinin və ifadə vermək üçün çağırılan şahidlərin və ya zərərçəkmişlərin maraqları arasında balans gözlənilməlidir"* [458, §70; 582, §53].

"Məhkumluğun müəyyən edilməsi üçün anonim şahidlərin ifadələrindən istifadə edilməsi heç də bütün hallarda Konvensiyaya uyğun gəlmir" [458, §69; 582, §52].

Anonim şahidlərdən istifadə ilə bağlı AİHM qeyd edir ki, *"Əsas prinsip ondan ibarətdir ki, cinayət mühakiməsi zamanı təqsirləndirilən şəxsin ona qarşı olan sübutlara etiraz etmək üçün səmərəli imkanı olmalıdır"* [431, §127].

AİHM anonim şahid ifadələrindən istifadənin Konvensiyanın pozuntusunu təşkil etməməsi üçün meyarlar müəyyən etmişdir. Yəni, şahidlərin anonimləşdirilməsinin yeganə məqsədi *"şahidlərin və onların qohumlarının həyatını, azadlığını və ya sağlamlığını, həmçinin hüquqlarını təmin etməkdir"* [582, §53]; *"nəhayət, xatırlamaq lazımdır ki, məhkumluq yalnız və ya həlledici dərəcədə anonim ifadələrə əsaslanmamalıdır"* [582, §55]. Ədalət mühakiməsinin həyata keçirilməsi hüququnun demokratik cəmiyyətdə tutduğu yeri nəzərə alaraq, *"müdafiə hüquqlarını məhdudlaşdıran istənilən tədbir ciddi şəkildə zəruri olmalıdır. Daha az məhdudlaşdırıcı tədbir kifayət edərsə, bu tədbir tətbiq edilməlidir"* [582, §58]. Demokratik cəmiyyətdə ədalətli məhkəmə araşdırması hüququnun tutdu-

ğu əhəmiyyət nəzərə alınmaqla, müdafiə hüquqlarının məhdudlaşdırılmasına ciddi ehtiyac və zərurət olmalıdır. Daha az məhdudlaşdırıcı tədbirlər kifayət edərsə, sərt tədbirlər əvəzinə bu tədbirlərdən istifadə edilməlidir.

AİHM qeyd edir ki, *"milli orqanlar bəzi şahidlərin şəxsiyyətinin gizli saxlanılması zərurətini əsaslandırmalıdırlar"* [458, §47; 582, §71]. İttiham tərəfi şahidlərin anonimliyini saxladıqda, *"müdafiə tərəfi bir sıra çətinliklərlə qarşılaşır. Belə çətinliklər yarandıqda, məhkəmə orqanları onları müvafiq prosedurlarla kompensasiya etməlidir"* [458, §72; 582, §54]. *"Ərizəçiyə anonim şahidlərin etibarlılığını yoxlamaq qadağan edilə bilməz"* [433, §29; §42].

AİHM hesab edir ki, anonim şahidlərin dindirilməsi proseduru ilə təqdim edilən təminatların kifayətliliyi qiymətləndirilərkən müdafiə tərəfinin çətinliklərini tarazlaşdırmaq üçün anonim şahidlərin ifadələrinin ərizəçinin mühakimə olunması üçün nə dərəcədə həlledici olması lazımi qaydada nəzərə alınmalıdır. Əgər bu cür şahid ifadələri heç bir şəkildə həlledici deyilsə, deməli, müdafiə tərəfi daha az çətinliklərlə qarşılaşmışdır.

Ukrayna CPM-nin 352-ci maddəsinin 9-cu bəndi müstəsna hallarda şahidin təhlükəsizliyinin təmin edilməsi məqsədilə onun digər binadan, o cümlədən məhkəmə binasından kənarda texniki vasitələrlə və ya eyniləşdirilməsini qeyri-mümkün edən, cinayət prosesi tərəflərinə suallar vermək və cavabları eşitmək imkanı verən digər üsullarla dindirilməsinə yol verir. Şahidin səsinin eyniləşdirilməsi təhlükəsi varsa, dindirmə akustik maneələrlə müşayiət oluna bilər. Bu üsul şahidlərin və zərərçəkmiş şəxslərin eyniləşdirilməsini tam istisna edir, dindirilən şəxs məhkəmə araşdırmasının iştirakçıları üçün anonim qalır. Məhkəmə cinayət işinə mahiyyəti üzrə baxarkən və onu həll edərkən belə şəxsləri eyniləşdirməlidir.

Türkiyə Cəza Mühakiməsi Qanununun 58-ci maddəsinin (3) bəndinə əsasən, hakim şahidləri iştirak etmək hüququ olan şəxslər

olmadan dinləyə bilər. Şahidin dindirilməsi zamanı audio və video ötürülmə həyata keçirilir. Sual vermək hüququ qorunur. Şahid vəzifəsini yerinə yetirdikdən sonra onun şəxsiyyətinin məxfi saxlanılması və ya təhlükəsizliyinin təmin edilməsi üçün görüləcək tədbirlər müvafiq qanunla tənzimlənir.

Erol Tatar gizli şahidlərin dinlənilməsi prosedurunu izah edərək göstərir ki, *"Gizli şahidin şəxsiyyət məlumatlarının müəyyən edildiyi və təxəllüsün verildiyi hesabat əsas fayla yerləşdirilmir, başqa iş nömrəsi ilə qeyd olunur. Bu hesabat ayrıca və təhlükəsiz bölmədə saxlanılır... Gizli şahid adi prosedurda göstərildiyi kimi üz-üzə və ya tərəflərin iştirakı olmadan dinlənilə bilər. Amma şəxsiyyət məlumatları heç bir halda açıqlanmayacaq. Şəxsi məlumatlar məxfi saxlandığı üçün dinlənilən şahid "gizli şahid" olacaqdır"* [116, s.288].

Böyük Britaniyanın şahidlə bağlı görülməsi tələb oluna biləcək tədbir növlərinə dair 2008-ci il Cinayət Sübutları (Şahidin Anonimliyi) Aktının 2(c) bəndinə əsasən, şahidə onun müəyyən edilməsinə səbəb ola biləcək hər hansı müəyyən təsvirə aid suallar verilmir [572].

Təxəllüs, təcrübənin göstərdiyi kimi, qondarma soyaddan, hərfi işarələrdən ibarət olur, onlar dırnaq arasında bir hərf, nöqtə ilə ayrılan iki hərf kimi göstərilir. *"Təxəllüs" dedikdə, cinayət işinin icraatı zamanı müstəntiq (təhqiqatçı) tərəfindən cinayət prosesinin iştirakçısına verilən qondarma soyad və ya hərf başa düşülməsi təklif edilir"* [186, s.10–11]. "Təxəllüs" termininin leqal olaraq gizli şahidin cinayət mühakimə icraatında iştirakını tənzim edən CPM-nin normalarında möhkəmləndirilməsini təklif edən alimləri müdafiə edirik [186, s.10–11]. Ona görə ki, təxəllüs şahidin anonimləşdirilməsi tədbirlərindən biri kimi anonimləşdirmə və eyniləşdirmənin istisna edilməsi tələblərinə cavab verməlidir, etibarlılığı ilə fərqlənməlidir. Müstəntiq və ya şahid tərəfindən təxəllüs seçilməsi faktı da əhəmiyyətlidir. Şahid tərəfindən təxəllüs seçilərkən

şüuraltı olaraq nə vaxtsa tez-tez istifadə etdiyi soyad və hərfləri seçə bilər ki, bu da şahidin tanınması riskini yüksəldir.

Məhkəmə baxışı zamanı gizli şahidlər adətən təxəllüslü şahidlər üçün xüsusi yerdə olurlar və həm prosesin iştirakçıları, həm də məhkəmə üçün görünməz olurlar. Belə vəziyyət məhkəməni şahidin ifadə verməsinin könüllülüyünü və ona təzyiq olunmamasını yoxlamaqdan məhrum edir. Şahidin yalan və ya lazımi ifadə verməyə meylləndirilməsinin müxtəlif üsulları vardır. Gizli şahidlər bilə-bilə yalan ifadə verməyə və ifadə verməkdən imtina etməyə görə məsuliyyət daşıyırlar. Şahid ifadə verdikdən sonra da onun anonimləşdirilməsi məsələsi yarana bilər. Gizli şahidlərdən istifadə olunmasına yol verən, yuxarıda qeyd olunan qanunlar anonim şahidlərdən istifadə olunmasının qeyd olunan xüsusiyyətlərini nəzərə almırlar.

Beynəlxalq sənədlərin təhlilindən göründüyü kimi, onlar mühakimə icraatında gizli şahidlərdən istifadə olunmasının ümumi çərçivələrini tənzimləyirlər. Beynəlxalq sənədlər gizli şahidlərdən istifadə edilməsinin detallaşdırılmasını milli orqanların səlahiyyətinə aid edirlər. AİHM-nin presedentləri gizli şahidlərdən istifadə olunmasının prinsiplərini, şərtlərini və məqsədlərini dəqiqləşdirirlər. Ancaq hesab edirik ki, şahidlərin təhlükəsizliyinin təmin edilməsi tədbirlərinin tətbiq edilməsinin məqsədləri və əsasları ümumidir və təcrübə ilə yoxlanılmalıdır. Gizli şahidlərin təhlükəsizliyi tədbirlərinin tətbiq edilməsi şahidin həyatı, azadlığı və hüquqları üçün təhlükənin səviyyəsi ilə bağlıdır. Müasir şəraitdə texniki vasitələr tətbiq edilmədən anonimliyin təmin edilməsi demək olar ki, mümkün deyildir. Texniki vasitələr şəxsi eyniləşdirməyə imkan verən fərdi xüsusiyyətləri, o cümlədən səsi, zahiri görkəmi, danışıq xüsusiyyətlərini dəyişdirməyə imkan verir. Şahidlərin anonimləşdirilməsi prosesi əsasən idarə aktları ilə tənzim olunur və xidməti istifadə üçün nəzərdə tutulmuşdur. ***Hesab edirik ki, şahidlərin anonimləşdirilməsi prosesi xüsusi qanunla tənzim edilməlidir və***

məhkəmənin ifadə verilməsinin könüllülüyünü və yalan ifadə verilməsi üçün şahidə təzyiq göstərilməməsini yoxlamaq imkanı olmalıdır.

Ukraynanın CPM "anonim şahidlərə" icazə verilməsi baxımından Azərbaycan Respublikası, Qazaxıstan Respublikası, Rusiya Federasiyası, Moldova Respublikasının cinayət-prosessual qanunvericiliyinə ziddir. Anonim şahidlərin ifadələrindən ittihamın əsası kimi istifadə edilməsi bütün hallarda Avropa Konvensiyasının pozulmasına səbəb olmur. Hakan Hakeri qeyd edir ki, *"Gizli/anonim şahid ifadələrinin sübut olaraq istifadə edilməsi hər zaman AİHM-nə zidd deyildir... hökmün yalnız bu anonim şahidin ifadələrinə əsaslanmaması şərti ilə, bu şahidin ifadələrindən sübut kimi istifadə edilməsi AİK-na uyğundur"* [114, s.281].

III Fəsil.
DÖVLƏTLƏR ARASINDA CİNAYƏT İŞLƏRİ ÜZRƏ HÜQUQİ YARDIM ÇƏRÇİVƏSİNDƏ PROSESSUAL HƏRƏKƏTLƏRİN YERİNƏ YETİRİLMƏSİNƏ NƏZARƏT VƏ KRİMİNALİSTİK TƏMİNATI PROBLEMLƏRİ

3.1. Dövlətlər arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım çərçivəsində prosessual və digər hərəkətlərin yerinə yetirilməsi üzərində prosessual rəhbərlik, prokuror nəzarəti və məhkəmə nəzarəti

Cinayət işləri üzrə hüquqi yardım göstərilməsi zamanı prosessual məcburiyyət tədbirlərinin də həyata keçirilməsi nəzərdə tutula bilər. Prosessual məcburiyyət tədbirləri ən əhəmiyyətli konstitusion insan hüquqlarına – şəxsi azadlıq və şəxsi təhlükəsizlik hüquqlarına toxunur. Azərbaycan qanunvericiliyi "prosessual məcburiyyət tədbirləri"nin anlayışını vermir.

Smirnov A.V. hesab edir ki, *"məcburiyyət tədbirlərinə maraqlı tərəflərin iradəsi əleyhinə qəbul edilmiş prosessual hərəkətlər və qərarlar daxildir"* [364, s.449].

Mancieva E.V. məcburi xarakterli vasitələrin sistemləşdirilməsi üçün *"prosessual məcburiyyət tədbirləri, o cümlədən məcburi xarakterli vasitələrin təmin etdiyi prosessual hərəkətlər və qərarlarla əlaqələri ideyasına əsaslanan"* variantlar təklif edir [262, s.25].

Muravyov K.V. faktiki olaraq müəyyən *"digər məcburetmə tədbirlərini (həbs, vəzifədən müvəqqəti olaraq kənarlaşdırma, əmlakın üzərinə həbs qoyulması, stasionar məhkəmə ekspertizasının keçirilməsi üçün tibb təşkilatına məcburi yerləşdirmə)"* dəstəkləyir [268, s.19].

E.Q. Vasilyevaya görə, *"Cinayət mühakimə icraatında cinayət-prosessual məcburiyyətin sosial şərtliliyi"* nəzərə alınmalıdır

[151, s.9]. *"Cinayət-prosessual məcburiyyət tədbirləri ... səlahiyyətli vəzifəli şəxslər və dövlət orqanları tərəfindən tətbiq edilən təsir vasitələridir"* [383, s.6].

Hesab edirik ki, cinayət-prosessual məcburiyyət tədbirləri — cinayət-prosessual qanunvericiliklə nəzərdə tutulan, cinayət təqibinin həyata keçirilməsi zamanı mühakimə icraatının iştirakçıları üçün yaradılan maneələrin aradan qaldırılması məqsədilə, qanunla müəyyən edilmiş şərtlər, əsaslar və qaydalar olduqda, dövlət orqanları və vəzifəli şəxslər tərəfindən tətbiq edilən, şəxsiyyətin hüquqlarının və azadlıqlarının məhdudlaşdırılması üzrə dövlət təsir vasitələridir.

Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım göstərilməsini tənzimləyən qanunvericilikdən çıxış edərək belə bir nəticə çıxara bilərik ki, xarici dövlətin sorğusu əsasında hüquqi yardım göstərilməsi qaydasında yerinə yetirilən ayrı-ayrı prosessual hərəkətlər icra edilərkən, prosessual məcburetmə tədbirlərinin tətbiqi zərurəti yarana bilər. Göstərilən prosessual hərəkətlərin icrasının məcburiliyi sorğu edən tərəfin tapşırığı ilə deyil, bu tapşırıqları yerinə yetirən sorğu edilən tərəfin orqanları tərəfindən müəyyən edilə bilər.

Azərbaycan Respublikası CPM-nin dördüncü bölməsinə əsasən, prosessual məcburiyyət tədbirlərinə tutulma, qətimkan tədbirləri və digər prosessual məcburiyyət tədbirləri aiddir və bunlar məhkəmənin qərarı ilə həyata keçirilən prosessual hərəkətlər kimi müəyyən edilir.

Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinin təhlili göstərir ki, prosessual məcburiyyət tədbirləri məhkəmə və ya müstəntiq tərəfindən tətbiq edilir, sonra isə şəxs prosessual məcburiyyət tədbirlərinin tətbiqinin qanuniliyinin yoxlanılması üçün məhkəməyə çıxarılır. İstisna hallarda prokurorun özü qərar verir və ya müstəntiqin qərarı ilə razılaşır. İnsan hüquqlarının vacibliyindən və onların təmin olunmasından çıxış edərək, prosessual

məcburiyyət tədbirlərinin tətbiqi prosessual rəhbərlik, prokuror nəzarəti və məhkəmə nəzarəti ilə əhatə olunur.

"Prokurorluq haqqında" Qanunun 4-cü maddəsi prokurorluğun fəaliyyət istiqamətləri içərisində cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik və qanunlara riayət olunmasının təmin edilməsi, təhqiqat və ƏAO-nun fəaliyyətində qanunların icrasına və tətbiqinə nəzarət ilə bağlı məsələləri nəzərdə tutmuşdur.

Azərbaycan Respublikası CPM prokuroru cinayət işləri üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik edən (7.0.23 və 84.2.2-ci maddələr) və ya dövlət ittihamçısı qismində məhkəmədə ittihamı müdafiə edən şəxs (7.0.23) kimi müəyyən edir. Həmçinin, onun cinayət işi üzrə təhqiqata və ibtidai istintaqa nəzarət etməsini (84.5-ci maddə), prosessual məcburiyyət tədbirlərinin icra olunmasının qanuniliyinə prokuror nəzarətini (84.5.19-cu maddə) vurğulayır.

Göründüyü kimi, Azərbaycan Respublikası CPM ibtidai istintaqa prosessual rəhbərliyi, təhqiqat və ibtidai istintaq üzərində nəzarəti fərqləndirir, ancaq "prosessual rəhbərlik" anlayışının məzmununu açıqlamır. Milli CPM-nin təhlilindən çıxış edərək belə bir nəticəyə gəlmək olar ki, prokurorun prosessual rəhbərliyi məhkəməyəqədər istintaqın təşkilini, istintaqın istiqamətlərinin müəyyən edilməsini, prosessual hərəkətlərin əlaqələndirilməsini, müstəntiqlər üçün iş şəraitinin yaradılmasını, qanunvericiliyin tələblərinə riayət olunmasının təmin edilməsini əhatə edir və prokuror nəzarətinin həyata keçirilməsinin bir formasıdır.

İbtidai araşdırma orqanları tərəfindən qanunların icrasına prokuror nəzarəti, cinayət təqibinin məhkəməyəqədər mərhələlərində səlahiyyətli prokurorların hüquq normaları ilə tənzimlənən, *"cinayət təqibinin həyata keçirilməsi zamanı qanunçuluğun təmin edilməsinə yönəldilmiş fəaliyyətidir"* [291, s.99-100] və *"hüquq-mühafizə fəaliyyətinin istiqamətlərindən biri və dövlət nəzarətinin ayrılmaz hissəsidir"* [61, s.33]. Məhkəməyəqədər icraatda prokurorun xüsusi rolu nəzərə alınaraq, *"prokuror nəzarətinin predmeti —*

cinayətlərin araşdırılmasında təhqiqatçıların və müstəntiqlərin bütün prosessual fəaliyyətlərinin qanuniliyidir" [302, s.291].

Bəzi alimlər hesab edirlər ki, prokurorun bütün səlahiyyətləri nəzarətin həyata keçirilməsi ilə bağlıdır. Məsələn, Jeleznyak N.S. və İvanova O.Q. hesab edirlər ki, *"fəaliyyətinin formasından asılı olmayaraq, prokuror həmişə nəzarət edən vəzifəli şəxsdir"* [182, s.87]. Prosessual rəhbərlik və prokuror nəzarəti qanunvericiliyin, o cümlədən cinayət prosesi iştirakçılarının konstitusion hüquqlarına toxunan istənilən pozuntuların müəyyən edilməsi və onlara reaksiya verilməsi üçün nəzərdə tutulan universal formalardır. *"Eyni zamanda, bu formalar bir-birini tamamlayan və korreksiya edən bir sistem kimi çıxış edirlər"* [245, s.22]. Prokuror ibtidai istintaq çərçivəsində prosessual rəhbərlik funksiyasını yerinə yetirir, lakin Stukonoq İ.V. qeyd edir ki, *"prokurorun vəzifəsi ibtidai istintaq zamanı qanuna riayət olunmasına nəzarətin həyata keçirilməsidir"* [343, s.30].

Dövlətlərin qanunvericiliyinin müqayisəli təhlili göstərir ki, məhkəməyəqədərki icraat mərhələsində "məhkəmə yoxlaması" və "məhkəmə nəzarəti" anlayışları bəzən eyni mənada işlədilir. Onların mahiyyətcə fərqli olduqları fikri ilə razılaşmırıq. Bu səbəbdən bu anlayışlar arasındakı nisbətin öyrənilməsini məqsədəuyğun hesab edirik.

Hesab edirik ki, nəzarət idarəçilik səlahiyyətləri ilə əlaqədardır və struktur bölmələrinin fəaliyyətinin normativ aktlara və digər sənədlərə uyğunluğunun yoxlanılmasından ibarətdir. *"...Hüquqi baxımdan prokuror nəzarəti məhkəmə kontrolundan, habelə federal icra hakimiyyəti orqanlarının nəzarət funksiyalarından - dövlət nəzarətindən fərqləndirilməlidir"* [291, s.11]. Qəfərov M.S. hesab edir ki, *"məhkəmə nəzarəti... məzmun etibarilə cinayət işi üzrə icraatı həyata keçirən orqanların fəaliyyətində qanun pozuntularının qarşısının alınması və aradan qaldırılmasıdır"* [88, s.211].

Kontrol inzibati funksiyaların yerinə yetirilməsi ilə əlaqədardır və hüquqi fəaliyyətin formasıdır. Bu zaman səlahiyyətli orqanlar və

şəxslər nəzarət altında olan obyektlərdə normativ göstərişlərin faktiki yerinə yetirilməsi, normativ və hüquqi aktların tələblərinə riayət edilməsi barədə məlumatların toplanılmasını və yoxlanılmasını həyata keçirirlər və bilavasitə tədbirlər görürlər. Nəzarət isə yol verilmiş qanun pozuntularının aşkar edilməsi və aradan qaldırılması yolu ilə qanunçuluğun və hüquq qaydasının təmin edilməsidir. Həmçinin, onların qarşısının alınmasından ibarətdir. *"Nəzarət kontrol ilə müqayisədə inzibati funksiyalarla bağlı deyildir"* [143, s.6].

Məhkəmə sisteminin daxilində də məhkəmə nəzarəti həyata keçirilir. Bu nəzarət bir çox hallarda məhkəmə tərəfindən buraxılmış nöqsanların aradan qaldırılması məqsədilə həyata keçirilir və mahiyyət etibarilə məhkəmə kontroludur. Digər hallarda isə yuxarı məhkəmələr aşağı instansiya məhkəmələrinin qərarlarının əsassız və qanunsuz olması hallarını istisna etmək üçün onları yoxlayır, nəticədə məhkəmə qərarlarını ləğv edir və ya dəyişdirir. Belyaev V.P. hesab edir ki, *"...yuxarı məhkəmə aşağı məhkəmənin qəbul etdiyi qərarların qanuniliyini və əsaslılığını yoxlayarkən əslində nəzarəti yox, kontrolu həyata keçirir*" [143, s.11-12].

"İstintaq hərəkətləri üzərində məhkəmə kontrolu funksiyasının tərkibinə daxil olan məhkəmə nəzarətinin növlərini: perspektivli (ilkin) məhkəmə kontrolu, retrospektiv (sonrakı) məhkəmə kontrolu, yuxarı məhkəmələrin kontrolu, korrektiv funksiyasını" fərqləndirən A.A. Teymurovun təklifi maraqlıdır [108, s.80]. Müəllif sadalanan bütün məhkəmə kontrolu növlərinin vahid "məhkəmə kontrolu" anlayışında birləşdirilməsinin məqsədəuyğunluğunu nəzərdən keçirir.

Məhkəmə nəzarəti, istintaq hərəkətlərinin məcburi aparıldığı, prosessual məcburiyyət tədbirinin tətbiq edildiyi, əməliyyat-axtarış tədbirinin həyata keçirildiyi və ya ibtidai araşdırmanın aparıldığı yer üzrə səlahiyyəti daxilində müvafiq birinci instansiya məhkəməsi tərəfindən həyata keçirilir. Əsgərov B.M. əməliyyat-axtarış məlumatları üzərində məhkəmə nəzarətinin həyata keçirilməsindən

bəhs edir və *"əməliyyat-axtarış məlumatlarının taleyinin... nəzarəti həyata keçirən məhkəmə instansiyası tərəfindən həll edilməsini daha məqsədəuyğun və ədalətli"* hesab edir [64, s.294].

RF və Azərbaycan Respublikası CPM-nin müqayisəli təhlili göstərir ki, RF CPM-də "məhkəmə kontrolu" adlandırılan hərəkətlər Azərbaycan Respublikası CPM-də "məhkəmə nəzarəti" adlandırılır. Qanunvericilik məhkəmə nəzarətini istintaq hərəkətlərinin məcburi aparılması, məcburiyyət tədbirlərinin tətbiqi və ya ƏAT-nin həyata keçirilməsi ilə, yəni məhkəməyəqədərki icraatla məhdudlaşdırır.

Lutsenko P.A. belə bir fikir irəli sürür ki, *"məhkəməqədərki icraatda məhkəmə kontrolu, cinayət prosesində məhkəmənin fəaliyyət istiqamətidir"* [257, s.6].

Məhkəməyəqədərki icraatda məhkəmə nəzarətinin və prokuror nəzarətinin nisbəti haqqında sual da maraq kəsb edir. Hesab edirik ki, onlar bir-birini tamamlayırlar və heç bir halda bir-birinə qarşı qoyula və ya eyniləşdirilə bilməzlər.

B.A. Muminovun məhkəmə nəzarətini və kontrolunu fərqləndirməsi, konkret hallara aid olsa da, diqqəti cəlb edir: *"Məhkəmə nəzarəti... yuxarı məhkəmələrin qanunla tənzimlənən fəaliyyətidir*. Məhkəməqədərki icraatda məhkəmənin həyata keçirdiyi fəaliyyət isə məhkəmə kontroludur" [339, s.25].

Azərbaycan Respublikası CPM "məhkəmə nəzarəti" anlayışını müəyyən etmir və bu anlayışa yuxarı məhkəmə instansiyalarının nəzarətini daxil etmir. ***Hesab edirik ki, məhkəməyəqədərki icraatda təhqiqat və ibtidai istintaqın gedişi üzərində prokuror nəzarəti cinayət işinin məhkəməyə verilməsinədək həyata keçirilir. Məhkəmə nəzarəti isə insan və vətəndaş hüquq və azadlıqlarını məhdudlaşdıran hərəkətlərin aparılması ilə əlaqədardır və müvafiq olaraq əhatə dairəsi prokuror nəzarətindən daha məhduddur.***

"Kontrol" Azərbaycan dilinə "nəzarət" və "yoxlama" kimi tərcümə olunur. Ojeqov lüğətində kontrol kiməsə, nəyəsə nəzarət etmək, yoxlama kimi, yəni yoxlama və ya nəzarət məqsədilə daimi

müşahidə kimi izah olunur. "Nəzarət" isə kiminsə və ya nəyinsə üzərində, hər hansı qaydalara riayət edilməsi üzərində müşahidə üçün orqan, şəxslər qrupu kimi nəzərdə tutulur [331].

Şamardin A.A. və Adilşayev E.A. hesab edirlər ki, *"məhkəmə kontrolu... dövlət orqanlarının və vəzifəli şəxslərin hərəkətlərindən (hərəkətsizliyindən) və qərarlarından şikayətlərə məhkəmə tərəfindən baxılmasından ibarətdir"* [386, s.420].

Azərbaycan Respublikasında məhkəməyəqədərki icraatda məhkəmə nəzarətinin məhdud olmasına baxmayaraq, o, prosessual məcburiyyət tədbirlərinin tətbiqi kimi mühüm fəaliyyəti əhatə edir. Nəzarət və kontrol anlayışlarının hüquqi təhlilindən çıxış edərək hesab edirik ki, məhkəmə məhkəməyəqədərki prosesdə nəzarəti yox, kontrolu həyata keçirir. Belə ki, kontrol, nəzarətdən fərqli olaraq, inzibati funksiyaların həyata keçirilməsi ilə əlaqədardır. Mütəxəssislərin əksəriyyəti məhkəmə kontrolunun bu xüsusiyyətini qeyd edirlər. İvanova O.Q. məhkəmə tərəfindən məhkəmə iclası keçirildikdən sonra *"qətimkan tədbirinin seçilməsi haqqında qərarın qəbul olunmasının məhkəmə-kontrol xarakteri daşıdığını"* qeyd edir [209, s.13].

Məhkəmənin məhkəməyəqədərki icraatda səlahiyyətlərini "məhkəmə nəzarəti" adlandırmaq, bir tərəfdən, Azərbaycan dilində "nəzarət" ifadəsinin həm nəzarət, həm də kontrol anlamında istifadə olunması ilə bağlıdır. Digər tərəfdən, Konstitusiyanın 133-cü maddəsi ilə qanunların icrasına və tətbiqinə nəzarət prokurorluğun səlahiyyətlərinə aid edildiyindən, məhkəməyəqədərki icraatda "məhkəmə kontrolu" və "məhkəmə nəzarəti"ni ifadə edəcək anlayışların düzgün seçilməsi məsələsini aktuallaşdırır. ***Hesab edirik ki, Azərbaycan Respublikası CPM-də məhkəmə nəzarəti üzrə məhkəmənin hərəkətlərinin yoxlama və inzibati xarakterini nəzərə alaraq, məhkəməyəqədərki icraatda "məhkəmə kontrolu"nu "məhkəmə yoxlaması" adlandırmaq daha düzgün olardı***.

Yuxarıda göstərilənlərə əsaslanaraq belə nəticəyə gəlirik ki, dövlətlər arasında Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə nəzərdə tutulmuş hüquqi yardım göstərilməsi qaydasında prosessual hərəkətlərin aparılması haqqında sorğular prokurorluq, təhqiqat və digər ibtidai istintaq orqanları tərəfindən bu orqanların fəaliyyət istiqamətlərinə uyğun olaraq həyata keçirilir. Milli cinayət prosesi çərçivəsində ayrı-ayrı prosessual hərəkətlər və müvafiq prosessual məcburiyyət tədbirləri yalnız milli orqanların başladığı cinayət işi üzrə və yalnız dövlətin ərazisində tətbiq olunur.

Prokurorluq orqanları qarşılıqlı hüquqi yardım göstərilməsi ilə bağlı xarici dövlətlərin sorğularını yerinə yetirən orqanların tərkibinə daxildir və bir sıra konvensiyalarda və ya konvensiyalarla bağlı bəyanatlarda səlahiyyətli orqan kimi müəyyən edilmişdir (Kişinyov Konvensiyasının 5-ci maddəsi). Azərbaycan Respublikasının BMT-nin və Avropa Şurasının korrupsiya ilə mübarizəyə həsr olunmuş konvensiyaları ilə əlaqədar verdiyi bəyanatlara görə, Baş Prokurorluq qarşılıqlı hüquqi yardım göstərilməsi üzrə sorğuların qəbulu və ya icrası, həmçinin sorğuların icra edilməsi üçün müvafiq səlahiyyətli orqanlara verilməsinə məsul olan mərkəzi orqan kimi təyin edilmişdir.

Prokurorluğun mərkəzi orqan olduğu göstərilən müqavilələrin və prokurorluğun ayrı-ayrı məhkəmə tapşırıqlarını yerinə yetirdiyi qarşılıqlı hüquqi yardım göstərilməsi haqqında ikitərəfli müqavilələrin təhlili göstərir ki, bütün prosessual hərəkətlər haqqında sorğuların icrası prokurorluğun səlahiyyətinə aid edilir.

Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə əsasən, prokuror cinayət işi üzrə ibtidai istintaqa prosessual rəhbərliyi həyata keçirir, cinayət işi üzrə istintaqa və təhqiqata nəzarət edir, prosessual məcburiyyət tədbirlərinin icrasının qanuniliyinə prokuror nəzarətini həyata keçirir. Məhkəmə gizlənən şəxsin axtarışını elan edir və bununla bağlı qərarını nəzarət üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərir.

"Məhkəməyədək icraatda... prokuror nəzarətinin predmeti cinayətlərin araşdırılmasında təhqiqatçı və müstəntiqlərin bütün prosessual fəaliyyətinin qanuniliyidir" [301, s.291].

Qnatyuk A.Y. prokurorun məhkəməyədək istintaqa prosessual rəhbərliyini *"prosessual hərəkətlərin yerinə yetirilməsi və ya prosessual qərarların qəbul edilməsi barədə göstərişlərin verilməsi"* kimi müəyyən edir [163, s.54].

Prosessual rəhbərlik və prokuror nəzarəti anlayışları arasındakı fərqdən çıxış edərək və ibtidai istintaqa prosessual rəhbərliyin mahiyyətini anlamaq üçün prokuror nəzarəti və prokurorun prosessual rəhbərliyinin nisbətini müəyyən etmək lazımdır.

Hüquq ədəbiyyatında prosessual rəhbərliyin və prokuror nəzarətinin eyniliyi və uyğunluğu haqqında fikir vardır. Məsələn, Çebatoreva İ.Y. "rəhbərlik və nəzarəti" birləşdirir və *"onları prokurorun obyekti ümumi mənada qanunçuluq olan kontrol-nəzarət fəaliyyəti adlandırır"* [382, s.172].

S.M. Smokovun və V.N. Kuzmenkonun bu anlayışların nisbəti və eyniliyi haqqında arqumentləri, onların ümumi tapşırıqlarının olması, qanunvericiliyə uyğun olaraq həyata keçirilməsi ilə tam razıyıq, onlar hesab edirlər ki, *"... prosessual rəhbərlik və nəzarətin ümumi tapşırığı vardır... məhkəməyədək istintaq aparatlarının cinayət-prosessual fəaliyyətinin cinayət mühakimə icraatının vəzifələrinə uyğunluğunu, ... cinayət icraatında qanunun tələblərinə riayət olunmasını təmin edirlər"* [334, s.177].

Prosessual rəhbərliyin və prokuror nəzarətinin uyğunluğu haqqında fikirlər, onların bir-birinə zidd ola bilməməsi haqqında iddialara əsaslanır.

Bəzi alimlərin fikrincə, prosessual rəhbərliyin və prokuror nəzarətinin uyğunluğunu əsaslandırmaq nəzəri cəhətdən mümkün deyildir. V.A. Lazarevanın fikrincə, *"istintaq və təhqiqat üzərində nəzarət formasında rəhbərlik bir... prokurorluğun əlində qalır... istintaqa rəhbərlik və nəzarət bir araya sığır və ya sığmır?"* [248, s.32].

Bəzi alimlər ibtidai istintaq və ƏAT-nə prosessual rəhbərliyin və prokuror nəzarətinin paralel mövcudluğunu qəbul edirlər. Məsələn, Kryukov V.F. *"cinayət işlərinin təhqiqatına prosessual rəhbərliyi və ibtidai istintaq orqanları tərəfindən cinayət işlərinin istintaqı zamanı qanunçuluq üzərində nəzarəti xüsusi funksiyalara aid edir"* [240, s.12]. Sonra o, istintaqa prokuror nəzarəti və prosessual rəhbərlik arasındakı nisbəti təhlil edərək belə bir nəticəyə gəlir ki, istintaq və digər prosessual hərəkətlərin həyata keçirilməsində qanunların icrası üzərində nəzarət və istintaqa prosessual rəhbərlik qarşılıqlı əlaqəli və qarşılıqlı asılıdırlar, ancaq yenə də prokuror fəaliyyətinin fərqli istiqamətləridirlər. *"... fərqli təsir obyektlərinə malikdirlər və prokuror tərəfindən istifadə olunan müxtəlif prosessual üsul və vasitələrin tətbiq edilməsi yolu ilə həyata keçirilirlər"* [240, s.50].

Prosessual rəhbərliyə prosessual fəaliyyət üzərində nəzarətdən ayrı baxmaq olmaz, onlar bir-biri ilə sıx bağlıdır. Buşkovskaya E.N. həmçinin hesab edir ki, *"Qanunçuluğa nəzarəti həyata keçirərkən prokuror, prosessual rəhbərliyinin vasitələrindən istifadə edərək qanun pozuntusunun qarşısını almalı, aşkarlamalı və aradan qaldırmalıdır"* [149, s.18].

Cəfərov A.M. prokurorluğun fəaliyyət istiqamətlərini təhlil edərək hesab edir ki, *"... qanunverici bir halda prokuror nəzarətindən, digər halda isə prokuror kontrolundan danışır..."* onların fərqinin və ümumiyyətlə prokurorluq orqanlarına kontrol funksiyalarının ayrılmasının zəruriliyinin müəyyən edilməsini vacib hesab edir [175, s.131].

Milli CPM prokurorun vəzifələrini iki qrupa bölür: prosessual rəhbərlik və nəzarət. Prosessual rəhbərlik istintaqla əlaqədardır və prokuror ərizələrə və digər materiallara baxır, kifayət qədər səbəb və əsaslar olduqda cinayət işi başlayır və həmin iş üzrə ibtidai istintaq aparır və ya onu tapşırır, yaxud cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar çıxarır (212-ci maddə), daxil olmuş

ərizələrin və digər məlumatların qəbul edilməsi, qeydiyyata alınması və həll edilməsi zamanı qanunvericiliyin tələblərinə riayət olunmasının vəziyyətini yoxlayır; müstəntiqdən və ya təhqiqatçıdan materialları, cinayət işinin sənədlərini, ibtidai istintaqın gedişi haqqında məlumatları tələb edir (84.5-ci maddə).

Prokuror əməliyyat-axtarış tədbirlərini və ibtidai istintaqı (istintaq və təhqiqatı) həyata keçirən orqanların prosessual fəaliyyəti üzərində nəzarəti, yəni prosessual fəaliyyət üzərində nəzarəti həyata keçirir.

Şeyfer S.A., *"istintaqa prokuror nəzarətinin məhz prosessual rəhbərlik ilə məhdudlaşdırılmasının, ... istintaq işinin təşkilinə müdaxilə edilməməsi üzərində kontrol ilə məhdudlaşdırılmasının zəruriliyinin"* lehinə çıxış edir [388, s.137].

Smirnov A.V., Kalinovskiy K.B. prokurorun klassik nəzarət funksiyasının qəbul edilməsindən çıxış edir və hesab edirlər ki, *"... prokuror cinayət təqibi üzrə prosessual fəaliyyəti və dövlət-hüquqi fəaliyyətləri, öz mənbəyinə görə qanunlara riayət olunmasına nəzarət funksiyanı birləşdirir*" [333, s.134].

Sıçev D.A. prokuror nəzarətinin cinayət-prosessual funksiyasını əsas götürür və onun məzmununu daha da məhdudlaşdırır, hesab edir ki, *"cinayət işi üzrə istintaqın vəziyyətinin (yoxlama materiallarının) qiymətləndirilməsi prosesi kimi müəyyən edir"* [331, s.180].

Sıçev D.A. hesab edir ki, *"Prokuror nəzarət səlahiyyətlərini məhkəmə qərarlarının icrası sahəsində də tam ölçüdə saxlayır"* [347, s.16] və biz müəllifin bu fikri ilə razılaşırıq, çünki prokurorun nəzarət səlahiyyətlərinə malik olmasının məhkəmənin nüfuzuna mənfi təsir etməsini düşünmək, onun müstəqilliyinin məhdudlaşdırılmasına gətirib çıxarır. *"Prokurorun nəzarət səlahiyyətlərinin həyata keçirilməsi məhkəmə səhvlərinin qarşısının alınmasında heç də axırıncı rol oynamaya bilər"* [302, s.419-420].

Hesab edirik ki, ibtidai istintaqa prosessual rəhbərlik və prokuror nəzarəti bir-birini təkrarlamır, əksinə bir-birini tamamlayır və qanun pozuntularının aşkarlanmasına və aradan qaldırılmasına xidmət edir. Prosessual hərəkətlərin həyata keçirilməsinə prosessual rəhbərlik prokuror nəzarətinin bir formasıdır.

Yuxarıda göstərilənlərə əsaslanaraq belə bir nəticəyə gəlirik ki, prokurorluğun ayrı-ayrı beynəlxalq müqavilələrdə mərkəzi əlaqə orqanı kimi müəyyən edilməsi təşkilati və nəzarətedici rolla, əsasən sənədlərin rəsmiləşdirilməsinin formal tələbləri və s. ilə bağlıdır. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulmuş dövlətlər arasında hüquqi yardım göstərilməsi qaydasında prosessual hərəkətlərin keçirilməsi barədə sorğular prokurorluq, təhqiqat və digər ibtidai istintaq orqanları tərəfindən bu orqanların fəaliyyət istiqamətlərindən çıxış edərək həyata keçirilir. Milli cinayət prosesi çərçivəsində ayrı-ayrı prosessual hərəkətlər və müvafiq olaraq prosessual rəhbərlik və prokuror nəzarəti yalnız başlanılmış cinayət işləri üzrə həyata keçirilir.

Qüvvədə olan qanunvericilik qarşılıqlı hüquqi yardım göstərilməsi qaydasında xarici dövlətlərin sorğularının yerinə yetirilməsi üzrə keçirilən müəyyən prosessual hərəkətlərin və ƏAT-nın həyata keçirilməsinə prosessual rəhbərliyi və prokuror nəzarətini nəzərdə tutmur. Cinayət işləri üzrə hüquqi yardım haqqında beynəlxalq müqavilələr milli qanunvericilik əsasında sorğuların yerinə yetirilməsini nəzərdə tutur.

Prosessual rəhbərlik və prokuror nəzarəti olmadan prosessual hərəkətlərin və ƏAT-nin aparılması haqqında sorğuların yerinə yetirilməsi sadəcə mümkün deyildir və bununla göstərilən hərəkətlərin iştirakçılarının hüquqlarının pozulmasını müzakirə etməyə belə dəyməz. Xarici dövlətlərin müəyyən prosessual hərəkətlərin yerinə yetirilməsi ilə bağlı sorğularının yerinə yetirilməsinə prosessual rəhbərlik və prokuror nəzarəti Azərbaycan Respublikasının cinayət

prosesinin fundamental müddəalarıdır və cinayət-prosessual qanunvericiliyə və "Prokurorluq haqqında" Qanuna xarici dövlətlərin prosessual hərəkətlərin yerinə yetirilməsi barədə sorğularının icrası zamanı prokurorun səlahiyyətləri barədə müvafiq dəyişikliklərin edilməsi sistemləşdirmə və beynəlxalq müqavilələrə uyğunluq aspektində milli qanunvericiliyi möhkəmləndirir, beynəlxalq öhdəliklərin yerinə yetirilməsi baxımından beynəlxalq müqavilələrin müddəalarının milli qanunvericiliyə implementasiyasına kömək edir.

Qüvvədə olan CPM-də məhkəmə nəzarəti yalnız məhkəməyədək icraat mərhələsində tətbiq edilməsi mənasında yeni bir institutdur.

Belyaev V.P. hesab edir ki, *"...qəbul edilən qərarlara yenidən baxılarkən, məhkəmələr məhkəmə nəzarətini deyil, məhkəmə kontrolunu həyata keçirirlər... nəzarət kontroldan fərqli olaraq tərkibinə inzibati funksiyaları daxil etmir"* [143, s.9,12].

Nəzarət inzibati funksiyaların həyata keçirilməsi ilə əlaqədardır və hüquqi fəaliyyətin formasıdır, səlahiyyətli orqanlar və şəxslər nəzarət etdikləri obyektlərdə normativ göstərişlərin, normativ və hüquqi aktların tələblərinin faktiki yerinə yetirilməsi haqqında informasiyanın toplanılması və yoxlanılmasını həyata keçirirlər və bilavasitə tədbirlər görürlər.

Belyaev V.P. hesab edir ki, *"məhkəmə səhvlərinin aradan qaldırılması üçün məhkəmə sistemi daxilində məhkəmə nəzarəti də məhkəmə kontroludur"* [143, s.27]. Yuxarı instansiya məhkəməsi, aşağı instansiya məhkəmələrinin bütün növ məhkəmə qərarlarının əsassız və qanunsuz olmasını aradan qaldırmaq üçün onların yoxlanılmasını həyata keçirir, müvafiq məhkəmə qərarlarını ləğv edir və ya dəyişdirir. Bu fəaliyyətin təhlili yuxarı məhkəmənin aşağı məhkəmə tərəfindən verilmiş qərarların qanuniliyini və əsaslılığını yoxlayarkən əslində nəzarəti yox, kontrolu həyata keçirdiyi qənaətinə gəlməyə kifayət qədər əsas verir. Şeyfer S.A. də hesab edir ki, *"məhkəməyədək icraatda ilkin məhkəmə kontrolu həyata keçirilir*" [391, s.220].

RF CPM-nin 125-ci maddəsinin I hissəsi cinayət mühakimə icraatının iştirakçılarının konstitusion hüquq və azadlıqlarına ziyan vura bilən yaxud vətəndaşların ədalət mühakiməsinə çıxışını çətinləşdirən digər qərar və hərəkətlərdən (hərəkətsizlikdən) ibtidai istintaqın icra yeri üzrə rayon məhkəməsinə şikayət verilə bilməsini nəzərdə tutur. Tarzimanov V.M. hesab edir ki, *"RF-nın CPM-nin 125-ci maddəsi... məhkəmə kontroludur"* [348, s.38].

Məhkəmə kontrolunun mahiyyəti cinayət prosesində mübahisəli məsələlərdən biridir. *"Məhkəmə kontrolunun əsas məqsədi cinayət işinin başlanılması və ibtidai istintaq mərhələlərində cinayət prosesinin iştirakçılarının ...maraqlarının qorunmasıdır"* [256, s.135], *"məhkəmə müdafiəsi əhəmiyyətli bir rol oynayaraq institusional təminatlar arasında əsas yeri tutur"* [1, s.50].

Lutsenko P.A. hesab edir ki, *"Məhkəməyədək icraatda məhkəmə kontrolu ...aralıq məhkəmə qərarlarının qəbul edilməsi yolu ilə hüquqların müdafiə edilməsi (bərpa edilməsi) üzrə qanunla nəzərdə tutulan səlahiyyətlərin məcmusundan ibarət olan fəaliyyət istiqamətidir*" [257, s.6].

Nazarov A.D. məhkəmə kontrolunun anlayışını yalnız *"cinayət mühakimə icraatının məhkəməyədək mərhələlərində məhkəmənin yoxlama fəaliyyəti üçün tətbiq edir, məhkəmə nəzarəti anlayışına isə aşağı məhkəmələrin məhkəmə qərarlarının apellyasiya, kassasiya, nəzarət qaydasında yoxlanılmasını, habelə yuxarı məhkəmə instansiyası tərəfindən aşağı instansiya məhkəmələrinə və digər hüquq tətbiqedicilərə cinayət mühakimə icraatı məsələləri üzrə rəhbər izahatların verilməsini"* [272, s.230] daxil edir.

Qeyd etmək lazımdır ki, milli CPM aşağı instansiya məhkəmələrinin məhkəmə qərarlarına apellyasiya və kassasiya qaydasında yuxarı instansiya məhkəmələri tərəfindən baxılmasını, Ali Məhkəmənin Plenumunda əlavə kassasiya qaydasında təqdimat, etiraz və ya şikayətə mahiyyət üzrə baxılmasını məhkəmə nəzarəti anlayışına daxil etmir. Eyni zamanda, məhkəməyədək icraatda məhkəmə

kontrolunun məhdudiyyətsiz şəkildə geniş müəyyən edilməsi işə sonradan mahiyyəti üzrə baxılarkən məhkəmənin qərəzsizliyinin gücləndirilməsi ilə əlaqədardır. L.V. Nikiforovun fikrincə, *"Məhkəmə nəzarətinin ağlabatan hədlərini təyin etməklə məhkəmə qərəzliliyi əhəmiyyətli dərəcədə məhdudlaşdırıla bilər. Ona görə də məhkəməyədək icraatda məhkəmə kontrolu və prokuror nəzarətinin nisbəti haqqında sual tamamilə qanunauyğundur"* [275, s.139].

Ədəbiyyatda "məhkəmə nəzarəti", "məhkəmə kontrolu", "məhkəmə yoxlaması" kimi sinonim anlayışlar mövcuddur. Bu anlayışların məzmunu və nisbəti müəyyən edilməlidir. Nazarov A.D. hesab edir ki, *"prokurorluq ibtidai istintaqa rəhbərliyi deyil, yalnız nəzarəti həyata keçirir"* [272, s.88]. Şeyfer S.A. də hesab edir ki, *"məhkəməyədək icraatda ilkin məhkəmə kontrolu həyata keçirilir*" [391, s.220].

Qeyd etdiyimiz kimi, Azərbaycan Respublikası CPM məhkəmə instansiyaları ilə bağlı olan "məhkəmə nəzarəti" anlayışını müəyyən etmir.

Qeyd olunanlar əsasında belə nəticəyə gəlmək olar ki, Azərbaycan Respublikasında məhkəməyədək icraatda məhkəmə nəzarəti prokuror nəzarətinə nisbətən məhduddur və istintaq hərəkətlərinin məcburi aparılması, prosessual məcburiyyət tədbirlərinin tətbiqi və ya əməliyyat-axtarış tədbirlərinin aparılması üzərində həyata keçirilir. Nəzarət və kontrol anlayışlarının hüquqi təhlilindən çıxış edərək hesab edirik ki, məhkəmə məhkəməyədək icraatda nəzarəti yox, kontrolu həyata keçirir və bu kontrol, nəzarətdən fərqli olaraq, inzibati funksiyaların həyata keçirilməsi ilə əlaqədardır.

Ölkə qanunvericiliyinə əsasən cinayət işləri üzrə hüquqi yardım göstərilməsi qaydasında prosessual məcburiyyət tədbirlərinin tətbiqi və ya ƏAT-nin həyata keçirilməsi, istintaq hərəkətlərinin məcburi aparılması məhkəmə nəzarəti ilə əhatə olunur və bir qayda olaraq, yalnız məhkəmə qərarı ilə icazə verilir.

Xarici dövlətlərdən gələn sorğuların icrası çərçivəsində prosessual məcburiyyət tədbirlərinin icra olunmasına prosessual rəhbərliyin, prokuror nəzarətinin və məhkəmə nəzarətinin həyata keçirilməsinin milli qanunvericilikdə nəzərdə tutulmaması belə bir nəticəyə gəlməyə əsas verir ki, prosessual məcburiyyət tədbirlərinin tətbiqinə prokurorun prosessual rəhbərliyi və prokuror nəzarəti, məhkəmə nəzarəti olmadan keçirilməsi formal olaraq qanunvericliyə ziddir, nəzəri müddəalar baxımından mümkün deyildir və həm nəzəri, həm də təcrübi aspektlərdə özbaşınalıq yarada bilər.

Cinayət işləri üzrə hüquqi yardım məsələlərinin məcəllələşdirilməsi, beynəlxalq normaların implementasiyası və milli qanunvericiliyin təkmilləşdirilməsi üçün prokurorluq orqanlarının fəaliyyət istiqamətlərinə və səlahiyyətlərinə dövlətlər arasında hüquqi yardım göstərilməsi qaydasında prosessual hərəkətlərin yerinə yetirilməsi üzərində prosessual rəhbərlik və nəzarət haqqında müvafiq dəyişikliklər edilməsini təklif edirik. Müvafiq olaraq, Azərbaycan Respublikası CPM-nin 7.0.23-cü maddəsinə müvafiq dəyişikliklər edilməsini və aşağıdakı redaksiyada verilməsini: prokuror - öz səlahiyyətləri daxilində bu Məcəllədə nəzərdə tutulmuş qaydada cinayət işləri üzrə ibtidai araşdırmaya və dövlətlər arasında hüquqi yardım göstərilməsi qaydasında xarici dövlətlərin prosessual hərəkətlərin icra edilməsi barədə sorğularının yerinə yetirilməsinə prosessual rəhbərliyi həyata keçirən və ya dövlət ittihamçısı qismində məhkəmədə ictimai, yaxud ictimai-xüsusi ittihamı müdafiə edən şəxsdir; "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinə dəyişikliklər edilməklə aşağıdakı redaksiyada verilməsini təklif edirik: "Cinayət işi üzrə ibtidai araşdırmaya, dövlətlər arasında hüquqi yardım göstərilməsi qaydasında xarici dövlətlərin prosessual hərəkətlərin icra edilməsi barədə sorğularının yerinə yetirilməsinə prosessual rəhbərlik edir və qanunlara riayət edilməsini təmin edir".

Qanunvericiliyə yuxarıda göstərilən dəyişikliklər edildikdən sonra, prokuror hüquqi yardım göstərilməsi qaydasında xarici dövlətlərdən daxil olan prosessual hərəkətlərin həyata keçirilməsi barədə sorğuların yerinə yetirilməsinə prosessual rəhbərliyi həyata keçirmək hüququna malik olacaqdır. Prokurorun prosessual hərəkətlərə prosessual rəhbərliyi prokuror nəzarətinin bir formasıdır. Prokuror nəzarəti məhkəmə nəzarətindən əvvəl gəlir və məhkəməyədək prosesdə şərti olaraq birinci instansiya adlandırıla bilər. Hüquqi yardım göstərilməsi qaydasında xarici dövlətlərin məhkəmə sorğularının yerinə yetirilməsinə prosessual rəhbərlik prosessual məcburiyyət tədbirini tətbiq etmək hüququ verir və buna görə də bu hərəkətlər həm prokuror nəzarəti, həm də məhkəmə nəzarəti ilə əhatə olunur.

Hüquqi yardım çərçivəsində həyata keçirilən prosessual hərəkətlərlə bağlı məhkəmə nəzarəti (kontrolu) və prokuror nəzarətinin həyata keçirilməsi ilə bağlı anlayışların aydınlaşdırılması üçün Azərbaycan Respublikası CPM-nin LII fəslinin və 442-ci maddəsinin adlarında, 442.1, 443.2.1, 443.2.2, 445.2, 449.1, 491.3, 495.1-ci maddələrdə "nəzarət" sözünün "yoxlama" sözü ilə əvəz edilməsini təklif edirik.

3.2. Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım göstərilməsinin kriminalistik təminatı problemləri

Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım elmi-texniki üsul və vasitələrdən istifadə edilmədən düşünülə bilməz və sorğuların yerinə yetirilməsinin kriminalistik təminatına xüsusi yanaşma tələb edilir. Hesab edirik ki, cinayət işləri üzrə hüquqi yardım göstərilməsi çərçivəsində prosessual və digər hərəkətlərin səmərəliliyini artırmaq üçün elmi-texniki vasitələrdən və biliklərdən istifadə ilə bağlı problemlərin müəyyən edilməsi və həll edilməsi,

həmçinin hüquqi yardım göstərilməsi çərçivəsində nəticələrin tanınması üçün də zəruridir.

Əvvəllər kriminalistik təminatı yalnız cinayətlərin açılması və istintaqı ilə əlaqələndirirdilər. Ancaq texnologiyanın inkişafı ilə bütün növ hüquqi yardımlar bu və ya digər dərəcədə kriminalistika elmi çərçivəsində işlənib hazırlanan elmi vasitələr və metodlarla əlaqələndirilir.

Rossinskaya E.R. kriminalistikanın vəzifələrini ümumi vəzifəyə (cinayət-kriminal dövriyyəsinin bütün elmləri üçün) – öz tədqiqatları ilə hüquq-mühafizə orqanlarının cinayətkarlıqla mübarizəsinə kömək etmək – və xüsusi vəzifələrə (məhz kriminalistika ilə həll olunan) bölür, *"onların arasında cinayətlərin qarşısının alınması üçün kriminalistik vasitələrin və metodların işlənib hazırlanmasını da göstərir"* [310, s.10-11].

Digər kriminalist alimlər kriminalistikanın vəzifələrini ümumi, xüsusi və spesifik vəzifələrə bölürlər və *"sübutların toplanılması, tədqiq edilməsi və istifadə olunması üzrə yeni texniki-kriminalistik vasitələrin, taktiki üsulların və metodiki tövsiyələrin işlənib hazırlanmasını və mövcud olanların təkmilləşdirilməsini"* xüsusi vəzifələrə aid edirlər [233, s.52].

Kolomatski V.Q. "kriminalistik təminat" anlayışının tətbiq edilməsini ilk dəstəkləyənlərdən biri idi və onu *"cinayətlərin qarşısının alınması, açılması və istintaqı məqsədilə işçilərin elmi, metodiki və taktiki vasitələrdən və onların tətbiq edilmə texnologiyalarından istifadə etmək qabiliyyətini təcəssüm etdirən kriminalistik biliklər sistemi"* olaraq müəyyən etdi [234, s.61].

Belkin R.S. kriminalistik təminatı *"kriminalistik biliklərin və əməkdaşların onlara əsaslanan kriminalistik elmi tövsiyələrdən istifadə etmək, cinayətlərin qarşısının alınması, aşkar edilməsi, açılması və istintaqı məqsədilə kriminalistik vasitələri, metodları və texnologiyaları tətbiq etmək bacarıq və vərdişlərinin sistemi"* kimi müəyyən edir [238, s.64].

Kriminalistik ədəbiyyatlarda cinayətlərin açılması və istintaqının texniki-kriminalistik [158, s. 16], taktiki-kriminalistik [165, s. 24] və elmi-texniki təminatı [231, s. 153] anlayışlarından istifadə edilir. Bu sistemin əsasını müasir elmi və texniki nailiyyətlər, o cümlədən inkişaf etməkdə olan informasiya texnologiyaları təşkil edir.

Sobolevskaya S.İ. elmi-texniki təminatın *"kriminalistik üsul və vasitələrin tətbiq edilməsinin elmi-tətbiqi tövsiyələri sistemi"* kimi formalaşdırılmasını təklif edir [335, s. 10]. Belkin R.S. kriminalistikanın dilinin unifikasiyası məqsədilə "elmi-texniki vasitələr" anlayışından deyil, "texniki-kriminalistik vasitələr" anlayışından istifadə edilməsini təklif edir [142, s. 216]. Devyatyarov M.V. hesab edir ki, *""elmi-texniki təminat" anlayışı məzmununa görə daha genişdir və digər məsələlərlə yanaşı, kriminalistik və texniki-kriminalistik təminatı da əhatə edir"*. Başqa sözlə, elmi-texniki təminatdan müxtəlif elmlərin və bilik sahələrinin (fiziki-kimyəvi, məhkəmə-tibbi, məhkəmə-psixiatrik və s.) nailiyyətlərindən istintaqda kompleks istifadə edilməsindən söhbət getdiyi hallarda danışmaq olar. Bütövlükdə kriminalistika elmi çərçivəsində hazırlanan vasitələri və metodları nəzərdən keçirsək, "kriminalistik təminat" anlayışından istifadə etmək daha qanunauyğun olar. Devyatyarov M.V. cinayətlərin açılmasının və istintaqının kriminalistik təminatının *"cinayətlərin açılması və istintaqı üzrə fəaliyyətin səmərəliliyinin yüksəldilməsi məqsədilə hüquq-mühafizə orqanları və onların bölmələri tərəfindən kriminalistik biliklərin və onların əsasında hazırlanmış kriminalistik vasitələrin yaradılması, təkmilləşdirilməsi və istifadə edilməsi üzrə sistem"* kimi xüsusi tərifini təklif edir [173, s.101]. M.V. Devyatyarovla bu aspektlərdə razılaşırıq ki, cinayət təqibi çərçivəsində istifadə olunan vasitə və metodlar kriminalistika elmi tərəfindən hazırlanır və buna görə də "kriminalistik təminat" anlayışı daha məntiqlidir. Kriminalistik təminat vasitələrinin spesifik xüsusiyyətlərindən və vəzifələrindən çıxış edərək, sonrakı

təsnifatı da aparmaq mümkündür: texniki-kriminalistik, taktiki-kriminalistik və elmi-texniki təminat.

A.N. Perşin kriminalistik təminatın məzmununa *"texniki-kriminalistik; taktiki-kriminalistik; elmi-metodiki; təşkilati-kadr; hüquqi təminatlar"ı* aid edir [286].

Cinayət işləri üzrə dövlətlər arasında hüquqi yardım çərçivəsində həyata keçirilən istintaq və digər prosessual hərəkətlər kriminalistik biliklərdən və onların əsasında hazırlanan kriminalistik vasitələrdən istifadə ilə əlaqədardır. Cinayət işləri üzrə hüquqi yardımın mahiyyəti və növlərindən çıxış edərək belə qənaətə gəlmək olar ki, burada söhbət hüquqi yardımın bütün növlərinin kriminalistik təminatından gedir. Ancaq kriminalistik təminatın həcmi hüquqi yardımın növündən asılıdır; istintaq və digər prosessual hərəkətlərin aparılmasına, cinayət təqibinin həyata keçirilməsinə münasibətdə daha çox taktiki-kriminalistik və texniki-kriminalistik, informasiya mübadiləsinə, ekstradisiyaya, xarici məhkəmələr tərəfindən mühakimə edilmiş şəxslərin vətəndaşı olduğu dövlətə verilməsinə, predmetlərin verilməsinə münasibətdə isə elmi-texniki ola bilər. Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım göstərilməsi çərçivəsində istintaq və digər prosessual hərəkətlərin keyfiyyətinə təsir edən kriminalistik texnikanın, taktiki üsulun düzgün seçilməsi və düzgün tətbiq edilməsi haqqında məsələ ortaya çıxır. "Kriminalistik texnika" dedikdə, kriminalistikanın məzmunu fundamental təbii-texniki elmlərin və müasir (kompüter) texnologiyalarının elmi müddəaları və nailiyyətləri olan bölməsi başa düşülür; onun predmetini öz təbiətinə görə müxtəlif olan, ancaq cinayətlərin açılması, istintaqı və qarşısının alınması, maddi sübutların qiymətləndirilməsi və təhlili prosesində işlənib hazırlanmış və tətbiq edilmə məqsədilə hazırlanan, istintaq orqanlarının axtarış-dərketmə potensialını gücləndirən, *"həmçinin mühakimə icraatının digər növlərinin maraqlarına xidmət edən elmi-texniki vasitələr, üsul və vasitələr təşkil edir*" [230, s. 11].

CPM-nin təhlilindən də göründüyü kimi, prosessual hərəkətlər zamanı texniki vasitələrin istifadəsi və tətbiqinin nəticələri cinayət təqibi üzrə prosessual hərəkətlərin protokolunda mütləq göstərilir. Bəzən prosessual hərəkətləri aparan və protokollaşdıran şəxsin prosessual hərəkətlərin protokollarında kriminalistik təminat vasitələrinin istifadəsinə dair lazımi qeydləri etməməsi prosessual hərəkətlərdə iştirak edənlərin düzəlişlər etmə hüququ və prosessual hərəkətləri aparan və protokollaşdıran şəxsin hərəkətlərindən şikayət vermək hüququ ilə düzəldilə bilər. Bu düzəlişlər və şikayətlər yol verilən kriminalistik təminat vasitələrinin tətbiqi nöqteyi-nəzərindən sübutların sonrakı qiymətləndirilməsində də faydalı ola bilər. Qanun yalnız texniki vasitələrin tətbiqinin və nəticələrinin göstərilməsini tələb edir ki, bu da praktikada yalnız müəyyən vasitənin adının və əldə olunan nəticənin göstərilməsi ilə məhdudlaşır.

Kriminalistik təminat vasitələri elmi nailiyyətlər əsasında işlənib hazırlanır və təcrübədə sınaqdan və yoxlamadan keçirilir. Artıq son onilliklərdə alimlər kriminalistik sistemləşdirmədən daha çox danışırlar. *"Kriminalistik sistemləşdirmə ...müasir kriminalistik metodologiyaya daxil olan... kriminalistika elmi tərəfindən işlənib hazırlanmış və təsvir edilmiş sistemlərdən cinayətlərin aşkar edilməsi, açılması, istintaqı və qarşısının alınması* üzrə praktiki fəaliyyətdə istifadə olunmasının əsaslarının mahiyyətini açan kriminalistik təlimdir" [237, s.21]. Sistemləşdirmə kriminalistikanın unifikasiyasının ilk addımlarından biridir.

Tətbiq olunan kriminalistik təminat vasitələrinin etibarlılığı qeydiyyat və ya sertifikatlaşdırmadan asılıdır. Lakin cinayət işi üzrə sənədləşmədə kriminalistik təminat vasitələrinin tətbiq edilməsi hissəsində tətbiq olunan vasitənin sertifikatlaşdırılması və ya qeydiyyatdan keçməsi barədə qeydlər tapmaq mümkün deyil. "Standartlaşdırma haqqında" Qanuna (5-ci maddə) əsasən, Azərbaycan Respublikasının ərazisində hazırlanmış və tətbiq olunan standart-

laşdırma üzrə normativ sənədlərə dövlət standartları, texniki, iqtisadi və sosial məlumatların təsnifatları; sənaye standartları; müəyyən edilmiş qaydada tətbiq olunan beynəlxalq (regional) və dövlətlərarası standartlar, normalar, qaydalar və tövsiyələr; texniki şərtlər; müəssisə standartları; elmi-texniki, mühəndis cəmiyyətləri və digər ictimai birliklərin standartları daxildir.

Bundan əlavə, Qanun göstərir ki, standartlaşdırma ilə bağlı normativ sənədlərdə müəyyən edilmiş tələblər beynəlxalq standartlara, normalara, standartlaşdırma üzrə qayda və tövsiyələrə, digər dövlətlərin mütərəqqi milli standartlarına, elm, texnika və texnologiyanın müasir nailiyyətlərinə əsaslanmalıdır, məhsullardan istifadə edilməsinin, işlərin yerinə yetirilməsinin və xidmət göstərilməsinin şərtlərini, əməyin şərtlərini və rejimini nəzərə almalı və qanunla müəyyən edilmiş müddəaları pozmamalıdır.

Azərbaycan Respublikası CPM-nin 145.1-ci maddəsi hər bir sübutun mənsubiyyəti, mümkünlüyü, mötəbərliyi üzrə qiymətləndirilməsini müəyyən edir. Kriminalistik təminat vasitələrinin tətbiqi yolu ilə əldə edilmiş sübutların etibarlılığı "Standartlaşdırma haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq müvafiq normativ sənədləşmənin aparılmasını tələb edir. Azərbaycan Respublikası CPM-nin 141.1.2-ci maddəsi müasir elmdə, texnikada, incəsənətdə və digər sahələrdə ümumi qəbul edilmiş təhqiqat metodlarının düzgünlüyünü müəyyən edir və onları cinayət təqibi üzrə icraatın materiallarından istifadə edilmədən sübut edilmiş hesab edir. Bu qeyd olunan göstərişlər sübutların etibarlılığı və cinayət prosesinin iştirakçıları tərəfindən mümkün etirazlardan, şikayətlərdən qaçılması və ya sübutların məhkəmə tərəfindən qiymətləndirilməsi üçün müasir elm, texnika, incəsənət və digər sahələrdə ümumi qəbul edilmiş tədqiqat metodlarının qısa təsvirinin göstərilməsinə mane olmur.

Hesab edirik ki, cinayət işləri üzrə dövlətlər arasında hüquqi yardım qaydasında sorğuların yerinə yetirilməsində kriminalistik

təminat vasitələrinin tətbiqi standartlaşdırma ilə bağlı müvafiq normativ sənədləşmənin olmasının göstərilməsi və ya müasir elm, texnika, incəsənət və digər sahələrdə ümumi qəbul edilmiş tədqiqat metodlarının qısa təsviri ilə müşayiət olunmalıdır. Bu isə göstərilən şərtlərin normativ möhkəmləndirilməsini tələb edir. Bu normativ müəyyən etmə əldə edilmiş sübutların etibarlılığını təmin edir və sübutların qiymətləndirilməsindəki potensial dalğalanmaları və riskləri aradan qaldırır. Nümunə olaraq, kriminalistik təminat vasitələrinin məhkəmə ekspertizasında qanunvericilik qaydasında möhkəmləndirilməsinə müraciət etmək olar.

"Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 26-cı maddəsi müəyyən edir ki, məhkəmə ekspertinin (ekspertlərinin) rəyində istifadə olunan metodlar göstərilməklə tədqiqatın məzmunu və nəticələri qeyd olunur. Azərbaycan Respublikası CPM-nin 97.4.1-ci maddəsi müəyyən edir ki, ekspert işin materiallarının tədqiqi əsasında çıxardığı, etibarlılığı onun tərəfindən yoxlanılmış şəxsi nəticələrini, habelə kompüter proqramlarından və məlumat materiallarından istifadə edərək əldə etdiyi nəticələri aydın şəkildə qeyd etməlidir. Bundan əlavə, Azərbaycan Respublikası CPM-nin 127.2-ci maddəsinə əsasən ekspertin rəyi onun tətbiq etdiyi tədqiqat metodları, verilən suallara cavabların əsaslandırılması, habelə ekspert tərəfindən müəyyən edilmiş cinayət təqibi üçün vacib olan digər halları əks etdirməlidir. Azərbaycan Respublikası CPM-nin 271.2.6-cı maddəsinə əsasən isə ekspert rəyində hansı metodların istifadə edildiyi və onların etibarlılıq dərəcəsinə dair qeyd göstərilməlidir.

Azərbaycan Respublikası CPM-nin təhlilindən də göründüyü kimi, ekspertizanın rəyinə qarşı irəli sürülən tələblər aparılması kriminalistik təminat vasitələrinin tətbiqi ilə bağlı olan digər prosessual hərəkətlərə qarşı irəli sürülmür. Hesab edirik ki, praktikada bu cür tələblərin olmaması cinayət prosesinin iştirakçıları üçün inamsızlıq

baxımından iş üzrə sübutların nəticələrinin tanınması ilə bağlı çətinliklər yarada bilər. AİHM-in Barbera, Messegue and Jabardo v. Spain işi üzrə qərarında təqsirsizlik prezumpsiyasının pozulmuş hesab edildiyi bildirilir, *"çünki məhkəmə hökmdə kifayət etməyən və inandırıcı olmayan sübutlara"* istinad etmişdi [426, b.17].

Azərbaycanın cinayət-prosessual qanunvericiliyində "inandırıcı" və ya "inandırıcı olmama" anlayışları tətbiq edilmir. İnandırıcılıq aşağıdakı anlayışların sinonimi olaraq istifadə olunur: *"sübut edilməklik, təkzibolunmazlıq, ətraflı düşünülmə, əyanilik, tutarlılıq, əsaslılıq, etibarlılıq, qüvvət, aydınlıq, parlaqlıq, çəkili olma, yetərlilik, möhkəmlik, mübahisəsizlik"* [332]. Bu mənada Azərbaycan Respublikası CPM-nin 146.1-ci maddəsi sübutların yetərli olmasını cinayət təqibi üzrə toplanmış, müəyyən edilməli hallar üzrə yol verilən sübutların elə həcmi hesab edir ki, sübut etmənin predmetinin müəyyən edilməsi üçün etibarlı yekun nəticə çıxarmağa imkan versin. Bu tərifi sübutların inandırıcılığının tərifi də hesab etmək olar.

Sübutlar cinayət prosesinin iştirakçıları üçün inandırıcı olmalıdır. Sübutların inandırıcılığı şərtləri isə nəticələrin əsaslandırılmasının əsasında durur. S.A. Şeyferin qeyd etdiyi kimi, *"... nəticələrin düzgünlüyünün əsaslandırılması, yəni məntiqi aspektdə sübut etmə... biliklərin çıxarılması prosesində, yəni sübut toplayarkən və yoxlayarkən başlayır və davam edir"* [393, s. 11]. Buna görə də, işdəki sübutların inandırıcılığı ilə bağlı iştirakçılar arasında hər hansı bir şübhə yaranırsa, proses iştirakçılarının digər prosessual təminatları qüvvəyə minir.

Hesab edirik ki, dövlətlər arasında hüquqi yardım çərçivəsində əldə edilən sübutların inandırıcılığının yüksəldilməsi üçün başqa yolla, yəni Azərbaycan Respublikası Prokurorluğunun təcrübəsində olduğu kimi qanunvericilik çərçivəsində idarə aktının qəbul edilməsi yolu ilə gedə bilərik.

Qostevski D.Y. istintaq hərəkətlərinin keçirilməsi zamanı texniki üsul və vasitələrin tətbiq edilməsinin aşağıdakı prinsiplərini

fərqləndirir: *"məqbulluq, elmi əsaslandırma, məqsədəuyğunluq, nəticəlilik, etiklik"* [166, s.12]. İşenko E.P. və Toporkov A.A. cinayət mühakimə icraatında kriminalistik texnikanın vasitələrinin tətbiq edilməsi şərtlərinin içərisində *"... vətəndaşların qanuni hüquqları və mənafeləri, mənəvi və etik normalar pozulmadığı təqdirdə; sübut məlumatlarının mənbələrinin tamlığının təmin edilməsi şərti ilə onların istifadəsinə icazə verilməsini göstərir..."* [236, s.84].

Mazunin Y.M. hesab edir ki, *"məhkəmə araşdırması...cinayət-prosessual və kriminalistik xarakter daşıyır. Buna görə də, məhkəmə araşdırmasının məhkəməyədək icraat kimi kriminalistikanın məlumatlarından istifadə edilməsinə ehtiyacı vardır*" [260, s.243]. D.Y.Qostevskinin vurğuladığı prinsiplər ümumidir və hüquqi yardım göstərilməsi çərçivəsində məhkəməyədək və məhkəmə araşdırmasında bütün prosessual və digər hərəkətlərə tətbiq edilməlidir. Hazırda hər bir dövlət ümumi standartlar əsasında özünün tədqiqat metod və metodikalarını, əsasən məhkəmə ekspertizası sahəsində, hazırlayır. Lakin bu standartlar nəticələrin sonradan tanınması və ümumi unifikasiyası üçün elmi-texniki vasitələrin, üsul və biliklərin bütün kompleksini əhatə etməlidir.

Volınski V.A. kriminalistik metodların, üsul və vasitələrin nəzəri, hüquqi, təşkilati, elmi-texniki, maddi-texniki və elmi-metodiki təminatından bəhs edir və hüquqi təminatın prioritet əhəmiyyətini qeyd edir: *"Ən təkmil, elmi əsaslandırılmış kriminalistik metodlar, vasitələr və tövsiyələrin tətbiq edilməsinə prosessual qanunvericiliklə yol verilmirsə və ya qaydası müəyyən edilməmişdirsə, işləyib hazırlayanların və ya fərdi həvəskarların nailiyyəti olaraq qalır*" [235, s.56-57].

Sadovnikov O.N. istintaqın texniki-kriminalistik təmin edilməsinin elementlərinin hüquqi tənzimlənməsi aspektində *"CPM-də texniki-kriminalistik vasitələrin tətbiqi subyektlərinin qəti siyahısını nəzərdə tutan maddənin möhkəmləndirilməsini"* [318, s.205] təklif edir, ancaq elementlərin sayının çox olmasından çıxış edərək

qanunvericilik qaydasında möhkəmləndirməni mümkün hesab etmirik, çünki standartlaşdırma formasında möhkəmləndirmə unifikasiya aspektində də bütün problemləri aradan qaldıra bilər.

Fesik P.Y. hesab edir ki, *"müxtəlif kriminalistik bazalarda istifadə edilən kriminalistik terminlərin və mənalarının unifikasiyası üzrə zəruri iş kriminalistik terminologiyanın inkişafına və dəqiqləşdirilməsinə, cinayətlərin açılmasında informasiya texnologiyalarının daha səmərəli istifadəsinə kömək edəcək"* [378, s.80]. Kriminalistik terminlərin və anlayışların unifikasiyası standartlaşdırmanın, prosessual və digər hərəkətlərin nəzəri, hüquqi, təşkilati, elmi-texniki və elmi-metodiki kriminalistik təminatına vahid yanaşmanın şərtlərindən biridir, hüquqi yardım çərçivəsində onların nəticələrinin etibarlılığını və qəbul edilməsini artırır.

Süleymanov C.İ. və Şirəliyeva S.C. tərəfindən işlənib hazırlanmış inteqrativ kriminalistik taktika konsepsiyası cinayət işləri üzrə hüquqi yardım göstərilməsi baxımından maraqlı və əhəmiyyətlidir. İnteqrativ kriminalistik taktika dedikdə, *"kriminalistik taktikanın situasiya və iştirakçıların şəxsiyyətinin xüsusiyyətləri ilə şərtləşən qarşılıqlı əlaqədar elementlərinin modullaşdırılmasına qadir olan və cinayət işi üzrə həqiqətin müəyyən edilməsi məqsədilə cinayətlərin istintaqının konkret vəzifələrinin cinayət prosesinin prinsipləri əsasında həll edilməsi üçün digər elmlərin müddəaları daxil edilmiş mürəkkəb açıq funksional sistemi təmsil edən sahəsi"* başa düşülür [346, s.40]. Belə inteqrasiya kriminalistikanın digər sahələrində də baş verir və inteqrasiya prosesi ayrı-ayrı elmlərin dar araşdırmalarında dərinləşmə meyllərindən fərqlənir. Kriminalistikada inteqrasiya prosesləri elmi əsaslandırıldıqdan və qanunvericiliyə uyğunluqdan sonra kriminalistik təcrübəyə giriş əldə edir.

Hesab edirik ki, kriminalistik təminat vasitələrinin tətbiq edilməsinin məcburi göstərilməsini və müasir elmdə, texnikada, incəsənətdə və digər sahələrdə ümumi qəbul edilən tədqiqat metodları-

nın təsvir edilməsini hüquqi yardım göstərilməsi üzrə sorğuları yerinə yetirən orqanların vəzifəsinə, bu orqanların səlahiyyətləri çərçivəsində idarə aktının qəbul edilməsi ilə daxil etmək olar.

Kriminalistikada elmi biliklərin inteqrasiyası müxtəlif istiqamətlərdə inkişaf edir. İdeyalar, yanaşmalar xeyli uzaq elmlərdən də iqtibas edilə bilər. Bir elm sahəsinin konseptual anlayış aparatının, metodlarının və digər dərketmə vasitələrinin digər elm sahəsində səmərəli istifadə edilməsi elmin inkişafının daha bir istiqamətidir. Bu meyl məhkəmə ekspertizası nəzəriyyəsində ikili təzahür edir. Birincisi, bu məntiqin, psixologiyanın, riyaziyyatın, etikanın və digər elmlərin anlayışlar aparatından, metodlarından, vasitələrindən istifadə edilməsidir. İkincisi, heç də az əhəmiyyətli olmayanı, müxtəlif növ və cins ekspertizaların elmi əsaslarının, metodlarının, vasitələrinin, anlayışlar aparatının qarşılıqlı geniş istifadə edilməsidir. Kompleks fənlərarası tədqiqatların və istiqamətlərin formalaşması daha bir inteqrasiya sahəsidir. Məhkəmə ekspertizası elminin özü belə kompleks elmlərarası problemlərin qoyulması nəticəsi kimi yaranmışdır. Ancaq onun ümumi nəzəriyyəsi yarandıqdan sonra artıq öz qarşısına elmlərarası vəzifələrin yeni keyfiyyətdə həlli vəzifəsini qoyur.

Burada inteqrasiya iki istiqamətdə həyata keçirilir. Onlardan birincisi, tədqiq olunan obyektlərin fərqləri nəzərə alınmaqla bütün məhkəmə ekspertizası növləri üçün vahid olan məhkəmə ekspertizasının ümumi predmeti kimi məsələlərin həllinə kompleks elmlərarası yanaşmadır; bu, ekspert tədqiqatının ümumi metodikasının və onun elmi əsaslarının işlənib hazırlanması üçün elmlərarası tədqiqatdır.

Bir istiqamət də əvvəllər məlum olmuş elm sahələrinin qovuşması nəticəsində "sərhəd" tipli yeni elmi fənlərin formalaşmasıdır. Məhkəmə ekspertizası ümumi nəzəriyyəsində belə fənn rolunu qanunauyğun olaraq sayı artan ekspertiza növlərinin predmet sahələri

oynayırlar. Müasir dövrdə inteqrasiyanın bu forması qonşu olmayan uzaq sahələrin birləşməsində də təzahür olunur. Müxtəlif tip fundamental və tətbiqi, empirik və nəzəri, yüksək formallaşmış və təsviri və s. elmi fənlərin yaxınlaşması istiqaməti ümumi nəzəriyyədə öz əksini kifayət qədər tapmışdır. Məhkəmə ekspertizasında elmi biliklərin formallaşdırılması artıq qarşısına daha yüksək səviyyəli məsələlər qoyur. Elmi dil vasitələrinin universallaşdırılması anlayışlar aparatının işlənib hazırlanmasını tələb edir. Burada bu prosesin konkret ekspertiza növlərinin müxtəlifliyi və məhkəmə ekspertizasının dilinin universallaşdırılması zərurətindən irəli gələn dərketmə vəzifələrinin və onun daha əhəmiyyətli nəticələrinin ifadəsində, əsas dil təmas nöqtələrinin qeyd edilməsi nəzərə alınmaqla qanunauyğunluğunu göstərmək kifayət olacaq.

Məhkəmə ekspertizasında fəlsəfənin inteqrativ rolunun gücləndirilməsi, biliklərin inteqrasiyasının son mərhələsidir. Əlbəttə, inteqrasiya formaları şərtidir, bir-birinə qarışır, çulğalaşır, bir-birini tamamlayır, hətta müxtəlif ekspertiza növlərinin hissələrinin birləşməsi belə mümkündür. Elmi biliklərin sintezi özü-özlüyündə ekspertiza sahəsində inteqrasiyanın mühüm aspektidir. Elmi biliklərin sintezindən məhkəmə ekspertizasında istifadə edilməsi, məhkəmə ekspert tədqiqatları nəzəriyyə və təcrübəsinin təkmilləşdirilməsində özünü göstərir, istintaq və məhkəmə təcrübəsinin ehtiyacları ilə şərtlənir, elmi biliyin yeni, daha yüksək inkişaf səviyyəsinə müvafiq olan və elmin inkişafının müəyyən mərhələsində inteqrasiya prosesinə pillə kimi xidmət edən yeni metodların və texniki vasitələrin əmələ gəlməsinə kömək edən differensiasiya proseslərinin sürətləndirilməsi ümumi məqsədlərə xidmət edir.

Məhkəmə ekspertizası və kriminalistika sahəsində qeyd olunan proseslər qarşılıqlı hüquqi yardım sahəsində də məhkəmə ekspertizasının imkanlarının genişləndirilməsinə xidmət edir və fəlsəfi kateqoriyaların geniş istifadə olunmasını, unifikasiya proseslərinin əlaqələndirilməsini və sürətləndirilməsini tələb edir.

"Cinayət mühakimə icraatında qeyd etdiyimiz proseslərin və elmi-texniki nailiyyətlərin tətbiqi mütləq qanunvericilik tənzimləməsindən keçməlidir" [138, s. 6–7].

Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım göstərilməsi çərçivəsində istintaq və digər prosessual hərəkətlərin keyfiyyətinə təsir edən kriminalistik texnikanın, taktiki üsulların düzgün seçilməsi və düzgün tətbiq edilməsi, qanunvericilik qaydasında möhkəmləndirilməsi məsələsi ortaya çıxır. Hüquqi yardım kontekstində kriminalistik problemlərin araşdırılması, bu yardımın kriminalistik təminatının həyata keçirilməsi qaydasını sxem kimi təqdim etməyə imkan verir [Əlavə 3]. Hüquqi yardımın kriminalistik təminatı texniki-kriminalistik təminat, taktiki-kriminalistik təminat, elmi-texniki təminat kimi üç hissəyə bölünə bilər.

IV FƏSİL.
DÖVLƏTLƏR ARASINDA CİNAYƏT İŞLƏRİ ÜZRƏ HÜQUQİ YARDIM GÖSTƏRİLMƏSİNİN MÜASİR PROBLEMLƏRİ

4.1. Müqavilələrlə bağlı olan dövlətlər arasında qarşılıqlı hüquqi yardım göstərilməsi problemləri

Milli qanunvericiliyə əsasən, bir sıra beynəlxalq müqavilələrdə müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Ədliyyə Nazirliyi həyata keçirir. Hüquqi yardım göstərilməsinə dair beynəlxalq müqavilələrin və milli qanunvericilik aktlarının təhlili göstərir ki, hüquqi yardım dövlətin səlahiyyətli orqanları vasitəsilə göstərilir. Hüquqi yardım haqqında qanunvericilik səlahiyyətli orqanın anlayışını vermir. Hüquqi yardım göstərilməsinin mahiyyətinə əsaslanaraq, istintaq orqanlarından və məhkəmələrdən bəhs edilməsi qənaətinə gəlmək olar.

AİHK-nın və ona Əlavə Protokolun təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının 2003-cü il Qanunu ilə nəzərdə tutulan qeyd-şərtə uyğun olaraq, Konvensiyanın məqsədləri üçün məhkəmə orqanları müəyyən edilmişdir. Bu orqanlara Baş Prokurorluq, Ədliyyə Nazirliyi və məhkəmələr aid edilmişdir, Konstitusiya Məhkəməsi bu məhkəmələrə daxil edilmir.

Azərbaycan Respublikasının imzaladığı çoxtərəfli və ikitərəfli müqavilələrin təhlili göstərir ki, daxili işlər orqanları cinayət işləri üzrə dövlətlərarası hüquqi yardımın icrası üzrə mərkəzi və səlahiyyətli orqan qismində müəyyən edilməmişdir.

Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım mərkəzi icra hakimiyyəti orqanları vasitəsilə həyata keçirilir. Məhkəmə tapşırığı mərkəzi icra hakimiyyəti orqanı, yəni məhkəmə, prokurorluq və səlahiyyətlərinə cinayət işlərinin araşdırılması və baxılması daxil olan digər orqanlar vasitəsilə yerinə yetirilir. Hüquqi yardımın

bəzi növləri dövlətlərin diplomatik və konsulluq nümayəndəlikləri tərəfindən göstərilə bilər. Ancaq qanunvericilikdə istisnalar vardır, məsələn, Azərbaycan Respublikası CPM-nin 521-ci maddəsinə əsasən, məhkəmələr daxili qanunvericiliyə, habelə beynəlxalq müqavilələrin müddəalarına uyğun olaraq xarici dövlətlərin məhkəmə qərarlarının tanınması ilə bağlı məsələlərə baxırlar. Məntiqi olaraq, xarici dövlətlərin məhkəmələrinin digər məhkəmə tapşırıqları və digər aktları tanınma prosedurundan keçmir və yerli məhkəmələrin müvafiq aktları kimi icra olunur.

Azərbaycan Respublikasının DİN-in digər dövlətlərlə əməkdaşlıq haqqında saziş və müqavilələrinin təhlili göstərir ki, tərəflər, qrup cinayətləri də daxil olmaqla, cinayətlərin qarşısının alınması, aşkar edilməsi və açılmasında qarşılıqlı əməkdaşlıq edirlər, lakin bu sənədlər hüquqi yardım göstərilməsini tənzimləmir. Məsələn, "RF DİN ilə Azərbaycan Respublikası DİN arasında əməkdaşlıq haqqında" 2011-ci il tarixli Sazişin 3-cü maddəsinin 2-ci bəndinə əsasən, bu Müqavilə cinayət işləri üzrə hüquqi yardım göstərilməsi və cinayətkarların verilməsi məsələlərinə toxunmur [336].

DİN-in beynəlxalq əməkdaşlıqla bağlı məlumatında göstərilir ki, DİN tərəfindən son 18 ildə bağlanılmış müqavilə və sazişlərin predmetini *"... cinayətlərlə mübarizədə qarşılıqlı fəaliyyət əsasında məlumat və təcrübə mübadiləsinin, birgə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi, polis təlim və təhsili sahəsində əməkdaşlıq məsələləri təşkil edir"* [31]. Əməliyyat-axtarış tədbirləri də qarşılıqlı hüquqi yardımın həcminə daxil olan digər hərəkətlərə aiddir.

DİN, faktiki olaraq, qarşılıqlı hüquqi yardımın həyata keçirilməsində yalnız ƏAT-nin həyata keçirilməsində səlahiyyətli orqan kimi çıxış edir. Ancaq DİN orqanlarının qarşılıqlı hüquqi yardım haqqında beynəlxalq müqavilələrdə mərkəzi orqan kimi müəyyən edilən digər orqanlar vasitəsilə müvafiq prosessual və digər hərəkətlərin yerinə yetirilməsində iştirak etməsi istisna olunmur. DİN-

in cinayət işləri üzrə istintaq aidiyyətinin kifayət qədər geniş olmasını nəzərə alaraq, bu aiddiyyətə daxil olan konkret cinayətlərdən asılı olaraq, DİN-in, həmçinin digər istintaq orqanlarının hüquqi yardımla bağlı sorğuların yerinə yetirilməsi üzrə mərkəzi orqan kimi təyin edilməsi, bu orqanların istintaqın aparılması üzrə ixtisaslaşması nəzərə alınaraq sorğuların daha peşəkar və səmərəli icra olunmasına kömək edər.

Ancaq hesab edirik ki, qanunvericilik indi məhkəmə tapşırıqlarının konkret cinayət təqibi orqanları – təhqiqat, istintaq, prokurorluq və ya məhkəmələr tərəfindən icra edilməsi istiqamətində getməlidir və bu, xarici dövlətin məhkəmə tapşırıqlarının icrasının səmərəliliyini artıra və prosedurları sadələşdirə bilər. Bununla yanaşı, hesab edirik ki, mərkəzi dövlət orqanının nəzarəti, sorğu edilən dövlətdə xarici dövlətlərin məhkəmə tapşırıqlarını yerinə yetirən milli orqanların məsuliyyətinin artırılması və qeyri-dəqiq və gecikdirməklə icra hallarının aradan qaldırılması üçün məhkəmə tapşırıqlarının yerinə yetirilməsinin zəruri şərti olaraq qalır.

Cinayət işləri üzrə hüquqi yardımın səmərəliliyi bəzən məhkəmə tapşırıqlarının vaxtında və keyfiyyətli icra edilməsindən asılıdır. Azərbaycan Respublikası CPM-də və digər hüquqi aktlarda "ağlabatan müddət" anlayışı olmamasına baxmayaraq, ölkə təcrübəsində mühakimə icraatının tezliyinin təmin edilməsi ilə bağlı müəyyən müddəalar işlənib hazırlanmışdır.

Kişinyov Konvensiyasının 62-ci maddəsi sorğuların tərəfin qanunvericiliyində nəzərdə tutulmuş müddətdə icra edilməsini, lazım gələrsə, hüquqi yardım göstərilməsi barədə tapşırığın icrası müddətinin müvafiq qurumların razılığı ilə uzadılması imkanını nəzərdə tutur.

Azərbaycan Respublikasının hüquqi yardım və hüquqi münasibətlərə dair ikitərəfli müqavilələri, məhkəmə tapşırıqlarının icrası qaydasını tənzim edərkən, tapşırıq göndərilən ədliyyə müəssisəsi tərəfindən tapşırığı göndərən müəssisənin tapşırığın yerinə yetirilməsi vaxtı və yeri barədə məlumatlandırılmasını nəzərdə tutur.

Ancaq praktikada sorğu edilən tərəfin sorğunu alması və sorğu edən tərəfin müvafiq cavabı alması arasında müəyyən vaxt keçir. Mühakimə icraatının prosessual müddətləri ilə bağlı bəzi problemlər xarici dövlətlərin məhkəmə tapşırıqlarının yerinə yetirilməsi müddətlərinə təsir edir.

Azərbaycan Respublikası CPM ayrı-ayrı istintaq və məhkəmə hərəkətlərinin icrası üçün prosessual müddətlər nəzərdə tutur, ancaq "ağlabatan müddətlər" terminindən istifadə etmir. CPM-nin 48-ci maddəsi cinayət təqibi üzrə icraatın tezliyinin təmin olunmasına həsr olunmuşdur və müvafiq olaraq qeyd olunur ki, cinayət təqibi üzrə icraat təhqiqatçı, müstəntiq, prokuror və məhkəmə tərəfindən məcəllə ilə nəzərdə tutulan müddətlərdə başlanılmalı və başa çatdırılmalıdır ki, sübutların vaxtında əldə edilməsi və tədqiqi təmin edilsin; şəxslər onlara ittiham elan edilməsini, işə baxılmasını və pozulmuş hüquqların bərpa olunmasını hədsiz uzun müddət gözləməsinlər.

Azərbaycan Respublikası CPM-nin 10.5-ci maddəsinə əsasən, prosessual hərəkətlərin yerinə yetirilməsinin və qərarların qəbul edilməsinin prosessual müddətlərinin pozulması onların etibarsız, hüquqi qüvvəsi olmayan kimi qəbul edilməsinə gətirib çıxarır.

Azərbaycan Respublikası CPM-nin 48.3-cü maddəsinə əsasən, təqsirləndirilən şəxsin cinayət prosesini həyata keçirən orqandan gizlənməsi və ya cinayət təqibi üzrə icraatın dayandırılmasına səbəb olan digər hallar olduqda bu müddət nəzərdə tutulan müddətlərə daxil edilmir.

Prosessual müddətlərin pozulması vəziyyətindən çıxış yollarından biri də həmin müddətlərin qanunla müəyyən edilmiş çərçivədə uzadılmasıdır.

Kalinovski K.B. və Əhmədov M.M. hesab edirlər ki, *"...cinayət-prosessual qanun ibtidai istintaqın, təhqiqatın konkret müddətlərini müəyyən etməlidir. Bu müddətlərin işdə olan əsasların təhlili əsasında hər bir uzadılma zamanı müddətin ağlabatan olması və onun uzun olmasının səbəbləri aydınlaşdırılmalıdır"* [213, s.47-50].

İbtidai istintaqın müddətinin uzadılması məsələsinə baxılarkən, yuxarı prokuror müstəntiqlərin və aşağı prokurorların vəsatətlərini və təqdimatlarını yoxlayır, prokurorun və müstəntiqin fəaliyyətini qiymətləndirir, müddətin uzadılması barədə əsaslandırılmış qərar qəbul edir.

Azərbaycan Respublikası Prezidentinin 19.01.2006-cı il tarixli, №352 Fərmanı ilə yüksək məhkəmə orqanlarına AİHM-nin presedent hüququnun öyrənilməsi və onların məhkəmə təcrübəsində nəzərə alınmasının təmin edilməsi tövsiyə edilmişdir. Bu səbəbdən, Azərbaycanın hüquq tətbiqi təcrübəsi AİHK-nin və "ağlabatan müddətdə məhkəmə baxışı hüququ" ilə bağlı presedentlərin tələblərini nəzərə almalıdır.

Qanunvericilikdə mühakimə icraatının aparılmasının ağlabatan müddətləri ilə bağlı xüsusi göstəriş olmasa da, məhkəmə baxışında ağlabatan müddətin təmin edilməsini tənzimləyən ayrı-ayrı idarə aktları mövcuddur. Azərbaycan Respublikası Ali Məhkəməsinin 30 mart 2006-cı il tarixli Plenum qərarında qeyd edilir ki, məhkəmələr ədalət mühakiməsini həyata keçirərkən nəzərə almalıdırlar ki, hər kəsin vətəndaş hüquqları və öhdəlikləri ilə bağlı mübahisə yarandıqda və ya ona qarşı cinayət ittihamı irəli sürüldükdə, işə ağlabatan müddətdə ədalətli və açıq məhkəmə baxışı hüququ vardır. Ağlabatan müddətin müəyyən edilməsində məqsəd, mülki məhkəmə prosesində tərəflərin, cinayət prosesində isə təqsirləndirilən şəxslərin ədalət mühakiməsinin həddən artıq uzanmasından qorunması və ümumilikdə mühakimənin səmərəliliyinin təmin edilməsidir.

Cinayət işləri ilə əlaqədar bu müddətləri hesablamaq üçün "ağlabatan müddət" həm ibtidai istintaqı, həm də məhkəmə baxışı müddətini əhatə edir. AİHM-nin mövqeyinə görə, müddətin hesablanması şəxsə ittiham elan edildiyi, həbs qətimkan tədbiri seçildiyi və ya ondan əvvəl prosessual məcburiyyət tədbirləri tətbiq edildiyi andan başlayır və hökmün qüvvəyə minməsinədək və ya cinayət təqibinə xitam verilməsinədək davam edir.

"Ağlabatan müddət"in müəyyənləşdirilməsi işin xarakterindən, mürəkkəbliyindən və ərizəçinin davranışından asılıdır. A.N. Kuznetsovun fikrincə, konkret işin mahiyyəti onun keyfiyyət göstəricisidir və *"cinayətin ictimai təhlükəlilik xarakteri obyekt, zərərin məzmunu, təqsirin forması və hərəkət (hərəkətsizlik) üsulları ilə müəyyən edilir"* [244, s.107].

AİHM təcrübəsi işə baxılmasının "ağlabatan müddət"inin qiymətləndirilməsi meyarlarını müəyyənləşdirmişdir. Bunlara işin mürəkkəbliyi, məhkəmənin və tərəflərin (hakimiyyət orqanları və ərizəçinin) davranışı, habelə işin ərizəçi üçün əhəmiyyəti daxildir. *"İşin mürəkkəbliyi və tərəflərin davranışı işin halları çərçivəsində qiymətləndirilməlidir"* [377, b.28; 228, b.51; 221, s.107].

AİHM məhkəmə baxışının ağlabatan müddətini qiymətləndirərkən, məhkəmə orqanlarının motivlərinin uyğunluğu və yetərliliyi meyarlarını əsas götürür. Məsələn, Letellier Fransaya qarşı işdə qeyd olunur ki, şübhəli şəxsin həbsdə saxlanması üçün əvvəlcə tutarlı əsaslar kifayət etsə də, müəyyən vaxtdan sonra əlavə əsaslandırılmış səbəblər tələb olunur. Əgər bu motivlər uyğun və kifayət qədərdirsə, məhkəmə milli orqanların prosedurda "lazımi diqqətlilik" göstərməsini nəzərə alır. Buna görə də, icraatın müddətinin ağlabatanlığı qiymətləndirilərkən həlledici amil məhkəmə hakimiyyətlərinin davranışıdır. Məhkəmə, həmçinin, milli orqanların işin icraatında "xüsusi səy" göstərib-göstərmədiyini də müəyyən etməlidir [254, b.102].

Malofeev İ.V. yazır ki, *"cinayət ədalət mühakiməsinin ağlabatan müddəti hər hansı bir dövlət orqanının və onun vəzifəli şəxslərinin öz fəaliyyətlərini cinayət mühakimə icraatında səbəbsiz gecikmədən həyata keçirəcəyi şəkildə qurulması öhdəliyini nəzərdə tutur"* [261, s.19].

Milli qanunvericilikdə və cinayət təqibi ilə bağlı idarə aktlarında prosessual hərəkətlərin tezliyinin təmin olunmasına dair müddəalar mövcuddur və bu müddəalar xarici dövlətlərin məhkəmə

tapşırıqlarının yerinə yetirilməsinə də aiddir. Bəzi hallarda bu tapşırıqların yerinə yetirilməsi zamanı ağlabatan müddəti dəqiqləşdirən xüsusi idarə aktları qəbul edilir. Məsələn, RF Baş Prokurorluğunun "Cinayət işləri üzrə hüquqi yardım göstərilməsi məsələləri üzrə prokurorluq orqanlarının işinin təşkili qaydası haqqında" 16.01.2020-ci il tarixli Göstərişinin 1.1.2.1-ci bəndinə əsasən, beynəlxalq müqavilə ilə başqa müddət müəyyən edilmədiyi təqdirdə, hüquqi yardım üçün xarici sorğuların bilavasitə icraçıya daxil olduğu gündən etibarən 30 gün ərzində icrasının təmin edilməsi tələb olunur [357].

Milli cinayət-prosessual qanunvericilik müddətin uzadılması zamanı "işin mürəkkəbliyi" və "xüsusi mürəkkəbliyi" anlayışlarından istifadə edir. Qanunverici bu anlayışların mahiyyətini açıqlamasa da, AİHM təcrübəsində bu meyarlar formalaşmışdır: ictimai maraqların olması, həbs edilmiş şəxsin şübhəli bilinməsi üçün əsasların mövcudluğu, iş materiallarının həcminin artması, araşdırılan epizodların sayı, mürəkkəb ekspertizaların aparılması, çoxsaylı şahidlərin dindirilməsi və s.

Təcrübə göstərir ki, işin "mürəkkəbliyi" və "xüsusi mürəkkəbliyi"ni müəyyənləşdirmək üçün meyarların qapalı siyahısını vermək mümkün deyil. Bu kriteriyalar cinayətin tərkibindən və işin xüsusiyyətlərindən asılı olaraq dəyişə bilər.

Cinayət qanunvericiliyi cinayətlərin təsnifat meyarlarını müəyyən edir. Uzun müddət ərzində baxılan mürəkkəb cinayət işləri ilə ağır cinayətləri eyniləşdirmək müəyyən hallarda əsaslı ola bilər. Lakin cinayətlərin prosessual xüsusiyyətləri baxımından ağır və az ağır cinayət işlərini eyniləşdirmək doğru olmaz. Hesab edirik ki, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununa və Konstitusiyanın 131-ci maddəsinə uyğun olaraq, Ali Məhkəmə səviyyəsində işlərin mürəkkəbliyi və xüsusi mürəkkəbliyi ilə bağlı izahların verilməsi məqsədəuyğun olardı.

İşə baxılmasının "ağlabatan müddət"inin qiymətləndirilməsində meyarlardan biri də məhkəmənin və tərəflərin – yəni dövlət orqanlarının və ərizəçinin – davranışıdır. Volınets K.V. ilə razılaşmaq olar ki, *"...bəzən işə baxılmasının gecikməsi digər iştirakçıların – zərərçəkmişlərin, şahidlərin, müdafiəçilərin və hətta dövlət ittihamçılarının vicdansız davranışı səbəbindən baş verir"* [159, s.183].

Poluxin V.M. müddətin ağlabatanlığının qiymətləndirilməsi üçün obyektiv və subyektiv meyarları ayırır: *"...obyektiv meyarlara cinayət işinin hüquqi və faktiki mürəkkəbliyi, məhkəmənin hərəkətlərinin yetərliliyi və effektivliyi, cinayət mühakimə icraatının ümumi müddəti daxildir"* [289, s.60].

Alimlər ağlabatanlıq prinsipini cinayət prosesinin prinsipi hesab edirlər [242, s.20]. E.V. Ryabtsevaya görə, *"Cinayət işində ağlabatanlıq prinsipi… ağlabatan hərəkətlər və ağlabatan qərar vermə prinsipi kimi çıxış edir"* [314, s.223]. Urban V.V. qeyd edir ki, o, *"...hüquqi müdafiənin xəbərdaredici, kompensasiya və digər vasitələrinin məcmusu olan ağlabatan müddətdə ədalət mühakiməsinin həyata keçirilməsi hüququ"* dur [373, s.23].

Ağlabatan müddətə cinayət təqibinin həyata keçirilməsinin başlanması anından işə xitam verilməsi və ya ittiham hökmünün çıxarılmasınadək olan müddət daxildir; cinayət işinin hüquqi və faktiki mürəkkəbliyi, cinayət mühakimə icraatının iştirakçılarının davranışı kimi hallar nəzərə alınmaqla, cinayət təqibinin başladığı andan məhkum olunma anına qədər olan dövrü əhatə edir; məhkəmə, prokuror, istintaq orqanının rəisi, müstəntiq, təhqiqat orqanı, təhqiqat orqanının ixtisaslaşmış təhqiqat qurumunun rəhbəri, təhqiqatçı tərəfindən cinayət təqibinin və ya məhkəmə baxışının vaxtında həyata keçirilməsi məqsədi ilə həyata keçirilən hərəkətlərin yetərliliyi və effektivliyi və cinayət mühakimə icraatının ümumi müddəti kimi hallar da nəzərə alınır. AİHM-nin mövqeyinə görə,

cinayət işləri üzrə "ağlabatan müddət" "ittiham irəli sürüldüyü" andan hesablanır. Bu, işə baxılması üçün məhkəməyə verilməsindən əvvəl baş verə bilər, məsələn, tutulduğu tarixdən, şəxsə qarşı cinayət təqibinin aparılacağı barədə rəsmi məlumat verildiyi tarixdən və ya ibtidai istintaqın başladığı tarixdən və nəhayət, iş üzrə ümumi məhkəmə araşdırılması və məhkəmə aktının icra edilməməsi müddətindən.

Beləliklə, söhbət eyni zamanda cinayət işinin başlanması, ibtidai istintaqın aparılması, məhkəmənin şəxsə münasibətdə tamamilə yeni bir qərar verə biləcəyi, o cümlədən cinayət təqibindən tam azad edilməsini məqsədəuyğun hesab edə biləcəyi cinayət işinə apellyasiya qaydasında baxılması mərhələləri də daxil olmaqla, cinayət təqibinin həyata keçirilməsinin ağlabatan müddətindən gedir.

Prokurorun funksiyası şəxsin və vətəndaşın konstitusion hüquqlarının qorunması, cinayət təqibinin həyata keçirilməsi və ibtidai istintaq orqanları tərəfindən qəbul edilən qərarların qanuniliyinə nəzarət etmək zərurətindən irəli gəlir.

Sementsov V.A. və A.P. Şeremetyevin bu fikirləri ilə razılaşırıq ki, *"Cinayət mühakimə icraatının ağlabatan müddətinin hesablanması cinayətin əlamətlərinin aşkarlanması ilə başlamalı və cinayət təqibinin dayandırılması və ya qüvvəyə minməsi ilə bitməlidir"* [325, s.174]. Azərbaycan Respublikası CPM-nin 48-ci maddəsi cinayət təqibi üzrə icraatın tezliyinin təmin edilməsini müəyyən edilmiş müddətlərdə başlanması və başa çatdırılması kimi müəyyən edir. Hər hansı bir cinayət işi başladıldığı andan etibarən ittiham aktı ilə birlikdə məhkəməyə göndərilməli və ya cinayət təqibinə xitam verilməlidir. Ölkə qanunvericiliyinə əsasən, icraatın tezliyinin təmin edilməsi məhkəməyədək prosesi və işin məhkəmədə araşdırılmasını əhatə edir. CPM-nin qeyd olunan müddəası təhqiqatçını, müstəntiqi və hakimi prosesi müəyyən edilmiş müddətdə başa çatdırmağa təşviq edir və təqsirləndirilən şəxsin, zərərçəkmiş

şəxsin işin ağlabatan müddətdə araşdırılması hüququna təminat verir. Lakin cinayət işində icraatın tezliyinin təmin edilməsinin pozulması ilə bağlı CPM-nin 48.4-cü maddəsi məhkəməyədək icraatda şəxsin tutulması zamanı müəyyən edilmiş müddətdən artıq saxlanılması halını birbaşa müəyyən edir ki, buna görə də onların vurulmuş mənəvi ziyana görə kompensasiya almaq hüququ vardır. Kompensasiya məsələsi iş üzrə qəbul edilən qərardan asılı olmayaraq, mülki icraat qaydasında həll olunur. CPM-nin 48-ci maddəsinin təhlilindən belə çıxır ki, qanun cinayət təqibində icraatın tezləşdirilməsinin təmin edilməsinin pozulması ilə bağlı digər halları diqqətdən kənarda qoyur.

Milli CPM-nin cinayət işinin tezliyinin təmin edilməsinə dair müddəalarının pozulmamasının meyarlarından biri də CPM-nin 146.3.2-ci maddəsində sübutların məcmusunun toplanmasının ibtidai istintaqın və ya məhkəmə araşdırmasının uzadılmasına (süründürməçiliyə) səbəb olmamasının göstərilməsidir.

Cinayət işi üzrə tezliyin təmin edilməsi milli CPM-də mühakimə icraatının prinsiplərinə və şərtlərinə aid edilməmişdir. CPM-nin 125.2-ci maddəsində başqa belə bir tələb vardır ki, cinayət prosesində iştirak edən şəxslərin qanunla müəyyən edilmiş hüquqlarından insan və vətəndaşın konstitusion hüquq və azadlıqları, yaxud Məcəllənin digər tələbləri pozularaq məhrum edilməsi və ya məhdudlaşdırılması ilə əldə edilmiş məlumatların, sənədlərin və əşyaların sübut qismində qəbul edilməsinə yol verilmir, bu sübutların həqiqiliyinə təsir edir və təsir edə bilər. Qanun tezliyin pozulması ilə əlaqədar olaraq, icraatın tezliyinin təmin edilməsinin pozulması ilə əldə edilən məlumatların, sənədlərin və əşyaların cinayət işi üzrə sübut qismində yolverilməzliyini, bu pozuntuların sübutların həqiqiliyinə təsiri və təsir ehtimalı ilə əlaqələndirir. Cinayət icraatının tezliyi ilə bağlı pozuntular həqiqiliyə təsir edə bilmirsə, onlara icazə verilir. Başqa bir problem sübutların mötəbərliliyidir. CPM sübutların mötəbərliliyi meyarlarını müəyyən etmir və CPM-nin 145-

ci maddəsi sübutların həqiqiliyinin qiymətləndirilməsini tələb etmir.

Yeni Fəlsəfi Ensiklopediya *"həqiqiliyi obyektiv reallıq kimi, müəyyən tarixi imkanları həyata keçirən, aktual mövcud olan varlıq kimi"* müəyyən edir, anlayış görünüşdən fərqli olaraq əsl varlıq mənasında da istifadə olunur. *"XVI-XVIII əsrlərin fəlsəfəsində həqiqilik məkan və zamanda obyektiv olaraq mövcud olan və qavrayışda vizual olaraq verilən maddi cisimlərin məcmusu kimi"* şərh olunur [276]. Yuxarıdakı konsepsiyaya əsaslanaraq, sübutların həqiqiliyi məkan və zamanda obyektiv olaraq və qavrayışda vizual olaraq verilən məlumatlar şəklində mövcudluğu kimi müəyyən edilə bilər. CPM-nin 125.1-ci maddəsinə əsasən, həqiqilik sübutların məqbulluğu üçün meyar kimi çıxış edir. Burada söhbət dəlillərin həqiqiliyinə şübhə olmamasından gedir. Bu maddəyə görə, sübutların qəbul edilməsinin digər meyarları yaranma mənbəyi və əldə edilməsi halları ilə bağlı şübhələrin olmamasıdır. Sübutların məqbulluğunu qiymətləndirərkən, cinayət işləri üzrə hüquqi yardımın həcmini müəyyən edən xüsusi beynəlxalq müqavilənin müddəalarını nəzərə almaq lazımdır. Maslennikova L.N. hesab edir ki, *"əgər bir dövlət eyni zamanda çoxtərəfli və ikitərəfli beynəlxalq müqavilələrin iştirakçısıdırsa, onlar arasında uyğunsuzluqlar olduqda çoxtərəfli müqavilənin müddəaları üstünlük təşkil edir"* [264, s.397].

Robert Currienin *"dövlətlər, BHH (beynəlxalq hüquqi yardıma) sorğu edilən dövlətin daxili qanunvericiliyinə və ya beynəlxalq adət hüququna uyğun olaraq, iştirakçısı olduğu insan hüquqlarına dair istənilən müqavilənin normalarına riayət etməsi haqqında müddəanı daxil etməlidirlər"* [536, s.24] barədə fikirləri insan hüquqlarına hörmət edilməsi beynəlxalq prinsipinin realizəsi və hüquqi yardım göstərilməsi zamanı insan hüquqlarının pozulmaması ilə bağlı dövlətlərin öhdəliklərinin təmin edilməsi aspektində də maraq kəsb edir və düşünürük ki, belə bir formulirovka milli dövlət

orqanlarının xarici dövlətin məhkəmə sorğularını yerinə yetirməsinin tezliyi məsələsinə yanaşmasına da kömək edəcək.

Cinayət mühakimə icraatının həqiqiliyə təsir edə bilən tezliyi ilə bağlı pozuntulara qayıdaq. Həqiqiliyin yuxarıda qeyd olunan anlayışlarından çıxış etsək, məkan və zamanda obyektiv olaraq mövcud olan və qavrayışda vizual olaraq verilən pozuntular nəzərdə tutulur.

K.V. Muravyovun *"tezləşdirmə prosessual formanın quruluşu səviyyəsində baş verə bilər: əməlin faktiki hallarının müəyyən edilməsi qaydasının sadələşdirilməsi zamanı"* [268, s.29] fikri ilə razılaşırıq. Prokopova A.A. *"icraatı tezləşdirmək üçün subyektiv meyarlardan da istifadə olunur (istintaqın mürəkkəbliyi, halların açıq-aşkar olması və s.)"* [303, s.18] qeyd edir. Bu subyektiv meyarların aradan qaldırılması və ya obyektivləşdirilməsi xarici dövlətlərin məhkəmə tapşırıqlarının icrasının sürətləndirilməsinə və ya qısa müddətlərin təmin olunmasına yardım edəcəkdir. Kaçalova O.V. prosessual qənaətçiliyin vəzifələrini belə izah edir: *"prosessual qənaətçiliyin sürətləndirilmiş icraatda realizə olunan vəzifələri cinayət işi üzrə icraatın gedişində həll olunan digər vəzifələrlə birlikdə sistemli bir şəkildə həll edilməlidir"* [215, s.154]. V.M. Gerasenkovun *"Kiçik və orta ağır cinayət işləri üzrə cinayət mühakimə icraatının səmərəliliyi tezləşdirilmiş məhkəməyədək icraatın optimallığından birbaşa asılıdır"* [162, s.169] fikrinə etiraz edirik, bu səmərəlilik ağırlıq dərəcəsindən asılı olmayaraq bütün cinayət işlərinə aid edilməlidir. K.Y. Xatmullinin *"Prosessual qənaət prinsipi cinayət işlərini* araşdıran və həll edən dövlət orqanlarının və vəzifəli şəxslərin fəaliyyətinə yönəlmiş tələbdir" [380, s.7-8] fikrini müdafiə edirik, çünki bu tələbin dövlət orqanları və vəzifəli şəxslərdən kənara çıxarılması demokratik dövlət quruluşunu və dövlət təsisatlarını kölgə altında qoyardı.

Məhkəmə tapşırıqlarının yerinə yetirildiyi sürətləndirilmiş məhkəməyədək icraatın optimallığı ağır və xüsusilə ağır cinayətlər

barəsində cinayət işlərini də əhatə edir, çünki sürətləndirməyə ayrı-ayrı istintaq və digər prosessual hərəkətlərin icra edilməsi müddətinin qısaldılması ilə də nail olunur.

Maraqlı bir təklif Tlexuç Z.A. tərəfindən verilmişdir. Onun *"sorğunun və ona əlavə edilmiş materialların sorğu edilən tərəfə ən qısa zamanda təqdim edilməsi şərti ilə teleks, faks, e-poçt və ya başqa bir əlaqə vasitəsilə göndərilməsinin qanunvericiliklə möhkəmləndirilməsi"* haqqında fikri diqqəti cəlb edir [352, s.7-8]. Müasir dövrdə fövqəladə hallarda ənənəvi əlaqə vasitələrindən istifadə mürəkkəbləşdiyindən, bəzi hallarda mümkün olmadığından, elektron ünsiyyət vasitələri geniş tətbiq edilir və onun dairəsi daim genişlənir. Həyatın rəqəmsallaşdırılması müvafiq olaraq beynəlxalq hüquqi yardım sahəsinin rəqəmsallaşdırılmasını tələb edir. Rəqəmsallaşdırmanı qarşılıqlı hüquqi yardım institutuna tətbiq etdikdə, sorğunu icra edəcək orqanlarla birbaşa operativ əlaqələrin olması qarşılıqlı yardım institutunun da operativləşdirilməsinə, ədalət mühakiməsinin həyata keçirilməsində gecikmələrə yol verilməməsinə gətirib çıxarır.

Cinayət işləri üzrə operativ hüquqi yardım göstərilməsi "Kibercinayətkarlıq haqqında" Budapeşt Konvensiyasının 31-ci maddəsi ilə, verilənlər itirilə bilərsə və ya modifikasiyaya uğrayacağı üçün əsaslar olduqda da icazə verilir.

Qeyd olunanlarla bağlı ***"Cinayət işlərinə dair hüquqi yardım haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində "başqa səlahiyyətli orqanı" sözlərindən sonra "və ya beynəlxalq müqavilələrə uyğun olaraq tapşırığı bilavasitə yerinə yetirən" sözlərinin əlavə edilməsini və 15-ci maddənin aşağıdakı redaksiyada verilməsini təklif edirik: "Hüquqi yardımın göstərilməsi ilə bağlı əlaqələr Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti və ya başqa səlahiyyətli və ya beynəlxalq müqavilələrə uyğun olaraq tapşırığı bilavasitə yerinə yetirən orqanı vasitəsilə həyata keçirilir."***

"Cinayət işlərinə dair hüquqi yardım haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinə aşağıdakı məzmunda yeni hissə əlavə edilməsini təklif edirik: "Tezləşdirmə zərurəti yarandığı hallarda xarici dövlətin sorğusu və ona əlavə edilmiş materiallar əsillərinin mümkün qısa müddətdə dövlət orqanına təqdim olunması şərtilə teleks, faks, elektron poçt və ya digər rabitə növü ilə göndərilə bilər."

Azərbaycan qanunvericiliyində təqsirləndirilən şəxsin, zərərçəkmişin və cinayət prosesinin digər iştirakçılarının cinayət təqibinin tezliyini təmin etmək üçün ibtidai istintaqa prosessual rəhbərliyi həyata keçirən prokurora və məhkəmənin sədrinə və digər instansiyalara müraciət etmək hüququ birbaşa nəzərdə tutulmamışdır. Burada AİHM-nin təcrübəsinə müraciət etmək yerinə düşərdi. Belə ki, Məhkəmənin Qaydaları ərizəçiyə şikayətinə baxılması proseduru tezləşdirmək imkanı verir. Bunun üçün ərizəçi işinə növbədənkənar baxılması barədə vəsatətlə Məhkəməyə müraciət etməlidir. Bundan başqa, AİHM-dən xahiş etmək olar ki, dövlətin nümayəndəsindən verilmiş şikayət barədə təcili məlumat verilməsi tələb olunsun. Nə Konvensiya, nə də Qaydalar və Məhkəmənin fəaliyyətini tənzimləyən digər sənədlərlə şikayətlərə baxılması müddətinin sərhədləri müəyyən edilməmişdir.

Qaydaların 41-ci maddəsinə əsasən AİHM işlərə baxılma ardıcıllığını belə müəyyən etmişdir: ərizəçinin həyatı və sağlamlığı təhlükə altında olduqda, bunun birbaşa nəticəsi ərizəçinin güman edilən hüququnun pozulması onun azadlıqdan məhrum edilməsidirsə; yaxud ərizəçinin şəxsi və ailə həyatı ilə bağlı digər hallar vardırsa, xüsusilə də Qaydaların 39-cu maddəsi ilə təminat tədbirləri tətbiq edilmiş şikayət üzrə uşağın rifahı təhlükə altındadırsa; şikayətdə ümumi maraqlara toxunan mühüm məsələlər qaldırılırsa, məsələn, milli və Avropa hüquq sisteminə təsir edə biləcək məsələlərə toxunursa; ilkin qiymətləndirməyə əsasən AİHK-nın 2, 3, 4 və 5-ci

maddəsinin 1-ci bəndi üzrə pozuntular varsa, onların təkrar olunmasından asılı olmayaraq; həmçinin ərizəçinin fiziki tamlığına və insan ləyaqətinə bilavasitə təhlükə varsa; AİHK-nın digər maddələrinin pozulması ilə bağlı əsaslı şikayətlər, AİHM-nin araşdırma predmeti olmuş, pilot qərar çıxarılması ilə başa çatmış və ya AİHM-nin daha əhəmiyyətli qərarlarının pozulması barədə şikayətlər, yəni "təkrarlanan işlər", burada söhbət onlara münasibətdə təcrübədə kifayət qədər formalaşmış işlərdən gedir ("well-established case-law cases"); qəbul edilməsi şübhə doğuran şikayətlər; aşkar qəbul edilməyən şikayətlər.

Belə hesab edirik ki, AİHM-nin bu təcrübəsi Azərbaycan qanunvericiliyinə də daxil edilməlidir. Prosesin iştirakçılarının, əsasən də zərərçəkmiş şəxsin hüquqları içərisində onun prosesin tezləşdirilməsi ilə bağlı xahiş hüququnun olması nəzərdə tutulmalıdır. ***Azərbaycan Respublikası CPM-nin 87.6.23-cü maddəsinin 87.6.24-cü maddəsi hesab edilməsini və aşağıdakı məzmunda yeni 87.6.23 maddəsinin əlavə edilməsini təklif edirik: "87.6.23. İş üzrə prosesin tezləşdirilməsini xahiş etmək."***

Aparılan araşdırmanı ümumiləşdirərək belə bir nəticəyə gəlirik ki, cinayət işləri üzrə dövlətlər arasında hüquqi yardım qaydasında məhkəmə tapşırıqlarının əsasən sorğu edən ölkənin daxili qanunvericiliyi ilə tənzimlənən icrasını sürətləndirmək üçün məhkəmə tapşırıqlarının qısa müddətdə icra edilməsi məsələsinin qanunvericilik həlli tələb olunur. Aparılmış sorğuların nəticələri göstərir ki, sorğuda iştirak edən hakimlərin, müstəntiqlərin, prokurorların və vəkillərin hamısı məhkəmə tapşırıqlarının icrası müddətinin uzun olmasını və respondentlərin 95%-i qanunvericinin xarici dövlətlərdən cinayət işləri ilə bağlı məhkəmə tapşırıqlarının icrası üçün konkret müddətlər təyin etməli olduğunu qeyd etmişdir (Bax Əlavələr, 1, 2, 3). Avropa Şurasına üzv olan ölkələr arasında hüquqi yardımda cinayət işlərində ağlabatanlıq meyarının tətbiqi, məhkəmə tapşırıqlarının yerinə yetirilməsinə də şamil olunur. Hesab edirik

ki, hüquq sistemlərinin və dövlətlərin hüquq sistemlərinin inteqrasiyası kontekstində dövlətlər arasında hüquqi yardım göstərilməsində qarşılıqlı anlaşmanın asanlaşdırılması, ümumi anlayışların tətbiq edilməsi üçün Azərbaycan Respublikası CPM-nin 48-ci maddəsinin adının "Cinayət mühakimə icraatının ağlabatan müddəti" kimi dəyişdirilməsini və orada mühakimə icraatının ağlabatan müddətinin meyarlarının və AİHM-nin presedent hüququna əsaslanaraq məhkəməyədək icraat və işə məhkəmə baxışı mərhələlərində tezliyin təmin edilməsi pozulan zaman cinayət prosesinin iştirakçılarının müraciət hüququnun nəzərdə tutulmasını məqsədəuyğun hesab edirik.

Məhkəmə tapşırıqlarının icrasının gecikdirilməsindən artıq Avropa dövlətlərində səmərəli tətbiq edilən Avropa orderi kimi bəzi çıxış yolları vardır. Səfərov N.A. ekstradisiya məsələləri ilə əlaqədar gecikdirmələrin qarşısının alınması ilə bağlı Avropa həbs orderini yurisdiksiya məsələsinə liberal yanaşma hesab edir və qeyd edir ki, *"...Avropa həbs orderinin tətbiqi ...cinayətkarların səlahiyyətli cinayət yurisdiksiyasına verilməsi məsələlərində daha sıx və səmərəli şəkildə qarşılıqlı əlaqə qurmağa imkan verir"* [322, s.223-224].

Avropa həbs orderinin məhdud təsir dairəsi vardır və əksər dövlətlərin münasibətlərində məhz ekstradisiya mexanizmləri tətbiq olunur. Buna görə də, qaçaq cinayətkarların məhkəməyə verilməsi prosesinin asanlaşdırılması, təhlükəli cinayətkarlar kateqoriyası, o cümlədən terroristlər üçün təhlükəsizlik zonalarının yaradılmasının qarşısının alınması, eyni zamanda dövlət suverenliyinin sarsılmazlığına, bir-birilərinin daxili işlərinə qarışmamağa, vermə haqqında qərarların qəbul edilməsi prosesinə qanunsuz müdaxilə edilməsinin istisna edilməsinə, o cümlədən xarici dövlətlərin məlumatı və razılığı olmadan onun ərazisində məcburi hərəkətlərin həyata keçirilməsinin istisna edilməsinə əsaslanan beynəlxalq hüquq qaydasının möhkəmləndirilməsinin təmin edilməsi mühüm problemlər olaraq qalmaqdadır.

Beynəlxalq cinayət marşrutları ilə həmsərhəd olan Azərbaycan Respublikasının geosiyasi mövqeyini nəzərə alaraq, kəsişən və ya paralel yurisdiksiyalar müqavilə əsasında hüquqi yardım göstərilməsi baxımından, həm də müqaviləsiz əsasda hüquqi yardım göstərilməsi aspektində həm Azərbaycan Respublikası, həm də qonşu dövlətlər üçün aktualdır. Kəsişən və ya paralel yurisdiksiyalar çərçivəsində cinayətlərin araşdırılması və məhkəmə baxışı zamanı ortaya çıxan problemlərin həll edilməsini tələb edir. Bu problemlərin həll edilməsi yollarından biri Avropa Şurasının ETS №030 Avropa Konvensiyasına II Əlavə Protokolda nəzərdə tutulmuş birgə istintaq qruplarının yaradılmasıdır. Ali Rıza Tonqurun qeyd etdiyi kimi, *"...klassik əməkdaşlıq metodlarının ...təbiətindən qurtulmağa imkan verən yeni əməkdaşlıq ...metodlarından biri də birgə istintaq qruplarının yaradılmasıdır"* [112, s.354]. Transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə üçün birgə istintaq qruplarının yaradılması BMT-nin Azərbaycan Respublikası tərəfindən ratifikasiya edilmiş Transmilli Mütəşəkkil Cinayətkarlığa Qarşı Konvensiyasının 19-cu maddəsində də nəzərdə tutulmuşdur.

Əhməd Ulutaş və Ömer Serdar Atabey ETS №030 Avropa Konvensiyasına II Əlavə Protokolun imzalanmasını həvəsləndirərək hüquqi yardım və insan hüquqlarının müdafiəsi sahəsindəki üstünlükləri vurğulayırlar: *"...hər şeydən əvvəl insanların çoxsaylı cinayət təqiblərinə və eyni cinayətə görə cəzaya məruz qalmamasını təmin edəcək*" [113, s.135]. Bundan əlavə, Konvensiya ədalət mühakiməsini ən yaxşı şəkildə icra edəcək dövləti izləyəcəkdir; müvəqqəti, əmək və maddi itkilər və mümkün münaqişələr də aradan qaldırılacaq və ya minimuma endiriləcəkdir.

AİHK-nın II Əlavə Protokolunun 20-ci maddəsinə əsasən, iki və ya daha çox tərəfin səlahiyyətli orqanları qarşılıqlı razılığa əsasən müəyyən məqsədlər üçün və qarşılıqlı razılığa əsasən uzadıla bilən məhdud müddət üçün tərəflərdən birində və ya bir neçəsində birgə istintaq qrupları yarada bilər. Marina Lilovanın qeyd etdiyi

kimi: *"Birgə istintaq qrupları cinayətkarlıqla mübarizədə ixtisaslaşmaya kömək edir..."* [498, s.2]. BİQ-ların dəstəyi ilə ilkin cinayət araşdırmaları nəticəsində cinayətkarların aşkar edilməsi və cəzalandırılması daha sürətli və səmərəli şəkildə həyata keçirilə bilər.

Hesab edirik ki, Azərbaycan Respublikası ETS №030 saylı Avropa Konvensiyasına II Əlavə Protokolu imzalamaq yolu ilə getməlidir ki, bu da regionda transsərhəd cinayətlərin araşdırılmasını asanlaşdıracaq, kəsişən və ya paralel yurisdiksiyalarla bağlı problemlərin aradan qaldırılmasına kömək edəcəkdir.

Cinayət işləri üzrə dövlətlər arasında hüquqi yardımın daha da təkmilləşdirilməsi üçün dövlətlər arasında hüquqi yardım haqqında ikitərəfli müqavilələrdə məhkəmə tapşırıqlarının yerinə yetirilməsinin konkret müddətləri ilə bağlı, həmçinin dil maneələri və qanunvericilikdə əhəmiyyətli fərqlər olmadıqda xarici hakimiyyətlərin nümayəndələrinin iştirakı və ya müəyyən situasiyalarda xarici hakimiyyətlər tərəfindən dövlətin ərazisində istintaq hərəkətlərinin aparılması ilə bağlı xüsusi müddəalar nəzərdə tutulmalıdır.

Aparılan sorğuların nəticələri göstərir ki, respondentlərin 75%-i başqa bir dövlətin ərazisində prosessual hərəkətlərin sorğu verən dövlətin səlahiyyətli nümayəndələri tərəfindən aparılmasının ədalət mühakiməsinin səmərəliliyinə təsir etdiyini qeyd etmişlər (Əlavə 3).

Kəsişən yurisdiksiyaların tənzim edilməsi üzrə atılan addımlar digər dövlətlər arasında və ya dövlətlər qrupu çərçivəsində eyni problemləri həll etmək üçün aktualdır. Cinayət prosesində *non bis in idem* prinsipinin tətbiqi aspektində Aİ çərçivəsində paralel yurisdiksiyaların problemlərinin həllinə dair tövsiyələr Avropa həbs orderinin müəyyən edilməsi ilə nəticələndi.

Lakin Aİ-nin təcrübəsini digər regionların və ya digər qitələrin dövlətləri arasında hüquqi yardım göstərilməsinə tətbiq etmək müəyyən şərtlər olmadan mümkün deyildir. Dövlətlər arasında oxşar bir

orderin tətbiqi ilə bağlı nəzəri yanaşmada belə, ədalət mühakiməsinin həyata keçirilməsinin razılaşdırılması problem olaraq qalır.

Əvvəlcə Avropa həbs orderinə adekvat olan bir sənəd müəyyən edilənədək, ilk mərhələdə, əgər dövlətlər cinayət işləri üzrə hüquqi yardım haqqında beynəlxalq müqavilələrlə bağlıdırlarsa, kəsişən yurisdiksiyalar məsələsinin həlli zamanı nəzarət orqanı funksiyasının cinayət işləri üzrə hüquqi yardım haqqında çoxtərəfli müqavilələrin orqanlarının üzərinə qoyulması vəziyyətdən çıxış yolu ola bilərdi və bu sahədə əməkdaşlıq presedenti yarada bilərdi.

4.2. Dövlətlər arasında hüquqi yardım göstərilməsi zamanı elektron sübutlardan və plandankənar informasiyadan istifadə edilməsinin perspektivləri

Rəqəmsal elektron qurğuların və İnternetin inkişafı, bu qurğulardan demək olar ki, kütləvi istifadə edilməsi qanuna zidd olan fəaliyyətin yeni sahələrinin və metodlarının yaranmasına səbəb olur. Demək olar ki, bütün cinayətlər bu və ya digər şəkildə elektron qurğularla əlaqədardır və onlardan təkcə cinayət aləti kimi yox, həm də müşahidə kamerası, müxtəlif GPS qurğuları və s. kimi istifadə edilir. Aparılmış sorğuda iştirak edən hüquq-mühafizə orqanlarının əməkdaşları olan respondentlərin 100%-i elektron sübutlara müraciət etdiyini qeyd etmişdir (Əlavə 3).

Cinayət əməllərinin istintaqı və açılmasında dövlətlər arasında əməkdaşlıq hüquqi yardım göstərilməsi ilə bağlı ikitərəfli və çoxtərəfli müqavilələrlə yanaşı, dövlətlərin daxili qanunlarının uyğunlaşdırılmasını da tələb edir. Məsələn, İngiltərədə ilk baxışda eyni görünən dindirmə proseduru fərqlidir. Dindirilən hər bir şəxs birbaşa mənada olmasa da, şahid sayılır. Dindirmənin dəqiq qaydası yoxdur, kimin birinci dindirilməsini tərəf özü müəyyən edir; Azərbaycan qanunvericiliyində isə bu qayda yoxdur. Əslində, prosesə

prinsipial təsir etməsə də, bu fərqlər tərəflərin müəyyən vəsatətlərinin şişirdilməsinə gətirib çıxara bilər.

İnternet və elektron informasiya daşıyıcıları cəmiyyətin və hər bir insanın fərdi həyatının bir hissəsinə çevrilmişdir. İndi həyatı internet və rəqəmsal texnologiyalardan istifadə etmədən təsəvvür etmək mümkün deyil. Beynəlxalq cinayətlərin, o cümlədən qloballaşma prosesləri ilə əlaqəli transmilli mütəşəkkil cinayətlərin artması tendensiyasından çıxış edərək demək olar ki, milli və beynəlxalq səviyyədə cinayətlərin demək olar ki, hamısı İnternetdən və müasir elektron avadanlıqlardan istifadə etməklə törədilir. Ayrı-ayrı dövlətlərin statistikası göstərir ki, kibercinayətlərin artması tendensiyası hiss olunur.

AV-TEST GmbH İnstitutunun məlumatına əsasən, 2024-cü ilin avqust ayına qədər 1,179,689,133 yeni zərərli proqram nümunəsi və 229,651,237 potensial arzuolunmaz proqram aşkarlanmışdır. *"2024-cü ilin avqust ayınadək 72,073,579 yeni nümunə endirilmişdir"*, buna görə də ilin sonuna qədər yeni bir yüksəliş görə bilərik [417]. Webroot-un məlumatına əsasən, *"2022-ci ilin ilk altı ayında zərərli proqram təminatının 89,3%-i bir fərdi kompüterə xas olmuşdur, 2021-ci ildə isə 86,3% olmuşdur. Yoluxma nisbətindəki bu cüzi artım zərərli proqram təminatının hər bir hücum variantının uğurlu olmasını təmin etmək üçün atdığı addımları göstərir"* [579].

Aşkarlanmamaq fırıldaqçı proqramların hücumlarının çox bahalı olmasına səbəb olur. Məsələn, Forbes-in məlumatına əsasən, "NotPetya" fırıldaqçı proqramlarının Maersk gəmiçilik şirkətinə vurduğu ziyan 200 milyon dollara başa gəlmişdir [510].

Bu və ya digər şəkildə İnternetin və elektron məlumatların, elektron avadanlıqların istifadəsi ilə əlaqəli cinayətlərin sayı artdığına görə, belə cinayətlərin araşdırılması zamanı dövlətlərin əməkdaşlığı müasir dövrün çağırışlarından biridir. Bu istiqamətdə S.V.

Zuevin *"rəqəmsal cinayət-prosessual siyasətin perspektivi"* haqqında fikri maraqlıdır [208, s.17].

İnternetin texniki imkanlarının və funksiyalarının inkişafı elektron və ənənəvi sübutların mümkün dairəsini də genişləndirmişdir, belə ki, onlar fərdi kompüter cihazlarında, veb-saytlarda, sosial şəbəkələrdə, e-poçtda, çatda və buludlarda, həmçinin başqa dövlətin ərazisində yerləşən serverdə saxlanıla bilər.

Azərbaycan Respublikası CPM-nin 135.1-ci maddəsinə əsasən, sənədlər cinayət təqibi üçün əhəmiyyətli ola biləcək hərf, rəqəm, qrafik və digər işarələr şəklində məlumatları əks etdirən kağız, elektron və ya digər vasitələrdir. CPM-nin 125-ci maddəsinə əsasən, elektron sənədlər iş üzrə maddi sübut olmaları üçün mümkünlük meyarlarına cavab verməlidir. Götürmə, baxış, axtarış, tələb etmə və ya qəbul etmə nəticəsində məlumat daşıyıcısı CPM-nin 135-ci maddəsinin mənasında sənədə çevrilir.

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunun 2-ci maddəsinə əsasən, maddi daşıyıcıda mətn, səs və ya təsvir formasında qeydə alınan və identikləşdirməyə imkan verən istənilən rekvizitli informasiya mənbəyindən, saxlanma yerindən, rəsmi statusundan, mülkiyyət növündən və mənsub olduğu təşkilat tərəfindən yaradılıb-yaradılmadığından asılı olmayaraq sənədləşdirilmiş informasiyadır.

Cinayətin şərtləri və elementləri haqqında digər məlumatlar kimi, cinayətin açılması üçün kompüter məlumatlarının əhəmiyyəti də şübhəsizdir. Qolubev B.A. belə mövqedən çıxış edir ki, *"kompüter məlumatları elektron formada mövcud olan mətn, qrafik və ya digər formada kompüterin və ya insanın qavraması üçün əlçatan olan və ya telekommunikasiya kanalları vasitəsilə ötürülən faktiki məlumatlardır və onların əsasında qanunla müəyyən edilmiş qaydada işin düzgün həll edilməsi üçün əhəmiyyəti olan hallar müəyyən edilir"* [164].

Kudryavtseva A.V. və Xudyakova Y.V. hesab edirlər ki, *"kompüter məlumatı maddi sübutdur, çünki bu məlumatın daşıyıcısı predmetdir, bu predmetin məzmunu və xüsusiyyətləri isə sübut əhəmiyyətinə malikdir"* [242, s.51]. Pastuxov P.S. isə qeyd edir ki, *"göstərilən predmetlilik əlamətinə və ya başqa sözlə desək, maddi sübutların maddiliyinə münasibətə yenidən baxılmalıdır. Kompüterdən istifadə etməklə cinayət törədildikdə, onun informasiya izlərinin hüquqa uyğun olaraq adi bir cinayətdən qalan maddi izlərin analoqu hesab edilməsini haqlı hesab etmək olar"* [283, s.149].

Zigura N.A. kompüter məlumatlarını sübutların növü və müstəqil növü hesab edir: *"maddi daşıyıcıda ... yaradılmış məlumatlar özünəməxsus formasına, mövcud olma mühitinə, formalaşma mexanizminə və cinayət prosesində sübut kimi təqdim edilmə üsuluna və ya sübuta çevirmə üsuluna əsaslanaraq sübutların müstəqil növüdür"* [206, s.7].

K.F. Qutsenkonun sübutların bölgüsündə də şəxsi sübutlara informasiyanın daxil edilməsi qeyd edilir, o, sübutları şəxsi və maddi olaraq bölür və hesab edir ki, *"şəxsi sübutlar ən ümumi şəkildə şəxslərdən gələn informasiya (məlumat), maddi sübutlar isə maddi əşyalar və sənədlərdir*" [362, s.149].

Elektron sübutlar, əslində, şəxsi sübutlardan törəmədirlər. Fərq ondadır ki, elektron maddi sübutlar cinayətkar fəaliyyətin izləri kimi obyektiv şəkildə formalaşırlar, faktlar haqqında məlumatın ötürülməsi üçün xüsusi olaraq yaradılmırlar. Daniel Seng və Stephen Mason [461, s.18-34] və Adam M.G. [401, s.42] rəqəmsal cihazların xüsusiyyətlərini elektron sübutların əlamətləri hesab edirlər: *"1) əhəmiyyətli həcmdə məlumat saxlamaq qabiliyyəti; 2) elektron daşıyıcıda olan məlumatların surətini çıxarmanın asanlığı; 3) həm cihazın öz yaddaşında, həm də internet informasiya-telekommunikasiya şəbəkəsinin və ya digər rabitə sisteminin yaddaşında saxlanılan məlumatları əldə etmək imkanı; 4) rəqəmsal məlumatların*

nisbiliyi və məzmununun qeyri-aşkar olması". Bu əlamətlər obyektiv şəkildə formalaşmanı göstərir və əlbəttə ki, elektron daşıyıcılarla bağlıdırlar.

Elektron sübutun hansı formada mövcudluğu da mübahisəlidir, əslində onun sübut əhəmiyyəti bu formadan asılı deyil, ancaq formanın əhəmiyyətini də danmaq olmaz. Məsələn, alimlərdən Baranov A.M. elektron sübutların mövcud olma forması ilə bağlı olaraq belə hesab edir ki, *"sübut-informasiya yalnız insanın şüurunda mövcuddur, elektron mühit (İnternet), məlumatların saxlanması və ötürülməsi üçün elektron vasitələr maddi sübut və elektron sübut deyil, məlumat saxlayıcısıdırlar"* [140, s.69], Balaşova A.A. isə *"Özündə cinayətin izlərini daşıyan sənədsiz məlumatların, habelə sənədləşdirilmiş məlumatların (məsələn, kompüter məlumatlarının dəyişdirilməsi) elektron daşıyıcılarını"* [139, s.79] maddi sübutlara aid edir. Vexov V.B. elektron sübutları istənilən məlumatlarla əlaqələndirir və onunla razılaşırıq ki, istənilən məlumatın əhəmiyyəti onun daşıdığı məzmunla bağlıdır: *"bu, elektron formada təqdim edilən istənilən məlumatlardır, onların əsasında məhkəmə, prokuror, müstəntiq, təhqiqatçı prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada cinayət işi üzrə icraat zamanı sübut edilməli olan halların, həmçinin işə düzgün baxılması və həll edilməsi üçün əhəmiyyəti olan digər halların mövcudluğunu və ya olmamasını müəyyən edir"* [152, s.47].

Azərbaycan Respublikasının qanunvericiliyində elektron sübutların ayrıca bir tərifi yoxdur. Azərbaycan qanunvericiliyi yalnız sənədi sənədləşdirilmiş məlumat kimi tanıyır və məlumatların qeyd edilməsi, saxlanması və ötürülməsinin texniki üsullarına əsaslanaraq sənədlərin yazılı formasını mütləqləşdirməkdən imtina edir. Wiki lüğətində "elektron" anlayışı (sifət kimi) mənasına görə *""elektron" ismi ilə əlaqəli olan kimi müəyyən olunur; ötürülməyə, işlənməyə imkan verən formada və buna bənzər elektron vasitələrlə*

təqdim olunan" başa düşülür" [349]. Bu konsepsiyaya əsaslanaraq, belə bir nəticəyə gəlmək olar ki, elektron informasiya dedikdə ötürülməsinə, işlənməsinə imkan verən formada və ya buna uyğun elektron vasitələrlə təqdim olunan məlumatlar kimi başa düşülür.

Digər bir anlayış, elektron sənəddir, elektron ödəmələr və s. haqqında kompüter qeydləri şəklində hazırlanan sənədləri özündə birləşdirən elektron sənəd anlayışıdır. Digər sənədlər kimi, elektron sənədlərə, komputer yazısı şəklində yerinə yetirilən pul vəsaitlərinin qanunsuz alınmasını, o cümlədən bankın komputer şəbəkəsinə (sisteminə) müdaxilə etmək yolu, plastik ödəmə sənədlərini (plastik kartı) tətbiq etməklə, elektron texnologiyalardan istifadə etməklə elektron üsullarla pul vəsaitlərinin göndərilməsi və alınması yolu ilə elektron ödəmədən istifadə etməklə yerinə yetirilən sənədləri aid etmək lazımdır.

Zaitsev P.P. [185, s.42] elektron sənəd kimi UNCITRAL-ın "Elektron Ticarət haqqında" Nümunəvi Qanunu mənasında *"elektron ünsiyyət vasitələrindən istifadə edərək saxlanılması və ötürülməsi üçün yararlı olan formada məlumat"* deməkdir kimi tərifinin qəbul edilməsini məqbul sayır [350, s.123].

Rıbin A.V. qanunvericinin *"elektron sənədləri digər sənədlərə aid etməsi ilə razılaşır, onlara əsasən kompüter qeydləri şəklində hazırlanan sənədləri "* daxil edir" [313, s.20]. Elektron sənədlərin digər sənədlərə aid edilməsini müdafiə edirik və hesab edirik ki, elektron sənəd anlayışı "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununda daha məzmunlu verilmişdir: elektron sənəd — informasiya sistemində istifadə üçün elektron formada təqdim edilən və elektron imza ilə təsdiq olunmuş sənəddir.

Böyük Britaniyanın 1988-ci il Cinayət Mühakimə Aktı bütün rəqəmsal sübutların yazılı sübutlara tətbiq olunan eyni qaydalar və qanunlara tabe olmasını qeyd edir [571].

ABŞ "Federal Sübutlar Qaydaları"nın 401-ci qaydası "müvafiq sübut"u istənilən az və ya çox ehtimal olunan hərəkətin müəyyən

edilməsi üçün əhəmiyyəti olan faktın mövcud olmasını göstərmək meyli olan istənilən sübut kimi müəyyən edir. *"Elektron / rəqəmsal sübut – elektron rabitə vasitələri xidməti, yəni istifadəçilərə xətt əlaqəsi və ya elektron rabitə əlaqəsi göndərmək və almaq imkanı verən istənilən xidmət, yəni, elektron rabitə vasitələri xidməti vasitəsilə saxlama və işləmə xidmətləri göstərən istənilən xidmət tərəfindən alınan sübutdur"* [468, s.3].

Milli məhkəmə sisteminin müasirləşdirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2006-cı il tarixli Fərmanında göstərilir ki, müasirləşdirmə məhkəmələrin fəaliyyətində texnologiyaların tətbiq edilməsi üçün yeni məhkəmələrin yaradılmasını nəzərdə tutur.

"Elektron Məhkəmə informasiya sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, bu sistem audio, video və digər qeydedici texniki vasitələrdən istifadə edərək məhkəmə proseslərinin qeydiyyatını aparmalı və onların onlayn müşahidəsi üçün imkanlar yaratmalıdır.

"Elektron məhkəmə" sisteminin təkmilləşdirilməsi üçün X.D. Ələkbərovun *"mövcud ziddiyyətləri minimuma endirməyə... optimal cəza tədbirlərinin elektron müəyyən edilməsi sistemini (qısaldılmış formada – "Elektron ədalət mühakiməsi tərəzisini")"* [126, s.14] yaratmaq təklifləri zamanın tələbləri ilə şərtləşən, hüquqi yardım göstərilməsi aspektində də maraqlı olan bir təklifdir. Ələkbərov X.D. cinayət mühakimə icraatının təkamülünün gedişində yol verilmiş tarixi səhvləri təhlil edərək qeyd edir ki, *"Dördüncü tarixi səhv onda ifadə olunur ki, qanunverici özünün cəza təyin edilməsinin əsaslarını və qaydasını tənzimləyən normativ aktlarında cəzasızlığın mahiyyətini müəyyən edərkən kobud metodoloji səhvə yol vermişdir, bunun nəticəsində ona xas olan ölçülər vermişdir ki, bunun da əsasında saxta hüquqi konstant yaradılmışdır"* [128, s.87] və hökmə subyektiv mülahizələrin təsirinin qarşısının alınması

üçün Ələkbərov X.D. "Elektron ədalət mühakiməsi tərəzisi" anakartına əlavə alqoritmlərin daxil edilməsi imkanını təklif edir. *"Söhbət, müəllifin Cinayət Məcəlləsinə iki müstəqil norma daxil edilməsi yolu ilə hakimin (məhkəmənin) prinsipcə yeni diskresion səlahiyyətlərindən gedir: — məhkəmə mərhəməti aktı; — məhkəmə mülayimliyi aktı"* [129, s.47-48]. Hesab edirik ki, milli qanunvericilikdə "Elektron ədalət mühakiməsi tərəzisi"nin tətbiqi hüquqi yardımla bağlı işlər üzrə də cəza məsələlərinə subyektiv yanaşma ilə bağlı hakimin mülahizəsinin tətbiqi sahəsində problemləri aradan qaldıra bilər. Pastuxov P.S. hesab edir ki, *"sənədləşmə institutu elektron sənəd anlayışı nəzərə alınmaqla yenidən qurulmalıdır"* [284, s.19].

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunda sənədləşdirilmiş məlumat (sənəd) anlayışının formulirovkasını daha həcmli, uğurlu hesab edirik və onun cinayət prosesinin məqsədləri üçün ayrıca qeyd edilməsini və ***Azərbaycan Respublikası CPM-nin 135-ci maddəsinə aşağıdakı məzmunda yeni 135.4-cü hissəsinin əlavə edilməsini təklif edirik: 135.4. Sənədləşdirilmiş informasiya (sənəd) – maddi daşıyıcıda mətn, səs və ya təsvir formasında qeydə alınan və identikləşdirməyə imkan verən istənilən rekvizitli informasiya mənbəyindən, saxlanma yerindən, rəsmi statusundan, mülkiyyət növündən, mənsub olduğu təşkilat tərəfindən yaradılıb-yaradılmadığından asılı olmayaraq sənədləşdirilmiş informasiyadır.***

Elektron informasiyanın və elektron sənədlərin çatışmazlığı qismində xüsusi kompüter proqramları vasitəsilə müəyyən edilə bilən, kompüter texnikası proqramları vasitəsi ilə dəyişdirilməsinin mümkünlüyünü qeyd edirlər. "Elektron imza haqqında" Azərbaycan Respublikası Qanununa görə, elektron imzanın həqiqiliyi, yəni imzanın sahibinə məxsus olması, bütövlüyü, dəyişməzliyi və təhrif edilməməsi elektron imzanın yoxlanılması üçün məlumatlardan istifadə etməklə yoxlanılır.

Elektron sübutlar əksər hallarda başqa bir dövlətin yurisdiksiyasında olur və alınması üçün qanunvericilikdə müəyyən edilmiş qaydada bu yurisdiksiyaya müraciət edilməsi tələb olunur, bu isə elektron məlumatların itirilməsi, saxtalaşdırılması və ya silinməsi riski ilə bağlı əlavə problemlər yaradır. Aparılmış sorğuların nəticələri göstərir ki, respondentlərin 80 %-i elektron sübutların saxlanılması və götürülməsi ilə bağlı səlahiyyətlərin artırılmasını və Azərbaycan CPM-nə əlavə və dəyişikliklərin edilməsinin tələb olunduğunu qeyd etmişdir (Əlavə3).

Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım göstərilməsi institutu başqa bir dövlətə edilən sorğuların müvafiq şəkildə rəsmiləşdirilməsi, bu sorğunun yerinə yetirilməsi və sorğu edilən dövlətdən cavab alınması üçün müəyyən vaxt tələb edir. Dövlətlər arasında cinayət işləri üzrə yardım haqqında çoxtərəfli və ikitərəfli müqavilələrə əsasən, hər bir dövlət xarici yurisdiksiyadan sorğuların göndərilməsi və icrası üçün məsul olan öz mərkəzi orqanlarını təyin edir və göstərilən formal tələblərin yerinə yetirilməsi üçün müvafiq vaxt tələb olunur.

Mümkün problemlərin aradan qaldırılması üçün Beynəlxalq Kompüter (Rəqəmsal) Sübutlar Təşkilatı tərəfindən hazırlanan "Rəqəmsal sübutlara aid olan prosedur prinsipləri" milli qanunvericiliyə və standartlara uyğun olaraq rəqəmsal sübutların toplanması, saxlanması və istifadəsi prosedurunu müəyyən edir. Prinsiplərin müəyyən etməsinə görə, *"rəqəmsal sübut məhkəmədə istifadə edilə bilən binar formada saxlanılan və ya ötürülən məlumatlardır"* [560].

Elektron sənədlərə dəyişiklik edilməsi və ya itirilməsi (silinməsi) riskini qismən aradan qaldırmanın digər təsirli vasitəsi ayrı-ayrı cinayətlərin araşdırılmasında beynəlxalq əməkdaşlıqda uğurla istifadə edilən "spontan (plandankənar) məlumatlar" və ya könüllü olaraq məlumatların verilməsi institutudur. Bu instituta uyğun olaraq, dövlətin səlahiyyətli orqanları sübutların yerləşdiyi ərazinin və

yurisdiksiyanın dövlətinə bu dövlətin daxilində cinayətin törədilməsinin halları və elementləri haqqında məlumat və ya materiallar göndərirlər. Bu cür məlumatların vaxtında və operativ alınması araşdırmanın səmərəliliyinin və operativliyinin yüksəldilməsinə kömək edə bilər.

Dövlətlər arasındakı münasibətlərdə "plandankənar məlumatların" göndərilməsi 1990-cı il Konvensiyasının 10-cu maddəsi (məlumatların sorğusuz göndərilməsi), 2005-ci il Konvensiyasının 20-ci maddəsi (öz təşəbbüsü ilə informasiyanın təqdim edilməsi), 1999-cu il Konvensiyasının 28-ci maddəsi, BMT-nin 2003-cü il Konvensiyasının 46.4 (qarşılıqlı hüquqi yardım), 56-cı (xüsusi əməkdaşlıq) maddələrində, Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında 1992-ci il Müqaviləsinin (qüvvədən düşmüşdür) 38.2-ci maddəsi, Aİ-nin üzv dövlətləri arasında qarşılıqlı hüquqi yardımla bağlı Konvensiyasının 7-ci maddəsi ilə nəzərdə tutulmuşdur. Bu normalar tərəflərin öhdəliyini deyil, müvafiq hüququnu müəyyən edir.

Məlumatların könüllü təqdim edilməsi həmçinin "Kibercinayətkarlıq haqqında" 2001-ci il Budapeşt Konvensiyasının 26-cı maddəsi ilə (plandankənar məlumat) də nəzərdə tutulmuşdur. Belə ki, Konvensiyaya uyğun olaraq, öz milli qanunvericiliyi çərçivəsində hərəkət edən tərəf əvvəlcədən sorğu verilmədən digər tərəfə apardığı istintaqın gedişində əldə etdiyi informasiyanı göndərə bilər; informasiyanı o halda göndərir ki, informasiyanın təqdim edilməsi onun fikrincə məlumatı alan dövlətdə cinayət işlərinin qaldırılmasına, istintaq aparılmasına və ya sonradan yardım göstərilməsi barədə sorğu göndərilməsinə səbəb ola bilər. Bu isə öz növbəsində informasiyanı alan tərəfin istintaqa başlamasını, onun aparılmasını asanlaşdıracaq və ya cinayət əməllərinin təqib olunmasını təmin edəcək və ya həmin tərəfdən kömək istənilməsi ilə nəticələnəcəkdir.

Cinayət-hüquqi məsələlərlə bağlı məlumatların başqa üzv dövlətin səlahiyyətli orqanına könüllü olaraq əvvəlcədən xahiş edilmədən ötürülməsi BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasının 18-ci maddəsinin 4-cü bəndində də nəzərdə tutulmuşdur.

Elektron sübut əldə etmənin digər daha səmərəli yolu "Kibercinayətkarlıq haqqında" Budapeşt Konvensiyası ilə nəzərdə tutulmuşdur (23-cü maddə).

Budapeşt Konvensiyası kompüter məlumatlarının təxirəsalınmadan saxlanılmasını, yəni kompüter sistemi vasitəsilə saxlanılan trafik məlumatları da daxil olmaqla müəyyən kompüter məlumatlarının, xüsusilə də bu kompüter məlumatlarının itirilməsi və ya dəyişdirilməsi riski olduğuna inanmaq üçün əsas olduqda göstəriş verilməsi və ya oxşar yolla təxirəsalınmadan saxlanılmasına nail olunmasını nəzərdə tutur. Trafik məlumatlarının təxirəsalınmadan saxlanması və qismən təqdim edilməsi nəzərdə tutulur.

Konvensiyanın 18-ci maddəsi ilə nəzərdə tutulan informasiyanın təqdim edilməsi haqqında göstəriş onun ərazisində olan şəxsin sahibliyində və ya nəzarəti altında olan kompüter sistemində və ya daşıyıcıda olan müəyyən kompüter məlumatlarını verməsini nəzərdə tutur, sorğu edilən dövlətin ərazisində istintaq və digər prosessual hərəkətlərin yerinə yetirilməsinə icazə verir. ***Hesab edirik ki, kompüter məlumatlarının təxirəsalınmadan saxlanması barədə göstəriş CPM-nə daxil edilməlidir.***

Qarşılıqlı yardımın ümumi prinsiplərini müəyyən edərkən, Budapeşt Konvensiyası ən geniş yardım göstərilməsi spektrindən, kompüter sistemləri və məlumatları ilə əlaqədar cinayətlərin istintaqı və ya məhkəmə təqibində, həmçinin cinayət işləri üzrə elektron formada olan sübutların toplanılmasında yardım göstərilməsi baxımından əhəmiyyətli rola malikdir. Budapeşt Konvensiyasının 25-ci maddəsinin 3-cü bəndində fövqəladə hallarda yardım göstəril-

məsinin sərhədləri nəzərdə tutulmuşdur, tərəflər köməyin təcili rabitə vasitələri, o cümlədən faks və elektron poçtla göndərilməsini xahiş edə bilər. Belə vasitələr təhlükəsizliyi və eyniləşdirməni (lazım gələrsə şifrləmə daxil olmaqla) təmin etməlidir, sonradan xahiş sorğu edilən dövlətin tələbi ilə formal təsdiq edilməlidir. Sorğu edilən tərəf sorğunu qəbul etməli və ona istənilən təcili rabitə vasitəsi ilə cavab verməlidir.

Hüquqi yardım göstərilməsinin digər təminatı sorğu edilən dövlətin Konvensiyada göstərilən cinayətlərə münasibətdə yardım göstərmək hüququndan imtina etmək hüququnu həyata keçirməməsidir. Tərəf sorğunun onun vergi qanunvericiliyinin pozulması hesab etdiyi cinayətlə bağlı olması əsasında belə imtinanı həyata keçirməməlidir.

Budapeşt Konvensiyası, müvafiq beynəlxalq müqavilələr olmadıqda, yardım sorğularının göndərilməsi və yerinə yetirilməsi prinsiplərini müəyyən edir, buna görə müqavilə ilə bağlı olmayan dövlətlər başqa dövlətə sorğu göndərmək hüququna malikdir və bu sorğuları yerinə yetirirlər.

Hüquqi yardım göstərilməsinin Budapeşt Konvensiyası ilə müəyyən edilmiş prinsipləri arasında 27-ci maddənin 9-cu bəndinin xüsusi diqqət çəkdiyini qeyd etmək lazımdır. Belə ki, təcili hallarda yardım və ya bu yardım çərçivəsində məlumatların verilməsi haqqında sorğular, sorğu edən tərəfin məhkəmə orqanları tərəfindən birbaşa sorğu edilən tərəfin müvafiq orqanlarına göndərilə bilər. Bu halda sorğunun surəti eyni vaxtda sorğu edən tərəfin mərkəzi orqanları vasitəsi ilə sorğu edilən tərəfin mərkəzi orqanlarına göndərilməlidir.

İnternet və kompüter cinayətlərinin və kompüterlə əlaqəli digər cinayətlərin sərhədlərini sadələşdirir. Kompüterlə əlaqəli cinayətlərin istintaqı zamanı istintaq və məhkəmə orqanları fərqli yurisdiksiyalarla iş görürlər və müvafiq milli yurisdiksiyalara məhkəmə sorğusu ilə müraciət etmə tələb olunur. Müstəntiqin İnternetə qo-

şulmuş bir kompüterə çıxışı varsa, o, veb saytlara girmək və digər yurisdiksiyalarda yerləşən kompüterlərə qoşulmaqda sərbəstdir. Bu hüquq Budapeşt Konvensiyasının 32-ci maddəsində nəzərdə tutulmuşdur və müstəntiqin bu hüququ kompüterlərin və ya serverlərin ərazisində yerləşdiyi dövlətlərin qanunvericiliyindən asılı deyildir.

Elektron sübutlar buludda saxlanılırsa, yəni, məsələn, şübhəli şəxsin e-poçt yazışması ev kompüterində deyil, başqa bir yurisdiksiyada sərt diskdə olarsa, hüquqi yardım olmadan keçinmək mümkün deyildir.

Təcrübə göstərir ki, İnterpol, Avropa Şurası, Avropa əlaqə mərkəzləri şəbəkəsi, Europol, Eurojust, AİHM Şəbəkəsi kimi ayrı-ayrı beynəlxalq təşkilatlar vardır ki, onlar cinayət ədliyyə orqanlarının müraciətlərinə daha tez cavab verirlər. Digər hallarda yardım, sorğu edən dövlətin iştirak etdiyi çoxtərəfli və ikitərəfli müqavilələrin mövcudluğundan asılıdır.

Başqa bir dövlətin yurisdiksiyasına kömək üçün sorğu ilə müraciət rəsmiləşdirilməsi və göndərilməsi üçün müəyyən vaxt tələb edir. Məsələ bundadır ki, çoxtərəfli və ikitərəfli müqavilələr dövlət tərəfindən sorğuların göndərilməsi üçün məsul milli orqanın təyin edilməsini nəzərdə tutur. Bu qayda sorğu edilən dövlətin ərazisində sorğuların icrasına da aiddir və uyğun bir vaxt tələb edir. Ancaq qeyd edildiyi kimi, elektron sübutlar saxtalaşdırmaya və ya məhv edilməyə, dəyişdirilməyə asanlıqla məruz qalırlar ki, bunun qarşısının alınması üçün dövlət tərəfindən tələb olunan sorğuların tez bir zamanda, operativ yerinə yetirilməsi tələb olunur. Bəzi hallarda, dövlətlər və ya sorğuların yerinə yetirilməsinə məsul olan mərkəzi orqanlar arasında qarşılıqlı hörmət və xoş münasibətlərə əsaslanaraq, icra müddətlərinin qısaldılması və ya operativ icra mümkündür. Transmilli cinayətlər üzrə istintaq bir neçə dövlətin yurisdiksiyasını əhatə etdiyi üçün transmilli cinayətlərlə mübarizə aparmaq daha da çətindir və işin hallarından asılı olaraq istintaq bəzən digər dövlətlərin məsul rəhbərliyi altında aparıla bilər.

Elektron sübutların xarici bir yurisdiksiyadan alınması nöqteyi-nəzərindən, Aİ-nin "Elektron sübutların əldə edilməsinin yeni qaydaları" mərkəzi orqanın iştirakı ilə əlaqədar qarşılıqlı hüquqi yardım göstərilməsinin tarixləri, sorğuların yerinə yetirilməsi müddətləri, sorğu edən dövlətin nümayəndəsinin iştirakı və s. ilə bağlı ənənəvi problemlərə yeni bir yanaşmadır, digər üzv dövlətdə xidmət təminatçısının qanuni nümayəndəsinin elektron sübutlara (e-məktub, mətn məlumatları və ya əlavələrdəki məlumatlar kimi) çıxış xahiş etməsinə imkan verir. *"Digər üzv dövlətdəki xidmət təminatçısının qanuni nümayəndəsi 10 gün və fövqəladə bir vəziyyətdə 6 saat ərzində (müqayisə üçün qeyd edilməlidir ki, mövcud Avropa istintaq orderi üçün 120 gün və ya qarşılıqlı hüquqi yardım üçün 10 ay tələb olunur) cavab verməyə borcludur"* [509].

Avropa saxlama orderi sorğularının icrası başa çatanadək elektron sübutların silinməsinin qarşısını almağa məcbur etməyə icazə verir və yalnız saxlanılan məlumatlara şamil edilir. Real vaxt rejimində telekommunikasiyaların tutulması bu təklifə daxil deyil. Els De Busser hesab edir ki, Aİ-nin yanaşması gələcəkdə qarşılıqlı hüquqi yardımın yerini tuta bilər, *"lakin belə məsuliyyətin şirkətlər üzərinə qoyulmasının üç nəticəsi xüsusi narahatlıq doğurur: birincisi, təklif olunan qərar şirkətlərə dövlət qurumu rolu verir. 1990-cı il Şengen Konvensiyasında iki dövlətin polis orqanları arasında birbaşa təmasın belə təsəvvür edilmədiyi halda, indi sübutların şirkətlərdən hüquq-mühafizə orqanlarına birbaşa transsərhəd ötürülməsinin institutlaşdırılmasını görürük"* [463, s.174].

Qarşılıqlı hüquqi yardım haqqında müqavilələrdə mərkəzi əlaqə orqanı kimi əsasən ədliyyə nazirliyinin müəyyən edilməsinin əsas səbəbi və məqsədi dövlətlərin suverenliklərinin müdafiəsi və həm də dövlətlərin beynəlxalq əlaqələrinin həvəsləndirilməsi və müdafiə edilməsidir. Bundan başqa, digər dövlətdə aparılan cinayət işinin istintaqına yardım edilməsi məsələsi həll edilərkən, insan hü-

quqlarının qorunması, dövlətin ədalət mühakiməsi sisteminin demokratikliyi və səmərəliliyi də qiymətləndirilir. Bu funksiyaların şirkət və firmaların üzərinə qoyulması, onlara dövlət orqanları statusunun verilməsidir. Bundan başqa, şirkətlərin iqtisadi maraqlarını, həmçinin transmilli xarakter daşıması, müxtəlif ölkələrin ərazisində yerləşməsi və s. kimi elementləri də nəzərə almalıyıq. Firmaların birbaşa cavabdeh və sorğunu, göstərişi yerinə yetirən orqan kimi müəyyən edilməsi zamanı, onlar ölkə daxilində heç bir daxili orqana məlumat vermədən sorğunu icra edirlər və dövlət orqanları hətta sorğunun nədən ibarət olduğunu belə bilmirlər. Əslində bu o deməkdir ki, insan hüquqlarının qorunması, dövlətin ədalət mühakiməsi sisteminin demokratikliyinin və səmərəliliyinin qiymətləndirilməsi firma tərəfindən həll edilir. Belə bir əhəmiyyətli məsələlərin firmalara həvalə edilməsi yəqin ki, suverenlik, dövlətin maraqları, nüfuzu, hətta bəzi hallarda məqsədəuyğunluq aspektində, iqtisadi maraqların ön plana çıxması, dövlət maraqlarının təhlükə altına düşməsi, ədalət prinsipinin digər iqtisadi və s. maraqlara tabe edilməsi kimi müəyyən risklərlə bağlıdır.

Stanislav Tozca Avropa Parlamentinin və Şurasının Avropa istehsal və mühafizə orderləri verilməsi haqqında Reqlamentinin cinayət işləri üzrə elektron sübutlarla bağlı problemini vurğulayır, onun fikrincə, *"15292/18.EPOR[2018] ümumi yanaşması hüquq-mühafizə orqanları və xüsusi subyektlər, yəni xidmət təminatçıları arasında yeni münasibətlər yaradır, xidmət təminatçıları bunu istəsələr də, istəməsələr də hüquq-mühafizə orqanlarının milli hakimiyyətlərini yalnız sorğuların alınmasında və yerinə yetirilməsində deyil, həmçinin qiymətləndirilməsində əvəz edən geniş budaqlarına çevrilirlər"* [566, s.182]. Üzv dövlətlərin səlahiyyətli orqanları tərəfindən mühafizə orderləri verilməsinə və sərhəddən kənarda xidmət təminatçılarına bilavasitə müraciət edilməsinə əvvəlcədən müstəqil inzibati orqan və ya məhkəmə orqanı tərəfindən təsdiq

edilməklə zərurət və uyğunluq əvvəlcədən ciddi qiymətləndirilməklə "sərhədlər üzərindəki xidmət təminatçılarına birbaşa mühafizə əmrləri verməyə və göndərməyə icazə verilə bilər" [545, s. 66].

Təəssüf ki, ənənəvi beynəlxalq əməkdaşlıq formaları uzun və çətin prosedurları əhatə edir və onların müvəffəqiyyəti çox vaxt prosesin tərəflərinin xoş niyyətindən və səriştəsindən asılıdır. Qlobal İnternet şəbəkəsinin miqyası getdikcə daha çox əhatəli olur və elektron sübutlar ənənəvi qarşılıqlı hüquqi yardım çərçivəsindən, o cümlədən qarşılıqlı hüquqi yardımın rəsmi çərçivəsindən və strukturundan kənara çıxmanı tələb edir. Bəzi beynəlxalq təşkilatlar tələb olunan məlumatları qeyri-rəsmi şəkildə təqdim edirlər, məsələn İnterpol çərçivəsində plandankənar məlumatların verilməsi və ya könüllü olaraq məlumatları vermək mümkündür.

Budapeşt Konvensiyasının 35-ci maddəsi kompüter sistemləri və məlumatları ilə bağlı olan cinayətlər üzrə təxirəsalınmaz yardım göstərilməsinin təmin edilməsini və ya cinayətlərlə bağlı elektron sübutların toplanılması üçün fasiləsiz fəaliyyət göstərən əlaqə mərkəzinin olmasını müəyyən edir və tərəflərin qanunvericiliyində və təcrübəsində digər hərəkətlərin də yerinə yetirilməsi nəzərdə tutulur, bu digər hərəkətlərə texniki məsləhətlərin verilməsi, məlumatların təhlükəsizliyinin təmin edilməsi, sübutların toplanması, hüquqi yardım göstərilməsi, şübhəli şəxsin yerinin müəyyən edilməsi də daxildir.

Aparılan araşdırmaların nəticələrini təhlil edərək belə nəticəyə gəlirik ki, elektron sübutların istifadəsi dövlətlər arasında hüquqi yardım göstərilməsinin həm də yalnız kompüter sistemləri ilə əlaqəli olan cinayətlər üzrə deyil, həm də beynəlxalq sənədlərlə nəzərdə tutulan digər cinayətlər üzrə də yeni, daha təsirli bir vasitəsidir. Bu cür yardım cinayətlərin istintaqının və açılmasının tezliyi, operativliyi üçün şərait yaradır. Digər bir üstünlük, bəzən sorğuların sonradan sorğu edilən ölkənin mərkəzi orqanlarına göndərilməklə birbaşa sorğu edilən dövlətin müvafiq səlahiyyətli orqanlarına göndərilə bilməsidir. Sorğuların elektron şəkildə cavablandırılması da

sorğuların icra müddətinin tezləşdirilməsinə kömək edir. İndiki qloballaşma, İnternet sistemlərinin və şəbəkələrinin mövcud ümumi əhatəliliyi dövründə plandankənar məlumat institutu dövlətlər arasında hüquqi yardım göstərilməsi institutunun modernləşdirilməsinin başqa bir üsuludur.

Cinayət mühakimə icraatının modernləşdirilməsi çərçivəsində sübutların toplanması və prosessual sənədlərin tərtib edilməsi və istifadəsi prosedurunun sadələşdirilməsi üçün cinayət işinin elektron formasının tətbiq olunmasına başlanılmışdır, yəni cinayət işinin həyata keçirilməsi üçün qanunvericilik və prosessual əsasları olan ənənəvi kağız formasından imtina edilir. İnterpol, Avropa Şurası, Avropa əlaqə mərkəzləri şəbəkəsi, Europol, Eurojust, Cinayət işləri üzrə Avropa Şəbəkəsi kimi ayrı-ayrı beynəlxalq təşkilatların təcrübəsi, Budapeşt Konvensiyası üzrə kompüter sistemlərindən və ya məlumatlardan istifadə edilməsi ilə əlaqədar cinayət işlərinin istintaqının və araşdırılmasının aparılmasında təxirəsalınmadan kömək göstərilməsinin təmin edilməsi və cinayətlərə dair elektron sübutların toplanılması məqsədilə əlaqə məntəqələrinin yaradılması dövlətlər arasında hüquqi yardımın da elektron formasının yaradılmasının mümkünlüyünü proqnozlaşdırmağa imkan verir.

Cinayət törətmək üçün İnternetdən istifadə edərkən, ilk növbədə, cinayətkarın eyniləşdirilməsi tələb olunur. İnternetdə ayrı-ayrı əməliyyatların sonunda trafik haqqında məlumatlar, yəni əməliyyatın gedişi haqqında məlumatlar artıq tələb olunmur və iqtisadi mülahizələrdən çıxış edərək İnternet xidmət təminatçıları məlumatların tez silinməsini proqramlaşdırırlar. Buna görə də bir müddət, daha doğrusu istintaq aparılması müddətində məlumatların saxlanılması ilə bağlı sual yaranır. Bəzi dövlətlərdə trafik məlumatlarının silinməsi qanunvericiliklə müəyyən edilmişdir. Məsələn, Aİ-nin "Konfidensiallıq və elektron rabitə vasitələri" 2002/58 / Direktivinin 6-cı maddəsi *"...saxlanılan trafik məlumatlarının ötürülməsi üçün artıq onlara ehtiyac yoxdursa, məhv edilməsini və ya*

anonim edilməsini nəzərdə tutur" [452]. Aİ 2006/24 / Direktivində, *"məlumatların saxlanılması üçün konkret müddətlər - 6 aydan 24 aya qədər müddət"* müəyyən etmişdir [453].

Məlumatların saxlanması Budapeşt Konvensiyası ilə də nəzərdə tutulmuşdur. Konvensiyanın 16-cı maddəsinə əsasən, dövlətlər səlahiyyətli orqanlarına müəyyən kompüter sistemi ilə saxlanılan trafik məlumatları da daxil olmaqla, kompüter məlumatlarının təxirəsalınmadan saxlanılmasına nail olunması üçün, xüsusilə də bu kompüter məlumatlarının itirilməsi və ya dəyişdirilməsi ilə bağlı əsaslar olduqda, göstərişlər vermək imkanı və ya oxşar imkanlar verən tədbirlər görmək hüququ verir. Saxlama müddəti 90 gündən çox ola bilməz. Məlumat məhkəmə qərarı əsasında tələb olunur və bu da təbii olaraq cavab və sorğuların icrası müddətini uzadır. Ona görə də belə sorğuların hüquq-mühafizə orqanlarının, o cümlədən polisin əmri və ya göstərişi əsasında yerinə yetirilməsi operativlik baxımından daha səmərəli olardı. Operativ saxlama səlahiyyətli orqanın göstərişi (qərarı) alındıqdan sonra xüsusi məlumatların silinməməsini təmin edir. Burada araşdırılan işlə əlaqəli məlumatlardan söhbət gedir.

Son onillikdə elektron sübutlara sərhədyanı çıxışla əlaqədar olaraq qarşılıqlı hüquqi yardım institutunun yeni islahatları ilə bağlı müzakirələr aparılır. Mövcud mexanizmlər, o cümlədən cinayət işləri üzrə qarşılıqlı yardım, ərazi prinsipi ilə bağlıdır. Qarşılıqlı hüquqi yardım haqqında yeni müqavilələrin qəbul edilməsi və ya alternativ mexanizmlərlə bağlı təkliflərə rast gəlinir: *"... Ərazi elementinə diqqət yetirilməsi üçün, bu tədbirlər sübutlara sürətli çıxışa üstünlük verir"* [512, s.57-59]. Kristine Qalvagna hesab edir ki, sərhədyanı məlumatlara çıxış kontekstində *"Müşahidə və nəzarət otuz il əvvəl olduğu kimi bu gün də zəruridir. Bu səbəbdən, məlumatlara sərhədyanı çıxışı tənzimləyən hüquqi sənəd insan hüquqlarından diqqətsizliklə məhrum edilməsindən daha çox, onların müdafiəsinə üstünlük verməlidir"* [438, s.84]. Philip J. Pullen "*iyir-*

mi birinci əsrdə informasiya mübadiləsində hüquq-mühafizə orqanlarının tələbatlarının təmin edilməsinə BHY-nin yararlı olmamasını" qeyd edir və daha real alternativ müqavilələrin bağlanılmasını təklif edir [519, s.16-17].

AI çərçivəsində cinayət işləri üzrə hüquqi əməkdaşlıq anlayışı çərçivəsində üç müstəqil komponenti ayırmaq olar: *"institusional komponent daxil olmaqla, cinayət prosesi sahəsində əməkdaşlıq (prosessual əməkdaşlıq); cinayət qanunvericiliyinin uyğunlaşdırılması; cinayətlərin qarşısının alınması"* [153, s.355]. AI-nin fəaliyyəti haqqında Müqavilə cinayət işləri üzrə məhkəmə əməkdaşlığı, hökmlərin və məhkəmə qərarlarının qarşılıqlı tanınması prinsipinə əsaslanır və üzv dövlətlərin qanunvericilik və tənzimləyici müddəalarının yaxınlaşmasını təmin edir.

Səmərəli bir yenilik Avropa istintaq orderidir. O, cinayət işləri üzrə sübutların toplanılması və ya istifadə edilməsi məqsədilə istintaq tədbirlərinin aparılması üçün AI ölkələrindən birində məhkəmə orqanı tərəfindən verilmiş və ya təsdiq edilmiş məhkəmə qərarıdır. Avropa istintaq orderi qarşılıqlı tanınmaya əsaslanır, yəni icra orqanı prinsipcə digər ölkənin sorğusunu tanımalı və icrasını təmin etməlidir. İstintaq tədbirlərinə, məsələn, şahidlərin dinlənilməsi, telefon danışıqlarının dinlənilməsi, gizli araşdırmalar və bank əməliyyatları ilə bağlı məlumatlar daxildir. Avropa istintaq orderi məhkəmə orqanlarına sübutların ənənəvi tələb edilməsi vasitələrinə daha sadə və daha sürətli bir alternativ, praktiki işçilərə sübut əldə etmək üçün vahid standart forma təqdim edir. Dəqiq müddətlər və icraçı dövlət tərəfindən imtina edilməsi üçün məhdud imkanlar müəyyən edilmişdir. *"Avropa istintaq orderi verilərkən və icra edilərkən, ...onun verilməsinin istintaqın məqsədləri üçün zəruri və mütənasib olması haqqında şərtlər nəzərə alınır*" [454].

R (85)10 Tövsiyəsinə əsasən, icra orqanından mümkün olduqda məlumatları 24 saat ərzində saxlamaq kimi müvəqqəti tədbirlərin qəbul edilməsi tələb oluna bilər. Orderə daxil olan məlumatların

toplanılması və ya saxlanılması tədbirlərinin qanuniliyinin, zəruriliyinin və mütənasibliyinin yoxlanılması orderi vermiş dövlətin öz daxili hüquqi standartlarına uyğun olaraq, həmçinin AI-nin Əsas Hüquqlar haqqında Xartiyası aspektində qiymətləndirilməsinin aparılmasına görə məsuliyyət daşıyan məhkəmə orqanlarının vəzifəsidir. *"İnformasiyanı verən hakimiyyətlərə xaricdə öz daxili hüquqi və konstitusion prosedurlarına uyğun olaraq sübutların toplanılması üçün Avropa istintaq orderindən istifadə edilməsi qadağan edilmişdir"* [526, s.4].

Cinayət işləri üzrə elektron sübutların toplanması ilə bağlı xidmət provayderlərinə çıxış həmişə problemli olmuş və indi də problemli olaraq qalmaqdadır. Həm dövlətin öz daxilində yaradılmış, həm də xarici xidmət provayderləri (xüsusi müəssisələri) elektron sübutların təqdim edilməsi, bir sıra təhlükəsizlik və etibarlılıq tədbirlərinin görülməsi üzrə fəaliyyəti cinayət prosesinin məqsədlərinə uyğun olaraq həyata keçirə bilmirlər və ya bununla bağlı müəyyən ixtisasa malik deyillər.

Burada söhbət təsadüfən, bilərəkdən, texniki səbəblərdən sübutların silinməsindən, dəyişdirilməsindən gedir. Bu məsələ ilə bağlı (EU) 2023/1544 direktivinin təklif etdiyi, həm Aİ çərçivəsində, həm dövlətlər çərçivəsində cinayət prosesinə aidiyyəti olan elektron sübutların əldə edilməsi üçün Aİ-də xidmətlər təklif edən bir sıra xidmət provayderləri üçün xidmət göstərdiyi dövlətin ərazisində məcburi hüquqi təmsilçilik – elektron sübutların əldə olunması ilə bağlı hüquqi nümayəndənin təyin olunması məsələsini həll edir. Burada həm üzv dövlətlərdə yaradılmış, həm də kənarda yaradılmış və xidmətlər təklif edən xidmət təminatçıları nəzərdə tutulur.

Digər bir məsələ xidmət provayderinin Aİ-də xidmətlər təklif edib-etmədiyini müəyyən etmək, xidmət provayderinin bir və ya bir neçə üzv dövlətdə fiziki və ya hüquqi şəxslərə öz xidmətlərindən istifadə etmək imkanı verib-vermədiyinin qiymətləndirilməsi

və Aİ ilə əlaqəsinin olub-olmamasının müəyyən edilməsidir. Xidmət təklif edənlər qiymətləndirilərkən bir və ya bir neçə üzv dövlətdə əhəmiyyətli sayda istifadəçilərin mövcudluğu və ya fəaliyyətin bir və ya bir neçə üzv dövləti əhatə etməsi nəzərə alınır. Məhkəmə qərarlarının və sərəncamlarının qəbulu, onlara riayət edilməsi və icrası üçün təyin edilmiş bir qurumun və ya qanuni nümayəndənin olması elektron sübutlarla bağlı riski azaldır və onların əldə edilməsini asanlaşdırır. Cinayət prosesində elektron sübutların toplanması məqsədləri üçün Aİ və milli qanunvericiliyə uyğun olaraq milli orqanların öz ərazisində yaradılmış xidmət provayderlərinə birbaşa müraciət etmək imkanı saxlanılır. Direktiv yalnız cinayət prosesinin məqsədləri üçün elektron sübutların toplanmasına yardım edilməsi üçün xidmət provayderinin nümayəndəsinin təyin edilməsini tənzimləyir.

Şəbəkəyə əsaslanan xidmətlər istənilən yerdən təqdim oluna bilər və müvafiq xidmətin təklif olunduğu ölkədə fiziki infrastruktur, bina və ya işçi heyəti tələb etmir. Buna görə də, müvafiq elektron sübutlar çox vaxt təhqiqat aparan dövlətdən kənarda və ya həmin dövlətdən kənarda yaradılmış xidmət provayderi tərəfindən saxlanılır və bu, cinayət prosesində elektron sübutların toplanması ilə bağlı çətinliklər yaradır.

Elektron sübutların mühafizəsi və toplanması üçün transsərhəd məhkəmə əməkdaşlığı ilə bağlı xüsusi qaydaların təmin edilməsi tələb olunur.

Cinayət prosesində elektron sübutlar üçün Avropa istehsal orderi və Avropa müdafiə orderi mexanizmi milli səlahiyyətli orqanlara belə orderləri birbaşa xidmət təminatçılarına göndərməyə imkan verir. Bir çox hallarda məlumatlar artıq istifadəçinin cihazında saxlanılmır və ya başqa şəkildə emal edilmir, lakin istənilən yerdən girişi təmin edən bulud əsaslı infrastrukturda əlçatan olur. Bu xidmətləri işə salmaq üçün xidmət təminatçılarının yaradılmasına və ya xüsusi yurisdiksiyada serverlərə malik olmasına ehtiyac yoxdur.

(EU) 2023/1543 Qaydası, xidmət provayderinin yaradılmasının və ya məlumatların emalı və ya saxlanması qurğusunun faktiki yerindən asılı olmayaraq orderlərin tətbiqini nəzərdə tutur. Qayda Aİ-də xidmətlər təklif edən xidmət təminatçılarına şamil edilir və Aİ-də təklif olunan xidmətlərə aid məlumatlar üçün yalnız bu Qaydada nəzərdə tutulmuş orderlərin verilməsi mümkündür. Yalnız Aİ-dən kənarda təklif olunan xidmətlər, hətta xidmət təminatçısı Aİ-də yaradılsa belə, bu Qaydanın əhatə dairəsinə daxil edilmir. Qayda, xidmət təminatçıları tərəfindən Aİ-də istifadəçiyə təklif olunan xidmətlərlə bağlı məlumatlardan başqa heç bir məlumatın əldə edilməsinə icazə vermir. Cinayət prosesində sübutların toplanılması üçün ən uyğun xidmət təminatçıları elektron rabitə xidmətlərinin təminatçıları və istifadəçilər arasında qarşılıqlı əlaqəni asanlaşdıran informasiya cəmiyyəti xidmətlərinin xüsusi təminatçılarıdır və bu Qayda ilə əhatə olunurlar. Qaydanın 3-cü maddəsində bir sıra anlayışlara da açıqlıq gətirilmişdir.

Məsələn, "Avropa istehsal orderi" – üzv dövlətin ədliyyə orqanı tərəfindən verilmiş və ya təsdiq edilmiş və elektron sübutların istehsalına göstəriş verən, Aİ-də təyin edilmiş müəssisəyə və ya qanuni nümayəndəyə ünvanlanmış qərar deməkdir. "Avropa mühafizə orderi" – elektron sübutların mühafizəsini əmr edən və üzv dövlətin məhkəmə orqanı tərəfindən verilmiş və ya təsdiq edilmiş qərardır. Məlumatların emalı texniki mənada başa düşülməlidir, yəni məlumatların yaradılması və ya manipulyasiyası kompüter emal gücü vasitəsilə məlumatların istehsalı və ya dəyişdirilməsi üçün texniki əməliyyatlardır.

Xidmət təminatçılarının kateqoriyalarına, məsələn, istehlakçılara və bizneslərə bir-biri ilə ünsiyyət qurmaq imkanı verən onlayn bazarlar və digər hosting xidmətləri, o cümlədən xidmətin bulud hesablamaları vasitəsilə təqdim olunduğu yerlər, habelə onlayn oyunlar, platformalar və onlayn qumar platformaları daxil edilir.

"Elektron sübut" – Avropa istehsal orderi sertifikatının (EPOC) və ya Avropa mühafizə orderi sertifikatının alındığı vaxtda xidmət təminatçısı tərəfindən və ya onun adından elektron formada saxlanılan abunəçi məlumatları, trafik məlumatları və ya məzmun məlumatları deməkdir.

"Abunəçi məlumatları" – xidmət provayderinin onun xidmətlərinə abunəliyi ilə bağlı saxladığı hər hansı məlumat deməkdir.

"Yalnız istifadəçinin identifikasiyası məqsədi ilə tələb olunan məlumatlar" – hüquq-mühafizə orqanları tərəfindən tələb olunduqda və ya məhkəmə orqanları tərəfindən yalnız konkret cinayət təhqiqatında istifadəçinin müəyyən edilməsi məqsədi ilə, IP ünvanları və lazım olduqda müvafiq mənbə portları və vaxt möhürü, yəni tarix və saat, yaxud həmin identifikatorların texniki ekvivalentləri və əlaqəli məlumatlar deməkdir.

"Trafik məlumatları" xidmət provayderi tərəfindən təklif olunan xidmətin göstərilməsi ilə bağlı, bu xidmət haqqında kontekst və ya əlavə məlumat verməyə xidmət edən və xidmət provayderinin informasiya sistemi tərəfindən yaradılan və ya işlənən məlumat deməkdir, məsələn, mənbə və təyinat yeri, mesaj və ya digər qarşılıqlı əlaqə növü, cihazın yeri, tarixi, vaxtı, müddəti, ölçüsü, marşrutu, formatı, istifadə olunan protokol və sıxılma növü və digər elektron rabitə metadataları və abunəçi məlumatlarından başqa, istifadəçinin xidmətə giriş sessiyasının başlaması və dayandırılması, məsələn, istifadə tarixi və vaxtı, xidmətə daxil olmaq və xidmətdən çıxmaq daxildir.

"Məzmun məlumatları" abunəçi məlumatları və ya trafik məlumatlarından başqa, mətn, səs, video, şəkillər və səs kimi rəqəmsal formatda olan hər hansı məlumat deməkdir.

"Fövqəladə hal" 2008/114/EC Direktivinin 2-ci maddəsinin (a) bəndində müəyyən edildiyi kimi, insanın həyatı, fiziki toxunulmazlığı və ya təhlükəsizliyi və ya kritik infrastruktur üçün bilavasitə

təhlükənin olduğu vəziyyət deməkdir. Belə kritik vəziyyət, infrastrukturun pozulmasının və ya məhv edilməsinin əhalinin həyatına, fiziki toxunulmazlığına və ya təhlükəsizliyinə bilavasitə təhlükə ilə nəticələnəcəyi, o cümlədən əhalinin əsas vasitələrlə təmin olunmasına və ya dövlətin əsas funksiyalarının yerinə yetirilməsinə ciddi zərər vurmaqla nəticələnəcəyi halları əhatə edir.

Avropa istehsal orderi müvafiq iş üzrə səlahiyyətli hakim, məhkəmə, müstəntiq və ya dövlət ittihamçısı və ya müvafiq işdə milli qanunvericiliyə uyğun olaraq sübutların toplanmasına göstəriş vermək səlahiyyətinə malik olan, cinayət prosesində təhqiqat orqanı kimi çıxış edən, sənədi verən dövlət tərəfindən müəyyən edilmiş hər hansı digər səlahiyyətli orqan tərəfindən Avropa istehsal orderinin verilməsi şərtlərinin Qaydaya uyğunluğu yoxlanıldıqdan sonra sənədi verən dövlətdə hakim, məhkəmə, istintaq hakimi və ya prokuror tərəfindən təsdiq edilir. Ona artıq ehtiyac olmadıqda, sənədi verən orqan, lazımsız gecikmə olmadan, ünvan sahibini məlumatlandırır və müvafiq Avropa mühafizə orderi əsasında qoruma öhdəliyi dayandırılır.

Elektron kommunikasiyanın tərkib hissəsi kimi ötürülən sənədlərin hüquqi qüvvəsi inkar edilə bilməz və ya Qaydaya uyğun olaraq transsərhəd məhkəmə prosedurları kontekstində yalnız elektron formada olduğuna görə qəbuledilməz hesab edilə bilməz.

(EU) 2023/1543 Qaydası üçüncü dövlətlərə də müraciət edilməsini nəzərdə tutur, buna görə də Qaydada verilən anlayışların orderlərin icra olunmasında mühüm əhəmiyyəti vardır. Qayda Aİ-nin bütün dövlətlərinə aiddir və, əlbəttə, hüquqi yardımla bağlı Aİ ilə müqavilələri olan dövlətlərlə münasibətlərdə də tətbiq edilir. Qaydalar texniki anlayışların izah edilməsi aspektində xüsusi qiymətləndirilməlidir və digər regionlarda da tətbiqi səmərəli olardı.

Telekommunikasiya ilə ötürülən məlumatların tutulması ilə bağlı məhkəmə tapşırıqları məsələləri Avropa Şurasının Nazirlər

Komitəsinin R (85) 10 saylı Tövsiyəsi ilə də tənzimlənir. Sorğuların həyata keçirilməsi ilə bağlı, sorğu edilən dövlətdə tövsiyələrin tətbiq edilməsi, məlumatların verilməsi və verilmiş məlumatlardan istifadə olunması qaydalarının əhatə edilməsi daha ətraflı yanaşmanı tələb edir.

ETS № 030 Avropa Konvensiyasının 14-cü maddəsi müəyyən edir ki, qarşılıqlı yardım haqqında xahişdə bu xahişin predmeti və səbəbi göstərilməlidir. Əgər bu tələbləri telekommunikasiya məlumatlarının ələ keçirilməsinə tətbiq etsək, predmet – telekommunikasiyaların dəqiq təsviri, dinləmə müddəti, səbəb isə belə dinləmənin istintaq üçün zəruriliyi və əhəmiyyətidir.

AİHM-nin presedent hüququ informasiya texnologiyaları ilə bağlı cinayətlərin araşdırılmasında insan hüquqlarına hörmət edilməsinin təminatı standartlarının daha dəqiq tərifini verir. Məhkəmə Kruşlin Fransaya qarşı işində belə bir nəticəyə gəldi ki, *"telefon danışıqlarını dinləmə və danışıqların ələ keçirilməsinin digər formaları şəxsi həyata və yazışmalara ciddi müdaxilədir və buna görə də "qanunda" əsaslandırılmalıdır..."* [422, b.33]. Malone Birləşmiş Krallığa qarşı işində Məhkəmə hesab etdi ki, *"insan onun kommunikasiyalarının ələ keçirilməsini əvvəlcədən görməlidir ki, davranışını uyğunlaşdıra bilsin"* [423, b.55]. Klass və digərləri Almaniyaya qarşı işində AİHM hesab etdi ki, *"...qanun fərdin məlumatlarının necə və nə vaxt hakimiyyət tərəfindən dinlənilməsi riskinə məruz qalacağını qabaqcadan görməsinə imkan verən şəkildə olmamalıdır ki, şəxs öz davranışını dəyişə bilməsin"* [424, b.55]. Bu işdə AİHM-nin 8-ci maddəsindən irəli gələn əsas problem, həmin maddənin 2-ci bəndinin şərtləri ilə həmin müdaxilənin əsaslandırılıb əsaslandırılmamasıdır. 2-ci bənd Konvensiya ilə təmin edilmiş hüquqdan istisna nəzərdə tutduğuna görə, o, məhdudlaşdırıcı şəkildə şərh edilməlidir. Konvensiyaya əsasən vətəndaşlara gizli nəzarət etmək hüququna yalnız demokratik təsisatların qorunması üçün ciddi zərurət yarandıqda icazə verilir.

"Plandankənar məlumatların təqdim edilməsi" və ya "ad hoc" məlumat mübadiləsi Budapeşt Konvensiyasının 26-cı maddəsi ilə müəyyən edilmişdir və könüllü olaraq məlumat verilməsi adlandırılır. Burada söhbət aparılan istintaqın gedişində əldə edilən və məlumatı alan tərəfdə cinayətlərin istintaqı və məhkəmə təqibinin başlanmasına və aparılmasına kömək edəcəyini hesab etdiyi məlumatların ötürülməsindən gedir. Konvensiya hər şeyi məlumatı aşkar edən tərəfin mülahizəsinə buraxır. Hazırda tərəfləri aşkar edilən məlumatları göndərməyə məcbur edən heç bir mexanizm yoxdur. Konvensiyanın başqa bir müsbət müddəası – Konvensiyanın sorğu edən və sorğu edilən tərəflər arasında müvafiq beynəlxalq müqavilələr olmadıqda belə məhdudiyyətlərlə tətbiq edilməsidir.

Alınan plandankənar məlumatlar cinayət işinin açılması üçün də əsasdır. Belə ki, CPM-nin 46.2 və 46.3-cü maddələri fiziki şəxsin və hüquqi şəxsin (vəzifəli şəxsin) və ya KİV-in cinayət barədə məlumatını cinayət işinin başlanılması üçün əsas kimi qəbul edir və müvafiq orqanlar tərəfindən dərhal cinayət işi başlanılmalıdır. Xarici bir yurisdiksiyadan plandankənar məlumatlar əldə etmək birbaşa cinayət işinin başlanmasının səbəblərinə aid deyil. Ancaq hesab edirik ki, onu hüquqi şəxsin məlumatı altında birləşdirmək mümkündür. V.V. Kojokar xarici hüquqi şəxslərin milli qanunvericilik baxımından da hüquqi şəxs sayılmasını göstərir: *"Buna görə də, xarici yurisdiksiyadan və ya hüquqi şəxslərdən gələn məlumatlar cinayət işinin başlanmasına səbəb olur"* [220, s.14]. Bu mənada Kozlovski P.V. ilə həmfikirik ki, *"hüquqi yardım haqqında sorğunun yerinə yetirilməsi, qeyd edilən verbal informasiya sübut növü kimi, verbal (səsli) informasiyaya da aiddir"* [216, s.16–17].

Aşkar edilmiş plandankənar məlumatların göndərilməsi məlumatı aşkar edən tərəfin iradəsindən asılıdır və artıq qeyd edildiyi kimi, məhkəmənin məlumatın təqdim edilməsi üçün məhkəmə sorğusu göndərməsi müddət çərçivəsi ilə bağlıdır. Hesab edirik ki, belə hallarda inzibati yardım və ya polis orqanları arasında yardımın

tətbiqi vaxt məhdudiyyətlərinin tətbiq edilməsinin imkanını aradan qaldıracaq.

Azərbaycan Respublikasının DİN ilə bəzi digər dövlətlərin DİN-ləri arasında əməkdaşlıq haqqında ayrıca razılaşmalar mövcuddur ki, bu da məlumat mübadiləsini nəzərdə tutur. *"MDB dövlətlərinin liderlərinin böyük uğuru terror, separatçı və digər ekstremist fəaliyyətlərə qarşı mübarizədə idarələrarası (MDB-nin üzvü olan dövlətlərin daxili işlər nazirlikləri, müvafiq təhlükəsizlik orqanları və xüsusi xidmət orqanları) razılaşmalar oldu"* [293, s. 378]. Hesab edirik ki, bu müqavilələrdə müəyyən müddəaların tətbiqi yalnız kibercinayətlər üzrə deyil, digər cinayətlər üzrə də pozuntuların aşkar edilməsi və cinayətlərin səmərəli istintaqı üçün plandankənar informasiyanın göndərilməsində və təqdim edilmiş informasiyadan vaxtında istifadə edilməsində müəyyən maneələri aşmağa imkan verəcəkdir.

Aparılan təhlillərin nəticələrini ümumiləşdirərək bildiririk ki, beynəlxalq əməkdaşlığın ənənəvi formaları uzun və yorucu prosedurları nəzərdə tutur, onların müvəffəqiyyəti çox vaxt prosesin tərəflərinin mülahizələrindən asılıdır. Qlobal İnternet şəbəkəsinin miqyasları getdikcə daha əhatəli olur və qarşılıqlı hüquqi yardımın ənənəvi çərçivəsindən, o cümlədən qarşılıqlı hüquqi yardımın rəsmi çərçivələrindən və strukturlarından kənara çıxılmasını tələb edir.

Ələkbərov X.D. cinayətkarlıq üzərində məsafədən nəzarət sisteminin prinsipcə yeni konsepsiyasını *"cinayətkarlıq üzərində proqramı insanın bədəninə implantasiya edilən mikroçipə əsaslanacaq qlobal mövqeləşdirmənin məsafədən nəzarət elektron sisteminin yaradılmasını və dünyada genişləndirilməsini"* təklif edir. X.D. Ələkbərovla razılaşırıq ki, *"ilk baxışda irəli sürülən ideya kökündən qəbuledilməz görünəcək, belə ki, əsas insan hüquq və azadlıqları ilə ziddiyyət təşkil edir, buna görə də ənənəvi hüquqi şüurumuz tərəfindən a priori rədd edilir"* [127, s. 27], çünki elektron məhkəmənin bütün yenilikləri, elektron sübutlar, elektron höku-

mət, azadlığın məhdudlaşdırılmasına məhkum edilmiş şəxslərə elektron nəzarət vasitələrinin tətbiqi əvvəlcə qəbuledilməz idi və indi ümumi anlayışlar hesab olunur.

Belə qlobal sistemlər tətbiq edilməzdən əvvəl və hətta tətbiq edildikdə, ən təsirli əməkdaşlıq formalarından biri bütün cinayətlər və digər pozuntular haqqında plandankənar məlumatların göndərilməsidir. Bunun üçün plandankənar məlumatların göndərilməsinin təkmilləşdirilməsi cinayətkarlıqla mübarizə və hüquqi yardım göstərilməsi haqqında beynəlxalq aktlara və ikitərəfli müqavilələrə müvafiq inzibati orqanlar arasında məlumat mübadiləsinə dair aşkar edilmiş faktlar haqqında plandankənar məlumatların göndərilməsi haqqında statistikanın konvensiya orqanlarına verilməsi və hüquqi yardım göstərilməsi üzrə inzibati tədbirlərin dairəsinin genişləndirilməsinə dair ayrı-ayrı normaların daxil edilməsi tələb olunur.

Hesab edirik ki, Azərbaycan Respublikası CPM-nin 46.2-ci maddəsinə dəyişiklik edilməli və aşağıdakı redaksiyada verilməlidir: Cinayət işinin başlanması üçün səbəb kimi törədilmiş və ya hazırlanan cinayət haqqında fiziki şəxs tərəfindən verilən ərizə, hüquqi şəxsin, o cümlədən hüquqi yardım çərçivəsində xarici dövlətin səlahiyyətli orqanının, (vəzifəli şəxsin) və ya kütləvi informasiya vasitəsinin məlumatları, yaxud bu məlumatların təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən bilavasitə aşkar edilməsi ola bilər.

Azərbaycan Respublikası CPM-nə aşağıdakı məzmunda yeni 137-2 maddəsinin əlavə edilməsini təklif edirik:

"137-2. Kompüter məlumatlarının təxirəsalınmadan saxlanması Cinayət təqibini həyata keçirən orqanlar, xüsusilə də kompüter məlumatlarının itirilməsi və ya dəyişdirilməsi təhlükəsi altında olduğunu hesab etməyə əsaslar olduqda və ya qarşılıqlı yardım çərçivəsində məlumatların axtarılmasını və ya onlara çıxışı təmin edən analoji hərəkətlər, bu məlumatların götürülməsi və ya saxlanılmasının analoji təmin edilməsi haqqında xahiş göndərmək niyyəti olan xarici dövlətin xahişi ilə onun ərazisində kom-

püter sistemində saxlanılan informasiya axınları barədə məlumatlar da daxil olmaqla konkret kompüter məlumatlarının saxlanılmasının operativ təmin edilməsi haqqında sərəncam verirlər.

Şəxs onun sahibliyində və ya nəzarətində olan kompüter məlumatlarının saxlanılmasını, bütövlüyünü və məxfiliyini təmin etməlidir".

4.3. Cinayət işləri üzrə hüquqi yardım göstərilməsində qarşılılıq prinsipi

Qarşılıqlılıq prinsipi əslində kvant mexanikasının, həmçinin elmin mühüm metodoloji və evristik prinsiplərindən biri olan komplementarlıq prinsipinə uyğun gəlir. Qarşılıqlılıq prinsipi bərabərlik, hüquqluluq və qarşılıqlı fayda əsasında müqavilələrin bağlanmasını tələb edən dövlətlərin suveren bərabərliyi prinsipindən qaynaqlanır.

Cinayət ədalət mühakiməsi sahəsində beynəlxalq əməkdaşlıq ilk növbədə beynəlxalq hüququn məzmununu təşkil edən ideyalarda, müddəalarda təsbit olunan müvafiq prinsiplərin köməyi ilə həyata keçirilməlidir. İlk növbədə bunlar dövlətlər arasında bərabərlik və əməkdaşlıq, dövlət suverenliyinə hörmət, dövlətlər və digər subyektlər arasında hüquqi öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipləridir. Bununla yanaşı, "*xüsusi prinsiplər, xüsusən də könüllülük, qanunilik, üçüncü şəxslərin hüquq və mənafelərinə hörmət, qarşılıqlılıq prinsipi mövcuddur"* [584, s. 10].

Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardımın göstərilməsində qarşılıqlılıq prinsipi məsələlərini araşdırarkən bəzi xüsusiyyətlərə diqqət yetirilməlidir. Müqavilələrdə adətən qarşılıqlı yardım və ya əməkdaşlıq sahələri göstərilir. Məsələn, Azərbaycan Respublikasının Baş Prokurorluğu və Ukrayna Baş Prokurorluğu arasında hüquqi yardım və əməkdaşlıq haqqında Sazişdə ölkələr arasında qarşılıqlı hüquqi yardımın əhatə dairəsinə ətraf mühitin mühafizəsi, cinayətlərin araşdırılması, mülki və cinayət işləri üzrə

tapşırıqların icrası, cinayət törətmiş şəxslərin ekstradisiyası və digər mühüm məsələlər daxildir [586].

Azərbaycan Respublikası tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, hüquqi yardım zamanı qarşılıqlılıq prinsipinə əməl olunmasına təminat verir. Qarşılıqlılıq prinsipinin əsas məqsədi hər iki ölkədə qanunun aliliyinə hörmət edilməsidir.

Smirnov M.İ. qarşılıqlı fəaliyyətin təmin edilməsi üçün hüquqi cəhətdən tələb olunan mexanizmin olmaması səbəbindən *"...belə bir prinsipin yalnız ideoloji mahiyyət daşıdığını"* düşünür [583, s.428]. Fikrimizcə, qeyd etmək yerinə düşərdi ki, ölkələr arasında cinayət işləri üzrə hüquqi yardımın göstərilməsi zamanı bu cür qarşılıqlılıq prinsipi öz mahiyyətini bir sıra dövlətlərin hüquqi yardımın göstərilməsi qaydalarını tənzimlədiyi ikitərəfli sazişlərin (müqavilələrin) bağlanılması, cinayət prosesində hüquqi yardımın göstərilməsi, dövlətlər arasında birbaşa əməkdaşlığın və beynəlxalq universal təşkilatlarda (məsələn, İnterpol, BMT və s.) əməkdaşlığın həyata keçirilməsi kimi fəaliyyətlərdə özünü göstərir.

D.V. Şinkeviçin fikrincə, qarşılıqlılıq prinsipi *"müəyyən şərtlər daxilində, problemin həlli üçün uyğun normativ-hüquqi bazası olmayan sahədə əməkdaşlıq edilməsini nəzərdə tutur və dövlət ümid edir ki, gələcəkdə sorğu edən dövlət analoji yardım göstərəcəkdir"* [396, s.428].

"'Qarşılıqlı' – Bir-birinə edilən, birbirinə göstərilən, hər iki tərəfə aid olan. Qarşılıqlı yardım. Qarşılıqlı məhəbbət. Qarşılıqlı münasibət. Qarşılıqlı etimad" dır [57].

"*Qarşılıqlılıq prinsipindən istifadə onun müxtəlif istiqamətlərində, xüsusən də tənzimləmənin məhdud və ya olmadığı yerlərdə beynəlxalq əməkdaşlığın imkanlarını genişləndirir"* [274, s.49].

Dövlətlər arasındakı münasibətlərdə dövlətlərin suveren bərabərliyi prinsipinə əsaslanan qarşılıqlılıq prinsipi beynəlxalq hüququn imperativ normasıdır (jus cogens). "Müqavilələr hüququ haqqında" Vyana Konvensiyasının 53-cü maddəsinə əsasən, beynəlxalq

ümumi hüququn imperativ normasına zidd olan müqavilənin hüquqi qüvvəsi yoxdur. Ümumi beynəlxalq hüququn imperativ norması beynəlxalq dövlətlər birliyi tərəfindən qəbul edilən və tanınan normadır, ondan kənara çıxılmasına yol verilmir, ümumi beynəlxalq hüququn eyni xarakter daşıyan sonrakı norması ilə dəyişdirilə bilər. Dövlətlərin suveren bərabərliyi və əməkdaşlıq prinsipi, xüsusi müqavilələr və digər normativ sənədlər olmadıqda belə, dövlətlərin əməkdaşlıq etməsini nəzərdə tutur. Müqavilə olmadıqda dövlətlər arasında hüquqi yardım göstərilməsi hallarına qarşılıqlılıq prinsipini tətbiq edərək belə bir nəticəyə gəlmək olar ki, dövlətlərin hüquqi yardım göstərilməsi haqqında sorğuları, sorğu edən dövlətin belə sorğuları icra edəcəyi şərti ilə yerinə yetirilməlidir.

BMT-nin "Qarşılıqlı hüquqi yardım haqqında" Nümunəvi Müqaviləsi qarşılıqlı hüquqi yardım sahəsində qanunvericiliyin unifikasiyası üçün böyük əhəmiyyət kəsb edir və *"dövlətlər arasında münasibətlərdə hüquqi yardım göstərilməsi üçün müqavilə-hüquq bazası olmadıqda, hüquqi yardımın qarşılıqlılıq qaydasında göstərilə bilməsini nəzərdə tutur"* [351]. Qarşılıqlılıq prinsipi beynəlxalq hüququn ən qədim prinsiplərindən biridir və demək olar ki, heç bir dəyişikliyə məruz qalmamışdır. Bizə dəyişməz gəlib çatmış ilk prinsiplərdən biridir. Bir çox qədim fəlsəfi və dini təlimlərin də əsas prinsiplərindən biridir, məsələn, Qurani-Kərimin Ğafir surəsində deyilir ki, *"Dua edin, mən də sizə cavab verim"* (Qurani-Kərim 40:60).

Azərbaycan qanunvericiliyi qarşılıqlılıq prinsipindən istifadə etsə də, onun məzmununu açıqlamır. Qarşılıqlılığın müxtəlif tərifləri təkcə elmi ədəbiyyatda deyil, həm də milli normativ hüquqi aktlarda istifadə olunur. CPM-də qarşılıqlılıq prinsipinin (522.1, 524.5.10-cu maddələr) adı çəkilir. Hüquq prinsipi anlayışının müəyyən məcburi qaydalarla və ya universal davranış normaları ilə eyniləşdirilməsi beynəlxalq hüquqda "qarşılıqlılıq prinsipi"nin

məzmununun necə müəyyən edildiyini daha yaxşı anlamağa imkan verir.

Beynəlxalq hüquqda qarşılıqlılıq prinsipi "jus cogens" və ya "məcburi normalar", eləcə də "comitas gentium" kimi anlayışlarla bağlıdır. "Jus cogens" və ya "məcburi normalar" ali hüquqi qüvvəyə malik olan normalardır. Müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasının 53-cü maddəsində deyilir ki, belə bir prinsip bütövlükdə beynəlxalq ictimaiyyət tərəfindən kənara çıxıla bilməyən normalar kimi qəbul edilir və tanınır. Milli qanunvericilikdə "jus cogens" və ya "məcburi normalar" kimi anlayışlar tətbiq olunmadığından, "qarşılıqlılıq prinsipi" hüquq prinsipi kimi qəbul olunmalıdır. "Comitas gentium" və ya beynəlxalq nəzakət doktrinasının əsas ideyası bir dövlətdə əldə edilən hüquqların başqa bir suveren qurumun səlahiyyətinə və ya hüququna xələl gətirmədiyi təqdirdə hər yerdə tanınmasından ibarətdir.

F.A. Brokqauz və İ.A. Efronun Ensiklopedik Lüğətində "*Comitas gentium dövlətlər arasında hüquqi normalarla ciddi şəkildə tənzimlənməyən, lakin qarşılıqlı xeyirxahlığa əsaslanan münasibətlərin məcmusu"* kimi müəyyən edilmişdir [398]. Bu prinsipin transmilli xarakteri və suverenliklə sıx əlaqəsi ümumi məlum olan bir faktdır. Qarşılıqlılıq prinsipinin xeyirxah məqsədlərə xidmət etməsi əsas götürülür, lakin onun mənfi məqsədlərinin olması da mümkündür. Müasir beynəlxalq hüquq mənfi qarşılıqlılıq prinsipinin tətbiqini məhdudlaşdırır; məsələn, IV Cenevrə Konvensiyasının 33-cü maddəsi mülki əhaliyə qarşı, III Cenevrə Konvensiyasının 13-cü maddəsi isə hərbi əsirlərə repressaliləri (əvəzçi çıxma tədbirlərini, bəzən bunu əks tədbirlər də adlandırırlar), yəni bir dövlətin qeyri-qanuni hərəkətlərinə o biri dövlətin cavab verməsini qadağan edir. Bununla belə, beynəlxalq hüquqi yardımda mənfi, neqativ deyil, pozitiv qarşılıqlılıq prinsipinin demək olar ki, bütün dövlətlərin qanunvericiliyində əks olunmasının şahidi oluruq.

Hüquqi yardım haqqında Qanun qarşılıqlılıq prinsipinin adını çəkmir. CPM-nin 488.1-ci maddəsi və Qanun hüquqi yardımın qanunvericilik əsaslarının sırasında beynəlxalq müqavilələri də qeyd edir. Hesab edirik ki, Azərbaycan Respublikası CPM-nin 488.1-ci maddəsinə və Cinayət işlərinə dair hüquqi yardım haqqında Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə hüquqi yardımın qarşılıqlılıq əsasında həyata keçirilməsi barədə əsaslar əlavə edilməlidir. Cinayət işlərinə dair hüquqi yardım (bundan sonra "hüquqi yardım" adlanacaq) və ekstradisiya məsələləri Azərbaycan Respublikasının Konstitusiyası, bu Məcəllə, "Cinayət işlərinə dair hüquqi yardım haqqında" və "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikasının qanunları, digər normativ hüquqi aktlar və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr ilə, beynəlxalq müqavilələr olmadıqda isə qarşılıqlılıq əsasında tənzimlənir.

Özbəkistan Respublikası Ali Məhkəməsinin Plenumunun "Mülki və cinayət mühakimə icraatı sahəsində beynəlxalq əməkdaşlığın bəzi məsələləri haqqında" 2012-ci il Qərarı mülki və cinayət mühakimə icraatı sahəsində *"hüquqi yardımın qarşılıqlılıq prinsipi əsasında göstərilməsinə icazə verir"* [296]. Qarşılıqlılıq prinsipinin əsasən Özbəkistan Respublikasının xarici dövlətlə hüquqi yardım haqqında beynəlxalq müqaviləsi olmadıqda tətbiq olunması nəzərdə tutulur. Lazım gələrsə, Özbəkistan Respublikasının səlahiyyətli orqanı (Ali Məhkəmə, Baş Prokurorluq, DİN, Milli Təhlükəsizlik Xidməti) xarici dövlətin səlahiyyətli orqanına hüquqi yardım üçün müraciət edir və xarici dövlətin səlahiyyətli orqanından daxil olan lazımi prosessual hərəkətləri yerinə yetirmək öhdəliyini götürdüyünü yazılı şəkildə təsdiqləyir.

RF CPM-nin 453-cü maddəsi hüquqi yardım göstərilməsini RF-nın beynəlxalq müqaviləsi, beynəlxalq sazişi və ya qarşılıqlılıq prinsipi ilə əlaqələndirir, qarşılıqlılıq prinsipinin isə Rusiyanın bəzi

hüquq mühafizə orqanları tərəfindən hüquqi yardım göstərilməsi ilə bağlı yazılı öhdəliyi ilə rəsmiləşdirildiyini bildirir.

Kosovo Respublikasının "Cinayət işləri üzrə beynəlxalq hüquqi əməkdaşlıq haqqında" Qanunu Kosovo ilə xarici dövlət arasında *"beynəlxalq müqavilə olmadıqda hüquqi yardımın qarşılıqlılıq prinsipi əsasında həyata keçirilməsini"* müəyyən edir [497].

Belə bir fikir mövcuddur ki, geniş mənada qarşılıqlılıq tələb edən və xahiş edən dövlətlərdə *"iki proses arasında paralellik və ya simmetriya"* vardır [406, s.168].

Müəlliflərin bu fikirləri ilə razılaşa bilərik ki, qarşılıqlılıq prinsipi, hətta ənənəvi yardım göstərilməsi haqqında konkret müqavilələr çərçivəsində belə, problemlər yaradır. Cinayət əməllərinin qarşılıqlı tanınması prinsipinin tətbiq edilməsinə baxmayaraq, ayrı-ayrı problemlər mümkündür. ASEAN-QHYM müvafiq əməlin qarşılıqlı cinayət hesab edilməsi prinsipini müdafiə edir. *"Ancaq belə birləşmə kiber məkanda törədilən transmilli insan ticarətinin məhkəmə təqibi və istintaqı zamanı problemlər yaradır"* [474, s.94].

Qarşılıqlılıq prinsipinin cinayət işləri üzrə hüquqi yardıma tətbiq olunması dövlətlər tərəfindən hüquqi yardımla bağlı tapşırıqların icrasını stimullaşdırır və bu prinsipdən kənara çıxılması hallarının qarşısını alır.

Hesab edirik ki, dövlətlərarası münasibətlərin inkişafının müasir mərhələsində, həmçinin cinayətkarlıqla mübarizənin qloballaşdığı indi dövrdə cinayət işləri üzrə hüquqi yardım göstərilməsinin qarşılıqlılıq prinsipi ilə məhdudlaşdırılması düzgün olmazdı.

Dövlətlər müqavilələrlə bağlı olmadıqda, kəsişən və paralel yurisdiksiyalar problemli olaraq qalır və yenə də siyasi məqamların irəli çıxmasına şərait yaradır. Hesab edirik ki, qarşılıqlılıq prinsipinin daha geniş tətbiq edilməsi də bu problemi müəyyən dərəcədə həll edə bilər. Ancaq yenə də problemlərin həlli yolu normativ tənzimləmədən keçir.

Ölkələrin dövlət orqanlarının fəaliyyətinin, qanunvericiliyinin, siyasətinin, habelə informasiya, tədqiqat və təşkilati-idarəetmə fəaliyyətinin uyğunlaşdırılması qarşılıqlılıq prinsipinin əlamətləridir. Qarşılıqlılıq prinsipinə dövlət orqanlarının qarşılıqlı fəaliyyət mexanizminin təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlıq formalarından səmərəli istifadə, o cümlədən aydın hüquqi tənzimləmə və yeni əməkdaşlıq sahələrinin axtarışı prizmasından baxılmalıdır. Bu istiqamət bir çox problemlərin səmərəli və uğurlu həllinin açarı olmalı və cinayətkarlıqla mübarizədə son məqsədə nail olunmalıdır.

4.4. Dövlətlər arasında cinayət işləri üzrə müqaviləsiz əsasda hüquqi yardım göstərilməsi problemləri

Hal-hazırda bütün dövlətlər hüquqi yardım haqqında çoxtərəfli və ikitərəfli müqavilələrlə əhatə olunmur. Buna görə də, müqavilə əsasında olmayan hüquqi yardım göstərilməsi aktual olaraq qalır. Müqavilələr olmadıqda bəzən xarici məhkəmələrin tapşırıqlarının icrası siyasi iradədən asılıdır, yəni dövlətlər arasındakı dostluq münasibətlərindən, məhkəmə sisteminin demokratikliyinin səviyyəsindən, siyasi baxımdan sorğuların yerinə yetirilməsinin məqsədəuyğunluğundan, cinayətkarlıqla mübarizə prinsiplərinə sadiqlikdən və s. Məsələn, Azərbaycan Respublikasının bu sahədə fəaliyyəti siyasi mülahizələrdən daha üstündür. Belə ki, 2007-ci ilə qədər *"Azərbaycan, əməkdaşlıq edən ölkələrin vəsatətləri əsasında, dini ədavəti qızışdırmaqda və terror aktları törətməkdə şübhəli bilinən 12 nəfəri, o cümlədən "Əl-Qaidə" terror təşkilatının üç üzvünü, "Misir İslam Cihadı"nın 3 fəalını, "Əl-Camaa Əl-İslamiyyə"nin 5 üzvünü ... təhvil vermişdir, eyni zamanda Azərbaycanın xüsusi xidmət orqanlarının məlumatları əsasında 6 terrorçu ... həbs edilmişdir"* [222].

Hesab edirik ki, hüquqi yardım haqqında müqavilələr olmadıqda hüquqi yardımın göstərilməsində cinayətlərin ikiqat tanınması

prinsipinin çevikliyindən çıxış etmək lazımdır. İndi beynəlxalq müqavilələr əsasında ayrı-ayrı dövlətlərin cinayət və cinayət-prosessual qanunvericiliyinin və ya ayrı-ayrı institutlarının inteqrasiyası və unifikasiyası prosesləri gedir. Bu tendensiya Aİ, MDB, ASEAN, Cənubi Afrika İnkişaf Birliyi, Qərbi Afrika Dövlətlərinin İqtisadi Birliyi və Karib hövzəsi ölkələrinin qanunvericiliyində izlənilə bilər. Qarşılıqlı hüquqi yardım haqqında razılaşmalar olmadıqda, xarici məhkəmə orqanlarının sübutların alınması və ötürülməsi ilə bağlı tapşırıqlarının icrası, cinayətlərin ikiqat tanınması olmadıqda belə, əgər tapşırıq məcburi tədbirlərin tətbiqindən getmirsə, təşviq edilməlidir. Digər bir müsbət məqam xarici məhkəmə orqanından bilavasitə alınan tapşırığın icrasının əməkdaşlıq presedenti yaratması və qarşılıqlı hüquqi yardımın gələcək inkişafına kömək etməsidir.

Hüquqi yardım haqqında razılaşma olmadıqda hüquqi yardımın diplomatik yolla göstərilməsi tapşırıqların yerinə yetirilməsi müddəti ilə bağlı problemlər yaradır və daha çox sayda dövlət orqanlarını əhatə edir. Müqaviləsiz əsasda hüquqi yardım göstərilməsi göndərilən və ya alınan sənədlərin təsdiqlənməsi kimi ayrı-ayrı problemlər və çətinliklər yaradır. Buna görə də qarşılıqlı hüquqi yardım qaydasında göndərilən və ya alınan sənədlərin təsdiqlənməsini tələb etməyən BMT-nin "Cinayət ədalət mühakiməsi sahəsində qarşılıqlı hüquqi yardım haqqında Nümunəvi Müqaviləsinin və onun cinayət gəlirlərinə aid Fakultativ Protokolunun" müddəalarının daha geniş və fəal şəkildə təbliği bəzi problemləri aradan qaldıracaq.

Hətta qarşılıqlı hüquqi yardım haqqında müqavilə olsa belə, başqa bir problem təqsirləndirilən şəxslərin ikili vətəndaşlığıdır. Dövlətlərin mövcud regional və digər əsaslarla qruplaşdırılması şəraitində, dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım göstərilməsindəki problemləri aradan qaldırmaq üçün daha yüksək səviyyədə, dövlətlər qrupları səviyyəsində qəbul edilmiş daha ümumi müddəalara, dövlətlərin və ya beynəlxalq təşkilatların iştirakı ilə

çoxtərəfli beynəlxalq müqavilələr səviyyəsində qəbul edilmiş müddəalara əsaslanmaq lazımdır.

Artıq bir neçə regional təşkilat formalaşmaqdadır. Şanxay Əməkdaşlıq Təşkilatının Xartiyası üzvlərin xalqlarının tarixən formalaşmış əlaqələrinə əsaslanan hərtərəfli əməkdaşlığın daha da dərinləşdirilməsini nəzərdə tutur. Xartiya terrorizmə, separatizmə və ekstremizmə, transmilli cinayətkarlığa qarşı mübarizəni, həmçinin hüquq-mühafizə sahəsində əməkdaşlığı əsas məqsəd kimi qarşıya qoyur. Fəaliyyət istiqamətləri içərisində hüquqi informasiya mübadiləsi də qeyd olunur.

Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində qarşılıqlı hüquqi yardım münasibətləri hüquqi cəhətdən formalaşmasa da, yəni konkret normativ sənəd qəbul edilməsə də, bu sahədə addımlar atılır. 2018-ci ildə Çolpan-Ata şəhərində Ədliyyə nazirlərinin altıncı müşavirəsində qəbul edilmiş Birgə Bəyanatda əməkdaşlığın inkişaf etdirilməsinə, mövcud əməkdaşlığın və açıq dialoqun sadələşdirilməsinə inam ifadə olunmuşdur. Müqavilə-hüquq bazasının inkişafının da diqqət mərkəzində olması göstərilmişdir. Üzv dövlətlərin ali məhkəmə sədrlərinin 19 iyun 2019-cu il tarixli Soçi Birgə Bəyanatında "*Baxılmamış işlərin və müddətin azaldılması mühakimə icraatının səmərəliliyinin artırılması üzrə prioritet sahə"* kimi göstərilmişdir [387].

Dövlətlərarası birlik olan BRİKS hələlik tam bir təşkilat kimi formalaşmamışdır, onun rəsmi təsdiq edilmiş normativ aktları yoxdur. Qarşılıqlı yardım göstərilməsi 2011-ci il Sanya sammiti üzrə Bəyanatda da öz əksini tapmışdır. 2014-cü il Fortalez Bəyannaməsi ilə terrorizmə qarşı mübarizəni davam etdirmək əzmi bir daha təsdiq edildi, transmilli mütəşəkkil cinayətkarlığın qarşısını almaq üçün birgə fəaliyyətin labüdlüyü xüsusi bildirildi. BRİKS formalaşma ərəfəsində olsa da, gələcəkdə qarşılıqlı hüquqi yardım sahəsində əməkdaşlıqla bağlı ilk bəyanatlar verilmişdir.

Cinayətkarlıqla, xüsusilə onun mütəşəkkil formaları ilə mübarizə sahəsində əməkdaşlıq haqqında Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzv-dövlətlərinin hökumətləri arasında əməkdaşlıq haqqında 1998-ci il Sazişi əməkdaşlıq formalarına qarşılıqlı maraq doğuran sahələrdə məlumat və təcrübə mübadiləsi, o cümlədən transmilli cinayətlərdə mübarizədə iştirak etmək, cinayət təşkilatlarına qarşı əlaqələndirilmiş fəaliyyətin planlaşdırılması və həyata keçirilməsi, cinayət təqibindən gizlənən və ya cinayət cəzasından yayınan şəxslərin verilməsi və s. məsələləri müəyyən etmişdir. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı iqtisadi problemlərin həllinə yardım edilməsini və bu sahədə əməkdaşlığı nəzərdə tutsa da, göründüyü kimi hüquqi məsələlərdə də əməkdaşlığa diqqət yetirir. Əlbəttə, hələlik qarşılıqlı hüquqi yardım barədə normativ sənədlər olmasa da, ayrı-ayrı sənədlərdə gələcək qarşılıqlı hüquqi yardımın elementlərini görmək mümkündür.

Amerikalararası Təşkilat səviyyəsində hüquqi yardım məsələləri daha detallı inkişaf etdirilmişdir. Belə ki, "Roqatori məktublar üzrə", "Roqatori məktublar üzrə əlavə Protokol", "Xarici hüquqda sübut və məlumatlar üzrə", "Xaricdə sübutların alınmasına dair", "Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında" Amerikalararası Konvensiyalar qəbul edilmişdir. Hüquqi yardımın daha geniş həcmi nəzərdə tutulmuşdur; məsələn, digər çoxtərəfli və ikitərəfli müqavilələrdə rast gəlinməyən bəzi müddəalar göstərmək olar.

Cinayətkarlığın müasir transmilli xarakteri bir neçə dövlətin ərazisində ayrı-ayrı cinayət əməllərinin törədilməsi, cinayətlərin iştirakçılarının vətəndaşlığı və vətəndaşlıq mənsubiyyətinin müxtəlifliyi, cinayətlərin sübutlarının müxtəlif dövlətlərin ərazisində olması ilə şərtləşir. Belə şəraitdə bu cinayətlər üzrə ədalət mühakiməsinin həyata keçirilməsi müvafiq dövlətlərin mümkün olan ən geniş əməkdaşlığını tələb edir. Cinayət işləri üzrə hüquqi yardım göstərilməsi məsələlərində beynəlxalq əməkdaşlıq dövlət tərəfindən yüksək səviyyədə həyata keçirilməsini tələb edən öhdəlikdir.

Təcrübə göstərir ki, hüquqi yardım göstərilməsi və ya hüquqi yardımın hüdudlarından kənara çıxan ayrı-ayrı xahişlərin yerinə yetirilməsi ilə bağlı müqavilələr və ya konvensiyalarla bağlı olmayan dövlətlər arasında müəyyən problemlər yaranır.

Dövlətlər arasında əməkdaşlıq çoxtərəfli və ikitərəfli müqavilələr çərçivəsində həyata keçirilir, lakin belə müqavilələrin olmaması digər əməkdaşlıq formalarından istifadə olunmasını istisna etmir. Dövlətlər arasında hüquqi yardım BMT Nizamnaməsinin 1-ci maddəsinin 3-cü hissəsində göstərilən dövlətlər arasında əməkdaşlıq sahələrindən biridir və çoxtərəfli və ikitərəfli razılaşmalar olmadıqda da göstərilə bilər. Adətən, müqavilələr olmadıqda dövlətlər arasında hüquqi yardım qarşılıqlılıq prinsipinə uyğun olaraq göstərilir.

Ayrı-ayrı ölkələrin qanunvericiliyi hüquqi yardım haqqında müqavilə olmadıqda məhkəmənin sorğusu əsasında hüquqi yardım göstərilməsini nəzərdə tutur. Məsələn, Kanada Evidence Act (Kanada Sübut Aktı) "Letters Requests (sorğu)" və "Letters Rogatory" (tapşırıq) [410] kimi iki anlayışı fərqləndirir və əgər dövlətlər arasında müqavilə yoxdursa, onu "letters rogatory request" (sorğu tapşırıq məktubu) adlandırır. Kanada qanunvericiliyinə uyğun olaraq, sübutlarla əlaqədar hər hansı qaydalar olmadıqda və tapşırıq Kanada xaricində yerləşən, baxışında mülki, kommersiya və ya cinayət işi olan məhkəmə və ya tribunal tərəfindən göndərildiyi hallarda da Letters rogatory tətbiq edilir. Kanadanın "Cinayət işlərində qarşılıqlı hüquqi yardım haqqında müqavilələrin yerinə yetirilməsini təmin edən" Qanununun 2.1-ci maddəsi «request» anlayışından istifadə edir və ona belə bir tərif verir: *"sorğu sazişə uyğun olaraq təqdim edilən yardım haqqında xahişdir"* [409].

P.F. Sutherland "letter of request" və "letter rogatory" ifadələrinin mahiyyətcə eyni mənada işlənməsini göstərir [516, s.784]. İfadələr bir-birini qarşılıqlı əvəz edirlər. Ancaq dövlətlərin formalaşmış təcrübəsinə əsasən, qarşılıqlı hüquqi yardım göstərilməsi

haqqında müqavilə olmadığı təqdirdə "letter rogatory" istifadə olunur. "Letter of request" bir yurisdiksiyanın məhkəməsinin və ya hakimiyyətinin hüquqi yardım üçün başqa bir yurisdiksiyanın məhkəməsinə və ya hakimiyyətinə formal sorğusu zamanı həm mülki, həm də cinayət işlərində istifadə olunur və dövlətlər arasında nəzakət əsasında icra edilir.

"Mülki və ticarət işləri üzrə xaricdə sübutların əldə edilməsi haqqında" Haaqa Konvensiyası və Yaponiyanın "İstintaq və digər əlaqəli məsələlərdə beynəlxalq yardım haqqında" Qanunu "sorğu" (request) anlayışından istifadə edir. ETS № 030 Avropa Konvensiyasının II fəsli "Letters rogatory" adlanır.

ETS № 030 Avropa Konvensiyası hüquqi yardımı şahid ifadələri və ya maddi sübutların və s. verilməsi məqsədilə sorğu göndərən dövlətin orqanlarının tapşırıqları ilə əlaqələndirir.

Böyük Britaniya və İordaniya Krallığı arasında 2013-cü il Sazişinə [568] əsasən yardım dövlətlərin daxili qanunvericiliyinə uyğun olaraq, sorğunun predmeti olan əməlin cəzalandırılmalı olmasından asılı olmayaraq göstərilir. Əgər xahiş sübutların axtarışı və üzərinə həbs qoyulması, cinayətdən əldə edilən gəlirlərin məhdudlaşdırılması və ya müsadirə edilməsi ilə bağlıdırsa, sorğu edilən dövlət öz daxili qanunvericiliyinə uyğun olaraq yardım göstərir.

Aİ ilə ABŞ arasında "Ekstradisiya və qarşılıqlı hüquqi yardım haqqında" 2010-cu il Sazişi [399] yardım haqqında müddəaların məhdudlaşdırılması zamanı hər iki dövlətin qanunvericiliyinə əsasən cəzalandırılmanın da adını çəkir.

ETS № 030 Avropa Konvensiyasının 5-ci maddəsi üzv dövlətlərin əmlakın axtarılması və ya müsadirə edilməsi ilə bağlı tapşırıqların yerinə yetirilməsi hüququnu özündə saxlaya bilməsini nəzərdə tutmuşdur: a) cinayət hər iki dövlətin qanunvericiliyinə əsasən cəzalandırılan əməl olmalıdır; b) cinayət sorğu edilən ölkədə cinayət kimi və bu cinayət üzrə cinayətkarın verilməsi nəzərdə tutulmalıdır.

Hətta ikitərəfli hüquqi yardım müqavilələri bəzən diplomatik yolla və ya diplomatik kanallarla mərkəzi orqanlar vasitəsi ilə yardım göstərilməsini də nəzərdə tutur. Məsələn, Azərbaycan və Bolqarıstan arasında 1995-ci il Müqaviləsi mərkəzi orqanlardan başqa münasibətlərin diplomatik yolla həyata keçirilməsinə icazə verir. Azərbaycan Respublikası və Ərəb Əmirlikləri arasında 2006-cı il Müqaviləsi müəyyən edir ki, bu müqavilənin məqsədləri üçün tərəflər mərkəzi orqanlar vasitəsilə diplomatik yolla məlumatlandırılırlar. Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında "Təslim etmə haqqında" 2005-ci il Müqaviləsinə əsasən, bu Müqavilənin məqsədləri üçün tərəflər bir-biriləri ilə təyin etdikləri orqanlar vasitəsilə, bu Müqavilədə başqa bir prosedur müəyyən edilmədiyi təqdirdə, göstərilən təyinatadək diplomatik kanallar vasitəsilə əlaqə qururlar. Cinayət işləri ilə bağlı Azərbaycan Respublikası və Mərakeş arasında 2011-ci il tarixli Müqavilənin 12-ci maddəsi müəyyən edir ki, qarşılıqlı hüquqi yardım haqqında sorğular Ədliyyə Nazirliyi tərəfindən digər tərəfə göndərilir [5, s.291]. Bu müqavilənin müddəaları diplomatik kanallarla ünsiyyətə mane olmur.

Lakin cinayət işləri üzrə hüquqi yardım haqqında müqavilələrin əksəriyyətində mərkəzi ünsiyyət orqanları müəyyən edilir və ya bəzi hallarda başqa bir dövlətin müvafiq orqanlarına birbaşa müraciətlər nəzərdə tutulur. Məsələn, RF ilə Anqola Respublikası arasında 2006-cı il Müqaviləsi mərkəzi orqanlar vasitəsilə əlaqəni nəzərdə tutur. "Ekstradisiya haqqında" Avropa Konvensiyasının 1978-ci il Əlavə Protokolunun 5-ci maddəsinə əsasən, hüquqi yardım məsələləri üzrə məlumatlar Ədliyyə Nazirliyi vasitəsi ilə həyata keçirilir, lakin diplomatik kanalların istifadəsi istisna edilmir.

Cinayət işləri üzrə hüquqi yardım göstərilməsi həm beynəlxalq istintaq tapşırıqlarının xaricə göndərilməsini, həm də oxşar xarici tapşırıqların yerinə yetirilməsini əhatə edir. Müqavilələrin əksəriyyəti hüquqi yardımın sorğu edilən ölkənin qanunvericiliyində nəzərdə tutulmuş prosessual və digər hərəkətlərin həyata keçirilməsi

yolu ilə göstərilməsini nəzərdə tutur: sənədlərin təqdim edilməsi, tərtib edilməsi və verilməsi, axtarış aparılması, maddi sübutların götürülməsi, ələ keçirilməsi və verilməsi, ekspertiza keçirilməsi, tərəflərin, təqsirləndirilən şəxslərin, şahidlərin, ekspertlərin dindirilməsi, cinayət işinin qaldırılması, cinayət törətmiş şəxslərin axtarılması və verilməsi və s.

Azərbaycan Respublikasının ikitərəfli müqavilələrinin və dövlətdaxili qanunvericiliyinin təhlili göstərir ki, xarici dövlətlərin tapşırıqlarının yerinə yetirilməsi zamanı sorğu edən ölkənin nümayəndəsinin iştirakı nəzərdə tutulmamışdır. Azərbaycan Respublikası CPM-nə əsasən, onlar cinayət prosesinin iştirakçısı deyillər və cinayət işlərinin istintaqına buraxıla bilməzlər, lakin məhkəmə baxışı açıq şəkildə aparılırsa, xarici nümayəndələrin iştirakına icazə verilir. Hüquqi yardım haqqında Qanunun 5.3-cü maddəsi sorğunun icrasında onu göndərən dövlətin rəsmi nümayəndələrinin icrada iştirak edə bilməsini nəzərdə tutmuşdur. Azərbaycan Respublikasının hüquqi yardım haqqında ikitərəfli müqavilələrində məhkəmə sorğusu icra edilərkən *"sorğu edən tərəfin və ya iş üzrə tərəflərin nümayəndələrinin iştirakı və ya yardım göstərməsi"* nəzərdə tutulur (Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında 1995-ci il Müqaviləsinin 4-cü maddəsinin 2-ci hissəsi) [5, s.97]; Azərbaycan Respublikası ilə Gürcüstan arasında Müqavilənin (1996) 10-cu maddəsinin 1-ci bəndi [5, s.147]. Hüquqi yardım müqavilələri iştirak etmənin və yardımın sərhədlərini aydınlaşdırmır. Hüquqi yardımın bütün növlərinin yerinə yetirilməsi milli qanunvericiliyə, əldə edilmiş sübutların qanuniliyi və həqiqiliyi, mümkünlüyü və aidiyyəti prinsiplərinə dəqiq riayət edilməsini tələb edir (CPM-nin 125-ci maddəsi). Cinayət prosesinin prinsip və müddəalarına əsaslanaraq hesab edirik ki, iştirak yalnız müstəntiqin diqqətini müəyyən məqamlara yönəltmək və ya cəlb etməklə məhdudlaşır, kömək isə sorğu edilən dövlətin qanunvericiliyinə uyğun olaraq

müvafiq prosessual və digər hərəkətlərin keçirilməsi zamanı müvafiq qanunvericilik aktlarının, texniki yardımın və s. təqdim edilməsindən ibarətdir və Azərbaycan Respublikasının qanunvericiliyinə əlavə və dəyişikliklərin edilməsini tələb edir.

"Xarici rəsmi sənədlərin leqallaşdırılması tələbini ləğv edən" 1961-ci il Haaqa Konvensiyası xarici sənədin həqiqiliyini yoxlamaq qaydalarını müəyyən edir, yəni rekvizitləri, vəzifəli şəxsin imzası, möhür və s. Şübhə yarandığı təqdirdə sorğu edilən tərəf həqiqiliyinin yoxlanılması tələbi ilə dövlətinin sorğu edən dövlətdəki konsulluğuna və ya diplomatik nümayəndəliyinə müraciət edir. Həqiqilik bu sənədə apostil — xüsusi möhür vurulması yolu ilə təsdiq edilir. Azərbaycan Respublikası Haaqa Konvensiyasının iştirakçısıdır və Konvensiya çərçivəsində digər dövlətlərdən gələn rəsmi sənədlərin leqallaşdırılmasını qarşılıqlı surətdə tələb etmir. Məhkəmə sənədləri rəsmi sənədlərə daxil edilmişdir.

Cinayət işlərinin istintaqı və məhkəmə baxışı zamanı xarici dövlətlərdən alınan sənədlər RF CPM-nin 74-cü və Azərbaycan Respublikası CPM-nin 124-cü maddələrinin ümumi müddəaları əsasında cinayət prosesi iştirakçılarının vəsatəti ilə yoxlanıla bilər. RF CPM-nin 75-ci maddəsinə və Azərbaycan Respublikası CPM-nin 125.1-ci maddəsinə əsasən, sübutların həqiqiliyi, yaranma mənbəyi və əldə edilməsi halları ilə bağlı şübhələr olmamalıdır. Belə şübhələr yaranarsa, cinayət prosesinin iştirakçıları sənədlərin yoxlanılması üçün müraciət edə bilərlər ki, bu da leqallaşdırma yolu ilə həyata keçirilir.

Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin VI Fəsli ilə uyğun olaraq [13] konsul konsulluq dairəsinin dövlət orqanlarının iştirakı ilə tərtib edilmiş və ya bu orqanlardan çıxan sənədləri və aktları leqallaşdırır.

Cinayət işləri üzrə hüquqi yardım haqqında müqavilə olmadıqda, xarici dövlətin ədliyyə orqanları diplomatik orqanlar vasitəsilə Azərbaycan Respublikasının orqanlarına müraciət edirlər. Sorğu

edilən dövlətin məhkəmə orqanları öz dövlətlərinin Xarici İşlər Nazirliyinə, Xarici İşlər Nazirliyi isə öz növbəsində səfirliyi və ya konsulluğu vasitəsilə digər dövlətin Xarici İşlər Nazirliyinə müraciət edir. Xarici İşlər Nazirliyi qanunun tələblərinə uyğun olaraq icra olunması barədə xahişlə müvafiq mərkəzi quruma müraciət edir. Bu vəziyyətdə bütün sənədlər konsulluq leqallaşdırılması prosedurundan keçməlidir.

Bəzi hallarda xarici məhkəmələrin tapşırıqlarının icrası siyasi iradədən, yəni dövlətlər arasındakı dostluq münasibətlərindən, hüquq sisteminin demokratik səviyyəsindən, siyasi baxımdan tapşırıqların icrasının məqsədəuyğunluğundan və s. asılıdır. Bu problemlər müqavilə əsasında hüquqi yardımın göstərilməsi üçün də xarakterikdir. Bu cür meylləri cinayətkarların təhvil verilməsi zamanı izləmək olar. Məsələn, RF Baş Prokurorluğunun məlumatına görə, ABŞ on il ərzində təxminən 20 cinayətkarı Rusiyaya təhvil verməkdən imtina etmişdir [204]. RF DİN-nin rəsmi nümayəndəsinin fikrincə, *"ABŞ RF-nın gizli terror qruplaşmasının lideri İlyas Əhmədovun və xüsusilə təhlükəli cinayətkar olan Tamaz Nalbandovun ekstradisiyası ilə bağlı müraciətlərinə məqsədyönlü olaraq etinasızlıq göstərir. Onların hər ikisi on ildən artıqdır ki, beynəlxalq axtarışdadır və eyni zamanda ABŞ-da sərbəst yaşayırlar"* [205].

Digər problem təqsirləndirilən şəxslərin ikili vətəndaşlığıdır. Məsələn, YUKOS neft şirkətinin keçmiş ən böyük səhmdarı Leonid Nevzlin qətllər törətməkdə və qətl cəhdlərində günahlandırılaraq qiyabi olaraq ömürlük həbs cəzasına məhkum edilmişdi, lakin 2008-ci il avqustun 1-də Moskva Şəhər Məhkəməsi Nevzlinə ömürlük həbs cəzası verdi və ondan zərərçəkmişlər üçün 5,5 milyon rubldan çox kompensasiya alınmasını qərara aldı. Leonid Nevzlin 2003-cü ilin iyunundan İsraildə yaşayır. 2003-cü ilin noyabrında vətəndaşlıq almışdır. *"May ayında İsrail məhkəməsi Nevzlinin İsrail vətəndaşlığından məhrum edilməsindən və onun RF-na təhvil verilməsindən imtina etdi"* [287].

"Cinayət ədalət mühakiməsi sahəsində qarşılıqlı yardım haqqında" Nümunəvi Müqavilə və onun "Cinayət gəlirlərinə dair" Fakultativ Protokolu yardım göstərilməsi haqqında xahiş və onu təsdiq edən sənədlərin, həmçinin belə sorğuya cavab olaraq verilən sənədlərin və ya digər materialların təsdiq edilməsinin tələb edilmədiyini nəzərdə tutur.

Qanunvericilik müstəntiqin tapşırığı anlayışından birbaşa istifadə etməməsinə baxmayaraq, müstəntiqin başqa yerdə olan digər müstəntiqə müəyyən prosessual hərəkətləri yerinə yetirməsi üçün tapşırıq verməsinə yol verir. Bir müstəntiq tərəfindən digər müstəntiqin tapşırıqlarının icrasının əsasları Azərbaycan Respublikası CPM-nin 64.1; 85.4.7; 216.3.1-ci maddələrində verilmişdir, ümumi şəkildə qüvvəyə minmiş qərarların icrasının məcburi olması, prosessual hərəkətlərin yerinə yetirilməsinin digər müstəntiqə tapşırılması nəzərdə tutulur.

Qanun digər ərazi dedikdə, dövlətin başqa bir hissəsini, yəni cinayət işinin başlanıldığı yeri deyil, digər ərazisini nəzərdə tutur. RF CPM-nin 38.2(4) və 152-ci maddəsinin 1-ci bəndi təhqiqat orqanı və müstəntiq tərəfindən icraatında olmayan cinayət işi üzrə digər müstəntiqin yazılı tapşırığı olduqda istintaq hərəkətlərinin aparılmasına icazə verir.

ABŞ qanunvericiliyi hüquqi yardım göstərilməsi haqqında müvafiq beynəlxalq müqavilə olmadıqda "rogatory (tapşırıq) və request (sorğu) terminlərindən" sinonim kimi istifadə edir və başqa bir maraqlı məqam Birləşmiş Ştatların məhkəmələrinin bilavasitə xarici və ya beynəlxalq tribunala, məmura və ya agentliyə müraciət etməsi və eyni qaydada cavab ala bilməsidir [574, s.422].

T. Markus Funk, Partner, Perkins Coie hesab edir ki, *"cinayət mühakimə icraatı üçün iki əsas sübut əldə etmək vasitəsi vardır: qarşılıqlı hüquqi yardım haqqında müqavilə (QHYM) və rogatory məktubu. Mülki işlərdə yalnız rogatory məktubu istifadə olunur"* [506]. Rogatory məktublarından əsasən qarşılıqlı hüquqi yardım

haqqında müqavilələrdə nəzərdə tutulan prosedurlara çıxışı olmayan qeyri-hökumət iddiaçıları istifadə edirlər. Rogatory məktubu prosesi qarşılıqlı hüquqi yardım haqqında müqavilələrdə nəzərdə tutulan prosedurlar vasitəsi ilə sübut əldə edilməsindən daha az formal xarakter daşıyan bir prosesdir, lakin onun icra edilməsi daha uzun müddət tələb edə bilər.

Mark Henselin fikri bu hissədə maraqlıdır ki, *"... sorğulara cavab vermək sorğu edən ölkənin daxili qanunvericiliyinin bir hissəsi kimi mövcuddur"* [500, s.11]. Hesab edirik ki, bəzi konkret hallarda münasibətlərin tarixindən, cinayət işinin xüsusiyyətlərindən və yardım mövzusundan çıxış edərək, sorğunu icra edən dövlətin qanunvericiliyinin nəzəri müddəaları tətbiq edilməlidir.

Müqaviləsiz əsasda hüquqi yardım göstərilməsi ayrı-ayrı problemlər yaradır ki, bunlardan bəziləri müqavilə əsasında hüquqi yardım göstərilməsinə də xasdır. Cəzalandırılmanın ikiqat tanınması prinsipi hüquqi yardımın göstərilməsinin demək olar ki, bütün hallarına şamil olunur. Hesab edirik ki, hüquqi yardım göstərilərkən, hüquqi yardım haqqında razılaşmalar olmadıqda, cəzalandırmanın ikiqat tanınması prinsipinin elastikliyindən çıxış etmək lazımdır. Hazırda beynəlxalq müqavilələr əsasında ayrı-ayrı dövlətlərin cinayət qanunvericiliyinin inteqrasiyası və unifikasiyası prosesləri gedir. Bunun sübutu cinayət tərkiblərinin təsviri verilən terrorizmlə mübarizə haqqında konvensiyalardır [67,68,99]. Bu tendensiyanı Aİ və ya MDB ölkələrinin qanunvericiliyində izləmək olar.

Ayrı-ayrı dövlətlərin qanunvericiliyinin təhlilindən göründüyü kimi, hüquqi yardım göstərilməsi haqqında müqavilə olmadıqda, söhbət məcburi tədbirlərin tətbiqindən gedirsə, onların həyata keçirilməsi sorğu edilən dövlətdən asılıdır. Buna görə də, qarşılıqlı hüquqi yardım haqqında razılaşmalar olmadıqda, xarici məhkəmə orqanlarının sübutların alınması və ötürülməsi ilə bağlı tapşırıqlarının icrası, tapşırığın bağlı olduğu cinayətin ikiqat tanınması olmasa belə, təşviq edilməlidir.

Qarşılıqlı hüquqi yardım haqqında müqavilə olmadığı təqdirdə xarici məhkəmə orqanından bilavasitə alınmış tapşırığın icrası əməkdaşlıq presedentləri yaradır və qarşılıqlı hüquqi yardımın daha da inkişaf etdirilməsinə kömək edir.

Hüquqi yardım müqaviləsi olmadığı təqdirdə diplomatik vasitələrlə hüquqi yardım göstərilməsi, müqavilə bağlılığı olduğu hallarda sorğuların yerinə yetirilməsindən daha uzun vaxt tutur və daxili təlimatlarla bağlı olan daha çox orqanı əhatə edir və s. Digər bir tendensiya müəyyən regionların dövlətləri və dövlətlər qrupları arasında hüquqi yardım göstərilməsi haqqında çoxtərəfli müqavilələrin bağlanılmasıdır. Belə müqavilələr ASEAN, Cənubi Afrika İnkişaf Birliyi, Qərbi Afrika Dövlətlərinin İqtisadi Birliyi, Karib hövzəsi ölkələri və s. ölkə qrupları çərçivəsində bağlanılmışdır.

Dövlətlərin regional və digər əsaslarla mövcud qruplaşması şəraitində dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım göstərilməsindəki problemləri aradan qaldırmaq üçün dövlətlər arasında hüquqi yardım göstərilməsi ilə bağlı daha ümumi çoxtərəfli müqavilələrin bağlanması təcrübəsindən çıxış edərək, dövlətlərin və ya beynəlxalq təşkilatların iştirakı ilə çoxtərəfli beynəlxalq müqavilələr səviyyəsində, dövlət qrupları səviyyəsində qəbul edilmiş ümumi müddəalar tətbiq olunmalıdır.

Mübahisəli məsələlərdən biri hüquqi yardım müqavilələri bağlayan dövlətlər arasında yarana bilən yurisdiksiyaların kəsişməsi məsələsidir. Paralel cinayət yurisdiksiyası fərqli vəziyyətlərdə yarana bilər, məsələn, bir ölkənin bayrağı altında açıq dənizlərdə üzən pirat gəmiləri, qeyri-qanuni tibbi araşdırma aparan açıq dənizlərdəki gəmilər, bir dövlətin ərazisində yerləşən və bir neçə dövlətin ərazisində cinayətləri təşkil edən terroristlər və s. Adam Abelsonun bu fikirləri ilə razılaşırıq ki: *"Ərazidənkənar yurisdiksiya cinayət işlərində mülki işlərdən daha çox ziddiyyət yaradır. Bütövlükdə, cinayət sanksiyaları mülki-hüquqi qərarlardan daha ağırdır. Cinayət sanksiyaları da birbaşa münaqişələr yaradırlar ki, dövlətlər də bu*

münaqişələri məhkəmə təqibi/ekstradisiya dilemmasının köməyi ilə həll etməyə məcburdurlar, çünki yalnız bir dövlət eyni zamanda məhkəmə təqibini həyata keçirə bilər" [400, s.107].

Non bis in idem prinsipi ekstradisiya haqqında müqavilələrin əksəriyyətində eyni bir cinayətə görə bir neçə ölkənin ardıcıl məhkəmə təqibini həyata keçirməsini istisna edir, bunun nəticəsində ehtimal olunan cinayətkarın yerləşdiyi ölkə məhkəmə təqibi və ya ekstradisiyaya münasibətdə diskresion hüququn tam təsiri dairəsinə düşür. Adətən, ərazisində cinayət törədildiyi və ya əksər hərəkətlərin edildiyi və ya ən çox ziyan vurulduğu dövlətin qanunu tətbiq olunur. Digər heç də az əhəmiyyətli olmayan məsələ yurisdiksiyanı həyata keçirməkdə maraqlı olan, ərazisində cinayət törədilmiş dövlətin maraqlı olmasıdır. Cinayət iştirakçılarının əksəriyyətinin olduğu yerlə, iştirakçıların başqa bir yurisdiksiyada ifadə verməyə hazır olması, başqa bir yurisdiksiyada əlverişli şərtlərin verilməsi, sübutların toplanması, yerləşdiyi əraziyə çıxışın olması, qəbuledilən olması, əsas istintaq və digər hərəkətləri hansı dövlətin həyata keçirməsi, ittihamın elan olunub-olunmaması və s. ilə bağlı digər suallar da yarana bilər. İstintaqı və məhkəmə təqibini aparan dövlətlə qarşılıqlı hüquqi yardım haqqında müqavilənin mövcudluğu da vəziyyətə təsir edir. Paralel və kəsişən yurisdiksiyalarda əsas məsələ yuxarıda göstərilən müddəaların nisbətidir. Bura cinayətlərin ciddiliyi də daxil edilməlidir, çünki dövlətlər vətəndaşları daha ağır cinayətlər törətdikdə tənzimetmədə maraqlıdırlar.

"Ümumi hüquq ölkələrində "forum non-conveniens" doktrinası tətbiq edilir, bu zaman məhkəmə *"qəbul edir ki, digər forum və ya məhkəmə daha çox uyğundur və işi bu foruma verir. Digər yer işə baxılmasına daha çox uyğun gəlir, məsələn, burada bədbəxt hadisə baş vermişdir və bütün şahidlər burada yaşayır"* [472]. Bir dövlət və ya bir dövlətlər birliyi çərçivəsində bu prinsip təcrübədə uzun müddətdir ki, tətbiq olunur, lakin fərqli hüquq sistemləri olan fərqli dövlətlərin kəsişən yurisdiksiyalarında onun tətbiq edilməsi

nəzəri və praktiki problemlərlə zəngindir.

Məhkəmə yurisdiksiyasının təkrarlanması cinayət işinin iştirakçıları üçün narahatlıq yaradır və bəzən onların hüquq və maraqlarını pozur. Yurisdiksiyaların təkrarlanması halında iştirakçıların fərqli ölkələrə çağırılması da mümkündür.

Fərqli dövlətlərdə mürəkkəb transsərhəd işin ayrı-ayrı epizodları ilə əlaqədar cinayət işlərinin başlanması halları mümkündür. Ancaq gec-tez bu eyni şəxslə bağlı təkrar istintaq və digər prosessual hərəkətlərə səbəb olacaq. Hazırda bütün dövlətlər ikiqat cəzadan imtina edirlər, lakin ikiqat məhkəmə icraatı mümkündür. Avropa Komissiyası "non bis in idem" prinsipinin tətbiqi üçün "Yaşıl kitab" tövsiyələrini işləyib hazırladı*, "tövsiyə olunan addımlardan sonra Avropa həbs orderi"* tətbiq edildi [440, s.11].

Ancaq digər dövlətlər arasındakı məsələ açıq olaraq qalır. Əgər dövlətlər ümumi prinsiplər altında və ya bir təşkilatda birləşməsələr, vətəndaşlıq, hüquq pozucusunun yaşadığı yer, digər yurisdiksiyalarda digər cinayətlər üzrə cinayət işlərinin olması, məhkəmə sistemlərinə etibar, məsələyə siyasi yanaşma zamanı rəhbər tutulan siyasi baxışlarına, milliyyətinə, irqinə və ya analoji ayrı-seçkilik üzrə işgəncə təhlükəsinə görə cinayətkarın verilməməsi, digər yurisdiksiyadan cinayətkarın götürülməsi üçün real imkanların olması, məhkəmə prosesi hüququ və ədalətli məhkəmə araşdırması standartları və s. ilə bağlı problemlər yaranır. Məsələn, BMT-nin "İşgəncələrə əleyhinə" Konvensiyasının tərəfləri şəxsləri işgəncə riski olduğuna inanmaq üçün "əsaslı səbəblərin" olduğu ölkələrə təhvil verə bilməzlər.

Bu baxımdan C.İ.Süleymanovun mühakimələri maraq kəsb edir: *"İşgəncənin İƏK-da formulə edilmiş tərifi mükəmməl deyildir. Belə ki, İƏK işgəncənin əsas elementlərinə qəsdən güclü ağrı və fiziki və ya mənəvi əzablar yetirilməsini aid edir. Bununla birlikdə, müasir elm şiddətli ağrı və ya fiziki və ya zehni əziyyət vermədən məlumat, etiraf əldə etməyə, cəzalandırmağa, qorxutmağa*

və ya məcbur etməyə imkan verən vasitələrə malikdir" [345, s.17].

Paralel yurisdiksiyaların problemləri beynəlxalq tribunalların yaranması zamanı da ortaya çıxmışdır. Beynəlxalq tribunallar yaradılanda adətən əsas cinayətkarların cəzalandırılmasından danışılır. Ciril Lauççi keçmiş Yuqoslaviya və Ruanda üzrə beynəlxalq məhkəmələrin nizamnamələrini təhlil edərək qeyd edir ki, *"əsas cinayətkarlar anlayışı prinsipcə müəyyən edilə bilməz. Belə ki, Nizamnamədə belə bir məhdudiyyətin olmaması, müxtəlif şəxsləri təqsirləndirilən şəxs kimi mühakimə edən tribunalların orqanlarına verilməsinin, cinayət təqibinin məqsədəuyğunluğunu qiymətləndirməkdə tam azadlıq verir"* [326, s.53-54]. Ciril Lauççi ilə razılaşırıq ki, beynəlxalq cinayət tribunalları tərəfindən cinayət təqibinə məruz qalmalı olan şəxslərin seçilməsi sadə uyğunluq meyarına əsaslanır. Bu yanaşma bütün milli cinayət sistemlərinin əsasını təşkil edən cinayət təqibinin məqsədəmüvafiqliyi prinsipinə uyğundur.

Milli CPM bir neçə dəfə "məqsədəuyğunluq" anlayışını tətbiq edir, bir halda bu ifadəni məhkəmə baxışının təxirə salınması ilə bağlı işlədir (CPM-nin 312-ci maddəsi), iş üzrə icraatın mürəkkəbliyini, işə yeni vəkil daxil olduqda onun işin materialları ilə tanış olmasına həsr olunan müddət və s. nəzərə alınmaqla prosesin təxirə salınması tənzim olunur; daha sonra yetkinlik yaşına çatmayan şəxsin azadlıqdan məhrum edilməsinin məqsədəuyğun olmaması (CPM-nin 435.4.3-cü maddəsi), tranzit daşımanın sorğu edilən dövlətin məqsədəuyğun hesab etdiyi üsulla həyata keçirilməsinə razılıq verilməsi ilə bağlı (CPM-nin 501.3-cü maddəsi) işlədilir.

Alimlər hüququn təfsirinin əsas prinsiplərindən biri olaraq məqsədəuyğunluq prinsipini müxtəlif şərh edirlər: *"hüquq yaradıcılığı prinsipi"* [144, s.192-193], *"hüquq yaradıcılığında və hüquq tətbiqində özünü göstərir və xüsusiyyəti ifadə edir"* [141, s.97], *"məqsədəuyğunluq prosessual prinsipi kimi və yalnız prokuror məqsədəuyğunluğun subyektidir"* [122, s.247], *"cinayət-hüquqi prinsip kimi"* [264, s.22], *"cinayət-hüquqi tənzimetmə"* [181,

s.97], *"cinayət hüququnun prinsipi"* [575, s.7-8], *"cinayət-prosessual fəaliyyətin prinsipi"* [131, s.22].

Məqsədəmüvafiqliyi cinayət-prosessual qanunvericiliyin prinsipi hesab edən alimləri dəstəkləyirik. *"Məqsədəmüvafiqliliyi cinayət ədalət mühakiməsinin prinsipi hesab edən alimlər onu sürətləndirmə, proses iştirakçıları üçün rahatlıq və s. ilə əlaqələndirirlər"* [547, s.22], yəni cinayət ədalət mühakiməsinin həyata keçirilməsinin ağlabatanlığını nəzərdə tuturlar. Ancaq məqsədəmüvafiqlik heç də həmişə qısa, operativ məhkəmə baxışına istiqamətlənmişdir deyildir.

"Ağlabatanlıq rasionallığın, məqsədəuyğunluğun nitq ekvivalentidir" [219, s.240]. Alimlər ağlabatanlığı əsasən cinayət təqibinin həyata keçirilməsi müddətləri ilə əlaqələndirirlər. Hesab edirik ki, cinayət təqibində ağlabatanlıq prinsipinin təsiri və təzahürü icra müddətlərindən daha genişdir. Ryabtseva E.V. ilə razılaşırıq ki, *"...cinayət prosesində ağlabatanlıq prinsipi cinayət mühakimə icraatının ağlabatan müddətlərini möhkəmləndirən norma-prinsip kimi və ağlabatan hərəkətlər prinsipi və ayrı-ayrı hüquq normalarının təhlilindən irəli gələn qərarların ağlabatanlığı kimi çıxış edir"* [315, s.223].

Məqsədəmüvafiqliyi cinayət təqibinin ağlabatanlığı baxımından da tətbiq etmək olar, lakin hesab edirik ki, üst-üstə düşən elementlərə baxmayaraq, məqsədəuyğunluq, məsələn, dövlətin ədalət mühakiməsini həyata keçirmək üzrə suveren hüququ ilə bağlı siyasi mülahizələri rəhbər tutarkən, heç də həmişə ağlabatanlığı bildirmir.

"Ədalət prinsipini mühakimə icraatı proseduruna riayət edilməsi kimi qəbul etsək, bu prinsiplə ağlabatanlığın məhkəmə baxışının müddətləri kimi tərkib hissəsi də əhatə olunur, ona əməl edilməməsi ədalət prinsipinin pozulmasına səbəb olur" [316, s.211].

Məqsədəmüvafiqlik, ədalətlilik və ağlabatanlıq prinsipləri tə-

rəflərin kəsişən yurisdiksiyalarda hüquqi yardım göstərilməsi baxımından da əhəmiyyətlidir.

Kəsişən yurisdiksiyaların tənzim edilməsi üzrə addımlar digər dövlətlər arasında və ya dövlətlər qrupu daxilində eyni problemləri həll etmək üçün aktualdır. Aİ-nın "Yurisdiksiya və cinayət prosesində non bis in idem prinsipinin münaqişələri haqqında" Yaşıl kitabında bəzi addımların atılması irəli sürülmüşdür. Bu addımlar digər regionlar və dövlətlər üçün də əhəmiyyətlidir, kəsişən və ya paralel yurisdiksiyaların problemlərinin aradan qaldırılmasına tətbiq edilə bilər. Aİ səviyyəsində Eurojust-un vasitəçilik rolunu öz üzərinə götürməsi nəzərdə tutulurdu, paralel yurisdiksiyalar problemlərinin həlli üçün Avropa həbs orderinin qəbul edilməsi ilə nəticələndi və problemləri aradan qaldırdı. Digər regionlarda və dövlətlər qrupu arasında belə problemlərin həlli üçün əsas məsələ nəzarət orqanının müəyyən edilməsidir.

Hesab edirik ki, dövlətlər cinayət işləri üzrə hüquqi yardım haqqında beynəlxalq müqavilələrlə bağlıdırsa, kəsişən yurisdiksiyalar məsələsi həll edilərkən nəzarət orqanının funksiyasının yerinə yetirilməsini cinayət işləri üzrə hüquqi yardım haqqında çoxtərəfli müqavilələrin orqanlarının üzərinə qoyulması vəziyyətdən çıxış yoludur və bu sahədə əməkdaşlıq üçün presedentlər yaradacaq.

V FƏSİL.
BEYNƏLXALQ MƏHKƏMƏLƏR ÇƏRÇİVƏSİNDƏ HÜQUQİ YARDIM PROBLEMLƏRİ

5.1.Beynəlxalq Cinayət Məhkəməsinin dövlətlərlə hüquqi məsələlər üzrə əməkdaşlıq problemləri

Cinayətkarlıqla mübarizə müasir dövrün qlobal problemlərindən birinə çevrilmişdir və cinayətkarlığın səviyyəsi və əhatə dairəsi genişləndikcə, getdikcə daha çox dövlətin əməkdaşlığını tələb edir. Cinayət mühakimə icraatı sahəsində belə əməkdaşlıq sahələrindən biri də BCM ilə dövlətlərin əməkdaşlığıdır. Belə əməkdaşlığın BCM-nin Statutuna qoşulmaqla və ya BCM ilə bağlanılan müqavilə əsasında həyata keçirilməsi nəzərdə tutulur.

BCM-nin Statutunun 93-cü maddəsi "Beynəlxalq əməkdaşlıq və hüquqi yardım" adlanır. Milli CPM-nin cinayət işlərinə dair hüquqi yardımın göstərilməsi üzrə icraatla bağlı 488.3-cü maddəsinə və Hüquqi yardım haqqında Qanunun 2.5-ci maddəsinə əsasən, hər iki qanunun müddəaları beynəlxalq məhkəmə orqanları ilə əməkdaşlıq məsələlərinə şamil olunmur. Statutun 4-cü maddəsinin 2-ci bəndinə əsasən, *"Məhkəmə bu Statutda nəzərdə tutulduğu kimi öz funksiya və səlahiyyətlərini istənilən İştirakçı dövlətin ərazisində və xüsusi razılıq əsasında hər hansı digər dövlətin ərazisində həyata keçirə bilər"*.

Bəzi ölkələrdə beynəlxalq məhkəmə orqanları ilə münasibətlər də CPM ilə tənzimlənir. Məsələn, RF CPM-nin 53-cü fəsli "Məhkəmələrin, prokurorların, müstəntiqlərin və təhqiqat orqanlarının xarici dövlətlərin və beynəlxalq təşkilatların müvafiq səlahiyyətli orqanları və vəzifəli şəxsləri ilə qarşılıqlı əlaqəsi qaydası haqqında əsas müddəalar" adlanır və müvafiq olaraq 453 və 457-ci maddələr sorğu edən beynəlxalq təşkilatların tapşırıqlarının icrası məsələlərini də tənzim edir.

Statutun 87-ci maddəsinə əsasən, BCM-nin Statutunun iştirakçısı olmayan hər hansı dövlətə xüsusi razılaşma və ya digər müvafiq əsaslarla yardım göstərilməsini təklif edə bilər. Bu dövlət razılaşmaya əsasən BCM-nin sorğularının icrasında əməkdaşlıq etməkdən imtina etdiyi hallarda, BCM bu barədə İştirakçı Dövlətlər Assambleyasına və ya iş Təhlükəsizlik Şurası tərəfindən BCM-ə verilmiş hallarda, Təhlükəsizlik Şurasına məlumat verə bilər.

Statut ümumiyyətlə BCM-ə üzv olan dövlətlər, üzv olmayan dövlətlər və istənilən dövlətlərarası təşkilatlarla hüquqi yardım sahəsində əməkdaşlığı nəzərdə tutur. Belə əməkdaşlıq iki istiqamətdə mümkündür, yəni BCM dövlətlərə və beynəlxalq dövlətlərarası təşkilatlara yardım üçün müraciət edir və dövlətlər və ya bu təşkilatlar özləri yardım göstərilməsinə hazır olduqlarını bildirirlər.

BCM-nin Statutu məhkəmə ilə əməkdaşlıq və məhkəmə yardımına şəxsin həbs edilməsini və məhkəmənin sərəncamına verilməsini (89-cu maddə); sərəncama verilməsi barədə vəsatət verməzdən əvvəl axtarışda olan şəxsin ilkin tutulmasını (90-cı maddə); digər əməkdaşlıq formalarını: şəxslərin və ya predmetlərin eyniləşdirilməsi və yerinin müəyyən edilməsi; and içmə əsasında ifadələrin əldə edilməsi və ekspert və ya ekspertiza rəyləri daxil olmaqla, məhkəməyə zəruri olan sübutların toplanması; istintaqa və ya cinayət təqibinə məruz qalan hər hansı şəxsin dindirilməsi; sənədlərin, o cümlədən məhkəmə sənədlərinin təqdim edilməsi; şəxslərin könüllü olaraq şahid və ya ekspert qismində məhkəmə qarşısında çıxışına yardım edilməsi; şəxslərin müvəqqəti verilməsi; eksqumasiya və dəfn yerləri daxil olmaqla, yerlərə və ya obyektlərə baxış keçirilməsi; axtarışların və həbs qoyulmasının həyata keçirilməsi; rəsmi protokollar və sənədlər də daxil olmaqla protokolların və sənədlərin təqdim edilməsi; zərərçəkmişlərin və şahidlərin müdafiəsi və sübutların qorunması; üçüncü şəxslərin bona fide hüquqlarına xələl gətirmədən sonradan müsadirə etmək məqsədi ilə əldə edilmiş vəsaitlərin, əmlakın və gəlirlərin, habelə cinayət alətlərinin müəyyən

edilməsi, axtarışı, dondurulması və ya müsadirə edilməsi, məhkəmənin yurisdiksiyasına daxil olan cinayətlərin istintaqına və cinayət təqibinə kömək etmək məqsədilə sorğu edilən dövlətin qanunvericiliyi ilə qadağan olunmayan hər hansı digər növ yardımın göstərilməsini aid edir.

BCM dövlətlərlə əməkdaşlıq etmədən fəaliyyət göstərə bilməz, çünki onun özünün icra orqanları yoxdur. BCM qərarlarının icrasında iştirakçı dövlətlərə arxalanır. Keçmiş Yuqoslaviya Cinayət Tribunalının Nizamnaməsinin 29-cu maddəsi sorğuların yerinə yetirilməsi ilə bağlı dövlətlərin qeyd-şərtsiz əməkdaşlıq öhdəliyini nəzərdə tutur. Dövlətlər ilk növbədə humanitar hüququn və erga omnes öhdəliklərinin pozulmasına istinad edərək gecikmədən cavab verməlidirlər. Prosecutor v. Tihomir Blaskic işində qeyd olunur ki, *"29-cu maddə üzv dövlətlərə bütün digər üzvlər qarşısında öhdəlik və ya başqa sözlə, 'erga omnes partes öhdəliyi' qoyur"* [523].

BCM-nin dövlətlərlə əməkdaşlığı haqqında Tövsiyələr (2007) əməkdaşlığın əsas sahələrinin, əməkdaşlıqla bağlı problemlərin müəyyən edilməsi və onların aradan qaldırılması ilə bağlı təkliflərin irəli sürülməsi məsələlərinə həsr edilmişdir. Buraya Roma Statutunun IX hissəsi ilə bağlı hərtərəfli icra qanunvericiliyinin qəbulu və "BCM-nin imtiyazları və immunitetləri haqqında" Sazişin ratifikasiyası, ibtidai araşdırmaların, təhqiqatların, cinayət təqiblərinin və məhkəmə icraatlarının dəstəklənməsi, həbs və məhkəmənin sərəncamına vermə, aktivlərin müəyyən edilməsi, müsadirəsi və dondurulması sahəsində əməkdaşlıq, milli, ikitərəfli, regional və beynəlxalq səviyyədə diplomatik və ictimai dəstək, Roma Statutunun sistemi kontekstində dövlətlərarası əməkdaşlıq aiddir.

Əslində BCM-nin beynəlxalq əməkdaşlıq və məhkəmə yardımı kimi nəzərdə tutduğu bütün hərəkətlər onun yurisdiksiyasına aid olan cinayət işləri üzrə istintaqın aparılması və cinayət təqibinin həyata keçirilməsi ilə bağlıdır.

CPM-nin 7.0.4-cü maddəsinə əsasən "cinayət təqibi — cinayət hadisəsinin müəyyən edilməsi, cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxsin ifşa olunması, ittiham irəli sürülməsi, bu ittihamın məhkəmədə müdafiə edilməsi, ona cəza təyin edilməsi, zəruri olduqda prosessual məcburiyyət tədbirlərinin təmin edilməsi məqsədi ilə həyata keçirilən cinayət-prosessual fəaliyyətdir". Fikrimizcə, Statutda beynəlxalq əməkdaşlıq və məhkəmə yardımı ifadələrinin işlədilməsi beynəlxalq təşkilatlardan müəyyən sənədlərin və informasiyanın verilməsinin xahiş edilməsi və s. ilə bağlıdır.

Məhkəmə yardımı həm ibtidai araşdırma mərhələsini, həm də məhkəmə baxışı mərhələsini əhatə edir. Statutda qeyd olunan əməkdaşlıq formalarının Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə müqayisəsi göstərir ki, qeyd olunan formaların hamısı cinayət işləri üzrə hüquqi yardımla bağlı prosessual və digər hərəkətlərin tərkibinə daxildir.

Statutda prosessual hərəkətlərin əksəriyyəti digər əməkdaşlıq formalarına daxil edilmişdir. Belə ki, şəxsin həbs edilməsi və məhkəmənin sərəncamına verilməsi barədə vəsatət verməzdən əvvəl axtarışda olan şəxsin ilkin tutulması istintaqın sonrakı gedişi üçün mühüm əhəmiyyətə malikdir, həmçinin insan hüquqlarının məhdudlaşdırılması ilə bağlıdır. Buna görə də daha detallaşdırılmış tənzim olunmanı tələb edir.

BCM-nin fəaliyyətində şəxsin həbs edilməsi və məhkəmənin sərəncamına verilməsi kimi yardım növü daha çox müzakirə olunan məsələlərdəndir, bəzi hallarda onun siyasi yanaşmalarla bağlı olduğu iddia olunur.

Kamil Səlimov hesab edir ki, *"...yeganə məcburedici mexanizm dövləti məhkəmənin tələblərini yerinə yetirməyə məcbur edə bilən Təhlükəsizlik Şurasıdır... bu gün BMT Təhlükəsizlik Şurasının fəaliyyəti və onun BCM-nə yardım göstərməkdəki rolu ciddi etimad doğurmur, çünki onun tövsiyələri qabaqlayıcı xarakter daşıyır... O, siyasi həll üsullarına daha çox üstünlük verir..."* [320].

Burada K. Səlimovla razılaşaraq qeyd etmək lazımdır ki, M.Qəddafi, S.Qəddafi və A.Əs-Senussinin həbsinə order verilməsi qərarı ondan əvvəl qəbul edilən BMT Təhlükəsizlik Şurasının 26 fevral 2011-ci il tarixli 1970 (2011) saylı qətnaməsi ilə möhkəmləndirildi. Qətnamədə Liviya Ərəb Cəmahiriyyəsində *"mülki əhaliyə qarşı geniş yayılmış və sistematik hücumların insanlığa qarşı cinayətə bərabər ola biləcəyi"* nəzərə alındı. Zorakılığa dərhal son qoyulması və əhalinin haqlı tələblərinin ödənilməsi üçün addımların atılması tələb edilirdi. BMT Təhlükəsizlik Şurası BMT Nizamnaməsinin VII Fəsli əsasında fəaliyyət göstərməsini və BMT Təhlükəsizlik Şurasının 41-ci maddəsinə əsasən tədbirlər görmə səlahiyyətlərini əsas tutaraq, Liviya hakimiyyət orqanlarını maksimum təmkin nümayiş etdirməyə, insan hüquqlarına və beynəlxalq humanitar hüquqa hörmət etməyə və insan hüquqları üzrə beynəlxalq müşahidəçilərin çıxışını dərhal təmin etməyə və s. tədbirlər görməyə dəvət etdi. Həmçinin səyahət qadağaları, aktivlərin dondurulması, silah embarqoları tətbiq edildi. BCM-nin Palatası həbs orderlərini Statutun iştirakçısı olan dövlətlərə və BMT Təhlükəsizlik Şurasının üzvlərinə və Liviya hökumətinə göndərdi.

Bir çox tənqidçilər belə hesab edirlər ki, "*BCM yalnız ədalət mühakiməsini həyata keçirir və siyasi proseslərə qarışa bilməz"* [156].

BCM-nin siyasi xarakterli addımları içərisində 17 mart 2023-cü ildə iddia edilən hərbi cinayətlərə, o cümlədən uşaqların Ukraynadan Rusiyaya qanunsuz deportasiyasına, habelə Ukraynanın işğal olunmuş ərazilərindən uşaqların RF-na qanunsuz köçürülməsinə görə Vladimir Putinin və RF-nin Prezidenti yanında Uşaq Hüquqları üzrə Müvəkkili Mariya Lvova-Belovanın həbsinə order verilməsi də qeyd olunur.

Əslində BCM-nin belə bir qərar verməsini hüquqi cəhətdən qiymətləndirsək, BCM-nin sənədlərində dövlət başçılarının immunitetinin olması qeyd olunmamışdır, yəni BCM dövlət başçısının

həbs olunması ilə bağlı qərar qəbul edə bilər. Dövlət başçısının toxunulmazlığı ilə bağlı məsələ dövlətdaxili hüquqda və ikitərəfli müqavilələrdə möhkəmləndirilmişdir.

Beynəlxalq Hüquq Komissiyası 2007-ci ildə "Dövlətin vəzifəli şəxslərinin xarici cinayət yurisdiksiyasından toxunulmazlığı"nı müzakirə etmiş və Maddələr Layihəsi hazırlamışdır. Layihənin 4-cü maddəsində qeyd olunur ki, *"Dövlət başçısı, hökumət başçısı və xarici işlər naziri vətəndaşı olmadığı dövlətin cinayət yurisdiksiyasından immunitetə malikdir"* [532]. Dövlətlərarası münasibətlərdə dövlət başçılarının və digər vəzifəli şəxslərin ex officio toxunulmazlığı qorunur.

Statutun 27-ci maddəsi rəsmi vəzifəyə istinad etməməyə həsr edilmişdir, yəni Statut rəsmi mövqeyinə görə heç bir fərq qoymadan bütün şəxslərə eyni dərəcədə şamil edilir və milli, beynəlxalq hüquqa əsasən şəxsin rəsmi mövqeyinə aid edilə bilən toxunulmazlıqlar və ya xüsusi prosessual qaydalar BCM-nin öz yurisdiksiyasını həyata keçirməsinə mane olmur.

Belə ki, Statutun 58-ci maddəsinə əsasən, İbtidai İstintaq Palatası istintaqa başladıqdan sonra istənilən vaxt BCM-nin Prokurorunun ərizəsinə əsasən, ərizəyə və BCM-nin Prokurorunun təqdim etdiyi sübutlara və ya digər məlumatlara baxdıqdan sonra, şəxsin BCM-nin yurisdiksiyası daxilində cinayət törətdiyini güman etmək üçün ağlabatan əsaslar və şəxsin həbsi zəruri olduqda, onun məhkəmədə iştirakını təmin etmək, şəxsin istintaqa və ya məhkəmə araşdırmasına mane olmamasını və ya təhlükə yaratmamasını təmin etmək; müvafiq hallarda, şəxsin BCM-nin yurisdiksiyasına daxil olan və eyni halları ehtiva edən həmin cinayəti və ya əlaqəli cinayəti törətməyə davam etməsinin qarşısını almaq üçün şəxsin həbsi barədə qərar çıxarır.

Statutun 86-cı maddəsi iştirakçı dövlətlərin, Statutun müddəalarına uyğun olaraq, BCM-nin yurisdiksiyasına daxil olan cinayətlərin təqibində BCM ilə tam əməkdaşlıq etmək ümumi öhdəliyini müəyyən etmişdir.

Lakin bu öhdəliyə baxmayaraq, BCM-nin dövlət başçısının həbs edilməsi barədə qərarının icrası demək olar ki, mümkün deyildir. Belə ki, dövlətləri həbs orderini icra etməyə məcbur edən mexanizm yoxdur. BCM təqsirləndirilən şəxsin iştirakı olmadan məhkəməyə başlaya bilməz.

Hazırda BCM-nin bəzi həbs orderlərini "virtual həbs" adlandırırlar. İndiyədək BCM-nin fəaliyyətində hakimiyyətdə olan dövlət başçılarının həbs edilməsi təcrübəsi yoxdur. Məsələn, Sudanın keçmiş prezidenti Ömər əl-Bəşir Məhkəmə tərəfindən axtarışa verilən ilk prezident və soyqırım cinayətinə görə ittiham olunan ilk şəxsdir. Onun barəsində olan iki həbs qərarının heç biri icra olunmamışdır və o, BCM-nin nəzarətində deyil. Ömər əl-Bəşir 2019-cu ildə dövlət çevrilişi nəticəsində həbs edilmiş, xarici valyuta saxladığına görə iki il həbs cəzası ilə cəzalandırılmışdır. Slobodan Miloşeviç Serbiyada həbs olundu və orada mühakimə olunmalı idi. Ancaq sonradan xarici təzyiq altında BCM-nə təhvil verildi.

Digər dövlətlər tərəfindən BCM-nin həbs haqqında orderinin icrası da siyasi mülahizələrlə bağlıdır. Məsələn, Cənubi Afrika 2015-ci ildə Yohannesburqda Afrika Dövlət Başçıları Sammitində iştirak edərkən Sudanın o zamankı prezidenti Ömər əl-Bəşiri həbs etmədi.

5 mart 2024-cü il tarixində BCM-nin II Məhkəməyə qədərki Palatası Ukraynadakı vəziyyət kontekstində Prokurorluğun 2 fevral 2024-cü il tarixli vəsatətlərinə əsasən, mülki obyektlərə hücumların təşkili ilə bağlı hərbi cinayətə, mülki şəxslərə həddindən artıq təsadüfi zərər vurmaya və insanlığa qarşı cinayətə, qeyri-insani hərəkətlərə görə məsuliyyət daşıdığını düşünmək üçün ağlabatan əsaslar olduğundan Rusiya Silahlı Qüvvələrinin Aerokosmik Qüvvələrinin Uzaqmənzilli Aviasiya komandanı, general-leytenant cənab S.İ. Kobılaş və Rusiya Hərbi Dəniz Qüvvələrinin Qara Dəniz Donanmasının komandanı, admiral V.N. Sokolov barəsində [550], 20 may 2024-cü ildə BCM-nin Prokuroru ən azı 7 oktyabr 2023-cü il tarixindən İsrail və Fələstin dövləti ərazisində (Qəzza zolağında)

törətdikləri iddia edilən hərbi cinayətlərə və insanlığa qarşı cinayətlərə görə Yəhya Sinvar, Məhəmməd Diab İbrahim Əl-Masri (Deif) və İsmayıl Haniyə ilə bağlı; ən azı 8 oktyabr 2023-cü il tarixindən etibarən Fələstin dövlətinin ərazisində (Qəzza zolağında) törədilmiş hərbi cinayətlərə və insanlığa qarşı cinayətlərə görə Benyamin Netanyahu və Yoav Gallant haqqında [551] həbs orderi qəbul etmişdir.

Lakin həbs orderlərinin hələlik icra edilməsi mümkün olmamışdır. Faktiki olaraq bu şəxslər ölkə ərazisindən kənarda həbs edilə bilərlər.

Rusiya Xarici İşlər Nazirliyi yanında Beynəlxalq Hüquq Şurası özünün "BCM-nin fəaliyyətinin hüquqauyğunluğu problemləri" adlı rəyində qeyd edir ki, BMT Təhlükəsizlik Şurasının müvafiq qərarı olmadan *"BCM-nin həbs orderi verməsinin hüququ mənası Roma Statutunda iştirak edən dövlətlər üzərinə barəsində order verilən şəxsi həbs etmək vəzifəsinin qoyulmasından ibarətdir. Ancaq həmin şəxs BCM-də iştirak etməyən dövlətin vəzifəli şəxsi idisə, Məhkəmə bu dövlətlə əməkdaşlığa nail olmamışdırsa, belə orderin verilməsi Roma Statutunun 98-ci maddəsinə ziddir. Nəticə etibarı ilə o, hüquqa ziddir"* [298].

İlk baxışda onların həlledici əhəmiyyəti olmaması təəssüratı yaransa da, əməllərin cinayət olmasının təsdiq olunmasının, bu hadisələrə laqeydlik olunmamasının nümayiş etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, o, Təhlükəsizlik Şurası səviyyəsində növbəti addımların atılması üçün zəmin hazırlayır. Məsələnin Təhlükəsizlik Şurasının səviyyəsinə qaldırılması, həbs orderinin və digər tədbirlərin qəbul edilməsinin və icrasının mahiyyətini dəyişdirir və siyasi səviyyəyə qaldırır.

Çju Ventsi hesab edir ki, "*Müqavilə hüququnun "müqavilələrə yalnız iştirakçı-dövlətlər tərəfindən riayət edilməlidir" ümumi prinsipinə baxmayaraq, beynəlxalq hüququn digər ümumi prinsipləri işığında, BCM ilə əməkdaşlıq o qədər də könüllü deyil, beynəlxalq adət hüququna əsasən məcburidir… Buna görə də, dövlət*

BCM-nin Nizamnaməsinə qoşulmamış olsa belə, bəzi hallarda yenə də onunla əməkdaşlıq etməyə borclu sayıla bilər…" [384, s.107-108].

Əslində dövlətlərin BCM-nin üzvü olmaması, məhkəmənin həmin dövlətlərin ərazisində baş verən və ya onlar tərəfindən törədilən cinayətlərə görə təhqiqatı həyata keçirməsinə mane olmur. Belə ki, hazırda BCM yurisdiksiyasının Rusiyaya aid olmamasına baxmayaraq (2016-cı ildə Krımın ilhaqının işğal kimi tanınmasından sonra Rusiya BCM-dən çıxdı), Rusiya və Ukraynanın hərəkətlərini araşdırır. Ukrayna Roma Statutunu ratifikasiya etməmişdir. Lakin Statutun 12(3) maddəsinə uyğun olaraq, ərazisində baş verməsi iddia edilən cinayətlər üzrə Məhkəmənin yurisdiksiyasını qəbul etmək hüququndan istifadə etmişdir.

Ukrayna Hökuməti tərəfindən verilən birinci bəyannamə ilə Ukrayna ərazisində 21 noyabr 2013-cü ildən 22 fevral 2014-cü il tarixinədək törədilməsi iddia edilən cinayətlərlə bağlı BCM-nin yurisdiksiyasını qəbul etmişdir. İkinci bəyannamədə bu müddət açıq əsasda, 20 fevral 2014-cü il tarixindən etibarən Ukrayna ərazisində törədilməsi iddia edilən bütün cinayətləri əhatə etmək üçün uzadılmışdır.

2022-ci il fevralın 28-də BCM-nin Prokuroru Ukraynadakı vəziyyətlə bağlı araşdırmaya başlamaq üçün icazə istədi. 2022-ci il martın 1-də Prokurorun ofisi iştirakçı dövlət olan Litva Respublikasından, 2 mart 2022-ci il tarixində isə iştirakçı dövlətlər qrupunun birgə müraciətini aldı, cəmi 42 dövlətin müraciəti daxil oldu. 2022-ci il martın 2-də Prokuror daxil olan müraciətlər əsasında Ukraynadakı vəziyyətlə bağlı araşdırmaya başladığını elan etdi.

Bu müraciətlər vasitəsilə verilən ümumi yurisdiksiya parametrlərinə uyğun olaraq və istintaqın diqqət mərkəzinə xələl gətirmədən vəziyyətin əhatə dairəsi Ukrayna ərazisinin hər hansı bir hissəsində 21 noyabr 2013-cü il tarixindən etibarən istənilən şəxs tərəfindən hər hansı keçmiş və indiki hərbi cinayətlər, insanlıq əleyhinə cinayətlər və ya soyqırımı ilə bağlı hər hansı cinayət törədilməsi ilə bağlı ittihamı əhatə edir.

Bu qərardan sonra Yaponiya və Şimali Makedoniya, Monteneqro, Çili Respublikası Ukraynadakı vəziyyətlə bağlı Prokurora müraciət etdilər.

Bəzi müəlliflər belə hesab edirlər ki, *"Reallıqda son nəticə o olardı ki, BCM yalnız təqsirləndirilən şəxsin vətəndaşı olduğu dövlətin və ya BMT Təhlükəsizlik Şurasının razılığı ilə yurisdiksiyaya malik olacaqdır"* [546, s.555], yəni bunu çıxış yolu hesab edirlər.

Bu fikirlə razılaşmayaraq qeyd etmək istərdik ki, BMT Təhlükəsizlik Şurasının xüsusi qətnaməsinin qəbul edilməsi nəzəri cəhətdən mümkündür, lakin Şuranın daimi üzvü olan dövlətlər, məsələn, Rusiya ilə bağlı qərar qəbul olunarkən və ya daimi üzv olan dövlətlərlə siyasi müttəfiq olan dövlətlərlə bağlı müzakirələr zamanı, vəziyyəti daimi üzv olan dövlətlərin veto hüququ çətinləşdirir.

İştirakçı dövlətlərin təqsirləndirilən şəxsi həbs etmək və BCM-nin sərəncamına vermək öhdəliyi Statutun 86-cı maddəsinə uyğun olaraq dövlətlərin "Cinayətlərin təhqiqatı və təqibi zamanı Məhkəmə ilə hərtərəfli əməkdaşlıq etmək" ümumi öhdəliyinə əsaslanır və konkret olaraq "şəxslərin Məhkəmənin sərəncamına verilməsini" nəzərdə tutan 89-cu maddə ilə tamamlanır.

Dövlətlər Roma Statutunda həm həbs, həm də məhkəmənin sərəncamına vermə ilə bağlı nəzərdə tutulan xüsusi öhdəliklərə istinad etməli və onları daxili qanunvericiliyə daxil etməlidirlər.

"Sərəncama vermə" termini xüsusi olaraq Roma Statutunda istifadə edilmək üçün seçilmişdir, çünki o, dövlətlərin ayrı-ayrı şəxslərin müqavilə əsasında beynəlxalq qurumlara təhvil verməsi prosesinə aiddir və ekstradisiyadan fərqli bir prosesdir. Sərəncama *vermə "... iştirakçı dövlətlərin Məhkəmə ilə münasibətlərində realizə olunan müstəqil hüquqi prosedurdur, ona dövlətlərarası təcrübədə, öz vətəndaşlarını verməmə də daxil olmaqla, ekstradisiya məhdudiyyətlərindən heç biri tətbiq olunmur"* [323, s.167].

Roma Statutunun 91-ci maddəsinin 2-ci bəndinin (c) bəndinə əsasən, dövlətlər tərəfindən şəxslərin Məhkəmənin sərəncamına

verilməsi üçün qoyulan prosessual tələblər ondan ibarətdir ki, dövlət daxilində də belə bir prosedur olmalıdır. Azərbaycan Respublikasında təslim etmə ilə bağlı müqavilələr olsa da, öz dövlətinin vətəndaşlarının verilməsini nəzərdə tutmur. "Azərbaycan Respublikası və Mərakeş Krallığı arasında təslim etmə haqqında" Müqavilənin 1-ci maddəsinə əsasən *"Tərəflər bu müqavilənin müddəalarına uyğun olaraq iki dövlətdən birinin ərazisində yaşayan və digər dövlətin məhkəmə və ya ədliyyə orqanları tərəfindən cinayət təqibinin həyata keçirilməsi və ya məhkəmə qərarının icrası üçün axtarılan şəxsləri bu Müqavilənin müddəalarına uyğun olaraq birbirinə təslim etmək öhdəliyini öz üzərinə götürürlər"* [5, s.288]. Dövlətlərin Statut üzrə sərəncama vermə öhdəlikləri ilə bağlı milli qanunvericilikdə ya ekstradisiya ilə bağlı müddəalara dəyişiklik edilməli, ya da təslim etmənin tətbiq edildiyi şəxslərin dairəsi genişləndirilməli, yaxud da yeni institut kimi daxil edilməlidir. Şəxsin təslim edilməsi ilə bağlı daxili məhkəmə qərarının olmasının vacibliyinə fikrimizcə həmişə riayət edilməlidir.

Böyük Britaniyanın "Beynəlxalq Cinayət Məhkəməsi Aktı"nın 17-ci Fəslinin 2-ci hissəsinin 2-ci maddəsinə əsasən, Dövlət Katibi cinayət törətdiyi iddia edilən və ya BCM tərəfindən təqib olunan şəxsin tutulması və sərəncama verilməsi ilə bağlı sorğu aldıqda, o, sorğunu və ona əlavə olunan sənədləri müvafiq məhkəmə orqanına göndərir. Müvafiq ədliyyə işçisi orderin BCM tərəfindən verildiyinə əmin olarsa, o, Birləşmiş Krallıqda icra üçün orderi təsdiq etməlidir [571].

Sərəncama vermə proseduru nisbətən sadədir. BCM-nin "Prosedur və Sübut Qaydaları" nın 184-cü Qaydası tələb edir ki, BCM-nin ittiham aktında olan şəxslər sərəncama vermək üçün hazır olduqda, sorğu edilən dövlətlər dərhal BCM-nin Qeydiyyatçısına məlumat verməlidirlər. Dövlətlər və Qeydiyyatçı sərəncama vermə tarixi və üsulu ilə bağlı razılığa gəlməlidirlər.

Təcili hallarda BCM axtarılan şəxsin onun sərəncamına verilməsi haqqında sorğu və bu sorğunu möhkəmləndirən sənədlər təqdim edilənədək ilkin həbs olunmasını xahiş edə bilər, xahiş yazılı formada və onun çatdırılmasını təmin edən istənilən üsulla göndərilir. Xahiş göndərilən dövlət ilkin həbs edilən şəxsin sərəncama verilməsi barədə BCM-dən xahiş almadıqda və ya "Prosedur və Sübut Qaydaları" nın 188-ci Qaydasına əsasən həbslərin həyata keçirildiyi tarixdən altmış gün müddət keçərsə, həmin şəxsi azad etməlidir. Əgər sonradan sərəncama vermə barədə əlavə vəsatətlər daxil olarsa, azadlığa buraxılma həmin şəxslərin sonrakı həbsinə və sərəncama verilməsinə mane olmur.

Şəxsin həbs edilməsi və sərəncama verilməsi ilə bağlı prosedur zamanı şəxsin etiraz etmək hüququ nəzərdə tutulmuşdur. Statutun 20-ci maddəsində nəzərdə tutulduğu kimi, həbs edilən şəxs ne bis in idem prinsipi əsasında milli məhkəməyə etiraz edərsə, sorğu edilən dövlət qəbuledilməzliyə dair müvafiq qərarın olub-olmadığını müəyyən etmək üçün dərhal BCM ilə məsləhətləşməlidir. Əgər iş məqbul hesab edilərsə, sorğu edilən dövlət sorğunun icrasına davam edir.

Statutun 89 (d) maddəsinə əsasən, daşıma hava nəqliyyatı ilə həyata keçirilirsə və tranzit dövlətin ərazisində enmə nəzərdə tutulmursa, tranzit dövlətin razılığı tələb olunmur. Planlaşdırılmamış enmə olduqda "Prosedur və Sübut Qaydaları" nın 182-ci Qaydasına uyğun olaraq BCM tranzit dövlətinə yazılı xahiş göndərir və bu proseduru 96 saat ərzində həyata keçirməlidir.

Həbs və sərəncama vermə ilə bağlı Statutun 90-cı maddəsində nəzərdə tutulan kəsişən sorğuların olması mümkündür. Sərəncama verilməsi planlaşdırılan şəxsin eyni davranışa görə digər dövlətdən ekstradisiya olunması barədə xahiş daxil olduqda, Statutun 90-cı maddəsinə əsasən sorğu edilən dövlət əsasən Məhkəmənin sorğusuna üstünlük verir. Ancaq bəzi şərtlərin olması tələb olunur: BCM-nin işin qəbul edilməsi barədə qərarı olmalı və bu qərarda

sorğu edən dövlət tərəfindən aparılan istintaq və ya cinayət təqibinin nəzərə alınması öz əksini tapmalıdır; sorğu göndərilən dövlət BCM-nin belə qərarını almadıqda, digər sorğu göndərən dövlətdən daxil olan ekstradisiya haqqında xahişə baxa bilər, ancaq işin qəbul edilməsi haqqında BCM tərəfindən qərar qəbul edilənədək şəxsin ekstradisiyasını ləngidir. Sorğu göndərən dövlət Statutun üzvü olmadıqda, sorğu göndərilən dövlət BCM işi qəbul edilən hesab etdikdə onun sorğusunun icrasına üstünlük verir. Sorğu edilən dövlətin ekstradisiya ilə bağlı beynəlxalq öhdəliyi varsa, o, sorğuların müvafiq tarixlərini və sorğu edən dövlətin maraqlarını, o cümlədən cinayətin onun ərazisində törədilmədiyini, qurbanların və axtarışda olan şəxsin vətəndaşlığını və ekstradisiyanın mümkünlüyünü nəzərə almalıdır.

Roma Statutunun Preambulasına və 1-ci maddəsinə əsasən, BCM milli cinayət mühakiməsi sistemlərini tamamlayıcı xarakter daşıyır. Şəxs üzərində yurisdiksiyasını həyata keçirən dövlətlər bu yurisdiksiyanı həyata keçirmişlərsə, həmin işə Məhkəmədə baxılması istisna olunur. Təqsirləndirilən şəxslərin yurisdiksiyasına aid olduqları dövlətlər araşdırma və ya cinayət təqibini həyata keçirmək istəmədikdə, formal həyata keçirdikdə və ya bu mümkün olmadıqda, Məhkəmə tamamlayıcı funksiyasından istifadə edir.

Statutun 88-ci maddəsi iştirakçı dövlətlərdən öz daxili qanunlarına uyğun olaraq BCM ilə araşdırma və sübut məsələləri üzrə əməkdaşlıq etməyə imkan verən prosedurların mövcudluğunu təmin etməyi tələb edir. Statutun 13-cü maddəsinə əsasən, iştirakçı dövlət tərəfindən BCM-nin Prokuroruna verilən və BMT Nizamnaməsinin VII Fəsilinə əsasən Təhlükəsizlik Şurası tərəfindən Prokurora verilən situasiyaları və Statutun 15-ci maddəsinə əsasən BCM-nin yurisdiksiyasına aid olan cinayətlər haqqında informasiya əsasında BCM-nin Prokurorunun proprio motu istintaq başlamasını fərqləndirmək lazımdır. BCM Prokuroru daxil olan məlu-

matların ciddiliyini qiymətləndirmək üçün dövlətlərdən, BMT orqanlarından, hökumətlərarası və ya qeyri-hökumət təşkilatlarından və ya uyğun hesab etdiyi digər etibarlı mənbələrdən əlavə məlumat tələb edir, yazılı və ya şifahi sübutlar əldə edir.

BMT Nizamnaməsinin 39-cu maddəsinə əsasən, Təhlükəsizlik Şurası sülhə hər hansı təhlükənin, sülhün pozulması və ya təcavüz aktının mövcudluğunu müəyyən edir və beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və ya bərpa etmək üçün 41 və 42-ci maddələrə uyğun olaraq hansı tədbirlərin görülməsi barədə tövsiyələr və ya qərar verir. BMT Nizamnaməsinin 25-ci maddəsi bütün üzv dövlətlərdən Təhlükəsizlik Şurasının qərarlarının qəbul edilməsini və icra edilməsini tələb edir. Təhlükəsizlik Şurasının hərtərəfli səlahiyyətini nəzərə alaraq, Təhlükəsizlik Şurasının situasiyanı BCM-nə göndərmək səlahiyyəti Statutun iştirakçısı olmayan dövlətlər tərəfindən Təhlükəsizlik Şurasının qərarlarının qəbul edilməsini, icra edilməsini və kömək göstərilməsini tələb edir. *"BCM-nin yurisdiksiyasının tərəf olmayan tərəfin razılığı olmadan, tərəf olmayanların vətəndaşları üzərində həyata keçirilməsi beynəlxalq hüquqa ziddir"* [450, s.618]. *"BCM reallığa çevrildikdə, üçüncü dövlətlər Roma Statutunu ratifikasiya edib-etməməsindən asılı olmayaraq, BCM-dən immunitetə malik olmayacaqlar. Xüsusilə, iştirakçı olmayan dövlətlər öz vətəndaşlarının təqibinə mane ola bilməyəcəklər"* [449, s.494].

Statutun 54-cü maddəsinin 1 (a) bəndinə əsasən, BCM həqiqəti müəyyən etmək, cinayət məsuliyyətinin olub-olmamasının qiymətləndirilməsi üçün əhəmiyyət kəsb edən bütün faktları və sübutları əhatə etmək üçün öz səlahiyyətlərinə və/və ya mandatlarına uyğun olaraq, hər hansı dövlətin və ya hökumətlərarası təşkilatın və ya mexanizmin əməkdaşlığına müraciət edir (1 (c)).

İstintaqın gedişində şəxslərin hüquqları Statutun 55-ci maddəsi ilə tənzim olunur və insan hüquqlarına dair beynəlxalq sənədlərdə nəzərdə tutulan fundamental hüquqları əhatə edir. Məsələn, "şəxs

özünü ittiham etməyə və ya günahını etiraf etməyə məcbur edilməməlidir" (55-ci maddənin 1 (a) bəndi) müddəası milli CPM-nin 20.1-ci maddəsində ("heç kəs şəxsən özünün və yaxın qohumlarının əleyhinə ifadə verməyə məcbur edilə bilməz və buna görə hər hansı təqibə məruz qala bilməz"); Statutun 55-ci maddəsinin 1 (b) maddəsində nəzərdə tutulan hüquq (hər hansı formada məcburiyyət, təzyiq və ya hədə, işgəncə və ya digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzaya məruz qalmama) CPM-nin 15.2.1-ci maddəsində (cinayət təqibinin gedişində qadağandır: işgəncələr vermək, fiziki və psixi zorakılıqdan, o cümlədən tibbi preparatlardan istifadə etmək, aclığa, hipnoza məruz qoymaq, tibbi yardımdan məhrum etmək, digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və cəzalar tətbiq etmək); Statutun 55-ci maddəsinin 1(c) bəndində nəzərdə tutulan müddəa (dindirmə şəxsin tam başa düşmədiyi və ya danışmadığı dildə aparılırsa, pulsuz olaraq ixtisaslı tərcüməçinin köməyi və ədalətlilik tələblərini təmin etmək üçün zəruri olan tərcümələrlə təmin edilməlidir) CPM-nin 26-cı maddəsində (cinayət mühakimə icraatının aparıldığı dili bilməyənlərin hüquqları); Statutun 55-ci maddəsinin 1(d) bəndində nəzərdə tutulan hüquq (Statutda müəyyən edilmiş əsaslar və prosedurlar istisna olmaqla, əsassız həbsə və ya tutmaya məruz qalmama, habelə azadlıqdan məhrum edilə bilməmə) CPM-nin 14-cü maddəsində (hər kəsin azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada və hallarda onun tutulması, həbsə alınması və ya azadlıqdan məhrum edilməsi ilə məhdudlaşdırıla bilər, bu Məcəllə və Azərbaycan Respublikasının digər qanunu ilə müəyyən edilmiş əsaslar olmadan heç kəs tutula və həbs edilə bilməz) nəzərdə tutulmuşdur.

Statutun 72-ci maddəsinə əsasən, iştirakçı dövlət sorğu onun milli təhlükəsizliyinə aid olan hər hansı sənədlərin təqdim edilməsi və ya sübutların açıqlanması ilə bağlı olduqda, yardım haqqında sorğunun icrasından tam və ya qismən imtina edə bilər.

Beynəlxalq hüquqda iki funksional, yəni yerinə yetirdikləri vəzifələrlə bağlı olan toxunulmazlıq nəzərdə tutulur: — dövlətlər arasında qarşılıqlı münasibətə əsaslanan dövlət nümayəndələri üçün diplomatik toxunulmazlıq; — beynəlxalq müqavilələrə uyğun olaraq, beynəlxalq konvensiyalar kontekstində iş aparan heyət üçün toxunulmazlıq. Toxunulmazlıq "Diplomatik əlaqələr haqqında" Vyana Konvensiyasının Preambulasında Konvensiya ilə nəzərdə tutulan imtiyaz və immunitetlərin ayrı-ayrı adamların mənfəəti üçün deyil, dövlətlərinin adından konsulluq funksiyalarının səmərəli surətdə həyata keçirilməsini təmin etmək üçün verilməsi məqsədi öz əksini tapmışdır. "BCM-nin imtiyazları və immunitetləri haqqında" Sazişdə onun tətbiq dairəsi nəzərdə tutulmuşdur.

Hər bir məhkəmədə olduğu kimi, bu BCM-də də şahidlərin ifadələri sübut növü kimi mühüm əhəmiyyətə malikdir, ancaq şahidlər öz şəxsi təhlükəsizliklərinin təmin olunmasına əmin olmalıdırlar. Statutun 68-ci maddəsinin 1-ci hissəsinə əsasən, BCM zərərçəkmişlərin və şahidlərin təhlükəsizliyini, fiziki və mənəvi rifahını, ləyaqətini və şəxsi toxunulmazlığını qorumaq üçün müvafiq tədbirlər görməlidir. Bu zaman BCM bütün müvafiq amilləri, gender faktorunu və sağlamlıq vəziyyətini, habelə cinayətin xarakterini nəzərə alır, lakin bununla məhdudlaşmayaraq, cinayətin cinsi zorakılığı, gender əsaslı zorakılığı və ya uşaqlara qarşı zorakılığı əhatə etməsini də nəzərə alır (7-ci maddənin 3-cü bəndi).

Statutun 68(2)-ci maddəsi məhkəmə prosesinin istənilən hissəsinin qapalı (in camera) keçirilməsini və sübutların elektron və ya xüsusi vasitələrlə təqdim edilməsini nəzərdə tutur. Bu xüsusi müddəalar Statutda olan ümumi öhdəliklərlə gücləndirilir.

Şahidlərin müdafiəsi üçün BCM tərəfindən verilən tədbirlərin bir çoxu Statuta uyğun olaraq Qeydiyyatçının strukturunda yaradılmış "Zərərçəkmişlərə və şahidlərə yardım göstərilməsi üzrə Qrup" tərəfindən təmin edilir. Bu bölmə BCM-nin Prokurorunun Dəftər-

xanası ilə məsləhətləşərək, Məhkəməyə gələn şahidlərə, zərərçəkmişlərə və verdiyi ifadələr nəticəsində risk altında olan digər şəxslərə müdafiə tədbirləri və təhlükəsizlik prosedurları, məsləhət və digər müvafiq yardımlar göstərir.

Yüksək risk altında olan qurbanları və ya şahidləri qorumaq üçün müvafiq vasitələrdən biri onları təhlükə mənbəyindən uzaqlaşdırmaqdır. Burada söhbət həm də müdafiə olunan şəxslərin yerdəyişməsindən gedir. Belə yerdəyişmə qəbul edən dövlətin imkanlarından və arzusundan asılı olaraq daimi və ya müvəqqəti ola bilər və qanuni xarakter daşıyır. Qeydiyyatçı BCM adından yerdəyişmə və yerləşdirmə ilə bağlı razılaşmalara nail olmaq üçün dövlətlərlə danışıqlar aparmaq səlahiyyətinə malikdir (Prosedur və Sübut Qaydalarının 16(4) qaydası). Müvəqqəti yerləşdirmə ad hoc razılaşmalar vasitəsilə həyata keçirilə bilər. Müvəqqəti yerdəyişmə adətən şəxsin və onun ailəsinin təcili köçürülməsi üçün istifadə olunur. Daimi yerdəyişmə zamanı zərərçəkmiş və ya şahid qeyri-müəyyən müddətə başqa yerə köçürülür. Bu zaman şahidin qanuni rezidentlik statusunu əldə etməsi, mənzil tapa bilməsi, işlə təmin olunması və tibbi xidmətdən istifadə imkanı nəzərə alınır. Köçürülmüş şəxslərə ən azı "Qaçqınların statusu haqqında" Konvensiyanın və "Qaçqınların statusu ilə bağlı Protokolun" 1-ci maddəsinə əsasən qaçqınlara verilən imkanlar, güzəştlər və hüquqlar təmin edilməlidir. Qeyd etmək lazımdır ki, yerdəyişmə konfidensial xarakter daşıyır və qəbul edən dövlət tərəfindən açıqlana bilməz.

"Risk altında olan şəxslər" dedikdə, BCM şahidləri, zərərçəkmiş şəxsləri və şahidlərin verdiyi ifadələr əsasında Müdafiə Proqramına daxil edilmiş risk altında olan digər şəxsləri nəzərdə tutur. "Yaxın əlaqələr" risk altında olan şəxsin həyat yoldaşını və ya ortağını; "köçürülən şəxs(lər)" isə köçürmə xidmətləri ilə təmin olunacaq risk altında olan şəxsləri və onların yaxın qohumlarını nəzərdə tutur. "Köçürülmə" dedikdə, şahid(lər)in və ya onların yaxın qohumlarının köçürülməsi başa düşülür.

"Prosedur və Sübut Qaydalarının" 87-ci qaydasına uyğun olaraq, Palata BCM-nin Prokurorunun və ya müdafiə tərəfinin vəsatətinə, şahidin və ya zərərçəkmişin, yaxud zərərçəkmişin qanuni nümayəndəsinin xahişi ilə və ya öz təşəbbüsü ilə Zərərçəkmişlərə və Şahidlərə Yardım Göstərilməsi Qrupu ilə məsləhətləşdikdən sonra, zərurət olduqda, şahid tərəfindən verilmiş ifadələr nəticəsində onların və ya Məhkəmədə iştirak edən digər şəxslərin müdafiəsi üçün tədbirlər görülməsi barədə sərəncam verə bilər. Bu halda müdafiə olunan şəxslərin razılığı tələb olunur. BCM istənilən zərərçəkmişin, potensial şahidlərin və onların ailə üzvlərinin təhlükəsizliyinin, fiziki və psixi rifahının təmin olunması üçün tələb olunan tədbirlər, o cümlədən informasiyanın müdafiəsi ilə bağlı tədbirlər görməlidir. Bu tədbirlərə şahid tərəfindən verilmiş ifadə nəticəsində təhlükə olduqda, zərərçəkmişin, şahidin və digər şəxslərin şəxsiyyəti və ya olduğu yer barədə məlumatların çap və ya informasiya agentlikləri tərəfindən açıqlanmasının və ya məlumat verilməsinin qarşısının alınması üçün tədbirlər daxil ola bilər; məsələn, dinləmələrin in camera keçirilməsi, açıq protokollardan məlumatların çıxarılması, informasiyanın üçüncü tərəflərə açıqlanmasının qadağan edilməsi, elektron və ya digər xüsusi vasitələrdən, o cümlədən təsvirin və ya səsin dəyişdirilməsinə imkan verən texnologiyalardan, audiovizual texnologiyalardan, xüsusən videokonfrans və qapalı yayımlardan və audio texnologiyasından müstəsna istifadə etməklə sübutların təqdim edilməsi, təxəllüsdən istifadə edilməsi aiddir.

Qeyd etmək lazımdır ki, milli CPM və "Cinayət Prosesində İştirak Edən Şəxslərin Dövlət Müdafiəsi Haqqında" Qanunda təsvirin və ya səsin dəyişdirilməsinə imkan verən texniki vasitələrdən, audio-vizual texnologiyadan, təhlükə altında olan digər şəxsə münasibətdə təxəllüslərdən istifadə etmək nəzərdə tutulmur.

Statutun 77-ci maddəsi cinayətin ağır xarakterini və bu cinayəti törətməkdə təqsirli hesab edilən şəxsin fərdi xüsusiyyətlərini nəzərə alaraq, cəza tədbirlərinə müəyyən müddətə (maksimum 30 il

müddətinə) azadlıqdan məhrum etməyi, ömürlük azadlıqdan məhrum etməni, həmçinin cəriməni və cinayət nəticəsində birbaşa və ya dolayı yolla əldə edilmiş gəlirlərin, əmlakın və aktivlərin üçüncü şəxslərin bona fide hüquqlarına xələl gətirmədən müsadirə edilməsini nəzərdə tutur. Deməli, əsas cəzalar kimi müəyyən müddətə və ömürlük azadlıqdan məhrum etmə nəzərdə tutulur. Statutun 77-ci maddəsinin 2-ci hissəsinə əsasən, cərimə və cinayət nəticəsində birbaşa və ya dolayı yolla əldə edilmiş gəlirlərin, əmlakın və aktivlərin müsadirə edilməsi azadlıqdan məhrum etmə ilə yanaşı tətbiq edilir, yəni əlavə cəzalar kimi tətbiq olunur. Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə əsasən, qəsdən törədilməsinə görə on iki ildən artıq azadlıqdan məhrum etmə cəzası və ya daha ağır cəza nəzərdə tutulmuş əməllər xüsusilə ağır cinayətlər hesab olunur; cinayətlərin məcmusu üzrə cəza təyin edilərkən azadlıqdan məhrum etmə müddətinin qismən və ya tamamilə toplandığı hallarda azadlıqdan məhrum etmənin yuxarı həddi iyirmi ildən, hökmlərin məcmusu üzrə isə iyirmi beş ildən artıq ola bilməz.

BCM-nin yurisdiksiyasına aid olan cinayətlər üzrə ədalət mühakiməsi milli məhkəmələr tərəfindən həyata keçirildikdə, milli qanunvericilik rəhbər tutulmalıdır. Belə ki, Statuta uyğun olaraq dövlətlər BCM tərəfindən azadlıqdan məhrum etmə cəzasının icrası yeri kimi təyin edildikdə, dövlətlər cəzanın çəkilməsi şərtlərini BCM ilə razılaşdırır və milli qanunvericiliyə uyğun olaraq təmin edir. Azadlıqdan məhrum etmə cəzasının icrası BCM-nin nəzarəti altında və məhbuslarla rəftarla bağlı qəbul edilmiş beynəlxalq müqavilə standartlarına uyğun həyata keçirilməlidir. İstənilən halda, azadlıqdan məhrum etmə şəraiti icra dövlətində oxşar cinayətlərə görə məhkum edilmiş məhkumlar üçün nəzərdə tutulandan az əlverişli olmamalıdır. BQXK 2006-cı ildən bəri əksər beynəlxalq cinayət tribunallarının həbs yerləri üçün monitorinq orqanı kimi xidmət edir.

Statutun 109-cu maddəsi cərimə və müsadirə tədbirləri barədə qərarların icrasına həsr edilmişdir. Burada dövlətin bu qərarı icra

etmək öhdəliyi Statutun 88-ci maddəsində nəzərdə tutulan iştirakçı dövlətlərin qeyd olunan bütün əməkdaşlıq formaları üçün öz milli qanunvericiliyində prosedurları nəzərdə tutması ilə təmin edilir. Qərar dövlətlər tərəfindən icra olunur, ancaq icra nəticəsində əldə edilən bütün gəlirlər və predmetlər BCM-nə verilir.

Statutun 70-ci maddəsinə əsasən, BCM ədalət mühakiməsinin həyata keçirilməsinə qarşı cinayətlər üzrə də yurisdiksiyaya malikdir. Bu cinayətlərə yalan ifadələrin verilməsi, bilə-bilə yalan və ya saxtalaşdırılmış sübutların təqdim edilməsi, şahidə qanunsuz təsir göstərmək, şahidin iştirakına və ya ifadə verməsinə mane olmaq, şahidə ifadə verməyə və ya sübutları məhv etməyə görə qisas kimi təsir göstərmək, sübutları saxtalaşdırmaq və ya toplanmasına mane olmaq, vəzifəli şəxsi öz vəzifələrini yerinə yetirməməyə və ya lazımınca yerinə yetirməməyə məcbur etmək və ya inandırmaq məqsədi ilə BCM-nin vəzifəli şəxsini əngəlləmək, qorxutmaq və ya ona qanunsuz təsir göstərmək, bu və ya digər vəzifəli şəxsin öz vəzifələrini yerinə yetirməsi ilə bağlı BCM-nin vəzifəli şəxsinə qisas kimi təsir göstərmək, xidməti vəzifələri ilə əlaqədar Məhkəmənin vəzifəli şəxsi kimi rüşvət istəmə və ya hədə-qorxu ilə tələb etmə aiddir. Bu əməllər Cinayət Məcəlləsinin 294 (Sübutları saxtalaşdırma); 297 (Bilə-bilə yalan ifadə vermə, yalan rəy vermə və ya yanlış tərcümə etmə); 299 (İfadə verməkdən boyun qaçırmağa, yalan ifadə və ya yalan rəy verməyə, yaxud yanlış tərcümə etməyə məcbur etmə və ya pulla ələ alma); 182 (Hədə-qorxu ilə tələb etmə); 311 (Rüşvət alma (passiv rüşvətxorluq)) maddələrində öz əksini tapmışdır. Hər bir iştirakçı dövlət istintaqın aparılmasına və ədalət mühakiməsinin həyata keçirilməsinə qarşı cinayətlərə görə cəzaları müəyyən edən cinayət qanunvericiliyini öz vətəndaşı tərəfindən və ya onun ərazisində törədilmiş cinayətlərə şamil etməlidir.

Prosedur və Sübut Qaydalarının 67-ci qaydası şahid ifadələrinin audio və ya video rabitə kanalları vasitəsilə canlı yayımının təşkilinə həsr edilmişdir. Palatanın şahidin viva voce ifadə verməsinə

razılığı zamanı, şahid ifadə verərkən texnika BCM-nin Prokurorluna, müdafiə tərəfinə və Palatanın özünə onu müşahidə etməyə imkan verməlidir. Audio və ya video rabitə kanalları vasitəsilə dindirmənin qaydasını Qaydaların 45-46-cı qaydalarının müddəalarına uyğun olaraq, Qeydiyyatçı müəyyən edir. Audio və ya video texnologiyası vasitəsilə şahidlərin dinlənilməsi üçün yer seçərkən, Qeydiyyatçı BCM-nin xaricdəki binalarını, milli məhkəmələri, beynəlxalq təşkilatın binasını və ya səfirlik və ya konsulluğun binalarını xüsusi olaraq nəzərə alır. İfadələrin audio və ya video rabitə vasitəsi ilə verildiyi hallarda, zərurət yarandıqda, BCM-nin Qeydiyyatçısının təyin etdiyi şəxs texniki mütəxəssislərin köməyi ilə məhkəmə zalı ilə audio-vizual əlaqə yaradır. Palatanın tələbi ilə Qeydiyyatçı tərəfindən təyin edilmiş şəxs şahidi efir otağına çağırır və şahid rəsmi and içir. Video rabitədən istifadə edildiyi hallarda şahid hakimləri, təqsirləndirilən şəxsi və onu dindirən şəxsi, habelə məhkəmə zalında təqdim edilmiş müvafiq sübutları görmək və dinləmək imkanına malik olmalıdır. Hakimin, təqsirləndirilən şəxsin və onu dindirən şəxsin şahidi, eləcə də təqdim olunan hər hansı sübutu uzaqdan görməsi və dinləməsi imkanı təmin olunmalıdır. Şahidlər yalnız təyin edilmiş şəxsin və texniki qrupun üzvünün iştirakı ilə ifadə verirlər, zərurət olduqda və Palata vəkil, qanuni nümayəndə, psixoloq və ya ailənin üzvü ilə yanaşı, səssiz müşahidəçilərin iştirakı ilə zərərçəkmişin və ya şahidin dindirilməsi barədə sərəncam verir. Şahid ifadəsini verdikdən və otağı tərk etdikdən sonra təyin edilmiş şəxs sərbəst və könüllü ifadə verməyə mane olan aşkar səbəblərin olmadığını Palataya təsdiq edir.

Təqsirləndirilən şəxsin və ya Statutun 55-ci maddəsinin 2-ci hissəsinin və ya 58-ci maddəsinin tətbiq olunduğu şəxslərin, yaxud zərərçəkmişlərin iştirak etdiyi hallarda, məhkəmə iclasları video bağlantı vasitəsilə, göstərilən şəxslərlə onların vəkilləri arasında adi ünsiyyətdən əlavə, birbaşa telefon əlaqəsi qurulması şərtilə ke-

çirilir. Əgər dövlət öz vətəndaşlarına və ya onun yurisdiksiyası altında olan digər şəxslərə münasibətdə Məhkəmənin yurisdiksiyasına aid olan cinayətlərlə bağlı araşdırma aparırsa və ya aparmışsa, təqsirləndirilən şəxs və ya zərərçəkmişlər video rabitə kanalı vasitəsilə məhkəmə dinləmələrində iştirak edir, həmin şəxslərlə onların vəkilləri arasında adi rabitə ilə yanaşı birbaşa telefon əlaqəsi yaradılır.

CPM-nin 51-2-ci maddəsində videorabitə sistemindən istifadə edilməklə şəxslərin dindirilməsi imkanları nəzərdə tutulur, ancaq bu dindirmənin texniki şərtləri müəyyən edilməmişdir. Bir çox hallarda şahidlər, zərərçəkmişlər, ekspertlər və digər iştirakçılar məhkəmə baxışında dəfələrlə iştirak etməli olurlar. Bu isə təbii ki, şahidlərin işdən ayrılması, ölkənin bir regionundan digərinə getməsi və müəyyən xərclərlə bağlıdır. Hesab edirik ki, milli məhkəmələrdə prosesin müəyyən iştirakçılarının video rabitə kanallarından istifadə etməklə dindirilməsi zamanı BCM-nin tətbiq etdiyi texniki qaydalardan istifadə olunması məhkəmə proseslərinin operativliyinə və əlavə narahatlıqların aradan qaldırılmasına kömək etmiş olar. Buna görə də ***CPM-nin 51-2.6-cı maddəsinə "Məhkəmədən kənar yerlərdə olan proses iştirakçılarının dindirilməsi və ya ifadələrinin alınması ilə bağlı iştirakçının olduğu və ya yaşayış yeri üzrə məhkəmə, polis orqanlarının və digər dövlət orqanlarının binalarına üstünlük verilməlidir" cümləsi əlavə edilməlidir.***

CPM-nin 51-2-ci maddəsi cinayət mühakimə icraatının yalnız videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilməsini nəzərdə tutur. Hesab edirik ki, bəzi hallarda videokonfrans əlaqə sistemindən istifadə mümkün olmadıqda, audio əlaqə sistemindən istifadə edilməsi də nəzərdə tutulmalıdır və ***CPM-nə aşağıdakı məzmunda yeni hissə əlavə edilməlidir: "51-12.14. Cinayət mühakimə icraatının videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilməsi mümkün olmadıqda audio əlaqə sistemindən istifadə edilə bilər".***

BCM-nin Prokuroru ayrı-ayrı dövlətlərlə də əməkdaşlıq haqqında sazişlər bağlaya bilər. Məsələn, BCM-nin Prokuroru və Kolumbiya hökuməti arasında əməkdaşlıq haqqında Saziş (2021) [403] səlahiyyətlər bölgüsünə xələl gətirmədən, bir-biri ilə əlaqəli yurisdiksiyaların həyata keçirilməsinə yardım göstərilməsini nəzərdə tuturdu.

Bu saziş həmçinin BCM-nin komplemantarlıq prinsipinin həyata keçirilməsinin nümunəsidir. Hökumət məhkəmə və prokurorluq işçilərinin, eləcə də müxtəlif hesabatlılıq mexanizmləri qarşısında çıxış edən iştirakçıların təhlükəsizliyini təmin etməli, müvafiq vəzifələri yerinə yetirmək üçün təyin edilmiş müxtəlif dövlət qurumları arasında tam əməkdaşlığı və koordinasiyanı təşviq etməli idi. Hökumət Kolumbiyada aparılan təhqiqatların və təqiblərin gedişatı barədə BCM-nin Prokurorunu məlumatlandırmaqda davam etməli, BCM-nin Prokurorunun müvafiq qeydlərə və sənədlərə çıxışını təmin etməli idi.

Sazişdə Kolumbiyalı hüquq mütəxəssisləri üçün layihə və proqramların təşkili, müxtəlif Palatalar tərəfindən çıxarılan qərarlarla bağlı maarifləndirmənin təşviq edilməsi nəzərdə tutulurdu. Bu saziş bir qədər nəzarət xarakterli idi. Belə ki, Prokuror istintaqın gedişinə birbaşa müdaxilə etməsə də, mütəmadi məlumatlandırılmalı idi, BCM-nin Prokuroru şəraitdə baş verən hər hansı əhəmiyyətli dəyişikliklə bağlı komplementarlığı yenidən qiymətləndirə bilərdi. Bu zaman ciddi problemlər olduqda, məsələn, müvafiq icraatın gedişatına və/və ya həqiqiliyinə və qərarların icrasına əhəmiyyətli dərəcədə mane ola biləcək hər hansı hallar baş verdikdə, o cümlədən cəzalandırıcı və bərpaedici xarakterli təsirli və mütənasib cəza sanksiyalarının tətbiqi; sülh sazişində müəyyən edilmiş məhkəmə sxeminin həqiqi milli məhkəmə prosesinin aparılmasını ləngidə və ya manea törədə biləcək hər hansı bir şəkildə dayandırılması və ya yenidən baxılması, BCM-ni komplementarlığı yenidən qiymətləndirməyə məcbur edə bilərdi. Bu sazişdə hüquqi məsələlər

üzrə yardıma Kolumbiya hüquqşünaslarının maarifləndirilməsi, istintaqın və məhkəmə proseslərinin lazımi qaydada həyata keçirilməsinə nəzarət aid edilmişdi, lakin bu nəzarət fəal prosessual müdaxilə edilməsini nəzərdə tutmurdu. Sazişin müddəalarının yerinə yetirilməməsi problem kimi qiymətləndirilsə, bu halda komplementarlığın pozulması, işlərə BCM tərəfindən baxılması tətbiq edilməli idi.

BCM-nin səmərəli fəaliyyəti onun dövlətlərlə əməkdaşlığından asılıdır. BCM-nin üzvü olan dövlətlərin belə əməkdaşlıq etmək vəzifəsidir, yəni təhqiqatlar, məhkəmə araşdırmaları və qərarların icrası zamanı istintaqa, sübutların toplanmasına, həbslərə, təhvil verilməyə və hökmlərin icrasına kömək etməlidirlər. BCM-nin bu əməkdaşlıqla bağlı mühüm xüsusiyyətlərindən biri də onun qarşısında qoyulmuş vəzifələri yerinə yetirə bilməsi üçün bütün dövlətlərlə əməkdaşlığa ehtiyacının olmasıdır.

BCM-nin dövlətlərlə əməkdaşlığı yalnız üzv olan dövlətlərlə deyil, həmçinin üzv olmayan dövlətlərlə də əməkdaşlığı nəzərdə tutur. Əslində müqavilələr onun tərəfi olan dövlətlərlə əməkdaşlığı tənzim edir. Ancaq Roma Statutunda əməkdaşlıq öhdəliyi iştirakçı olan və olmayan dövlətlər üçün fərqli şəkildə tərtib edilmişdir. Statutun 87(5)-ci maddəsi onun iştirakçısı olmayan dövlətlərin BCM ilə əməkdaşlığı ilə bağlı qeyd edir ki, *"Məhkəmə bu Statutun iştirakçısı olmayan hər hansı dövlətə xüsusi razılaşma, saziş əsasında və ya hər hansı digər müvafiq əsasda bu hissəyə uyğun yardım göstərməyi təklif edə bilər"*.

Beynəlxalq müqavilə hüququna uyğun olaraq, Məhkəmə ilə əməkdaşlıq etmək yalnız onun iştirakçılarının vəzifəsidir. Müqavilənin iştirakçısı olmayan dövlətlərin belə bir vəzifəsi yoxdur. Ancaq Müqavilələr Hüququ haqqında Konvensiyanın 35-ci maddəsi *"üçüncü dövlətlər üçün öhdəliklər nəzərdə tutan müqavilələr"* anlayışından istifadə edir və göstərir ki, müqavilənin tərəfləri üçüncü dövlətin yazılı şəkildə razılığı ilə müqavilədə üçüncü dövlətlər

üçün öhdəlik yaradılmasını nəzərdə tuta bilərlər. Deməli, bu öhdəlik bir tərəfli ola bilməz, üçüncü dövlətin özü bu öhdəliyi qəbul etməyə hazır olmalıdır və bunu bəyan etməlidir.

BCM üzv olmayan dövlətləri yardım göstərməyə dəvət edə bilər. Statutun 87(5)-ci maddəsi *"və ya hər hansı digər müvafiq əsasda"* yardım göstərməyə dəvət edə bilər ifadəsini də tətbiq edir. Məntiqi olaraq belə bir nəticə çıxır ki, BCM Statutun iştirakçısı olmayan dövlətlərlə əməkdaşlığı müəyyən konkret hallarda məcburi ola bilər. BCM-nin universal yurisdiksiyası olmasa da, Statutun Preambulasında aydın şəkildə qeyd edilmişdir ki, beynəlxalq ictimaiyyəti narahat edən ən ağır cinayətlər bütövlükdə cəzasız qalmamalıdır, beynəlxalq cinayətlərin törədilməsinə görə məsuliyyət daşıyan şəxslər üzərində cinayət ədalət mühakiməsinin həyata keçirilməsi hər bir dövlətin vəzifəsidir.

Ərazi və milli yurisdiksiya prinsipinə əsasən BCM-nin beynəlxalq cinayətlərin təqibi ilə bağlı yurisdiksiyası milli cinayət yurisdiksiyasının məhdudlaşdırılmasına səbəb ola bilməz. Dövlətlər universal yurisdiksiya əsasında təhqiqat apara və təqib edə bilərlər, yəni istənilən dövlət cinayətlərin törədildiyi yerdən, cinayəti törədənin və ya qurbanların vətəndaşlığından asılı olmayaraq beynəlxalq cinayətlərə dair cinayət işi qaldıra bilərlər. Buna görə də universal yurisdiksiya prinsipinə əsasən hətta üzv olmayan dövlətlərin vətəndaşları tərəfindən törədilən cinayətlərin və ya Məhkəmənin Statutunda nəzərdə tutulan cinayətlərin təqibini həyata keçirə bilərlər.

Qeyd etmək lazımdır ki, üzv olmayan dövlətlərin vətəndaşları tərəfindən başqa dövlətin ərazisində törədilmiş cinayətləri təqib etmək yurisdiksiyası vardır. Dövlətin universal yurisdiksiya əsasında cinayətkarı təqib etməsi üçün cinayətkarın onun ərazisində olması tələb olunur. Universal yurisdiksiya prinsipi dünya birliyi üçün təhlükəli olan ağır cinayətləri törədənlərin cəzasız qalmamasından çıxış edir. Məsələn, Suriya Roma Statutunun tərəfi olmadığı üçün Məhkəmə Suriyada baş verən cinayətlərlə bağlı təhqiqata başlaya

bilmədi, həmçinin Rusiya və Çin BMT Təhlükəsizlik Şurası tərəfindən situasiyanın Məhkəməyə göndərilməsinə veto qoydular. Almaniya Federal Baş Prokuroru universal yurisdiksiya prinsipi əsasında Suriyada beynəlxalq cinayətlərin törədilməsində təqsirli olan Suriya rəsmilərindən biri kimi Cəmil Həsənlə bağlı araşdırmalara başladı və 2018-ci ilin iyununda Federal Ədalət Məhkəməsi onun barəsində həbs qərarı çıxardı [530].

Həmçinin Koblenz Ali Regional Məhkəməsi (Almaniya) Suriya Baş Kəşfiyyat Xidmətinin keçmiş üzvlərini (Ənvar R. və Eyad A.) insanlığa qarşı cinayətlərdə ittiham etmişdir. Məhkəmə prosesi 23 aprel 2020-ci ildə başlamışdır və bu, Suriyada bir çox insana işgəncə verilməsində iştirakçılıqda şübhəli bilinən prezident Əsəd rejiminin məmurlarına qarşı universal yurisdiksiya prinsipi əsasında başlanmış ilk məhkəmədir və təqsirləndirilən Eyad A. Dəməşqdə saxlanılan etirazçılara işgəncə verilməsinə köməklik göstərdiyinə görə təqsirli bilinərək, dörd il yarım müddətinə azadlıqdan məhrum edilmişdir [471].

Suriya rəsmilərinə qarşı şikayətlər Livan, ABŞ, Fransa və İspaniya kimi digər dövlətlərdə universal yurisdiksiya əsasında qəbul edilmişdir. İki dövlətin Suriya Hərbi Hava Qüvvələri Kəşfiyyatının eyni məmuruna qarşı ayrı-ayrılıqda həbs orderi verdiyi hallar da var. 2018-ci ilin oktyabrında Almaniya Federal Ədliyyə Məhkəməsi tərəfindən həbs qərarı verildikdən dərhal sonra, Fransa hakimiyyəti Cəmil Həsənə (Hava Qüvvələri Kəşfiyyat İdarəsinin rəisi) və Suriya təhlükəsizlik xidmətinin digər iki məmuruna qarşı da eyni qərarı verdi. Belə şəraitdə bir neçə səlahiyyətli orqan eyni iş üzrə yurisdiksiyanı təsdiqlədikdə, hər zaman hansı dövlətin cinayət təqibinə üstünlük veriləcəyi sualı yaranır. Əlbəttə, bu zaman ərazi yurisdiksiyası nəzərə alınmalıdır, çünki bu dövlətin faktlara və sübutlara birbaşa çıxışı vardır.

Cinayət işini başlayan dövlət sərəncamında olan faktlara və sübutlara əsaslanaraq, cinayət törətməsi iddia olunan şəxs onun ərа-

zisində yoxdursa, adətən beynəlxalq həbs orderi və ya axtarışa verilməsi barədə qərar qəbul edir. Axtarılan şəxs digər dövlətin ərazisində olduqda, onun ekstradisiyası üçün həmin dövlətə müraciət edilir. Beləliklə, cinayətkarın ekstradisiyası universal yurisdiksiyanın uğuruna təsir edən əsas aspektlərdən biridir. Ekstradisiya və ya mühakimə etmə öhdəliyi (aut dedere aut judicare) beynəlxalq hüququn tanınmış prinsiplərindən biridir və mahiyyət etibarı ilə universal yurisdiksiya prinsipi ilə bağlıdır, ona yardım edir, cəzasızlığa qarşı onunla birgə mübarizə aparır.

Heç bir ərazi və ya milli yurisdiksiya yoxdursa və ya dövlət Məhkəmənin yurisdiksiyasını qəbul etmirsə və Təhlükəsizlik Şurasının müraciəti yoxdursa, üzv olmayan dövlətin vətəndaşları olan təqsirkarlar BCM tərəfindən təqibdən kənarda qalırlar.

BCM-nin yurisdiksiyasının tamamlayıcılıq prinsipi ilk növbədə üzv dövlətlərin yurisdiksiyasını həyata keçirməsini, yalnız üzv dövlətlər "istintaq və ya təqibi həyata keçirmək istəmədikdə və ya edə bilmədikdə" BCM-nin yurisdiksiyası tətbiq olunur. Bu isə o deməkdir ki, üzv dövlətlərlə bağlı BCM universal yurisdiksiyaya malikdir. Universal yurisdiksiya ərazi yurisdiksiyasından kənarda o halda tətbiq olunur ki, ərazi dövləti cinayət təqibini həyata keçirmək istəmir. Üçüncü dövlət cinayət təqibini o zaman başlaya bilər ki, ərazi və ya vətəndaşlıq dövləti açıq-aşkar cinayətkarı təqib etmək istəmir və ya bunu etmək iqtidarında deyildir.

BCM-nin üzvü olmayan dövlətlərin BCM-lə əməkdaşlığı iki halda mümkündür. Birincisi, tərəf olmayan dövlət Statutun 12(3)-cü maddəsinə uyğun olaraq, Məhkəmənin yurisdiksiyasını qəbul etdikdə və beləliklə, o, həm də bu çərçivədə əməkdaşlığa razılıq verir. Həmçinin Statutun 87 (5)-ci maddəsinə əsasən, Məhkəmə Statutun iştirakçısı olmayan istənilən dövlətə əməkdaşlığı, yardım göstərilməsini ad hoc əsasda təklif edə bilər. Digər bir halda isə BMT Nizamnaməsinin VII fəslində nəzərdə tutulduğu kimi, sülhə təhlükə olduqda, sülh pozulduqda və təcavüz aktı baş verdikdə,

Təhlükəsizlik Şurasının qərarı əsasında BMT üzvləri qarşılıqlı yardım göstərməlidirlər.

BCM-nin Statutunun 87 (7) maddəsinə əsasən iştirakçı dövlət bu Statutun müddəalarına zidd olaraq Məhkəmənin əməkdaşlıq haqqında sorğusunu yerinə yetirmədikdə və bununla da Məhkəmənin bu Statuta uyğun olaraq öz funksiyalarını və səlahiyyətlərini həyata keçirməsinə mane olarsa, Məhkəmə bu barədə rəy verə və məsələni İştirakçı Dövlətlər Assambleyasına və ya məsələ Məhkəməyə Təhlükəsizlik Şurası tərəfindən verildiyi hallarda, Təhlükəsizlik Şurasına təqdim edir. Deməli, həm Statutun iştirakçısı, həm də iştirakçısı olmayan dövlətlər əməkdaşlıq etmədikdə, BCM məsələ ilə bağlı rəy verir, yəni əməkdaşlığın olmaması halları ilə bağlı rəy verir. Əgər qeyd olunan situasiyalar yoxdursa, onda Məhkəmə dövlətləri bu cinayətlərlə mübarizə aparmağa və cinayətkarların cəzalandırılmasında iştirak etməyə həvəsləndirmək kimi təsir mexanizmindən istifadə edə bilər.

Məsələ BCM-nin İştirakçı Dövlətlər Assambleyasına verildikdə, Assambleyanın Prezidenti Büro adından dövlətə əməkdaşlıq etmək öhdəliyini xatırladan və Məhkəmə ilə necə əməkdaşlıq edəcəyinə dair fikirlərinin tələb olunduğu açıq məktub göndərir. Daha sonra Büro sorğu edilən dövlətlə açıq dialoqa kömək edir, məsələnin həlli ilə bağlı Assambleya tərəfindən hərəkətə ehtiyac olub-olmaması ilə bağlı tövsiyələr verir. Büro həmçinin məsələ ilə bağlı konkret tövsiyələri ehtiva edən qətnamə layihəsi üzərində məsləhətləşmələr aparmaq üçün xüsusi vasitəçi təyin edə bilər. Digər tərəfdən, tam əməkdaşlığa yardım etmək məqsədilə sorğu edilən dövlətin rəsmiləri və digər müvafiq maraqlı tərəflərlə əməkdaşlıq etməmək məsələsini aradan qaldırmaq üçün regional mərkəzlərdən istifadə nəzərdə tutulur.

Universal yurisdiksiya prinsipi üzv dövlətlərə hətta üzv olmayan dövlətlərin vətəndaşlarını da mühakimə etmək üçün lazımi səlahiyyət verir. Məlum olduğu kimi, bu yurisdiksiya xüsusilə ağır

cinayətlərin, hərbi cinayətlərin və ya insanlıq əleyhinə olan cinayətlərin təqib edilməsi üçün 1949-cu il Cenevrə konvensiyaları ilə nəzərdə tutulmuşdur, səlahiyyətli və səmərəli beynəlxalq məhkəmə orqanları olmadıqda tətbiq edilir. Universal yurisdiksiya prinsipi Azərbaycan Respublikası CM-nin 12.3-cü maddəsində öz əksini tapmışdır: "*Sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, insan alveri, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hava gəmisini qaçırma, girov götürmə, işgəncələr, dəniz quldurluğu, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi, saxta pul və ya qiymətli kağızları hazırlama və ya satma, beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə, radioaktiv materiallarla əlaqədar cinayətlər, habelə cəzalandırılması Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn digər cinayətlər törətmiş Azərbaycan Respublikası vətəndaşları, əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər, cinayətlərin törədilməsi yerindən asılı olmayaraq, bu Məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilir və cəzalandırılır"*.

Universal yurisdiksiyanın tətbiqini təmin etmək üçün iki əsas aspekt nəzərə alınmalıdır. Əvvəlcə, cinayət təqibində prioritet cinayətlə və ya qurbanla birbaşa əlaqəsi olan dövlətə (və ya dövlətlərə) verilməlidir (əlavə universal yurisdiksiya). Digər dövlət yalnız o halda yurisdiksiyadan istifadə edə bilər ki, ərazi dövləti araşdırma və ya təqib etmək vəzifəsini açıq şəkildə yerinə yetirmək istəmir və ya həyata keçirə bilmir. Dövlətlərin yurisdiksiyaları birbirini tamamlamırlar, əsasən paralel fəaliyyət göstərirlər. Başqa sözlə desək, ərazi dövlətinin sadəcə istəməməsi və ya bacarmaması digər dövlətin prokurorları və məhkəmələri tərəfindən cinayət işi başlamaq üçün heç bir məcburi öhdəlik yaratmır. Ancaq dövlətlər subsidiarlıq sisteminin daxil edilməsini və milli səviyyədə tamamlayıcılıq prinsipinin tətbiq edilməsini nəzərdə tutan qanunvericilik dəyişiklikləri yolu ilə vəziyyəti dəyişə bilərlər. Digər tərəfdən,

BCM və yerli yurisdiksiyaların bir-birini tamamlaması ilə bağlı sistem yaradılsa, əməkdaşlığın sistemli olmasından danışmaq olar.

Statutun iştirakçısı olmayan dövlət Məhkəmə ilə əməkdaşlıq etmirsə, BCM-nin İştirakçı dövlətlər Assambleyasının onu qınamaq və ya ondan öz vəzifələrini yerinə yetirməsini tələb etmək səlahiyyəti və ya imkanı yoxdur. Statutun iştirakçısı olmayan dövlətləri onu ratifikasiya etməyə məcbur edən mexanizm də yoxdur və bu mümkün də deyildir. Statutun tərəfi olmayan dövlət BCM ilə əməkdaşlıq etmək arzusunu ifadə etmiş və konkret iş üzrə BCM ilə müqavilə bağlamışdırsa, həmin konkret işdə iştirakçı dövlətlər kimi Məhkəmə ilə əməkdaşlıq etmək öhdəliyini qəbul etmişdir. BCM və ya Məhkəmənin iştirakçısı olan dövlətlər ondan əməkdaşlıq üzrə öhdəliklərini yerinə yetirməsini tələb etmək hüququna malikdirlər.

Eyni prinsip BMT Təhlükəsizlik Şurası tərəfindən BCM-yə göndərilən işlərə də aiddir. BMT Təhlükəsizlik Şurasının BMT Nizamnaməsinin VII Fəsli üzrə qəbul etdiyi qətnamələr BMT-nin bütün üzv dövlətləri üçün məcburidir. Bütün dövlətlər bunu həyata keçirməli və əməkdaşlıq etməlidir. Əgər dövlət əməkdaşlıqdan imtina edərsə, Məhkəmə, hətta həmin dövlət BCM-nin iştirakçısı olmasa belə, vəziyyəti BMT Təhlükəsizlik Şurasına göndərə bilər.

BCM ondan əvvəl yaradılmış ad hoc hərbi tribunallardan bir qədər fərqlidir. Onlar BMT Təhlükəsizlik Şurası tərəfindən Şuranın köməkçi orqanları kimi yaradıldığına görə, dövlət onlarla əməkdaşlıqdan imtina etdikdə, BMT Nizamnaməsindən irəli gələn birbaşa öhdəliklərini yerinə yetirməmiş hesab edilirdi. Təhlükəsizlik Şurasının BMT Nizamnaməsinin VII Fəslinə uyğun olaraq lazımi addımlar atmaq və hətta belə bir dövlətə qarşı sanksiyalar tətbiq etmək barədə qərar qəbul etmək hüququ vardır. BCM BMT Təhlükəsizlik Şurasının köməkçi orqanı və BMT-nin agentliyi deyildir. Əgər iş Təhlükəsizlik Şurası tərəfindən Məhkəməyə verilməmişdirsə, Məhkəmənin onu Şuraya göndərməsi üçün heç bir hüquqi

əsası yoxdur. Məsələnin İştirakçı dövlətlər Assambleyasının müzakirəsinə çıxarılması da kəskin addımlar atmaq üçün hüquqi əsas vermir. Çünki, Assambleya BMT Təhlükəsizlik Şurası ilə eyni səlahiyyətlərə malik deyildir və suveren dövlətə qarşı vəzifələrini yerinə yetirmədiyinə görə sanksiyalar tətbiq edə bilməz. İştirakçı dövlətlərin Assambleyası Məhkəmə adından, müvafiq dövlətlərə öz öhdəliklərinin yerinə yetirilməsini xatırladan qətnamələr qəbul edə bilər. Bu mənada Assambleyanın qətnamələri həm iştirakçı dövlətlərə, həm də tərəf olmayan dövlətlərə təsir göstərir. Əslində BCM-nin üzvlərinin sayı çox olarsa, BCM üzv olmayan dövlətlərlə hüquqi əməkdaşlıq problemlərini həll etmiş olardı.

Müqavilələr prinsipcə yalnız iştirakçı dövlətlər üçün məcburidir və iştirakçı olmayan dövlətlər üçün hüquq və ya öhdəliklər yaratmır. Lakin beynəlxalq hüququn ümumi prinsipləri baxımından BMT Təhlükəsizlik Şurası tərəfindən vəziyyətin Məhkəməyə göndərilməsi imkanını nəzərdən keçirsək, yəni BMT Təhlükəsizlik Şurasının BMT Nizamnaməsinə uyğun olaraq səlahiyyətlərini nəzərə alsaq, 1949-cu il Cenevrə Konvensiyaları üçün ümumi olan 1-ci maddəyə əsasən razılığa gələn yüksək tərəflər bütün hallarda bu Konvensiyaya hörmət etməyi və onun icrasını təmin etməyi öhdələrinə götürürlər. Bu müddəa artıq beynəlxalq adət hüququna çevrilmişdir. Bu aspektdə yanaşsaq, BCM ilə əməkdaşlıq könüllü xarakter daşımır. Dövlət Statuta qoşulmasa belə, bəzi hallarda BCM ilə əməkdaşlıq etmək məcburiyyətində qala bilər. Roma Statutunun 87-ci maddəsinə əsasən, Məhkəmə Statutun iştirakçısı olmayan hər hansı dövləti müqavilə bağlamağa, xüsusi razılaşma əsasında əməkdaşlıq etməyə və məhkəmə yardımı haqqında saziş bağlamağa dəvət edə bilər. Belə əməkdaşlıq üçün zərurət müxtəlif səbəblərdən yarana bilər.

BCM-nin iştirakçısı olma və Statutun ratifikasiya edilməsi milli qanunvericiliklərdə müvafiq dəyişikliklər edilməsini, o cümlədən BCM-nin yurisdiksiyasına aid olan cinayətlərlə bağlı ölkə vətəndaşının həbs edilməsini və məhkəmənin sərəncamına verilməsini,

təhvil vermə və ya digər hüquqi yardımla bağlı müxtəlif ölkələrdən və BCM-dən sorğular daxil olduqda BCM-nin sorğusunun icra edilməsinə üstünlük verilməsini, şahidlərin və zərərçəkmişlərin və onların ailə üzvlərinin və digər şəxslərin təhlükəsizliyinin təmin edilməsi üçün təhlükəsizlik tədbirlərinin qəbul edilməsini, o cümlədən təsvirin və ya səsin dəyişdirilməsinə imkan verən texniki vasitələrdən, audio-vizual texnologiyadan, təhlükə altında olan şəxsə münasibətdə təxəllüslərdən istifadə edilməsini və digər məsələlərin nəzərə alınmasını tələb edir. Təhlükəsizlik Şurasının situasiyanı BCM-nə göndərmək səlahiyyəti, Statutun iştirakçısı olmayan dövlətlərin Təhlükəsizlik Şurasının qərarlarını qəbul etmə, icra etmə və kömək göstərilməsi üzrə öhdəliklərinin olması həm Statutun ratifikasiyası, həm də qoşulmama barədə qərar qəbul edilərkən dövlətin və vətəndaşların təhlükəsizliyinin prioritet təmin edilməsindən çıxış edərək hərtərəfli təhlil edilməlidir.

BCM-nin Statutunun və Azərbaycan Respublikasının qanunvericiliyinin təhlili göstərir ki, ***BCM və Azərbaycan Respublikası arasında hüquqi yardım məsələləri ilə bağlı konkret hüquqi çərçivə olmasa da, dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardımla bağlı milli qanunvericiliyin müəyyən əlavələrlə BCM ilə münasibətlərə də tətbiq edilməsi mümkündür. Hətta, qanunvericiliyə belə əlavələr olmasa və ya BCM-lə əməkdaşlıq haqqında müqavilə olmadıqda belə, BCM-nin Statutunda qeyd olunan cinayətlərin universal yurisdiksiyaya daxil olmasından, digər beynəlxalq müqavilələrlə nəzərdə tutulmasından çıxış edərək, BCM-nin hüquqi yardım barəsində sorğuları icra olunmalıdır. Əslində müqavilə olmadıqda BCM-nin hüquqi yardım haqqında sorğularının diplomatik kanallarla Azərbaycana göndərilməsi və həll edilməsi mümkündür. Burada cinayət işləri üzrə hüquqi yardımın şərti kimi qarşılıqlılıq əsasında göstərilməsindən kənara çıxılmalıdır.***

5.2. Beynəlxalq Cinayət Məhkəməsinin beynəlxalq təşkilatlarla hüquqi məsələlər üzrə əməkdaşlıq məsələləri

BCM-nin beynəlxalq təşkilatlarla əməkdaşlığı bir neçə istiqamətdə həyata keçirilir: BCM-nin fəaliyyətinin müdafiə edilməsi, Statutunun ratifikasiya edilməsinin, qərarlarının icra edilməsinin təşviq edilməsi, BCM-nin fəaliyyətinin həyata keçirilməsinə yardım edilməsi və BCM-nin ədalət mühakiməsini həyata keçirərkən lazımi sənədlər və informasiya ilə təmin edilməsi.

BCM-nin fəaliyyətinin uğurla həyata keçirilməsi və səmərəliliyi üçün əməkdaşlıq vacibdir. Əməkdaşlıq həm hüquqi yardım, həm də hüquqi məsələlərlə bağlı əməkdaşlığa aid ola bilər. Hüquqi məsələlərlə bağlı əməkdaşlığa həmçinin potensialın artırılması, qabaqcıl təcrübə və biliklərin verilməsi, qanunvericilik sahəsində əməkdaşlıq, məsələn, qanunvericilik layihələrinin tərtib edilməsində köməklik, həmçinin hüquq tətbiqedici təcrübədə və informasiya texnologiyaları sahəsində köməklik daxildir. Əslində bu sahələri texniki əməkdaşlıq adlandırırlar. Ancaq hesab edirik ki, bu texniki əməkdaşlıq da hüquqi məsələlər üzrə əməkdaşlığın bir formasıdır, BCM-nin fəaliyyətinin səmərəli həyata keçirilməsinə xidmət edir. Yardım seminarların, elektron təlimlərin, müşavirələrin keçirilməsi, tanışlıq turlarının və ekspert missiyalarının təşkili formasında ola bilər. Məsələn, 14-15 noyabr 2023-cü il tarixlərində Məhkəmə və Koreya Respublikası Hökuməti "Beynəlxalq Cinayət Məhkəməsi və Roma Statutunun keçmişi, bu günü və gələcəyi - daha böyük regional həmrəylik naminə baxış" mövzusunda Koreya Respublikası, Avstraliya, Banqladeş, Kamboca, Yaponiya, Maldiv adaları, Monqolustan, Tailand və Şərqi Timordan və regional beynəlxalq təşkilatlardan yüksək səviyyəli nazirlik, məhkəmə və texniki dövlət qurumlarının iştirakı ilə yüksək səviyyəli regional seminar [481], Asiya-Sakit Okean regionunda tərəfdaş universitetlərlə "BCM-də qurbanlar" mövzusunda vebinar keçirilmişdir [580].

Statutun 2-ci maddəsinə uyğun olaraq, BCM BMT ilə münasibətlərini İştirakçı dövlətlərin Assambleyası tərəfindən bəyənilən Sazişlə müəyyən edir.

BMT və BCM arasında münasibətlər haqqında Saziş [561] BMT-nin bütün qurumları və bölmələri arasında əməkdaşlıq üçün ümumi əməkdaşlıq çərçivəsini müəyyən edir. Əməkdaşlıqda BCM tərəfindən İştirakçı dövlətlər Assambleyasının Katibliyi çıxış edir. Həmçinin BCM-nin bölmələri (Apellyasiya Bölməsi, Məhkəmə Bölməsi və İlkin İctiaat Bölməsi) BMT ilə əməkdaşlıqda yaxından iştirak edirlər. Bölmələrə hakimlərin təyinatı hər bir bölmənin yerinə yetirdiyi funksiyaların xarakterinə, hakimlərin ixtisasına və təcrübəsinə əsasən həyata keçirilir. BCM ilə BMT arasında institusional əlaqələr qarşılıqlı təmsilçilik əsasında qurulmuşdur. BCM-nin nümayəndələri BMT Baş Assambleyasının işində iştirak edə bilərlər. BMT BCM-ni onun himayəsi altında keçirilən, BCM üçün maraq kəsb edən məsələlər üzrə konfrans və görüşlərə dəvət edir. Təhlükəsizlik Şurası BCM-nin fəaliyyətinə aid məsələlərə baxarkən, BCM-nin Prezidenti və ya Prokuroru onun dəvəti ilə BCM-nin yurisdiksiyasına aid olan məsələlərlə bağlı yardım göstərmək üçün Təhlükəsizlik Şurasına gələ bilər. Prosedur və sübutetmə Qaydalarının tətbiq oluna bilən müddəalarına riayət etməklə, BMT onun üçün maraq kəsb edən işlər üzrə BCM-nin palatalarında açıq dinləmələrdə iştirak etmək üçün daimi dəvəti vardır. BCM məqsədəmüvafiq hesab etdikdə, BMT Baş katibi vasitəsilə özünün fəaliyyəti haqqında hesabat təqdim edir.

Sazişin III hissəsi əməkdaşlıq və məhkəmə yardımı məsələlərinə həsr edilmiş 15-ci maddəsinə əsasən, BMT BCM ilə əməkdaşlıq etməyi öz üzərinə götürür və BCM tərəfindən tələb olunan məlumat və sənədləri təqdim edir. Belə ki, Statutun 87-ci maddəsinin 6-cı bəndinə əsasən, BCM istənilən hökumətlərarası təşkilatdan informasiya və ya sənədlər təqdim edilməsini xahiş edə bilər. Həmçinin əməkdaşlıq informasiya və sənədlərin təqdim edilməsi ilə

məhdudlaşmır, BCM xahiş etdiyi təşkilatla razılaşdırmaqla, digər formalarda da yardım göstərilməsini tələb edə bilər. Qeyd olunan Saziş BMT ilə BCM arasında əməkdaşlığa həsr olunsa da, BMT-nin müvafiq proqramları, fondları və bölmələri ilə BCM-nin əməkdaşlığının və digər formalarda yardım göstərilməsinin də ümumi çərçivələrini müəyyən edir. Saziş müəyyən edir ki, informasiyanın və ya sənədlərin açılması və ya əməkdaşlıq BMT-nin fəaliyyətdə olan və ya keçmiş əməkdaşlarının təhlükəsizliyi üçün təhlükə yaradarsa və ya BMT tərəfindən hər hansı əməliyyatın və ya tədbirlərin lazımi qaydada keçirilməsini və ya təhlükəsizliyini pozarsa, BCM müdafiənin təmin olunması üçün lazımi tədbirlərin qəbul edilməsi haqqında həm özünün təşəbbüsü ilə, həm də BMT-nin xahişi ilə sərəncam verə bilər. Məhkəmə yardımına həmçinin BMT əməkdaşlarının şahid ifadələri verməsinin təmin edilməsi daxildir. BCM BMT-nin hər hansı əməkdaşından şahid ifadəsi verməsini xahiş edirsə, BMT həmin əməkdaşa münasibətdə konfidensiallığın saxlanılması haqqında öhdəliyindən imtina edir. Baş katib belə şahidlərə kömək etmək üçün BCM-nin icazəsi ilə BMT nümayəndəsini təyin edə bilər.

BMT bir neçə sülh qoruma əməliyyatlarında ev sahibi dövlətlərin beynəlxalq cinayət prosesləri ilə əməkdaşlıq etmək vəzifəsini dəstəkləmişdir. Belə ki, bir sıra hallarda fəal hərbi əməliyyatlar BMT missiyalarının da BCM-nə yardım göstərməsinə mane ola bilər, belə maneçilik şahidlərin, zərərçəkmişlərin qorxudulması, ələ alınması və s. ilə bağlı ola bilər. BCM-nin fəaliyyətinin həyata keçirilməsi üçün sülh qoruma əməliyyatlarının dəstəyi çox vacibdir. Məsələn, Təhlükəsizlik Şurasının (2014) Qətnaməsinə [534] əsasən Mərkəzi Afrika Respublikasında Milli Keçid Şurası dəyişdirildi və əsas məqsədlərdən biri ölkədə hərbi cinayətlərə və insanlığa qarşı cinayətlərə görə məsuliyyət daşıyanların tutulması və mühakimə olunması idi.

Regional dövlətlərin BCM ilə əməkdaşlığının təmin edilməsi, o cümlədən bütün respublikanın ərazisində baş verən, həmçinin

keçmiş "Seleka" və "Anti-balaka" daxil olmaqla müxtəlif silahlı qruplar tərəfindən törədilən cinayətlərin təqib edilməsi və Təhlükəsizlik Şurasına məlumat verilməsi, pozuntuların və ya hüquqlardan sui-istifadənin qarşısının alınmasına və bu məqsədlə həmçinin insan hüquqları üzrə nəzarətçilərin yerləşdirilməsinə kömək etmək nəzərdə tutulurdu.

BMT ilə BCM-nin əməkdaşlığı onun bütün qurumlarını əhatə edir. BCM-nin Təhlükəsizlik Şurası ilə əməkdaşlığı xüsusi əhəmiyyət kəsb edir. BCM ilə BMT arasında Sazişdə Təhlükəsizlik Şurası ilə BCM arasındakı münasibətlər də tənzim olunur. Statutda da qeyd olunduğu kimi, BCM-də iş başlanılması üçün əsaslardan biri də situasiyanın BCM-nə Təhlükəsizlik Şurası tərəfindən verilməsidir. BCM və Təhlükəsizlik Şurası arasındakı münasibətlər qarşılıqlı xarakter daşıyır. Belə ki, BCM də Statutun 13-cü maddəsinin (a) bəndinə əsasən Məhkəmənin yurisdiksiyasına aid olan bir və ya bir neçə cinayət törədildikdə Təhlükəsizlik Şurasının qərarını və müvafiq sənədləri və materialları BMT-nin Baş katibi vasitəsilə BCM-nin Prokuroruna göndərir.

BCM-nin Prokuroru BMT və ya onun proqramları, fondları və idarələri ilə məlumatların məxfiliyinin, hər hansı bir şəxsin müdafiəsinin təmin edilməsi və s. məqsədlərlə əməkdaşlığı asanlaşdırmaq üçün zəruri ola biləcək razılaşmalar bağlaya bilər. Belə razılaşmaların predmeti informasiyanın konfidensiallığının qorunması, BMT-nin keçmiş və hazırkı əməkdaşları da daxil olmaqla istənilən şəxsin müdafiəsi və BMT-nin hər hansı əməliyyat və ya fəaliyyətinin təhlükəsizliyinin və ya lazımı həyata keçirilməsinin təmin edilməsi ola bilər.

BCM BMT-də və ya nəzarətində olan və hər hansı dövlət, hökumətlərarası və ya beynəlxalq təşkilat tərəfindən məxfilik şəraitində ona açıqlanmış məlumat və ya sənədləri təqdim etməyi tələb edə bilər. BCM-nin iştirakçısı olan dövlət belə sənədləri təqdim etmirsə, əgər belə iştirakçı BMT-nin üzvü olan dövlətdirsə, BMT

BCM-ni məlumatlandırır və açıqlama məsələsi müvafiq iştirakçı dövlət və BCM tərəfindən həll edilir. Məlumatı açıqlamaqdan imtina edən dövlət Statutun iştirakçısı olmadıqda, BMT tələb olunan məlumatların verilməsini təmin edə bilməyəcəyini BCM-nə bildirir və əvvəlcədən üzərinə götürdüyü konfidensiallığın qorunması öhdəliyinə əsaslanır.

BMT və BCM-nin Prokuroru arasında BMT-nin Kot-d'İvuarda BMT əməliyyatlarının aparılması ilə bağlı Anlaşma Memorandumunda [504] BCM-nin Prokurorunun sülhyaratma əməliyyatları ilə bağlı bütün sənədlərə və informasiyaya çıxışının təmin olunması, hüquqi yardımla bağlı köməklik göstərilməsi qeyd olunur.

BCM və BMT-nin İnkişaf Proqramı arasında bütün dünyada BCM-nə əməliyyat dəstəyini asanlaşdıracaq Çərçivə Sazişi [575] imzalanmışdır. Sazişə əsasən İnkişaf Proqramı BCM-nin proqram və fəaliyyətlərinin daha səmərəli həyata keçirməsinə kömək edilməsini öz üzərinə götürür. Bu yardımın məqsədi beynəlxalq ictimaiyyəti narahat edən ən ağır cinayətlərin araşdırılmasında və cinayətkarların mühakimə edilməsində yardım göstərilməsidir.

UNESCO ilə BCM adından fəaliyyət göstərən Qurbanların məqsədli Fondu arasında çərçivə sazişi (10 sentyabr 2021) [473] Timbuktu (Mali) mədəni irsinin qorunmasına və mədəni irsə qarşı cinayətlərin qurbanlarına kompensasiya ödənilməsinə yönəlmiş "Timbuktu mühafizə olunan memarlıq abidələrinin bərpası və təşviqi" layihəsinin həyata keçirilməsi məqsədilə imzalanmışdır. Məqsədli Qrup ikili mandata malikdir: (i) məhkəmənin qərarı ilə təyin olunan zərərin ödənilməsinin həyata keçirilməsi və (ii) qurbanlara və onların ailələrinə fiziki, psixoloji və maddi dəstək göstərilməsi. Qrup zərərçəkmişlərə öz icmalarında layiqli və uzunmüddətli həyata qayıtmağa kömək etmək və bununla da bərpaedici ədaləti və barışığı təşviq etməklə davamlı sülhün əldə edilməsinə kömək etməyə çalışır. Belə ki, 27 sentyabr 2016-cı il tarixində

BCM cənab Əhməd əl-Fəqi əl-Mehdini Malinin Timbuktu şəhərindəki doqquz məqbərəyə və bir məscidə, o cümlədən dini məqsədlər üçün nəzərdə tutulmuş tarixi abidələrə və tikililərə qəsdən hücumları təşkil etməkdə, müharibə cinayətində iştirakçı kimi yekdilliklə təqsirkar hesab etmişdir. 17 avqust 2017-ci ildə BCM cənab Mehdidən Timbuktu icmasına fərdi və kollektiv təzminat xərcləri üçün 2,7 milyon avro ödəməyi tələb edən təzminat sərəncamı verdi. Belə əməkdaşlıq Sazişləri BCM-nin qərarlarının həyata keçirilməsinin səmərəliliyinin yüksəldilməsinə yönəldilmişdir.

Vətəndaş cəmiyyəti təşkilatları BCM-nin yaradılması ideyasının yayılmasında və müdafiə edilməsində mühüm rol oynamış və hazırda da BCM haqqında məlumatlılığın artırılmasında yaxından iştirak edirlər. BCM-nin araşdırma apardığı ölkələrdə vətəndaş cəmiyyəti nümayəndələri ilə görüşlər və s. tədbirlər keçirilir. BCM-nin Haaqadakı iqamətgahında beynəlxalq və yerli QHT nümayəndələri ilə qarşılıqlı maraq doğuran məsələlərə dair iki ildən bir dəyirmi masa keçirilir. Bundan əlavə, QHT üzvləri İştirakçı dövlətlər Assambleyasının sessiyalarında müşahidəçi kimi iştirak edirlər.

QHT-lər BCM-nin fəaliyyətində vasitəçi kimi də iştirak edə bilərlər. BCM vasitəçilərin onun fəaliyyətində iştirakı ilə bağlı təlimatlar qəbul edir. Vasitəçi BCM-nin və ya vəkillərin orqan və ya bölmələrindən biri və zərərçəkmişlər, şahidlər, təzminat tələb edən və/və ya təsirə məruz qalmış icmalar arasında əlaqəni asanlaşdıran və ya əlaqəni təmin edən şəxs və ya qurumdur. BCM tərəfindən yardım göstərilməsi üçün vasitəçilərə müraciət edilmir, onlar özləri könüllü olaraq vasitəçi qismində öz yardımlarını təklif edirlər. Lakin bu vasitəçilik BCM və vəkillərin müxtəlif orqanları və ya bölmələrinin müxtəlif funksiyaları yerinə yetirmək üçün istifadə etdikləri müxtəlif kateqoriyalı vasitəçilərdən fərqlənir. Roma Statutunun 79-cu maddəsinə uyğun olaraq, vasitəçilər adətən, ictimai məlumatlandırma fəaliyyətlərinə kömək edirlər; sübut daşıyıcılarını və/və ya şahidləri müəyyən etməkdə və potensial şahidlərlə daha

asan təmas qurmaqla araşdırma aparılmasına yardım göstərirlər; ərizə təqdim edilməsi, nümayəndəlik və ya təzminatla bağlı qurbanlara kömək edirlər; Məhkəmə ilə birbaşa əlaqənin zərər çəkmiş şəxsin/şahidin təhlükəsizliyinə təhlükə yarada biləcəyi hallarda onlarla ünsiyyət qururlar və s.

Vasitəçi tərəfindən göstərilən xidmətlər ümumiyyətlə könüllülük əsasında həyata keçirilir və BCM-nin orqanı və ya bölməsi və ya vəkillə fiziki şəxs və ya şirkət arasında bağlanan müqavilə əsasında göstərilən xidmətlərdən fərqlənir. "Məhkəmə ilə əlaqələri əməkdaşlıq müqavilələrinə (məsələn, memorandumlara və milli qanunvericiliyə) əsaslanan qurumlar da vasitəçi hesab edilmir" [477]. Vasitəçiliklə bağlı qaydalar BMT, hökumətlərarası təşkilatlar, bu sahədə fəaliyyət göstərən beynəlxalq qeyri-hökumət təşkilatları, dövlət orqanları və milli hakimiyyət orqanları kimi qurumları da əhatə edir.

Vasitəçi BCM-nin və ya vəkillərin orqanı və ya bölməsi ilə birdəfəlik və ya uzun müddət ərzində və/və ya çoxsaylı ünsiyyət qurmaqla əməkdaşlıq edə bilər. Vasitəçi BCM-nin və ya vəkillərin yalnız bir və ya bir neçə orqanı və ya bölməsi ilə əlaqə saxlaya bilər. "Vasitəçilər üçün davranış Məcəlləsi"nin surəti ilk fürsətdə bütün vasitəçilərə çatdırılmalı və onlardan Məcəllənin alındığını təsdiq edən sənədi imzalamaları xahiş edilməlidir. Vasitəçiyə Məcəllənin surətini təqdim etmək mümkün olmadıqda (məsələn, təhlükəsizlik səbəbi ilə) Məcəllədə nəzərdə tutulmuş öhdəlikləri ilə bağlı məlumat verilməli və onlar məlumatlandırıldıqları və öhdəliklərini başa düşdükləri barədə bildirişi imzalamalıdırlar. Müvafiq vasitəçiləri müəyyən etmək üçün BCM və vəkillərin orqanları və bölmələri mümkün qədər tez bir zamanda potensial vasitəçinin (şəxsin/təşkilatın) müəyyən edilmiş funksiyaları yerinə yetirmək qabiliyyətinin qiymətləndirilməsini həyata keçirməlidir. Bu məqsədlə, BCM-nin qeyd olunan orqanları ətraflı məlumat toplamalı və potensial vasi-

təçi haqqında profil hazırlamalıdır. Potensial vasitəçinin BCM orqanları ilə münasibətlərini və öhdəliklərini yerinə yetirmək üçün uyğun olmaları qiymətləndirilir. Qiymətləndirmə zamanı məxfiliyə sadiqlik, vasitəçinin məlumatın məxfiliyinə hörmət etmək istəyi və bacarığı; dürüst hərəkət etmək və qurbanların/şahidlərin/təqsirləndirilənlərin ləyaqətinə, rifahına və şəxsi həyatına hörmət nümayiş etdirmək istəyi və bacarığı, məhkəmə qərarlarına və qüvvədə olan qaydalara uyğun olaraq fəaliyyət göstərmək istəyi və bacarığı, qarşılıqlı əlaqə nəticəsində yaranan risk, funksiyaları yerinə yetirmək üçün psixo-sosial durum, nəticələri əldə etmək bacarığı, təsirə məruz qalan icmalara mədəni, sosial və linqvistik yaxınlıq, regional, milli və ya yerli sosial-siyasi kontekst haqqında bilik və anlayış, təsirə məruz qalan əhaliyə və/yaxud xüsusi qruplara coğrafi və ya sosial yaxınlıq və s. qiymətləndirilir.

BCM və İnterpol arasında əməkdaşlıq daha intensiv xarakter daşıyır. BCM-nin Prokuroru ilə Beynəlxalq Cinayət Polisi Təşkilatı arasında əməkdaşlıq Sazişi [442] qeyd edir ki, əməkdaşlığın əsas məqsədi cinayətlərin qarşısının alınması və cinayət mühakiməsi sahəsində, o cümlədən polis məlumatlarının mübadiləsi və cinayətlərin təhlilinin aparılması, qaçmış şəxslərin və şübhəli şəxslərin axtarışı sahəsində əməkdaşlıq üçün çərçivə yaratmaq, İnterpol bildirişlərinin nəşri və yayılması, məlumatların ötürülməsi, İnterpolun telekommunikasiya şəbəkəsinə və məlumat bazalarına çıxışın təmin edilməsidir.

Məlumat mübadiləsi İnterpolun tətbiq olunan qaydaları ilə müəyyən edilmiş polis məlumatları da daxil olmaqla, məlumat mübadiləsini nəzərdə tutur. Lakin məlumat mübadiləsi zamanı konfidensiallığa riayət edilməlidir. İnterpolun Baş Katibliyi sorğuların icrasının asanlaşdırılması üçün bütün növ İnterpol bildirişləri dərc edilməli və Milli Mərkəzi Bürolara göndərilməlidir, axtarışda olan şəxslər barədə məlumatların dövriyyəsi və belə şəxslərin təqibdən yayınmasının qarşısının alınması üçün qırmızı bildirişlər; əlavə

məlumat, məsələn, təqsirkarlar və ya əsas şahidlər haqqında məlumat əldə etmək üçün mavi bildirişlər; itkin düşmüş şəxslərin axtarışı üçün sarı bildirişlər; cəsədlərin tanınmasını asanlaşdırmaq üçün qara bildirişlər nəzərdə tutulmuşdur.

01 iyun 2006-cı ildə İnterpol Şimali Uqandada hərbi cinayətlər və insanlıq əleyhinə cinayətlərdə şübhəli bilinən beş şəxs üçün BCM adından ilk axtarış elanları vermişdir. İnterpolun qırmızı bildirişləri, hamısı "Rəbbin Müqavimət Ordusu"nun üzvləri olan və qətl, zorlama və uşaqların məcburi hərbi xidmətə cəlb edilməsi də daxil olmaqla, bir sıra cinayətlərdə ittiham olunan şəxslər üçün BCM tərəfindən verilən həbs orderlərinə əsaslanır. Qırmızı bildirişlər İnterpolun bütün 184 üzv ölkəsi arasında yayılmışdır, şəxslərin BCM-nə təslim olana qədər tutulması və saxlanılması tələbi qoyulmuşdur. Keçmiş Yuqoslaviya və Ruanda üzrə Beynəlxalq Cinayət Tribunalları, BMT-nin Kosovodakı Missiyası və Sierra Leone üzrə Xüsusi Məhkəmə İnterpolun qırmızı bildirişlərin verilməsini tələb etmək üçün icazə verdiyi yeganə qeyri-milli hökumət orqanlarıdır. 2005-ci ildə İnterpol-BMT Xüsusi Bildirişi yaradıldı və bu günə qədər Əl-Qaidə və Talibana qarşı BMT-nin sanksiyalarının hədəfi olan şəxslər üçün 232 bildiriş verilmişdir [489].

BCM-nin orqanları və bölmələri də İnterpolla əməkdaşlığa mühüm əhəmiyyət verirlər. Belə əməkdaşlığa İnterpolun Prezidenti ilə BCM-nin Prezidentinin görüşləri, əməkdaşlığın qiymətləndirilməsi və gələcək istiqamətlərin müəyyən edilməsi aiddir. Məsələn, 7 sentyabr 2012-ci ildə BCM-nin Prezidenti İnterpolun soyqırım, insanlığa qarşı cinayətlər və müharibə cinayətləri ilə bağlı potensialının gücləndirilməsində, eləcə də cinayətlərin araşdırılmasında rolunun, BCM-nin təşəbbüsləri üçün İnterpol tərəfindən verilən dəstəyin vacibliyini etiraf etdi [490].

Avropa İttifaqı və BCM arasında əməkdaşlıq haqqında Sazişlər [404, 446, 451] BCM-nin fəaliyyətinin dəstəklənməsinə və Roma Statutunda iştirakçılığın genişləndirilməsinə həsr edilmişdir.

Sazişə əsasən hər iki tərəf qarşılıqlı maraq doğuran məsələlər üzrə məsləhətlər keçirilməsini nəzərdə tuturlar. Aİ BCM-nin yurisdiksiyasına aid olan məsələlərlə bağlı yardım göstərmək üçün BCM-ni onun himayəsi altında təşkil edilən və BCM-ni maraqlandıran məsələlərin müzakirə edildiyi iclas və konfranslarda iştirak etməyə dəvət edə bilər.

Aİ və BCM qarşılıqlı maraq doğuran məlumat və sənədlərin müntəzəm mübadiləsini təmin edirlər. Aİ öz təşəbbüsü ilə BCM-nin işinə aid ola biləcək məlumat və ya sənədləri təqdim edə bilər. BCM təhlükəsizlik məqsədilə Aİ-nın təqdim etdiyi məlumatlar və ya sənədlərin açıqlanması ilə bağlı, o cümlədən Aİ-nin tələbi ilə müvafiq qoruma tədbirləri görməlidir. Aİ və BCM-nin Prokuroru ümumi Saziş çərçivəsində əməkdaşlıq etməklə yanaşı, razılaşmalar və ya sazişlər bağlaya bilərlər. BCM Aİ ilə məsləhətləşmə əsasında hakimlər, prokurorlar, vəzifəli şəxslər və BCM ilə bağlı işlərdə məsləhətçilər üçün təlimlərin keçirilməsini və yardım göstərilməsini təşkil edir.

BQXK beynəlxalq humanitar hüququn qoruyucusu kimi beynəlxalq cinayətlərə görə cəzasızlığa son qoymaq səylərini, beynəlxalq cinayət tribunallarının yaradılmasını və Məhkəməni dəstəkləyir, ancaq BQXK-nın əməkdaşları şahidlik immunitetinə malikdirlər [562]. BQXK-nin fəaliyyətinin əsasını təşkil edən qərəzsizlik, neytrallıq və konfidensiallıq kimi prinsiplər, əsasən də konfidensiallıq prinsipi onun fəaliyyətinin səmərəli həyata keçirməsi üçün çox vacibdir. Bu, 1999-cu ildə Simic işi üzrə keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalının qərarında təsdiq edilmişdir. Qeyd edilmişdir ki, "*73... Buna görə də Məhkəmə kamerası hesab edir ki, Cenevrə Konvensiyalarının və Protokollarının tərəfləri öz üzərlərinə məhkəmə baxışlarının gedişində BQXK-nin və onun sərəncamında olan əməkdaşlarının işinə aid informasiyanın yayılmaması barədə müsbət ifadə olunmuş öhdəlik götürmüşlər və BQXK-*

nin belə yayılmamanı israr etmək hüququ vardır. ... Məhkəmə kamerasına belə qərara gəlməyə imkan verir ki, BQXK-nin beynəlxalq adət hüququna əsasən onun fəaliyyətinə aid olan informasiyanı açıqlamamaq hüququ vardır" [467].

BQXK-nin fəaliyyəti ilə bağlı məxfiliyi o deməkdir ki, o, aşkar etdiyi pozuntuları publik olaraq elan etmir, ancaq məlumat və nəticələri məsul tərəflə paylaşır. BCM və BQXK oxşar məqsədlər, yəni beynəlxalq humanitar hüquq pozuntularının qarşısının alınması üçün alternativ yanaşmalar tətbiq edir. BCM pozuntuları təqib edir və sanksiyalar tətbiq edir, BQXK isə məxfi dialoq yolu ilə beynəlxalq humanitar hüquqa riayət edilməsini təşviq edir.

BQXK silahlı münaqişədə və ya digər zorakılıq fəaliyyətlərində birbaşa iştirak etməyən (və ya artıq iştirak etməyən), yəni həmçinin silahını yerə qoymuş şəxslərin həyatını və ləyaqətini qoruyur və onlara yardım göstərir. BQXK müharibə cinayətlərinin təqibinin labüdlüyündən çıxış edir. Statutda müharibə cinayətlərinin elementləri müəyyən edilmiş və siyahısı verilmişdir. 2006-cı ilin aprelindən BQXK BCM-nin yurisdiksiyasında saxlanılan bütün şəxslərə baş çəkmək səlahiyyətinə malikdir və bununla bağlı Saziş [405] imzalanmışdır. Sazişə əsasən BQXK BCM-nin Həbs Mərkəzində saxlanılan bütün şəxslərə limitsiz baş çəkmək və müəssisə daxilində məhdudiyyətsiz hərəkət etmək hüququna malikdir. Belə başçəkmələr sırf humanitar məqsədlə həyata keçirilir və bütün saxlanılan şəxslərlə beynəlxalq standartlara uyğun davranılmasının müəyyən edilməsi və təmin edilməsi məqsədi daşıyır. BQXK saxlamanın maddi şəraitini, şəxslərin fiziki və psixoloji vəziyyətini və onlarla rəftarı yoxlayır, lazım gələrsə, yaşayış şəraitinin və rəftarın yaxşılaşdırılması üçün BCM-dən tədbirlər görülməsini xahiş edir. BQXK BCM-dən həbsin səbəblərini öyrənə bilər, ancaq onu müzakirə etmək hüququ yoxdur, təminatlara hörmətlə bağlı hər hansı problemi aşkar etdikdə, BCM-nə müvafiq təkliflər təqdim edə bi-

lər. BQXK-nin fəaliyyətinin effektivliyini və etibarlılığını təmin etmək üçün bütün məhkumlara məhdudiyyətsiz çıxış, həbsxananın bütün hissələrinə giriş imkanı, məhkumlarla təkbətək (şahidlər olmadan) danışmaq imkanı təmin edilməlidir. BQXK nümayəndələrinin səfərləri elan edilmir və bu səfərlər üçün ayrılmış vaxt məhdudlaşdırılmır. BQXK məhkumların yaşayış şəraitini və onlarla rəftarı hərtərəfli və ətraflı araşdırma aparmaq, əvvəlki səfərlər zamanı qeyd olunan hər hansı problemin aradan qaldırılmasını müəyyən etmək, ayrı-ayrı məhkumlar və ya bütövlükdə saxlanılan şəxslərlə bağlı humanitar xarakterli spesifik problemlərin həlli üçün xüsusi səfərlər həyata keçirə bilər. BQXK-nin nümayəndələri məhkumlarla fərdi müsahibələr aparmaq hüququna malikdirlər, belə müsahibələr həbsxana əməkdaşlarının müşahidəsindən və dinləməsindən kənarda, özlərinin seçdikləri məhkumlarla, müsahibə üçün yerin BQXK nümayəndələri tərəfindən seçilməsi şərti ilə aparılır.

BQXK-nın tibbi nümayəndələri seçdikləri bütün məhkumlarla təkbətək söhbət etmək və onları müayinə etmək hüququna malikdirlər. Bu məqsədlə onlara yer ayrılmalı və tibbi sənədləri ilə tanış olmaq üçün icazə verilməlidir. BQXK nümayəndələri məhkumların ailələri ilə əlaqə saxlaya bilərlər. BQXK başçəkmələrdən sonra öz nəticələri haqqında tövsiyə xarakterli hesabat tərtib edir, lazım gəldikdə, BCM-nin Prezidentinə və Qeydiyyatçına təqdim edir. BQXK öz hesabatlarında qaldırdığı humanitar məsələlərlə bağlı BCM ilə dialoq aparır, BCM tövsiyələrin yerinə yetirilməsi üçün hər cür səy göstərir, cavab olaraq görülən tədbirlər barədə BQXK-ya yazılı məlumat verir. Məhkumların saxlanma şəraiti və onlarla rəftara dair hesabatlar, həmçinin BCM ilə bağlı digər məlumatların məzmunu BQXK-nin siyasətinə uyğun olaraq məxfi saxlanılır. BCM-nin Qeydiyyatçısı məhkumun bir həbsxanadan digərinə köçürülməsi, o cümlədən məhkumun icra dövlətinə köçürülməsi, azad edilməsi, ölməsi və ya qaçması barədə BQXK-nə yazılı məlumat verir. BQXK məhkumların saxlanmasının fiziki və psixoloji

şəraitinin yaxşılaşdırılması üçün məhdud yardım göstərməsini təklif edə bilər. İcra dövləti BQXK-nə məhkum edilmiş şəxslərə baş çəkmək səlahiyyəti verirsə, BQXK müvafiq olaraq BCM-ni məlumatlandırır. BCM məxfilik təmin edilməklə, məhkum edilmiş şəxslərin saxlanma şəraiti və onlarla rəftara dair BQXK-dan məlumat, hesabat və ya ekspert rəyi tələb edə bilər.

Hazırda ***NATO ilə BCM arasında*** əməkdaşlıq haqqında heç bir müqavilə və ya saziş yoxdur. Ancaq NATO-nun Keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalı ilə əməkdaşlıq etməsi məlumdur. NATO 24 mart 1999-cu ildən 9 iyun 1999-cu ilə qədər Yuqoslaviya Federativ Respublikasına qarşı bombardman kampaniyası həyata keçirmişdir. NATO-nun bombalama kampaniyasını nəzərdən keçirmək üçün yaradılmış Komitənin BCM-nin Prokurorluna Yekun hesabatında qeyd olunur ki, "91. Mövcud məlumatlar əsasında komitə tövsiyə edir ki, NATO-nun bombardman kampaniyası və ya kampaniya zamanı baş vermiş insidentlərlə bağlı Prokurorun ofisi tərəfindən heç bir araşdırma başlamasın" [470]. Ulf Haeussler NATO və BCM arasında əməkdaşlığın perspektivli olduğunu qeyd edir: *"Məsələn, NATO və Avropa Şurasının rəsmi təşkilatlararası əlaqələri olmasa da, buna baxmayaraq, onlar Avropa Şurasının İşgəncələrin qarşısının alınması Komitəsinə Kosovo qüvvələri tərəfindən idarə olunan həbsxanalara girişin təmin edilməsi mexanizmi barədə razılığa gəldilər. Bu kontekstdə əldə edilmiş dərsləri NATO ilə BCM arasında potensial əməkdaşlığa tətbiq etmək həqiqətən də seçim ola bilər... NATO-nun BCM-nə dəstəyini vəd etdiyi oxşar yüksək öhdəliyi üzrə razılaşmanın yaxın gələcəkdə əldə edilməsi çətin görünür... NATO-nun BCM ilə əməkdaşlığı onun üzvlərini məxfi sənədlərin açıqlanması kimi digər məruz qala biləcəkləri siyasi təzyiqdən azad edə bilər"* [573, s.2-3].

Roma Statutunun ratifikasiyasını təşviq edən və məlumatlar mübadiləsində yaxından iştirak edən beynəlxalq təşkilatlardan biri də ***Avropa Şurası***dır. BCM-nin Statutunun ratifikasiyası və onun

Avropa Şurasının üzv dövlətləri üçün təsirləri ilə bağlı məsləhətləşmələrin nəticələrində qeyd olunur ki, *"ratifikasiya müvafiq iştirakçı dövlətdən Roma Statutundan irəli gələn öhdəliklərə əməl olunmasını təmin etməsini tələb edir və hər bir dövlətin spesifik xüsusiyyətləri nəzərə alınaraq, beynəlxalq əməkdaşlıq və məhkəmə yardımı sahəsində qanunvericilik aktları uyğunlaşdırılmalıdır"* [563].

Avropa Şurasının Parlament Assambleyası BCM-nin yaradılması ilə bağlı hesabatında qeyd edir ki, Assambleya BCM-nin yaradılmasına çağırdı. Assambleya daha sonra göstərir ki, *"... soyqırımı, müharibə cinayətləri və insanlığa qarşı cinayətlər kimi son dərəcə ağır cinayətlərin günahkarlarının cəzasız qalması barışığa mane olur, gələcək nəsilləri təkzibolunmaz sübutlardan məhrum edir"* [531].

AŞPA "Beynəlxalq Cinayət Məhkəməsinə dair" 1408 (1999) saylı Tövsiyəsində [491] Roma Statutunun universal ratifikasiyası və onun daxili sistemlərdə effektiv tətbiqi, habelə hüquq müdafiəsinin təmin edilməsində iştirakçı dövlətlərin və digər dövlətlərin sıx əməkdaşlığına inandığını bəyan etdi. AŞPA BCM ilə əməkdaşlıq və onun universallığı adlı qətnaməsində [535] BCM-ni soyqırımda, insanlığa qarşı cinayətlərdə və müharibə cinayətlərində ittiham olunan şəxslər üzərində yurisdiksiyaya malik ilk daimi müstəqil tamamlayıcı məhkəmə qurumu kimi tanıdığını bir daha bəyan etdi və qoşulmamış dövlətləri Statutu və BCM-nin İmtiyazları və immunitetləri haqqında Sazişi gecikdirmədən imzalamağa və ratifikasiya etməyə çağırdı. AŞPA Avropa Şurasının üzv dövlətlərini beynəlxalq əhəmiyyət kəsb edən ən ağır cinayətlərə görə cəzasızlığa qarşı mübarizədə BCM ilə tam əməkdaşlıq etməyə; dövlətlərin BCM-nin yurisdiksiyasına daxil olan cinayətlər üzərində əsas yurisdiksiyasını həyata keçirmək üçün öz məhkəmə və hüquq-mühafizə orqanlarına səlahiyyət verməyə çağırır, Darfurdakı kimi vəziyyətlərin BMT Təhlükəsizlik Şurası tərəfindən BCM-nə göndərilməsini alqışlayır. O, Təhlükəsizlik Şurasını Məhkəmənin qərar və

sərəncamlarını yerinə yetirmək və Roma Statutu ilə nəzərdə tutulmuş maliyyə yardımlarını təmin etmək üçün öz öhdəliklərini yerinə yetirməyə çağırır.

BCM-nin beynəlxalq təşkilatlarla əməkdaşlığı ümumi sazişlər və xüsusi məsələlərin həllinə yönəldilmiş razılaşmalarla tənzim olunur. BCM-nin fəaliyyətində beynəlxalq təşkilatlardan informasiya və sənədlərin əldə edilməsi onun əsas məqsədi — beynəlxalq əhəmiyyət kəsb edən cinayətlərin törədilməsində təqsirli olan şəxslər üzərində ədalət mühakiməsinin həyata keçirilməsinə xidmət edir. Beynəlxalq təşkilatların təqdim etdikləri sənədlər və informasiya sübut qismində mühüm rol oynayır, şahidlərin qorunmasına və bəzi hallarda BCM-nin fəaliyyətinin səmərəli həyata keçirilməsinə xidmət edir. BCM tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi zamanı və BCM-nin qərarlarının icrası zamanı insan hüquq və azadlıqlarına hörmət edilməsi prinsipinin pozulmamasının təmin edilməsi, o cümlədən vasitəçiliyin həyata keçirilməsi və beynəlxalq təşkilatların monitorinqi mühüm əhəmiyyət kəsb edir. BCM və beynəlxalq təşkilatlar arasında hüquqi məsələlərlə bağlı əməkdaşlıq bir sıra hallarda hüquqi yardım xarakteri daşıyır. Belə ki, BCM məlumatların və sənədlərin verilməsi ilə bağlı sorğular verir və əməkdaşlıq barəsində müqavilə bağladığı təşkilatlar tərəfindən bu sorğuların icra olunması məcburi xarakter daşıyır. BCM-nin beynəlxalq təşkilatlarla əməkdaşlığı prosessual xarakter daşıyır və prosessual hərəkətlərin deyil, digər hərəkətlərin icrasına yönəldilmişdir.

5.3. Beynəlxalq məhkəmələrdə amicus curiae icmallarının təqdim edilməsi

Amicus curiae müxtəlif dövlətlərin daxili hüququnda və beynəlxalq məhkəmələrin fəaliyyətində tətbiq olunur. Keçən əsrin sonlarında beynəlxalq məhkəmələrə və tribunallara müraciətlərin sayı artdı və məhkəmələrin demokratikliyi ilə bağlı mülahizələr formalaşmağa başladı. Əslində, dövlətlərin razılığı ilə yaradılmış bir

məhkəmə əsasən dövlətlərin davranışlarının beynəlxalq normalara uyğunluğunu qiymətləndirir və daha çox tərəflərin təqdim etdikləri arqumentlərdən çıxış edir. Belə qiymətləndirmədə vətəndaş cəmiyyətinin iştirak etməməsi qapalı dairədə fəaliyyətin davam etməsinə şərait yaradır. Buna görə də, bu mülahizələrin aradan qaldırılması üçün amicus curiae institutunun tətbiqi vətəndaş cəmiyyəti tərəfindən ictimai və ya icma maraqlarının təmsil olunması üçün şərait yaradır. Amicus curiae institutunun əsas məqsədlərinə məhkəmələr və onların fəaliyyəti haqqında məlumatlılığın artırılması, məhkəmələrə baxılan iş üzrə ictimaiyyətin fikirlərinin və ictimai maraqların təhlükə altında olması barədə məlumatların çatdırılması, məhkəmələrin nüfuzunun artırılması daxildir. Bu institutun tətbiqi məhkəmələrin şəffaflığını artırır, məhkəmələrin fəaliyyətinin qanuna və beynəlxalq hüquqa uyğunluğunu təmin etməyə kömək edir və ictimaiyyətə ictimai maraq doğuran məsələlərlə bağlı proseslərdə öz fikirlərini təqdim etmək imkanı verir.

Amicus curiae latın dilindən tərcümədə "məhkəmənin dostu" deməkdir. Britannica Ensiklopediyası ona belə bir anlayış verir: *"Amicus curiae... hüquq və ya faktla bağlı məsələlər üzrə məlumat və ya məsləhət verməklə məhkəməyə kömək edən biridir. O, iddianın tərəfi deyil və buna görə də iddianın nəticəsi ilə birbaşa maraqlanan və buna görə də iddiada tərəf kimi iştirak etməyə icazə verilən şəxslərdən fərqlənir"* [408].

Mütəxəssislər belə hesab edirlər ki, amicus curiae Roma hüququnun institutu olmuş və sonradan ingilis-sakson hüquq sistemində inkişaf etdirilmişdir. Lakin bir sıra müəlliflər onun ümumi hüquq sisteminin institutu olmasını qeyd edirlər. "Amicus curiae terminin latınca olması institutun özünün Roma mənşəli olmasını sübut etmir" [492, s.19]. "... amicus curiae-ni nə Roma hüququnda, nə də orta əsr kontinental *ius commune*-də əsaslandırmaq üçün əsas yox-

dur. Əsas mənbə, çox güman ki, ingilis ümumi hüququdur və təəccüblü deyil ki, brifinqləri beynəlxalq məhkəmə prosesinə ümumi hüquq hüquqşünasları təqdim etmişlər" [448].

Bəzi alimlər hesab edirlər ki, əslində o, Roma hüququnun əhatə dairəsinin genişləndirilməsi üçün tətbiq edilmişdir. "*Post-glossatorların ən böyük nailiyyətlərindən biri consilia (peşəkar rəylər) vasitəsilə Roma hüququnu mühazirə salonundan kənara çıxarmaq və cəmiyyətin içərisinə daxil etmək idi... Orta əsr ius commune Roma və kanon hüquq mənbələrindəki şərhlərə və təfsirlərə əsaslanırdı və o, bölgələrdə və kəndlərdə qüvvədə olan faktiki adət hüququ olan iura propria ilə ziddiyyət təşkil edirdi. İkisi arasındakı münasibət iyerarxik idi; ius commune hüquq və hüquqi mülahizə üsullarını dərk etmək üçün əsas nəzəriyyəni təqdim etdi və o, həm də yerli sahədəki boşluqları doldurmalı idi"* [475, s.25].

Amicus curiae brifinqlərinin təqdim edilməsi bir çox ümumi hüquq yurisdiksiyalarında, eləcə də beynəlxalq insan hüquqları tribunallarında (məsələn, AİHM və Amerikalararası insan hüquqları Məhkəməsi) və beynəlxalq cinayət tribunallarında tətbiq edilmişdir. "Amicus curiae" və "amicus curiae briefs" ifadələri paralel işlədilir. İkinci ifadə məhkəmənin dostunun rəyi mənasında istifadə olunur.

Amicus curiae bəzi beynəlxalq hüquqi sənədlərdə "üçüncü tərəfin iştirakı" kimi ifadə olunmuşdur. Məsələn, AİHK-nın 36-cı maddəsi "Üçüncü tərəfin iştirakı" adlanır.

BCM-nin Prosedur və sübutetmə qaydalarına əsasən, məhkəmə lazım gələrsə, hökumətlərarası və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq edir, mümkün qədər geniş şəkildə və bütün mümkün vasitələrlə təbliğat aparmaq üçün hökumətlərarası təşkilatlardan kömək istəyə bilər, yazılı və ya şifahi ifadələr ala bilər.

BCM-nin Qeydiyyatçısı həmçinin BCM-nin (və ya Məhkəmə iclas keçirmirsə, onun Prezidentinin) fikrincə, bu məsələ üzrə məlumat verə bilən istənilən beynəlxalq təşkilata BCM-nin işə aid olan yazılı hesabatı BCM-nin Prezidenti tərəfindən müəyyən edilmiş müddətdə qəbul etməyə və ya bu məqsədlə təyin olunan açıq

iclasda şifahi hesabatları dinləməyə hazır olması barədə xüsusi və bilavasitə bildiriş göndərir.

BMT-nin Beynəlxalq Ədalət Məhkəməsi dövlətlərarası və qeyri-hökumət təşkilatlarının fəaliyyətinə cəlb edilməsini nəzərdə tutur. BMT Məhkəməsinin Təcrübi Təlimatı da beynəlxalq QHT-lərin məlumatlarından istifadə edilməsini istisna etmir. Təcrübi Təlimatın XII təlimatında qeyd olunur ki, beynəlxalq qeyri-hökumət təşkilatı öz təşəbbüsü ilə icraat zamanı məsləhət xarakterli yazılı bəyanat və/və ya sənəd təqdim etdikdə, onlar iş materiallarının tərkib hissəsi hesab edilmir, asanlıqla əldə edilə bilən nəşrlər kimi qəbul edilir və müvafiq olaraq dövlətlər və iş üzrə yazılı və şifahi bəyanatlar təqdim edən hökumətlərarası təşkilatlar tərəfindən ictimai mülkiyyətdə olan nəşrlər kimi istinad edilə bilər. Təqdim edilən yazılı bəyanatlar və sənədlər Sülh Sarayında yerləşdirilir. BMT Məhkəməsi tərəfindən 2001-ci ildə qəbul edilmiş Təcrübi Təlimat Məhkəmənin Qaydalarına əlavədir və Qaydalarda heç bir dəyişiklik etmir.

Amicus curiae prosessual iştirakçıdır, çünki məhkəmənin qərarı ilə prosesə qoşulur, həmçinin məhkəməyə amicus curiae brief təqdim edir, məhkəmənin razılığı ilə məhkəmə iclasında çıxış edir. Bu şəxslərin işin gedişində şəxsi maraqları yoxdur, ancaq publik (ümumi) maraqları təmsil edirlər və ədalət mühakiməsinin ədalətli həyata keçirilməsinə kömək edirlər.

BCM-nin Statutunun 73-cü maddəsi "Üçüncü tərəflərin məlumatı və ya sənədləri" adlanır və göstərilir ki, Məhkəmə hər hansı bir dövlət, hökumətlərarası təşkilat və ya beynəlxalq təşkilat tərəfindən məxfilik şəraitində onun sahibliyində, sərəncamında və ya nəzarətində olan və ona açıqlanmış sənəd və ya məlumatı təqdim etməyi iştirakçı dövlətdən xahiş edir. Həmin iştirakçı dövlət sənədi və ya məlumatı açıqlamaq üçün onların aid olduqları qurumun və ya təşkilatın razılığını almalıdır. Əgər belə tərəf iştirakçı dövlətdirsə, o, ya bu məlumatın və ya sənədin açıqlanmasına razılıq verir, ya da milli təhlükəsizliyə toxunan informasiyanın qorunması tələbi

nəzərə alınmaqla, bu sənədin və ya məlumatın açıqlanması məsələsini Məhkəmə ilə həll edir. Əgər tərəf Statutun iştirakçısı olmayan dövlətdirsə və o, sənədin və ya məlumatın açıqlanmasına razılıq verməkdən imtina edirsə, sorğu edilən dövlət BCM-nə əvvəlcədən belə tərəflə məxfiliyə dair öhdəliyinə görə belə sənəd və ya məlumatı təqdim edə bilməməsi barədə məlumat verməlidir.

BCM-nin Prosedur və sübutetmə qaydalarının 103-cü qaydası "Amicus curiae və sübutların təqdim edilməsinin digər formaları" adlanır. Qaydaya uyğun olaraq, Palata icraatın istənilən mərhələsində, işə lazımi qaydada baxılmasını arzuolunan hesab edərsə, dövlətə, təşkilata və ya şəxsə Palatanın uyğun hesab etdiyi istənilən məsələ ilə bağlı icmalı yazılı və ya şifahi şəkildə təqdim etməyi təklif edə və ya icazə verə bilər. Prokurora və müdafiə tərəfinə təqdim edilmiş icmala cavab vermək imkanı təmin edilir. Təqdim edilmiş yazılı icmalların nüsxələri Prokurora və müdafiəyə göndərmək üçün Qeydiyyatçıya verilir. Palata bu cür icmalların verilməsi üçün son tarixlər müəyyən edir.

BCM-nin Vəkillər Assosiasiyasının Amicus Komitəsi Assosiasiyanın Konstitusiyasına uyğun olaraq, amicus curiae brifinqlərinin Məhkəməyə və ya digər müvafiq foruma təqdim edilməsi üçün məsuliyyət daşıyır. Bununla bağlı Assosiasiyaya üçüncü tərəflər, BCM-nin vəkili, hökumətlər, QHT-lər və şəxslər müraciət edə bilərlər. Assambleya amicus curiae brifinqinin təqdim edilməsi ilə bağlı İcra Şurasına rəsmi sorğu təqdim edir. İcra Şurası fərdi və ya qurumu müraciətdən əvvəl Amicus Komitəsi ilə məsləhətləşməyə təşviq edir.

Burada söhbət icmallardan gedir. İcmallar məlumat, hüquqi və ya faktiki məsələlərlə bağlıdır. İcmallar, yəni baxış və fikirlər fərd və ya təşkilat tərəfindən hazırlana bilər. İcmallar BCM-də baxılan iş üzrə maraqlı olmayan şəxslər və qurumlar tərəfindən təqdim edilməlidir, BCM qarşısında duran məsələlərlə bağlı olmalı və bu məsələlərin həllinə aid olmalıdır. BCM-nə icmallar həm könüllü qaydada, həm də BCM-nin xahişi ilə təqdim oluna bilər. İcmaların təqdim edilməsinin və qəbul edilməsinin "işin düzgün müəyyən

edilməsi üçün arzuolunan" olmasının müəyyən edilməsi Palatanın səlahiyyətinə aiddir.

İcmallar həm fərd tərəfindən, məsələn, beynəlxalq hüquq sahəsində mütəxəssislər tərəfindən də təqdim edilə bilər. Məsələn, BCM-nin I Məhkəmə Palatası BMT-nin Uşaqlar və Silahlı Münaqişələr üzrə Xüsusi Nümayəndəsini amicus curiae brifinqi təqdim etmək üçün dəvət etmiş, ona uşaqların "hərbi xidmətə çağırılması və ya cəlb edilməsi" anlayışı ilə bağlı yazılı icmalını təqdim etmək icazəsi vermişdir [549]. Məhkəməyə qədər I Palata 18 may 2012-ci il tarixində sorğuya əsasən "Hüquqşünaslar Liviyada Ədalət üçün" və "Redress Trust" kimi təşkilatlara iyunun 8-dək Liviyada məhkəmə sisteminin hazırkı vəziyyəti və 2011-ci ilin fevralından bu yana həyata keçirilən bacarıqların artırılması səyləri, Roma Statutunda əks olunmuş cinayətlərin təqibi üçün mövcud Liviya hüquqi çərçivəsinin BCM-nin Statutunda və Liviya üçün məcburi olan digər beynəlxalq müqavilələrdə əks olunmuş hesabatlılıq prinsiplərinə, habelə ümumi beynəlxalq hüququn prinsiplərinə nə dərəcədə uyğunluğu, Liviyada mövcud təhlükəsizlik vəziyyəti və s. barədə icmallarını təqdim etmək üçün [521]; Apellyasiya Palatası professorlara (Robinson, deGuzman, Jalloh və Cryer) Côte d'Ivoire-də vəziyyətlə bağlı icmal hazırlaması üçün [414]; Məhkəməyə qədər I Palata Beynəlxalq Hüquqşünaslar Komissiyasına sərhədin keçilməsi və deportasiya ilə bağlı amicus curiae icmalları (Qaydaların 103-cü qaydasına uyğun olaraq) hazırlanmasına icazə verdi [522].

Avropa İnsan Hüquqları Konvensiyasının 36(2) maddəsinə əsasən ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsi naminə AİHM-nin sədri işdə tərəf olmayan istənilən razılığa gələn tərəfi və ya şikayətçi olmayan istənilən maraqlı şəxsi yazılı qeydlər təqdim etmək və ya dinləmələrdə iştirak etmək üçün dəvət edə bilər. AİHM-nin Reqlamentinin 44(3) qaydasına əsasən belə maraqlı şəxslərin iştirakına icazə verilməsi əsaslandırılmalıdır. Həmçinin qeydlərin təqdim edilməsi üçün iki həftə müddət (müstəsna hallar-

da uzadılmaqla) müəyyən edilmişdir. Konvensiyanın 36-cı maddəsinin 2-ci bəndinə və ya 16 saylı Protokolun 3-cü maddəsinin ikinci cümləsinə əsasən üçüncü tərəfin iştirakı ilə bağlı Təcrübi Təlimatlar qəbul edilmişdir [565].

Belə iştirakçılığın əsas məqsədi AİHM-də baxılan iş üzrə tərəf olmayan dövlətlərin və digər şəxslərin konkret məsələlər üzrə fikirləri ilə tanış olmaq, daha geniş və ya fərqli məlumat və ya arqumentlər təqdim etməkdir. Üçüncü tərəflər AİHM-nin baxdığı iş üzrə mübahisəli məsələlərin həlli ilə bağlı hüquqi və ya faktiki məqamları mümkün qədər qərəzsiz və obyektiv şəkildə təqdim etməlidirlər.

Üçüncü tərəfin iştirakı ilə bağlı müəyyən məhdudiyyətlər də vardır: tərəflərə birbaşa dəstək ifadə etmək, məhkəmə qarşısında prosedurlarla bağlı tələblər irəli sürmək, məhkəməyə hüquqi müdafiə vasitəsi kimi müraciət etmək, tərəflər arasında dostcasına həll danışıqlarında iştirak etmək və s. qadağandır. Üçüncü tərəfin işdə birbaşa marağının olmaması tələb olunur, ancaq onun dolayı marağı ola bilər; məsələn, əhalinin müəyyən bir hissəsinin, o cümlədən milli azlıqların hüquqlarının müdafiəsi, işin nəticəsi ilə bağlı daha geniş marağı ola bilər (məsələn, publik hüquqların qorunması, ölkədə demokratik prinsiplərin bərqərar olması, insan hüquqlarına riayət edilməsi).

"İstənilən maraqlı şəxs" termini qeyri-hökumət təşkilatlarını, alimləri, fərdi şəxsləri, biznes müəssisələrini, digər beynəlxalq təşkilatları, müstəqil milli insan hüquqları institutlarını və s. əhatə edir. Dövlətin rəsmi orqanları, o cümlədən qanunverici orqanlar, məhkəmələr və ya yerli və ya regional hakimiyyət orqanları kimi dövlət orqanları adətən üçüncü tərəf kimi iştirak etmək hüququna malik deyillər, çünki onların fikirləri dövlətin rəsmi mövqeyi kimi qəbul edilir.

AİHK-nın 16 saylı Protokolunun 3-cü maddəsinin ikinci cümləsinə əsasən, üçüncü şəxs kimi məsləhətçi rəy verilməsi üçün razılığa gələn dövlətin məhkəməsi və ya tribunalı müraciət edə bilər və bu, baxılan işə aid olmalıdır (16 saylı Protokolun 1-ci maddəsinin 1-ci və 2-ci bəndləri). Bundan əlavə, AİHM-nin məsləhət xarakterli rəyi məcburi olmasa da (16 saylı Protokolun 5-ci maddəsi),

müvafiq milli məhkəməyə Konvensiyanın və ya ona dair Protokolların tətbiqi ilə bağlı təlimat vermək və beləliklə, gələcək davranış və nəticələrə təsir göstərmək məqsədi daşıyır.

Üçüncü tərəf "ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsi naminə" dəvət olunur və ya iştirakına icazə verilir. AİHM üçüncü tərəfi dəvət edib-etməmək barədə qərar qəbul etməzdən əvvəl tərəflərlə məsləhətləşmir. Üçüncü tərəf adətən yalnız yazılı şərhlər vermək üçün dəvət edilir, ancaq AİHM-nin Reqlamentinin 44-cü qaydasının 3(a) bəndinə əsasən müstəsna hallarda onun dinləmədə iştirakına və şifahi çıxışına icazə verilə bilər. AİHM-nin Reqlamentinə Əlavənin (məhkəmə istintaqının aparılması barədə) A1 qaydasının 6-cı bəndinə uyğun olaraq, AİHM məhkəmə istintaqında iştiraka dəvət edə və ya icazə verə bilər.

Üçüncü tərəfin iştirakına icazə verilərkən üçüncü tərəf ola biləcək qurum və şəxslə işdə iştirak edən tərəf arasında istənilən əlaqə; üçüncü tərəfin iştirak etmək istəməsinin səbəbləri, işdə yaranan məsələ və ya məsələlər haqqında üçüncü tərəfin xüsusi biliyi; qeydlərin fərqli olmasını əsaslandıran səbəblər qiymətləndirilir.

Amicus curiae tətbiqini həm də onunla əsaslandırmaq olar ki, bəzi hallarda tərəflər onlarda olan məlumatları vermək istəmirlər və ya təqdim etmək iqtidarında olmurlar. Həmçinin hakimlər qanunvericiliyə yeni daxil edilmiş və ya təcrübəsi olmadığı hüquqi məsələlərlə qarşılaşa bilər, iş yükünün çox olması ilə bağlı amicus curiae lazımi məlumatların təqdim edilməsini tələb edə bilərlər. İcmallar və ya qeydlər təkmil formada təqdim edildikdə hüquqi məsələlər üzrə fikir mübadiləsini genişləndirir, diqqəti müəyyən hallara yönəldir.

İctimai maraq və amicus curiae terminləri çox zaman paralel işlədilir. Dövlətin iştirakı ilə bağlı bütün işlər, hər bir "beynəlxalq məhkəmə işi" ictimai maraq doğurur, birbaşa və ya dolayısı ilə ictimaiyyətə təsir edir. İctimai marağın ümumi qəbul edilmiş tərifi

olmasa da, ümumi rifah naminə fəaliyyət, baxış kimi müəyyən edilməlidir. Bu mənada amicus curiae iştirakı ictimai rəyin çatdırılmasına və məsələlərin ictimaiyyətin rifahı naminə həll edilməsinə kömək edir. Amicus curiae icmalı mühüm ictimai maraqlar barədə həm dövlətlərin, həm də əhalinin məlumatlandırılmasına kömək edir. Beynəlxalq məhkəmələrin fəaliyyətində amicus curiae iştirakının təmin edilməsi beynəlxalq məhkəmələrin qərarlarının ictimai nüfuzunu artırır.

Amicus curiae icmallarının beynəlxalq məhkəmələrdə təqdim edilməsinin müsbət tərəfləri ilə yanaşı çatışmazlıqları da qeyd edilməlidir. Amicus curiae icmallarının tam təqdim edilməməsi ilə bağlı risklər həmişə qalır və bu risklər obyektiv və subyektiv ola bilər. Belə icmalları təqdim edən şəxsin məsələ ilə bağlı dərin bilikləri olmaya bilər, fəaliyyəti tam formal xarakter daşıya bilər və ya təhrif olunmuş icmal təqdim edə bilər. Bu isə onun ələ alınması və s. səbəblərlə izah edilə bilər. *"Konsepsiya ilə bağlı xüsusilə dövlətlər narahatlıqlarını ifadə edirlər. Onlar əlavə praktiki öhdəliklərdən (I); tərəflərin prosessual hüquqlarının məhdudlaşdırılmasından (II); mübahisələrin siyasiləşdirilməsindən (III); inkişaf etməkdə olan ölkələrə əlavə öhdəliklər verilməsindən (IV); idarəolunmaz miqdarda təqdimatlardan (V); və məhkəmə funksiyasının denaturasiyasından (VI) qorxurlar"* [581, s.64-65].

Konstitusiya Məhkəməsi haqqında milli Qanunun 45-ci maddəsi Konstitusiya Məhkəməsinin öz təşəbbüsü ilə və ya tərəflərin, yaxud maraqlı subyektlərin xahişi ilə Konstitusiya Məhkəməsinin iclasında baxılan məsələ üzrə elmi və ya başqa xüsusi biliyə malik olan şəxsi ekspert kimi dəvət edə bilməsini tənzimləyir. Belə ekspert iş üzrə yazılı rəy təqdim edir.

Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 11-ci maddəsinə əsasən sorğu, müraciət və şikayətlərin baxışa hazırlanması zamanı, habelə Palataların və Plenumun iclaslarında baxıldığı

dövrdə müvafiq olaraq, Palatalar və Plenum ekspert və mütəxəssisləri dəvət edə bilər. Nizamnamə həm ekspertlərin dinlənilməsini, həm də ekspert rəyinin yazılı təqdim edilməsini nəzərdə tutur. Konstitusiya Məhkəməsinin qərardadında ekspert qarşısında qoyulmuş suallar və müəyyən olunmuş qaydada rəyin mətninin altında ekspertin imzası daxil olmaqla, ekspert haqqında məlumatlar əks etdirilir.

Nizamnamənin 31-ci maddəsinə əsasən işə baxılarkən məhkəməyə kömək etmək üçün zəruri bilik və düşüncəyə malik olan, baxılan işdə marağı olmayan şəxs Konstitusiya Məhkəməsinin təşəbbüsü və ya tərəflərin vəsatətinə əsasən məhkəmə iclasına mütəxəssis qismində çağırıla bilər. Konstitusiya Məhkəməsi haqqında Qanunda ekspertin və mütəxəssisin hüquqi məsələlərlə bağlı rəy verə bilməməsi və ya dindirilə bilməməsi qeyd olunmur. Konstitusiya Məhkəməsində icraat zamanı ekspertin və mütəxəssisin iştirakı, rəy və arayış verməsi amicus curiae hesab edilməlidir.

Azərbaycan Respublikası CPM-nin 124-cü maddəsində amicus curiae sübut növlərinə aid edilməmişdir. Azərbaycan Respublikası CPM-nin 96-cı maddəsinə əsasən mütəxəssisin iştirakı, CPM-nin 97-ci maddəsinə əsasən isə ekspert rəyi amicus curiae iştirakı və icmalı hesab olunmalıdır.

Mütəxəssis və ekspert cinayət prosesində şəxsi marağı olmayan, öz razılığı əsasında istintaq və ya digər prosessual hərəkətlərin aparılmasında elm, texnika, incəsənət və digər peşə sahəsindəki xüsusi bilik və bacarığından istifadə edərək kömək göstərmək üçün cinayət prosesini həyata keçirən orqan tərəfindən təyin edilmiş şəxsdir. Mütəxəssis və ya ekspert cinayət prosesini həyata keçirən orqana zəruri kömək göstərilməsi üçün kifayət qədər biliyə və bacarığa malik olmalıdır. Burada fərqli cəhət ondan ibarətdir ki, şəxs cinayət prosesinin hüquqi məsələləri üzrə mütəxəssis və ya ekspert qismində təyin oluna və ya digər formada cəlb edilə bilməz.

Vəkillər və vəkillik fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanununun 15-ci maddəsinə əsasən vəkil xüsusi bilik tələb edən məsələlərin araşdırılması üçün ekspertlərdən və ya mütəxəssislərdən rəy almaq hüququna malikdir.

CPM-nin 124.2-ci maddəsi cinayət prosesində sübut kimi qəbul olunanlar sırasında digər sənədləri də qeyd edir. CPM-nin 135-ci maddəsinə əsasən sənədlər dedikdə, cinayət işi üzrə əhəmiyyət kəsb edə bilən məlumatları hərf, rəqəm, qrafika və digər işarə formasında özündə əks etdirən kağız, elektron və ya digər daşıyıcılar başa düşülür. Şəxsin vəzifəsinə və yerinə yetirdiyi işə görə ona məlum olan halları imzası ilə təsdiq etdiyi və qanunvericiliyin müəyyən etdiyi formada tərtib edilmiş sənəd rəsmi sənəd hesab olunur. Digər sənədlərə və sənədlərə qarşı da eyni tələblər irəli sürülür.

Maddi sübut isə xüsusiyyətinə və əlamətlərinə, mənşəyinə, aşkar edildiyi yerə və vaxtına və ya üzərində hadisənin izlərinin saxlanıldığına görə cinayət təqibi üzrə əhəmiyyət kəsb edən halların müəyyən edilməsinə kömək edən hər bir predmet kimi müəyyən edilir.

Vəkillər və vəkillik fəaliyyəti haqqında Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin V hissəsinə əsasən Vəkillər Kollegiyası hüquq mühafizə orqanlarının və məhkəmələrin tələbi əsasında vəkillik fəaliyyəti ilə bağlı məsələlərə rəy verir. Hesab edirik ki, bu müddəa amicus curiae icmalı hesab edilməlidir. Belə ki, bu halda Vəkillər Kollegiyası dövlət orqanı deyildir və konkret qurumu təmsil edir.

Bəzən belə fikirlərə rast gəlinir ki, məhkəmədə şəxsin şahid və ya mütəxəssis kimi dindirilməsi barədə qaldırılan vəsatətə əlavə edilən sənədlər amicus curiae icmallarını əhatə edir. İura novit curia maksimasının *"...mürəkkəbləşən müasir hüquqi tənzimetmədə mütləq həqiqiliyi şübhəlidir. Buna görə də hakimlərin hüquqi məsələlər üzrə kömək almağa ehtiyacları vardır... Gündəlik məhkəmə*

təcrübəsi bu cür yardımın mümkünlüyünü inkar etməkdən onun ekspert rəyi və ya şahid ifadələri kimi qəbul edilməsinə qədər dəyişir... hakim heç bir halda təklif olunan hüquqi yardımla bağlı deyil, lakin o, inandırıcı hesab etdiyi halda təqdim edilən hüquqi əsaslandırmadan istifadə edə bilər" [180, s.100].

Qeyd olunan arqumentlərlə razılaşmaq mümkündür. Belə ki, şahid qismində dindirilmə barədə vəsatətdə hüquqi məsələlərlə bağlı vəkilin mülahizələri verilir və hakim vəkilin əsaslandırmasını əsas götürərək konkret şəxsi şahid qismində dindirir.

Azərbaycan Respublikasında ədalət mühakiməsinin həyata keçirilməsi zamanı məhkəmələrin beynəlxalq məhkəmələrin sorğularının icra olunması imkanı nəzərdə tutulur, ancaq qərarların icrası, şahidlərin müdafiəsi və s. fəaliyyətin təmin olunmasında QHT-lərin iştirakı nəzərdə tutulmur. Ancaq bu gün Azərbaycanda insan alverinə qarşı mübarizədə, məişət zorakılığının qarşısının alınmasında QHT-lərlə əməkdaşlıq nəzərdə tutulur. Cinayət təqibi orqanları CPM-nin 124.2.5-ci maddəsinə əsasən QHT-lərdən digər sənədlər qismində sübut əhəmiyyəti olan sənədlər tələb edə bilər, CPM-nin 205-ci maddəsinə əsasən hüquqi şəxslərin (vəzifəli şəxslərin) törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatları cinayət işinin başlanması üçün əsaslardan biridir. CPM-nin 6.1-ci maddəsinə əsasən sənədlərin verilməsi hüquqi şəxslər kimi QHT-lər üçün məcburidir. QHT-lər çox vaxt zərərçəkmişlərə (məsələn, məişət zorakılığına və ya insan alveri qurbanlarına) və şahidlərə (yaşadıqları ərazi üzrə) yaxın olurlar. QHT-lər cinayət təqibi orqanlarının qurbanlar və şahidlərlə münasibətlərinin qurulmasında, onların məlumatlandırılmasında, təhlükəsizliklərinin təmin olunmasında köməklik göstərə bilərlər.

Fikrimizcə, yerli QHT-lərin BCM-də tətbiq olunan amicus curiae qismində iştirak etməsi o qədər də məqsədəuyğun deyil. Bir sıra hallarda QHT-lərin brifinqə daxil olan məsələlər üzrə ixtisaslaşması da mübahisəli ola bilər. Məsələn, "The Prosecutor v. Jean-

Pierre Bemba Gombo" işində BCM Amnesty International beynəlxalq hüquq müdafiə təşkilatının Roma Statutunun 28-ci maddəsinə uyğun olaraq hərbi komandirlərin məsuliyyəti ilə bağlı qeydlərini, *"§12...Amnesty International-ın təqdim etmək istədiyi təklif olunan brifinq Palatanın faydalı hesab edə biləcəyi hüquqi məsələlərlə bağlı müvafiq məlumatları təqdim etməyə meyllidir"* əsasında nəzərə aldı [524]. Bu təşkilatın qeyd olunan hüquqi məsələ üzrə ixtisaslaşmasını iddia etmək olmaz. Bəzi hallarda bir çox təşkilatlar icmal təqdim etməyə meylli olurlar və bu, lobbiçiliklə bağlı olur. BCM-nin təcrübəsində *amicus curiae* icmalı əsasında qəbul edilmiş qərarların ləğv edilməsi təcrübəsi vardır. Belə ki, New TV S.A.L. v. Karma Mohamed Tahsin Al Khayat işində *"39...məhkəməyə hörmətsizlik hakimin onun səlahiyyətlərinin geniş, əhatəli və çevik təbiətinə zidd olaraq, ədalət mühakiməsinin həyata keçirilməsinə mane ola biləcək və ya ona maneə yarada biləcək bütün subyektlər, təhdidlər və davranışlarla məşğul olmaq üçün Tribunalın imkanlarını azaltmışdır. 40. Yurisdiksiya qərarı səhvdir. Əgər məhkəməyə hörmətsizlik üzrə hakim yuxarıda göstərilən səhvlərə yol verməsəydi, müdafiə vəsatəti ilə bağlı nəticə fərqli olardı, beləliklə, hakim Tribunalın "hüquqi şəxsləri hörmətsizlikdə ittiham etmək səlahiyyətinə" malik olduğu qənaətinə gələrdi və korporativ təqsirləndirilən New TV S.A.L. Khayatı işdən çıxarılmazdı. 41. Buna görə də, Amicus yurisdiksiya Qərarı ləğv edilsin və New TV S.A.L.-a qarşı ittihamlar bərpa olunsun*" [485].

Amicus curiae hüquqi institutdur, mahiyyəti isə məhkəməyə yardım göstərilməsindən, işə aid olan məlumatları məhkəmənin diqqətinə çatdırmaqdan ibarətdir. QHT-lərin cinayət təqibində iştirakının sərhədlərinin genişləndirilməsi onların amicus curiae icmallarının hazırlanması üzrə ixtisaslaşmasına və ədalət mühakiməsinin gedişinə təsir edə biləcəyi ilə bağlı nüfuzunun artmasına gətirib çıxarır. Buna görə də dövlətdaxili hüquqda QHT-lərin cinayət

təqibində amicus curiae qismində iştirakı məhdud xarakterli olmalıdır.

Qeyd olunanları ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan Respublikasında Konstitusiya Məhkəməsində amicus curiae rəylərindən istifadə olunur, cinayət-prosessual qanunvericilikdə isə birbaşa ifadə olunmasa da, onun tətbiqi hallarına rast gəlinir. Milli məhkəmələrin tələbi əsasında Vəkillər Kollegiyasının vəkillik fəaliyyəti ilə bağlı məsələlərə rəy verməsi birbaşa amicus curiae icmalı hesab edilməlidir. Bundan başqa ekspertin, mütəxəssisin dəvət edilməsi və şahid qismində dindirilməsi barədə vəsatətdə hüquqi məsələlərlə bağlı vəkilin mülahizələri də amicus curiae-dir. Hesab edirik ki, məhkəmə proseslərinin sayının artması, məhkəmə proseslərində ictimai maraqların nəzərə alınması, aşkarlığın təmin edilməsi, beynəlxalq standartların tətbiq edilməsi ilə bağlı xüsusi biliklərin tələb edilməsi, beynəlxalq məhkəmələrə çıxışla bağlı hüquqi məsələlər üzrə amicus curiae icmallarının verilməsinin qanunvericiliyə daxil edilməsi zaman məsələsidir və Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin təcrübəsinə uyğun olaraq, cinayət-prosessual qanunvericiliyə daxil edilməlidir.

5.4. AİHM və üzv dövlətlər arasında hüquqi yardımın inkişafı tendensiyaları: problemlər və perspektivlər

Azərbaycan 25 yanvar 2001-ci ildən Avropa Şurasının üzvüdür. Avropa Şurası insan hüquqlarına riayət olunmasında mühüm rol oynayır və AİHK insan hüquqlarının və əsas azadlıqların müdafiəsi üçün hərtərəfli regional sistem yaratmışdır. Azərbaycan AİHK və onun protokollarını ratifikasiya etmişdir, Konvensiya 2002-ci ilin aprelindən ölkədə qüvvədədir.

Avropa Şurası üzv dövlətlər arasında insan hüquqları, demokratik inkişaf şərtləri, qanunun aliliyi, mədəni inkişaf və üzv dövlətlər arasında mədəniyyətlərarası kommunikasiya kimi mühüm məsələlər üzrə əməkdaşlığı təşviq etmək məqsədi daşıyan mühüm idarəetmə orqanıdır. AİHM Avropa Şurasının əsas alətlərindən biridir və onun qərarlarının icrasına nəzarət Nazirlər Komitəsinə həvalə edilmişdir. Bu nəzarətlə bağlı Nazirlər Komitəsi qərarın icrası ilə bağlı görülən tədbirlər barədə sorğu ilə cavabdeh dövlətlə əlaqə saxlamaq, cavab alınmadıqda isə hər 6 aydan bir yenidən müraciət etmək hüququna malikdir. Bu prosedurun nə qədər davam etməsi müəyyən edilməmişdir. Ancaq hesab edirik ki, uzun müddət davam edə bilməz. Çünki sorğulara uzun müddət ərzində cavab verilməməsi dövlətlərin münasibətini göstərir və ona qarşı müvafiq tədbirlərin tətbiq edilməsi üçün əsasdır.

Məhkəmənin yurisdiksiyası subsidiar xarakter daşıyır, insan hüquqlarının müdafiəsi ilk növbədə ölkədaxili yurisdiksiya çərçivəsində həyata keçirilməlidir. Məhkəmənin fəaliyyəti isə tamamlayıcı xarakterə malikdir, Konvensiyanın təfsiri və tətbiqi ilə məhdudlaşır, həm də dövlət orqanlarının sistemini tamamlamır.

Məhkəmə AİHK-na dövlətlər tərəfindən riayət edilməsi üzərində nəzarəti həyata keçirir, ancaq o, nəzarət qaydasında milli hakimiyyət orqanlarının, o cümlədən milli məhkəmələrin qərarlarını ləğv etmək səlahiyyətinə malik deyildir. Bu nəzarət xüsusi nəzarətdir. Nəticə etibarilə, AİHM-nin fəaliyyəti insan hüquq və azadlıqlarının əlavə təminatlarını, yəni bütün dövlətlər üçün eyni olan standartların həyata keçirilməsi təminatlarını yaradır.

AİHM-nin qərarları Avropa Şurasının hüquqi standartlarını yaratmır, ancaq bu standartlarla bağlı hüquqi mövqeyi formalaşdırır. Ancaq qeyd olunanlara baxmayaraq, Məhkəmənin fəaliyyəti onun dövlətüstü yurisdiksiyası, qərarlarının məcburi qüvvəyə malik olması ilə müəyyən olunur. İstənilən halda, bu yurisdiksiya və qərar-

ların məcburiliyi dövlətüstü səlahiyyətlərin elementlərinin olmasını sübut edir. Bəzi müəlliflər Məhkəmənin *"ədalət mühakiməsinin həyata keçirilməsinin növbəti instansiyası deyil, beynəlxalq məhkəmə kimi"* qiymətləndirilməsini təklif edirlər [258].

"AİHK-nın qəbul edilməsinin və AİHM-in strukturunun formalaşmasının hüquqi nəticəsi ondan ibarət idi ki, bu hökumətlərarası məhkəmə institutu hüquqi təzyiqlərə məruz qalmış və Avropa Şurasına üzv dövlətlərdən birinin məhkəmə sistemi tərəfindən törədilən pozuntunun qurbanları – istənilən şəxslərdən, qeyri-hökumət təşkilatlarından və ya hər hansı bir qrup şəxsdən – şikayətləri qəbul edə bilir" [482, s.1100]. Müvafiq olaraq, bu kateqoriyadan olan zərərçəkmişlər Konvensiyada tanınan və ya onun Protokollarında daha ətraflı verilmiş hüquqlara uyğun olaraq qurban kimi tanınmalıdırlar. Qeyd olunmalıdır ki, AİHM-ə müraciət daxili müdafiə vasitələrindən istifadə olunmasını tələb edir. AİHK-nın 32-ci maddəsi AİHM-nin Konvensiyanın və onun Protokollarının müddəalarına rəsmi qiymət vermək və onlardan istifadə etmək hüququnu təsbit edir.

Eyni zamanda, AİHM-nin Konvensiyanın təfsiri sahəsində qərarları onu təkrarlaya bilməz, yalnız konkret tətbiq sahələrini müəyyənləşdirir və ona riayət olunmasının müəyyən təminatlarını şərh edir. AİHK-nın normalarının təfsiri dövlət orqanlarının Konvensiyanın və ya onun Protokollarının pozulmasının qarşısını almaq üçün rəhbər tutmalı olduqları standarta çevrilir. Bu, Konvensiyanın 46-cı maddəsində təsbit edilmişdir, yəni AİHM-nin qərarları Konvensiyanı təsdiq etmiş və onun müddəalarını müvafiq qaydada ratifikasiya etmiş ölkələr üçün məcburidir.

AİHM ilə bağlı problemlər həmişə tədqiqatçıların diqqətini cəlb etmişdir. Xüsusilə, *"vətəndaş cəmiyyətinin müdafiəsi praktikasında müxtəlif fövqəlmilli hüquqi institutlar arasında korrelyasiya ilə bağlı nəticələr vacibdir"* [480, s. 106].

AİHM ilə dövlətlər arasında hüquqi əməkdaşlıq və yardım məsələləri ilə bağlı AİHK-nı tədqiq edən aparıcı alimlərin səylərini, o

cümlədən Peter Szcekalla tərəfindən şərhini [557], AİHM qərarlarının tətbiqi və icrasının ekstraterritoriallığı problemlərinin Samantha Besson tərəfindən [418] və məhkəmə prosesinin təşkilinin prosessual xüsusiyyətlərinin Eva Brems, Laurens Lavrysen [420] tərəfindən tədqiqini xüsusi qeyd etmək lazımdır. Problemlərlə bağlı, həmçinin AİHM qərarlarının praktiki icrası ilə bağlı çətinlikləri tədqiq edən Øyvind Stiansen, Erik Voeten [556], o cümlədən praktiki icranın siyasi şəraitlə və ayrı-ayrı ölkələrin hakimiyyət orqanlarının mövqeyi ilə bağlı çətinliklərini araşdıran Agnieszka Kubal, Marcin Mrowicki [496] kimi alimlərin əsərləri də diqqəti cəlb edir. Mövcud tədqiqatların icmalı əsasında belə qənaətə gəlmək olar ki, AİHM-in fəaliyyəti bir sıra maneələrin aradan qaldırılması ilə bağlıdır, çünki Protokollar onu imzalayan bütün ölkələrin milli qanunvericiliyində tətbiq olunmamışdır. Bundan başqa, vətəndaş cəmiyyəti ilə ziddiyyət təşkil edən bəzi dövlətlərdə avtoritar meyillərin yayılması da müvafiq məhkəmə orqanının iş yükünü artırır və onun qərarlarına uzun müddət ərzində məhəl qoyulmaya bilər. Bu cür genişmiqyaslı maneələrlə yanaşı, AİHM daha kiçik problemlərlə də üzləşir, lakin onlar da məhkəmənin işinə dağıdıcı təsir göstərə bilər.

AİHM-nin fəaliyyəti hüquqi şərh üçün aktual olan məsələlərdən biridir. Bununla bağlı olaraq, AİHM və Avropa Şurasına üzv dövlətlər arasında hüquqi əməkdaşlıq və yardımın inkişaf tendensiyaları təhlil edilməli, bu cür əməkdaşlığın təkmilləşdirilməsi məqsədilə gələcək çağırışlar və perspektivlərlə bağlı çətinliklər və imkanlar öyrənilməlidir.

AİHK regional səviyyədə qəbul edilmiş beynəlxalq müqavilədir və Avropa Şurasının üzv dövlətləri tərəfindən imzalana bilər. Avropa Birliyinin də bu Konvensiyaya qoşulmaq hüququ vardır. Konvensiyanın əsas məqsədlərindən biri də Ümumdünya İnsan Hüquqları Bəyannaməsində təsbit edilmiş bəzi hüquqların həyata keçirilməsinin təmin edilməsi və Konvensiya üzrə öhdəliklərini tam və ya qismən həyata keçirməyən dövlətlərə qarşı qərarlar qəbul

etmək səlahiyyətinə malik olan, hökumətlərarası məhkəmə institutu olan AİHM-nin yaradılması idi. Bundan əlavə, Konvensiyaya onun ilkin mətnini tamamlayan, aydınlaşdıran və ya müəyyən müddəalarını dəyişdirən Protokollar əlavə edilmişdir. Dövlətlər üçün müəyyən əlavə hüquq və ya öhdəliklər yaradan protokollar yalnız imzalandıqdan və milli qanunvericilik səviyyəsində lazımi qaydada ratifikasiya edildikdən sonra məcburi xarakter daşıyırlar. Protokol imzalanmış, lakin ratifikasiya olunmamışdırsa, o, məcburi xarakter daşımır və həyata keçirilə bilməz. AİHM *"milli insan hüquqlarına riayətetmə mexanizmlərindəki boşluqları doldurur və bu mexanizmlərin fəaliyyətinə düzəlişlər edir, insan hüquqları ilə bağlı şikayətlərə baxan səlahiyyətli beynəlxalq məhkəmə orqanı kimi çıxış edir"* [577, s.135]. (Əlavə 4). Belə ki, AİHK-na əsasən, AİHM-nin qərarlarının icrasına görə məsuliyyət dövlətlərin üzərinə qoyulmuşdur. Dövlətlər insan hüquqlarının pozulması sahəsində mənfi nəticələrin aradan qaldırılması və gələcəkdə qarşısının alınması üçün bütün mümkün tədbirləri görməli və həyata keçirməlidirlər. Bu qərarların dövlət orqanları tərəfindən həyata keçirilməsi ciddi beynəlxalq nəzarətə tabedir. Konvensiyaya əsasən, zəruri funksiyalar Avropa Şurasının əsas qərar qəbuledici orqanı olan, bütün təşkilatın işi ilə bağlı müxtəlif problemləri müəyyən edən və həll edən, o cümlədən AİHM-in müxtəlif qərarlarının icrasına nəzarət edən Avropa Şurasının Nazirlər Komitəsinə həvalə edilmişdir. AİHM-ə müraciət müəyyən meyarlara, o cümlədən milli müdafiə vasitələrindən istifadə olunmasına və məhkəməyə müraciət etmək üçün 4 aylıq müddətə cavab verməlidir (Əlavə 5).

AİHM-nin ayrı-ayrı şirkətlər və ya şəxslər deyil, dövlətlər üçün məcburi xarakter daşıyan qərarlar çıxarması onun qərarlarının icrasına nəzarət mexanizmlərinin seçilməsində müəyyən problemlər yaradır. Bəzən belə qərarlar kifayət qədər mürəkkəb olur və Avropa Şurasına üzv dövlətlər üçün qeyri-mümkün olur. Bununla belə, *"Avropa Şurasının Nazirlər Komitəsi bütün tərəflərin maraqlarını*

nəzərə almalı, ən yaxşı yolu seçməli, məhkəmə qərarlarının qəbul edilməsi və icrası üçün bir yol tapmalıdır" [457, s. 96].

Avropa Şurasının Nazirlər Komitəsi bir neçə rəhbər orqandan ibarətdir: üzv dövlətlərin Xarici İşlər Nazirləri, Daimi nümayəndələr (hər ölkə öz Daimi nümayəndəsini seçir), Büro və Katiblik. Qeyd etmək lazımdır ki, sonuncu bütün iclaslara xidmət edən əsas idarəetmə orqanı kimi çıxış edir.

2024-cü ilə qədər bu məhkəməyə verilən ərizələrin ümumi sayı 67.000-dən çox olmaqla, ən çox müraciət Türkiyə (35%), Ukrayna (13%) və Rusiyadan (16%) olmuşdur (Əlavə 6).

Avropa Şurasının Nazirlər Komitəsi AİHK-nı pozan dövlətlərdən hesabat tələb edir, həmçinin Avropa Şurası AŞPA ilə bağlı monitorinqlər keçirir. Bu günə kimi Azərbaycana münasibətdə belə monitorinqlər tətbiq edilmişdir. AŞPA, Katiblik kimi, AİHM-də vətəndaşlarının hüquqlarının müdafiəsinə cavabdeh olan ölkədəki vəziyyəti təhlil edir. Müasir tədqiqatçılar son vaxtlar AİHM-nin qərarlarının icrasında nəzərəçarpacaq dinamikanın olduğunu qeyd edirlər [420, s. 199]. Məsələn, 2018-ci ildən 2023-cü ilə qədər Azərbaycanla bağlı və Avropa Şurası Nazirlər Komitəsinin nəzarətindən çıxarılan 100-dən çox qərar icra edilmişdir, o cümlədən 2023-cü ildə 15, 2022-ci ildə 35, 2021-ci ildə 12 qərar icra edilmişdir. Eyni zamanda, 2022-ci ildən Azərbaycan 150-dən çox işi əhatə edən 50-dən çox fəaliyyət planı və hesabat təqdim etmişdir (Əlavə 7).

2023-cü ilə qədər məhkəmə Azərbaycan əleyhinə 732 ərizəyə baxmışdır. Onlardan 655 ərizə qəbuledilməz elan edilmişdir. 2023-cü ildə AİHK-nın ən azı bir və ya iki pozuntusunun aşkar edildiyi, demək olar ki, 38 ərizə daxil olmaqla, 40 qərar (77 ərizə ilə bağlı) çıxarılmışdır (Əlavə 8).

AİHM-nin qərarları bir sıra hallarda vətəndaşların müəyyən hüquq və azadlıqlarını pozan daxili qanunvericiliklə bağlı islahatların aparılması ilə nəticələnir.

AİHM-nin presedent hüququna və digər məsələlərə çoxsaylı istinadları nəzərə alaraq, AİHM-nin qərarlarının məcburi olmasına baxmayaraq, ehtiyatlı yanaşma tələb olunduğunu vurğulamaq lazımdır. Ehtiyatlı yanaşma hüquqi problemin həlli üçün AİHM-nin presedent hüququndan və AİHK-nın müddəalarından istifadə edilməsi meyarlarının müəyyən edilməsi deməkdir. *"AİHM-nin presedent hüququnun tətbiqinin məqsədəuyğunluğunu və ya zəruriliyini qiymətləndirərkən, hüquqi müəyyənlik prinsipinə cavab verən bəzi mübahisəli məsələlərin artıq milli qanunvericiliklə nə dərəcədə tənzimləndiyini nəzərə almaq lazımdır"* [459, s.200].

AİHM-nin presedent hüququnun tətbiqi üçün meyarlara aşağıdakılar daxildir:

1. Həlli AİHM-nin hüquqi mexanizmlərindən istifadə edilmədən mümkün olmayan hüquqi problemlərin olması;
2. Qüvvədə olan milli qanunvericilikdəki boşluqların müəyyən edilməsi;
3. Milli hüquq sistemlərinin normaları arasında ziddiyyətlərin müəyyən edilməsi;
4. Qanunvericiliyin vətəndaşların konvensiya hüquqlarını pozan, onun bəzi aspektlərini lazımi qaydada həyata keçirmək qabiliyyətinin olmaması;
5. Tətbiq olunan milli qanunların müddəalarının birmənalı şəkildə şərh olunmaması.

Belə şəraitdə AİHM-ə müraciət milli qanunvericiliyin mürəkkəb ziddiyyətlərinin həllində əlavə arbitr kimi çıxış edir. AİHM-in presedent hüququndan istifadə edilməsi məhkəmə qərarlarının əsaslandırıcı hissəsini əvəz etməməlidir, məqsəd insan hüquqlarının müdafiəsinin presedent hüququ ilə möhkəmləndirilməsidir.

"*AİHM qərarlarında vurğulanır ki, ədalətli məhkəmə araşdırması hüququ məhdudlaşdırıla bilən, lakin məhdudiyyətin qanuni məqsədə malik olduğu və mütənasib olduğu şəkildə məhkəməyə müraciət etmək hüququnu ehtiva edir"* [469, s.368]. Məhkəməyə

müraciət hüququnun təmin edilməsində ölkələr müntəzəm hüquqi dəstəyin tətbiqi və ya prosedurların asanlaşdırılması kimi üsulları seçmək hüququna malikdirlər. Hüquqi yardım hüququ ədalətli məhkəmə araşdırması hüququnun elementar hissəsi kimi təhlil edilə bilər.

Dövlətlərin məhkəməyə müraciət hüququnu təmin etmək üçün vasitələri seçmək azadlığına malik olmasına baxmayaraq, AİHM-in qərarlarında müəyyən edilmiş qaydalara riayət etməyə borcludurlar. Buna görə də, *"qanun müəyyən hallarda vəkil təmsilçiliyinə ehtiyacı təmin etdikdə və ya işin mürəkkəbliyi bunu tələb etdikdə, ədalətli məhkəmə araşdırması hüququnu həyata keçirməyin yeganə mövcud yolu olduqda, fiziki şəxslər hüquqi yardımdan istifadə edə bilərlər"* [419, s.215]. Hüquqi yardım göstərilərkən məhkəmə müdafiəsi obyektinin əhəmiyyəti, şəxsi təmsilçilik imkanları və müsbət nəticənin perspektivləri də nəzərə alınır.

Praktikada AİHM-in presedent hüququnun digər dövlətlərdə tətbiqi ilə bağlı problemlər bir neçə amillə bağlıdır. Birincisi, *"digər ölkələrə qarşı işlərdə AİHM-in presedent hüququnun rəsmi tərcüməsi yoxdur"* [494, s.100]. AİHM-in ayrı-ayrı dövlətlərə qarşı qərarlarının tərcümələri də həmişə tez əldə olunmur, çünki AİHM-in qərarları ingilis və ya fransız dillərində qəbul edilir, digər dövlətlər (o cümlədən Azərbaycan) adətən yalnız onlara qarşı çıxarılmış qərarları tərcümə etməyə borcludurlar. Bu, qeyd olunan dilləri bilməyən hakimlərin AİHM-in digər dövlətlərə qarşı qərarlarını düzgün tətbiq etmələrini çətinləşdirir.

İkincisi, *"anqlo-sakson və roman-german kimi müxtəlif hüquq sistemlərinə xas olan nəzəriyyələr və terminlər arasındakı fərqləri nəzərə almaq vacibdir"* [476, s.701]. Bir sistemdə tətbiq oluna bilən anlayışlar və terminlər digər sistemdə tətbiq olunmaya və ya eyni məna yüklülüyündə tətbiq olunmaya bilər. Buna görə də anlayışların bir hüquq sistemindən digərinə süni şəkildə ötürülməsi məqsədəuyğun olmaya bilər.

Üçüncüsü, milli hüquq tətbiqedici tələblər yalnız AİHM-in fərdi qərarları barədə biliklərə, məlumatlılığa malik olmağı deyil, konseptual çərçivəyə malik olmaq üçün həm də insan hüquqlarının müdafiəsi üzrə AİHM-in sisteminin başa düşülməsini, AİHK-nın əsas anlayışlarının təfsiri barədə biliklərin olmasını da nəzərdə tutur. Milli hüquq tətbiqedici təcrübə AİHM-in presedent hüququnun bütünlüklə nəzərə alınmasını nəzərdə tutur. *"AİHM-in presedent hüququnun əlçatanlığı problemi və onun tətbiqi mədəniyyəti bu kontekstdə əsasdır və bir çox dövlətlər üçün aktual olaraq qalır"* [525, s.701].

Bəzi ölkələrdə əlavə bir problem də yaranmışdır. Bu, AİHM-in qərarlarının qeyri-konstruktiv tətbiqi, fəaliyyətdə AİHM-in təcrübəsindən istifadədə hüquq mədəniyyətinin olmaması ilə bağlıdır. Müasir tədqiqatçılar hesab edirlər ki, *"AİHM-in təcrübəsinin həyata keçirilməsi ilə bağlı düzgün mövqe məsələsi yenidən nəzərdən keçirilməlidir"* [411, s.701]. İlk növbədə, söhbət AİHM-in işə uyğun olmayan istinadlardan istifadə edilməsi ilə bağlı müəyyən aspektlərdən gedir, bu proses avtomatik tətbiqdən azad olmalı və məntiq əsasında istifadə edilməlidir. Xüsusilə də bir çox dövlətlərin məhkəmə qərarlarının milli reyestrlərində AİHM-in hüquqi mövqeyini əks etdirən müəyyən seçilmiş istinadlar çox vaxt bir qərardan digərinə keçir. Bu isə belə qənaətə gəlməyə əsas verir ki, AİHM-in qərarlarına istinadlar AİHK-nın kontekstini təhlil etmədən və qərarın kontekstinin xüsusiyyətləri nəzərə alınmadan tətbiq edilir. Buna görə də, güman ki, hakimlərə ilkin mənbələrin mətnləri barədə tam məlumatlar verilmədən, onların öz qərarlarında AİHM-in presedentlərini əhatə etməsi hüquq elminin inkişafına kömək etmir.

Akademik ədəbiyyatda bu çətinlikləri aradan qaldırmaq üçün bir neçə yol tapmaq olar. İlk növbədə, AİHM-ə üzv olan bütün dövlətlər AİHM-in qərarlarının icrasına dair milli qanunlar qəbul etməlidirlər ki, bu da onların sonrakı icrası üçün prosedurların aydın tənzimlənməsinə imkan verir. *"AİHM qərarlarının qeyd-şərtsiz icrası AİHM-*

ə üzv dövlətlərdə insan hüquqlarına riayət olunmasının vahid standartlarının formalaşdırılması və saxlanılması üçün imkanlar yaradır" [416, s.20]. Avropa Şurasının üzvü olan ölkələrdə AİHM-in qərarlarının aktiv tərcüməsinə və açıq nəşrinə təcili ehtiyac vardır. AİHM-in fəaliyyəti hüquq normalarının daha çox tətbiqini və daha az siyasiləşməni tələb edir ki, bu da Avropa Şurasına üzv dövlətlər arasında məhkəməyə etimadın artmasına kömək edir. Bundan əlavə, hakimlər AİHM-in qərarlarını araşdırmaqda və onlarla işləməkdə maraqlıdır, ifadələrin mexaniki şəkildə köçürülməsi onların qəbul edilməsinin ümumi kontekstini anlamağa kömək etmir.

Avropa Hakimlərinin Məşvərət Şurası üzv dövlətlərlə genişlənən əlaqələrindən maksimum istifadə etməli, vaxtında monitorinq və barışıq mexanizmlərini təmin etməlidir. Bu da şübhəsiz ki, AİHM-in qərarlarına riayət edilməsinin səviyyəsinin artmasına gətirib çıxaracaqdır. Bu proses üçün insan hüquqlarına dair beynəlxalq müqavilələrin norma və prinsiplərinin aydın və düzgün şərh edilməsi və AİHM-in qərarlarının digər iştirakçı dövlətlərə əlçatan şəkildə izah edilməsi də mühüm əhəmiyyət kəsb edir.

AİHM, AİHK-nın həyata keçirilməsinin təmin edilməsində mühüm mexanizm olduğunu nümayiş etdirir. Bu mexanizm AİHK-nı və onun protokollarını imzalayan bir çox ölkələrin vətəndaşlarının maraqlarını və hüquqlarını müdafiə etməyə imkan verir. Bu nəticələr tədqiqatçıların *"milli qanunvericiliklə tənzimlənməyən problemli məsələlərin həllinə imkan verən belə bir dövlətüstü mexanizmin mövcudluğunun aktuallığı"* barədə arqumentlərini təsdiqləyir [457, s.92; 495, s.1001].

Tonje Meinich [503, s.995] və Oana Petrescu [518, s.155] ilə razılaşırıq ki, Avropa məkanında insan hüquqlarının rolunun daim artması bu sahədə müxtəlif hüquq normalarının qəbuluna səbəb olmuşdur. Xüsusilə, O. Petrescu [518, s.150] ilkin Avropa qanunlarında insan hüquqlarının tənzimlənməsinin təkamülü prosesini təsvir etmiş, Avropa Birliyinin AİHK-na qoşulması üçün bəzi əsasları

göstərmişdir. Eyni zamanda, müəllif Avropa Birliyinin AİHK-na qoşulması haqqında Saziş layihəsinin rədd edilməsi məqamlarını araşdıraraq qeyd etmişdir ki, bunun da mühüm nəticəsi Avropa Birliyinin hüquq sistemini əsas insan hüquqlarının tənzimlənməsi sahəsində müstəqil kənar nəzarət prosesi ilə təmin edə bilməməsi olmuşdur. Bu problem digər alimlər tərəfindən də müzakirə edilmişdir [507, s.140; 517, s.248].

Irene Antonopoulos [411] AİHM-də ətraf mühitlə bağlı hüquqların daha sərt tərifi ilə bağlı təkliflərlə çıxış edir və onun təklifləri kənar nəzarət mexanizmlərinin əhəmiyyətini bir daha təsdiq edir. AİHM işlərə ekoloji məsələlərin insan hüquqlarının müdafiəsi kontekstinə daxil edilməsi yolu ilə beynəlxalq müqavilələrin, o cümlədən Orxus Konvensiyasının müddəaları əsasında baxır. Belə hallar təbiətin mühafizəsi ilə fundamental insan hüquqlarının həyata keçirilməsi arasında əlaqənin təzahürüdür.

O. Gumirovun *"Konvensiyanın üzvü olan dövlətlər Konvensiyada möhkəmləndirilmiş Avropa dəyərlərinə sadiq olduqlarını təsdiq etsələr də, bu hüquqların şərhi ilə bağlı AİHM-in kifayət qədər geniş təfsir cəhdlərinə skeptik yanaşırlar"* tezi ilə razılaşmırıq [478, s.262]. Ancaq qeyd etmək lazımdır ki, dövlətlərin hamısı AİHM-ə müsbət münasibət bəsləmirlər. Məsələn, son illərdə Azərbaycan Respublikasında AİHM-in qərarlarının həyata keçirilməsi dinamikasında nəzərəçarpacaq dərəcədə artım bunu sübut edir. Eyni zamanda Azərbaycan beynəlxalq səviyyədə 2017-, 2019-, 2021-ci illərdə keçirilən dayanıqlı inkişafla bağlı siyasi forumlarda üç milli hesabat təqdim etmişdir (Human Rights Council, 2023). Bu fikirlər digər əsərlərdə, o cümlədən Çiğdem Sahinin Avropa Birliyi ilə Azərbaycanın əməkdaşlığının inkişafını təhlil etdiyi məqaləsində bir daha təsdiq olunur [544, s.48].

Bəzi alimlər AİHM-in hakimlərini hüquqların həddindən artıq yaradıcı təfsirində günahlandırır, digərləri isə məhkəmənin daya-

nıqlı olmayan reallıqları nəzərə alaraq ərizəçilərin hüquqlarını müdafiə etməməsini qeyd edirlər, onlar AİHM-dən şəxslərin xeyrinə qərar gözləyirlər [501; 508, s.178; 569, s.6]. Bu baxımdan George Letsasın tezi kifayət qədər əhəmiyyətlidir. O, qeyd edir ki, *"Konvensiyanın müddəalarının hədsiz yaradıcı təfsirinin məhdudlaşdırılması ilə bağlı çağırışlar məhkəmənin legitimliyi və səmərəliliyinə aid konkret dəlillərə əsaslanır; onun səlahiyyətləri tam olaraq Konvensiyanın iştirakçısı olan dövlətlərin iradəsindən asılı olmalıdır"* [499, s.124].

Beləliklə, AİHM-in bəzi qərarları ilə bağlı alimlər arasında fikir ayrılıqları olsa da hesab edirik ki, AİHM-in birləşmək azadlığına dair presedent hüququ onun əsas hissələrində ümumi sayıla bilər və bu, milli səviyyədə hüquq-mühafizə orqanlarında müəyyən problemlər doğursa da, müstəsna hallar yaratmır.

AİHM-in üzvlərinə hüquqi yardımın tendensiyaları və aspektləri geniş və çoxşaxəlidir. AİHM-in qərarlarının qəbul edilməsi və ya qəbul edilməməsi ilə bağlı Avropa Şurasının hesabatları və bu qərarların Azərbaycandakı icra mexanizminin təhlili dövlətlərlə AİHM arasında hüquqi yardım və əməkdaşlıq proseslərinin müasir inkişaf imkanlarını göstərir.

AİHM-in fəaliyyət mexanizmi AİHK-nın və onun protokollarının həyata keçirilməsini təmin edir. Bu dövlətlərüstü mexanizmdən balanslaşdırılmış istifadə insan hüquqlarının milli qanunvericilikdəki ziddiyyətlər və ya hüquq normalarının şərhi və onlara riayət edilməsi ilə bağlı digər problemlərlə bağlı pozuntuları nəzərə almağa imkan verir.

Eyni zamanda, AİHK-nı və AİHM-i imzalayan dövlətlər arasında əməkdaşlıqla bağlı müəyyən çətinliklər vardır. Əvvəla, bu beynəlxalq qurumun qərarlarının mətnlərinə daxil olmaq çətindir, çünki onların hamısı hakimlər üçün əlçatan dillərə tərcümə olunmur. Bu səbəbdən milli məhkəmə səviyyəsində AİHM-in qərarla-

rının istifadəsində müəyyən seçim mövcuddur. Bu, AİHM-in qərarlarının rəsmi istifadəsində ziddiyyət yaradır. Belə ki, AİHM-in eyni qərarına müxtəlif qərarlarda onun qəbul edilməsi şəraiti və işin ümumi gedişatı nəzərə alınmadan istinad edilir. AİHM-in qərarlarından formal istifadə hallarının aradan qaldırılması vacibdir, çünki qərarların mahiyyəti və məqsədi fərqlidir və milli hakimlərin sənədlərinə daha çox səlahiyyət vermək xarakteri daşımır. Milli məhkəmələrin qərarlarında AİHM-in qərarlarının formal tətbiqi deyil, işin halları kontekstində nəzərə alınması daha düzgündür. Böyük Britaniyanın İnsan Hüquqları Aktının yerinə yetirilməsi ilə bağlı ingilis hüquqşünasları "güzgü prinsipi"ni ("mirror principle") işlətməyə başladılar; mahiyyəti ondan ibarət idi ki, AİHM-in qərarı hüquq sistemində əks olunmalıdır [462, s.98].

AİHM-in fəaliyyətinin siyasiləşdirilməsi başqa bir maneə kimi nəzərə alınmalıdır, çünki avtoritar idarəçilik rejimi olan bəzi dövlətlər onun yurisdiksiyasına etinasızlıq nümayiş etdirirlər.

Bundan əlavə, imzalanmış, lakin milli qanunverici orqanlar tərəfindən ratifikasiya olunmamış bəzi protokolların tanınması ilə bağlı problem mövcuddur. Bu səbəbdən müəyyən etimad boşluğu yaranır və buna uyğun olaraq AİHM-in qərarlarının icrası ilə bağlı problemlər olur.

Qeyd olunan çətinliklərin aradan qaldırılmasının perspektiv yolu AİHM-in işinin təkmilləşdirilməsidir; bu, hüquq normalarının daha geniş tətbiqini və daha az siyasiləşməni tələb edir. Monitorinq və uzlaşma mexanizmlərinin həyata keçirilməsi üçün üzv dövlətlərlə əlaqələrin genişləndirilməsi vacibdir. AİHM-in qərarlarının milli səviyyədə aydın və birmənalı şərh edilməsi zəruridir. Bu, insan hüquqlarına dair beynəlxalq müqavilələrin prinsiplərini imzalayan digər dövlətlərə izah etməyə imkan verəcəkdir.

NƏTİCƏLƏR

1. Azərbaycanda hüquq elmlərinin və hüquqi tənzimləmənin tarixi, Azərbaycan tarixi kimi, Rusiya, Türkiyə, İran və İngiltərə, Fransa kimi Avropa dövlətləri və digər dövlətlərlə bağlı olmuş, qaçaq təhkimlilərin elementar verilməsindən, diplomatik qaydada birdəfəlik yardım göstərilməsindən, digər dövlətlərlə çoxtərəfli və ikitərəfli müqavilələr əsasında qurulmuş institutlaşdırılmış hüquqi yardıma, qanunvericilik bazasının olmamasından, dostluq, sülh, əməkdaşlıq və hətta təslim olma haqqında müqavilələrə hüquqi yardımın müəyyən aspektləri ilə bağlı ayrı-ayrı normaların daxil edilməsindən, cinayət işləri üzrə hüquqi yardım göstərilməsinə dair xüsusi ikitərəfli müqavilələr bağlanması və hüquqi yardım məsələlərinin məcəllələşdirilməsinədək yol keçmişdir.

2. İslamlaşmadan sonra, orta əsrlərdə, Azərbaycan SSRİ-nin tərkibinə daxil olanadək Azərbaycanın hüququ, demək olar ki, islam hüququ idi və müsəlman hüququnun müddəaları dövlətlər arasında hüquqi yardım məsələlərini də tənzimləyirdi.

Qurani-Kərim dövlətlər və insanlar arasında yardımı fərqləndirmir, yardımın ümumi şərtlərini müəyyən edir. Qurani-Kərimin digər dinlərə inananlara, müqavilələrə və müqavilələrə məcburi əməl olunmasına dair müddəaları, hədislər və Peyğəmbərin müqavilə təcrübəsi qəbilələr və digər xalqlar arasında cinayətkarlara münasibətdə hüquqi yardım, cinayətkarların təhvil verilməsi və digər məsələlərlə bağlı müddəaları bu gün də geniş istifadə olunmalıdır.

44 günlük İkinci Qarabağ müharibəsinin nəticələrinə görə Üçtərəfli bəyanatın müddəalarının yerinə yetirilməsi çərçivəsində, Məhəmməd Peyğəmbərin müqavilə təcrübəsində də tətbiq edildiyi kimi, sülhə müqavimət göstərənlərə (düşmənçiliyə və fitnə-fəsad törətməyə təşviq edənlərə) qarşı çıxmaqla bağlı hüquqi yardım təcrübəsi bu gün də Azərbaycan üçün aktuallığını qoruyub saxlayır.

3. Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım milli cinayət-prosessual hüququn institutudur və məhkəmə tapşırıqları ilə bağlı

məsələlər onun çərçivəsində həll edilir. Qarşılıqlı hüquqi yardım dövlətlərin dövlət orqanları və vəzifəli şəxsləri arasında qarşılıqlı əlaqə formasıdır ki, bu, müqavilələrin icrası və müvafiq olaraq beynəlxalq əməkdaşlıq forması ola bilər.

4. Hüquqi yardım çərçivəsində məhkəmə tapşırığı sorğu verən xarici dövlətin məhkəmə baxışında və ya araşdırmasında olan cinayətlə bağlı müvafiq prosesual və digər hərəkətlərin milli qanunvericiliyin müddəalarına uyğun olaraq həyata keçirilməsi barədə sorğu edilən dövlətin səlahiyyətli orqanına verilən xahişdir və bu anlayış CPM-nə daxil edilməlidir.

5. Azərbaycan Respublikasının hüquq sistemi roman-german hüquq ailəsinə aid olduğu üçün, bu hüquq ailəsinə daxil olan dövlətlərlə hüquqi yardım haqqında sorğuların yerinə yetirilməsində demək olar ki, hiss olunan çətinliklər yaranmır. Lakin digər ölkələrlə, o cümlədən ümumi hüquq ölkələri ilə əlaqələrin inkişafı və genişləndirilməsi məhkəmə tapşırıqlarının yerinə yetirilməsində prosessual problemlər yarada bilər ki, onlar da ikitərəfli müqavilələr bağlanılarkən nəzərə alınmalıdır.

6. Cinayət-prosessual qanunvericilikdə istintaq hərəkətlərinin anlayışı və növləri ilə bağlı normaların olmaması səbəbindən iş üzrə nəticələrin sübut kimi tanınması ilə bağlı problemlərin aradan qaldırılması üçün Azərbaycan Respublikası CPM-nə 7.0.49-cu maddənin əlavə edilməsini təklif edirik (Əlavə 11, 3-cü bənd).

7. "Məhkəmə hərəkətləri" anlayışı qanunvericilikdə müəyyən edilmədən kənarda qalmışdır. Bu vəziyyət ifadənin sadəliyi və ilk baxışdan "məhkəmə hərəkətləri" anlayışının şərhinin aydınlığı ilə əlaqələndirilə bilər ki, bu, məhkəmə tərəfindən həyata keçirilən, istisnasız olaraq prosessual xarakterli hərəkətlər kimi başa düşülə bilər və CPM-də geniş nəzərdə tutulmuşdur, ancaq hüquqi aydınlıq üçün CPM-nin 7.0.37-ci maddəsinə əlavə edilməlidir (Əlavə 9, 11, 2-ci bənd).

8. Digər prosessual hərəkətlərə istintaq və məhkəmə hərəkətlərinə daxil olmayan, cinayətlər haqqında məlumatların, təqsirini boynuna almaqla könüllü gəlmə zamanı məlumatların qəbulu və yoxlanılması üzrə hərəkətlər kimi prosessual hərəkətlər aiddir (Əlavə 10).

Müstəntiqin digər prosessual hərəkətlərinə iş üzrə müstəntiq tərəfindən müxtəlif prosessual qərarların, o cümlədən cinayət işinin başlanması haqqında qərarın (210-cu maddə), prosessual məcburiyyət tədbirlərinin tətbiqi haqqında qərarın (176-178-ci maddələr) və s. qəbul edilməsi də aid edilə bilər.

9. Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardımla bağlı bütün anlayışların başa düşülməsi və həyata keçirilməsində vəhdətin təmin edilməsi, həmçinin qanunvericiliyin formalaşdırılmasının yüksəldilməsi üçün Azərbaycan Respublikası CPM-nə prosessual hərəkətlərin tərifi daxil edilməli və CPM-in 7.0.37-ci maddəsi yeni redaksiyada verilməlidir (Əlavə 11, 2-ci bənd).

10. Cinayət işləri üzrə hüquqi yardım göstərilməsi zamanı yarana biləcək prosessual problemlərin aradan qaldırılması və cinayət-prosessual qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə şahid qismində çağırılması və dindirilməsi mümkün olmayan şəxslərin siyahısı ilə bağlı müvafiq dəyişikliklər edilməlidir (Əlavə 11, 12-ci bənd).

11. Qaçaq cinayətkarların başqa dövlətin ərazisindən zorla oğurlanmasının "təcrübələrinin" aradan qaldırılması üçün cinayətkarların yerinin qanunsuz məcburi dəyişdirilməsinin yolverilməzliyi barədə müddəalar qarşılıqlı hüquqi yardım haqqında, həmçinin əməkdaşlıq və dostluq haqqında ikitərəfli müqavilələrə daxil edilməlidir.

12. Beynəlxalq məhkəmələrin fəaliyyətində və dövlətlərin təcrübəsində tətbiq edilən cinayət prosesində müdafiə olunan şəxslərin anonimləşdirilməsi institutu "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununa daxil edilməli və qarşılıqlı hüquqi yardımın səmərəliliyinin artırılmasına kömək etməlidir (Əlavə 11, 21-ci bənd).

13. Cinayət işləri üzrə hüquqi yardım çərçivəsində üzləşdirmənin aparılması və tanınmaya təqdim edilməsi hüquqi yardımın əhatə dairəsinə daxil deyil, lakin digər prosessual hərəkətlər kimi onların aparılması da istisna edilmir. Cinayət işləri üzrə hüquqi yardım çərçivəsində üzləşdirmənin və tanınmaya təqdim edilməsinin aparılması hüquqi yardımın perspektivli sahəsidir və qanunvericiliyə daxil edilməlidir (Əlavə 11, 9-cu bənd).

14. Dövlətlər arasında hüquqi yardım göstərilməsi qaydasında məhkəmə ekspertizasının aparılması hüquqi yardımın tərkib hissəsidir. Vahid metodologiyanın tətbiqi məhkəmə ekspertizasının inteqrasiyasında ilk addımdır. Hesab edirik ki, praktikada əməkdaşlığın elm sahəsi ilə çərçivələnməsi məhdudlaşdırıcı hesab edilməlidir və ekspertlərin digər ölkələrin ərazisində məhkəmə ekspertizalarında iştirak etməsi müəyyən istisnalarla zaman və qanunvericilik tənzimləməsi məsələsidir.

Məhkəmə ekspertlərinin seçimi ilə əlaqədar məhkəmə və istintaq orqanlarının məhdudiyyətlərinin aradan qaldırılması üçün "58. Ekspert fəaliyyəti" Xüsusi razılıq (lisenziya) alınması tələb olunan sahibkarlıq fəaliyyəti növlərinə daxil edilməlidir (Əlavə 11, 20-ci bənd).

15. Cinayət-prosessual məcburiyyət tədbirlərinin tətbiqi prosessual rəhbərlik, prokuror nəzarəti və məhkəmə nəzarəti ilə əhatə olunur. Hesab edirik ki, kontrol (yoxlama) idarəetmə səlahiyyətləri ilə bağlıdır və struktur bölmələrinin fəaliyyətinin normativ aktlara və digər sənədlərə uyğunluğunun yoxlanılmasından ibarətdir.

Məhkəməyədək icraatda təhqiqat və ibtidai istintaqın gedişinə prokuror nəzarəti cinayət işinin məhkəməyə verilməsinədək həyata keçirilir, məhkəmə nəzarəti isə insan və vətəndaş hüquq və azadlıqlarını məhdudlaşdıran hərəkətlərlə bağlıdır və müvafiq olaraq, əhatə dairəsinə görə prokuror nəzarətindən daha məhduddur.

Dövlətlər arasında hüquqi yardım göstərilməsi qaydasında xarici dövlətlərin sorğularının icra edilməsi üzərində prosessual rəhbərlik və nəzarətlə bağlı prokurorluğun fəaliyyət istiqamətlərində

və prosessual rəhbərlik üzrə səlahiyyətlərində müvafiq dəyişikliklər edilməsini təklif edirik (Əlavə 11, 4, 5, 17-ci bəndlər).

16. CPM-ə cinayət işinin başlanması üçün səbəblər sırasına "hüquqi yardım çərçivəsində xarici dövlətin səlahiyyətli orqanının (vəzifəli şəxsin) məlumatları" daxil edilməlidir (Əlavə 11, 6, 15-ci bəndlər).

17. Qanunvericilik məhkəmə tapşırıqlarının konkret cinayət təqibi orqanları — təhqiqat, istintaq, prokurorluq və ya məhkəmələr vasitəsilə icrası istiqamətində inkişaf etməlidir.

18. Hüquq sistemlərinin və dövlətlərin hüquq sistemlərinin inteqrasiyası kontekstində dövlətlər arasında hüquqi yardım göstərilməsində ümumi anlayışların tətbiqi, qarşılıqlı anlaşmanın sadələşdirilməsi məqsədilə CPM-in 48-ci maddəsinin adı dəyişdirilərək "Cinayət mühakimə icraatının ağlabatan müddəti" adlandırılmalı və yeni redaksiyada verilməsi məqsədəuyğun olardı (Əlavə 11, 7-ci bənd).

19. CPM-ə elektron sübutların anlayışı ilə bağlı əlavə edilməlidir.

Elektron sənədlərdə dəyişiklik və ya itmə (silinmə) riskini qismən aradan qaldırmaq məqsədilə qanunvericiliyə "plandankənar məlumat" institutu, elektron sübutlarla bağlı kompüter məlumatlarının dərhal saxlanması haqqında göstəriş CPM-ə daxil edilməlidir (Əlavə 11, 14-cü bənd).

20. Kriminalistik təminat vasitələrinin tətbiqinin məcburi göstərilməsi və ya müasir elm, texnika, incəsənət və digər sahələrdə ümumi qəbul edilmiş tədqiqat metodlarının təsviri bu orqanların səlahiyyətləri daxilində idarə aktlarının qəbul edilməsi ilə, hüquqi yardım üzrə sorğuları icra edən orqanların vəzifələrinə daxil edilməlidir.

21. Qarşılıqlı hüquqi yardım haqqında müqavilələr olmadıqda, sübutların əldə edilməsi və verilməsi barədə xarici məhkəmə orqanlarının tapşırıqlarının icrası, hətta tapşırıqla bağlı olan cinayətin ikiqat tanınması olmasa belə, söhbət məcburi tədbirlərin tətbiqindən getmirsə, təşviq edilməlidir. Digər müsbət məqam ondan ibarətdir ki, xarici məhkəmə orqanından birbaşa alınmış tapşırığın icrası əməkdaşlıq

üçün presedentlər yaradır və qarşılıqlı hüquqi yardımın daha da inkişafına kömək edir. Daha yüksək səviyyədə, dövlət qrupları səviyyəsində dövlətlərin və ya beynəlxalq təşkilatların iştirakı ilə çoxtərəfli beynəlxalq müqavilələr səviyyəsində qəbul edilmiş daha ümumi müddəalardan çıxış edilməsi hüquqi yardımın da səmərəliliyini artırır.

Kəsişən və ya paralel yurisdiksiyaların tənzimlənməsi üçün Aİ çərçivəsində tətbiq edilən Avropa həbs orderinə adekvat olan sənədin daxil edilməsindən əvvəl, əgər dövlətlər cinayət işləri üzrə hüquqi yardım haqqında beynəlxalq müqavilələrlə bağlıdırsa, paralel yurisdiksiyalar məsələsinin həllində Eurojust kimi nəzarət orqanının funksiyalarının cinayət işləri üzrə hüquqi yardım haqqında çoxtərəfli müqavilələrin orqanlarının üzərinə qoyulması çıxış yolu olardı və bu sahədə əməkdaşlıq üçün presedentlər yaradardı.

22. Beynəlxalq Cinayət Məhkəməsinin beynəlxalq təşkilatlarla əməkdaşlığı prosessual xarakter daşıyır və prosessual hərəkətlərin deyil, digər hərəkətlərin icrasına yönəldilmişdir.

23. Milli məhkəmələrdə prosesin müəyyən iştirakçılarının video rabitə kanallarından istifadə etməklə dindirilməsi zamanı BCM-nin tətbiq etdiyi texniki qaydalardan istifadə məhkəmə proseslərinin operativliyinə və əlavə narahatlıqların aradan qaldırılmasına kömək etmiş olardı. CPM-ə müvafiq dəyişikliklər edilməlidir (Əlavə 11, 9-10-cu bəndlər).

24. QHT-lər BCM-nin fəaliyyətində vasitəçi kimi də iştirak edə bilərlər. Yerli QHT-lərin BCM-də tətbiq olunan Amicus Curiae (məhkəmənin dostu) qismində iştirakını məqsədəmüvafiq hesab etmirik. QHT-lərin cinayət təqibində iştirakının sərhədlərinin genişləndirilməsi onların amicus curiae icmallarının hazırlanması üzrə ixtisaslaşmasına və ədalət mühakiməsinin gedişinə təsir edə biləcəyi ilə bağlı nüfuzunun artmasına gətirir. Buna görə də dövlətdaxili hüquqda QHT-lərin cinayət təqibində amicus curiae qismində iştirakı məhdud xarakterli olmalıdır.

25. Azərbaycan Respublikasında Konstitusiya Məhkəməsində amicus curiae rəylərindən istifadə olunur, cinayət-prosessual qanunvericilikdə isə birbaşa ifadə edilməsə də, onun tətbiqi hallarına rast gəlinir. Məhkəmələrin tələbi əsasında Vəkillər Kollegiyasının vəkillik fəaliyyəti ilə bağlı məsələlərə rəy verməsi birbaşa amicus curiae icmalı hesab edilməlidir. Bundan başqa, ekspertin və mütəxəssisin dəvət edilməsi və şahid qismində dindirilmə barədə vəsatətdə hüquqi məsələlərlə bağlı vəkilin mülahizələri də amicus curiae-dir. Məhkəmə proseslərində ictimai maraqların nəzərə alınması, aşkarlığın təmin edilməsi, beynəlxalq standartların tətbiqi ilə bağlı xüsusi biliklərin tələb edilməsi, beynəlxalq məhkəmələrə çıxışla bağlı hüquqi məsələlər üzrə amicus curiae icmallarının verilməsinin qanunvericiliyə daxil edilməsi zaman məsələsidir və Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin təcrübəsinə uyğun olaraq cinayət-prosessual qanunvericiliyə daxil edilməlidir.

BCM-nin Statutunun və Azərbaycan Respublikasının qanunvericiliyinin təhlili göstərir ki, BCM və Azərbaycan Respublikası arasında hüquqi yardım məsələləri ilə bağlı konkret hüquqi çərçivə olmasa da, dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardımla bağlı milli qanunvericiliyə müəyyən əlavələrlə BCM ilə münasibətlərə də tətbiq edilməsi mümkündür. Hətta, qanunvericiliyə belə əlavələr olmasa və ya BCM-lə əməkdaşlıq haqqında müqavilə olmadıqda belə, BCM-nin Statutunda qeyd olunan cinayətlərin universal yurisdiksiyaya daxil olmasından, digər beynəlxalq müqavilələrlə nəzərdə tutulmasından çıxış edərək, BCM-nin hüquqi yardım barədə sorğuları icra olunmalıdır. Əslində, müqavilə olmadıqda BCM-nin hüquqi yardım haqqında sorğularının diplomatik kanallarla Azərbaycana göndərilməsi və həll edilməsi mümkündür. Burada cinayət işləri üzrə hüquqi yardımın şərti kimi qarşılıqlılıq əsasında göstərilməsindən kənara çıxılmalıdır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Avropa insan hüquqları hüququ. Dərs vəsaiti /Əliyev Ə.İ. və b. – Bakı: "Kooperasiya" nəşriyyatı, – 2015. – 128 s.

2. Avropa İnsan Hüquqları Məhkəməsinin Reqlamenti. http://aaj.gov.az/aihm/aihmmehreq.pdf

3. Avropa İnsan Hüquqları Məhkəməsinin Reqlamentinə Əlavə (məhkəmə istintaqının aparılması barədə): [Elektron resurs]. URL: http://aaj.gov.az/aihm/aihmmehreq.pdf

4. Azərbaycan Respublikasının Konstitusiyası**:** [Elektron resurs]. URL:http://www.e-qanun.az/framework/897

5. Azərbaycan Respublikasının hüquqi yardım sahəsində ikitərəfli beynəlxalq müqavilələrinin toplusu. –Bakı: Ədliyyə Nazirliyi, – 2021. – 615 s.: [Elektron resurs].URL:https://www.justice.gov.az/documents/categories/694.pdf

6. Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə, 30 avqust 1991: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/6592

7. Azərbaycan Respublikasının Mülki Məcəlləsi: [Elektron resurs]. URL: http://e-qanun.az/framework/46944

8. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında 13 iyun 1995-ci № 1057 Azərbaycan Respublikası Qanunu: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/9460

9. Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında 24 dekabr 2002-ci il № 404-IIKQ Azərbaycan Respublikasının Konstitusiya Qanunu: [Elektron resurs]. URL:http://www.e-qanun.az/framework/1881

10. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə, 2006-cı il 18 aprel: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/11614

11. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında 2005-ci il 3 may tarixli 906-IIQ Azərbaycan respublikası Qanunu: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/9912

12. Azərbaycan Respublikasının Konsulluğu haqqında Əsasnamə 2007-ci il 26 fevral: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/12746

13. Azərbaycan Respublikasının Konsul Nizamnaməsi, 1994-cü il 8 fevral,№ 782: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/8986

14. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu. 28 dekabr 2001-ci il, № 246-IIKQ: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/1407

15. "Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə müəyyən edilmiş məsələlərin icrası və beynəlxalq əməkdaşlığın səmərəliliyinin artırılması ilə əlaqədar prokurorluq orqanlarının vəzifələri barədə" 14 fevral 2007-ci il tarixli 10/13 №-li əmri.

16. "Azərbaycan Respublikası Baş Prokurorluğu strukturunun və ştat sayının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 745 nömrəli Sərəncamına dəyişikliklər və əlavələr edilməsi barədə 29 sentyabr 2006-cı il № 1708 Azərbaycan Respublikası Prezidentinin sərəncamı: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/12107

17. Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə 19 yanvar 2006-cı il № 352 Azərbaycan Respublikası Prezidentinin Fərmanı: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/11357

18. Azərbaycan Respublikası Mərkəzi Bankının Maliyyə Moniyortinqi Bölməsinin Əsasnaməsi, Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin "23" oktyabr 2020-ci il tarixli qərarı ilə təsdiq edilmişdir: [Elektron resurs]. URL: https://uploads.cbar.az/organization/Maliyy%C9%99%20monitorinqi%20b%C3%B6lm%C9%99si.pdf

19. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında Qərarı № 5 Bakı şəhəri, 30 mart 2006-cı il: [Elektron resurs]. URL: http://jlc.gov.az/Law/-AR/Ali_Meh_Qerar.pdf

20. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi: [Elektron resurs] / URL: http://e-qanun.az/framework/46960

21. Azərbaycan Respublikasının cinayət prosesi. Dərslik / Cəfərquliyev M.Ə., – Bakı: Qanun, – 2008. – 768 s.

22. Azərbaycan Respublikası Cinayət-Prosessual məcəlləsinin kommentariyası: Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinə 20 may 2016-cı il tarixədək edilmiş əlavə və dəyişikliklər, həmin tarixədək toplanmış məhkəmə və istintaq təcrübəsi nəzərə alınmaqla yenidən işlənmiş təkrar nəşr /müəl. kol. C.H.Mövsümov və b.; elmi red. Mövsümov C.H., – Bakı: Digesta, – 2016. –1335 s.

23. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu, 25 iyun 2020-ci il, №140-VIQD: [Elektron resurs]. URL: http://e-qanun.az/framework/45387 24. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi: [Elektron resurs]. URL: http://e-qanun.az/framework/46947

25. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi (Azərbaycan Respublikasının 2000-ci il 14 iyul tarixli 907-İQ

nömrəli Qanunu ilə təsdiq edilmişdir): [Elektron resurs]. URL: http://e-qanun.az/framework/46950

26. "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2000-ci il, № 387 Fərmanı: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/360

27. Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 19 yanvar 2006-cı il,№ 352: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/11357

28. Azərbaycan Respublikasının Banklar haqqında 16 yanvar 2004-cü il №590-IIQ Qanunu:[Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/5825

29. Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında 17 may 1996-cı il № 73-IQ Azərbaycan Respublikası Qanunu: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/4028

30. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı ilə təsdiq edilmişdir: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/3580

31. Beynəlxalq əməkdaşlıq/Daxili İşlər Nazirliyinin məlumatı: [Elektron resurs]. URL: https://mia.gov.az/az/menu/132/

32. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsi, Azərbaycan Respublikasının Konstitusiya Məh-

kəməsi hakimlərinin yığıncağının 19 oktyabr 2012-ci il tarixli protokolu ilə təsdiq edilmişdir: [Elektron resurs]. URL: https://www.constcourt.gov.az/az/legislation/13

33. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun C.Abdullayeva və digərlərinin şikayəti ilə əlaqədarAzərbaycan Respublikası Ali Məhkəməsi Mülki işlər üzrə məhkəmə kollegiyasının 11 may 2005-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair 13 aprel 2007-ci il tarixli qərarı: [Elektron resurs]. URL: https://constcourt.gov.az/az/decisions?key=avropa%20insan%20h%C3%BCquqlar%C4%B1&page=1

34. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun R.Ağalarovun şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki işlər üzrə məhkəmə kollegiyasının 31 mart 2006-cı il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair 26 sentyabr 2007-ci il tarixli qərarı: [Elektron resurs]. URL:https://constcourt.gov.az/az/decisions?key=avropa%20insan%20h%C3%BCquqlar%C4%B1&page=1

35. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 265.5-ci maddəsinin və «Məhkəmə qərarlarının icrası haqqında» Azərbaycan Respublikası Qanununun 82.3-cü maddəsinin şərh edilməsinə dair 15 fevral 2008-ci il tarixli qərarı: [Elektron resurs]. URL:

https://constcourt.gov.az/az/decisions?key=avropa%20insan%20h%C3%BCquqlar%C4%B1&page=1

36. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Svetlana Antonovna Əliyevanın şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki işlər üzrə məhkəmə kollegiyasının 12 sentyabr 2007-ci il tarixli qərarının Azərbaycan Res-

publikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair 18 iyul 2008-ci il tarixli qərarı: [Elektron resurs]. URL: https://constcourt.gov.az/az/decisions?key=avropa%20insan%20h%C3%BCquqlar%C4%B1&page=1

37. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 72, 73 və 74-cü maddələrində nəzərdə tutulmuş «ilk dəfə böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxs» anlayışının şərh edilməsinə dair 25 dekabr 2009-cu il tarixli Qərarı: [Elektron resurs]. URL: https://constcourt.gov.az/az/decisions?key=avropa%20insan%20h%C3%BCquqlar%C4%B1&page=1

38. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 137 və 445.2-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair 12 fevral 2015-ci il tarixli Qərarı: [Elektron resurs]. URL: https://constcourt.gov.az/az/decisions?key=avropa%20insan%20h%C3%BCquqlar%C4%B1&page=1

39. "Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə" 11 iyun 2004-cü il tarixli, 688-IIQD saylı Azərbaycan Respublikası Qanununun III hissəsinin 9-cu bəndinin və IV hissəsinin 7-ci bəndinin Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IX hissəsinə uyğunluğunun yoxlanılmasına dair 25 yanvar 2005-ci il Qərarı: [Elektron resurs]. URL: https://constcourt.gov.az/az/decisions?key=avropa%20insan%20h%C3%BCquqlar%C4%B1&page=1

40. Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının "İnzibati məhkəmə icraatında kassasiya şikayətinin mümkünlüyünə dair" 2023-cü il 06 noyabr tarixli Qərardadı (№ 01/2023): [Elektron resurs]. URL: https://supremecourt.gov.az/storage/pages/1970/kassasiya-sikayetinin-mumkunluyu-06112023-yenilenmis-son-1.pdf

41. BMT-nin Korrupsiya əleyhinə Konvensiyası (31 oktyabr 2003) və Azərbaycan Respublikasının Qeyd şərtləri və Bəyanatları: [Elektron resurs]. URL: https://e-qanun.az/framework/10784

42. BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyası. 15 noyabr 2000: [Elektron resurs]. URL:

https://migration.gov.az/content/pdf/b6b9f093b2668222a6f6d5a0481ff5a1.pdf

43. BMT-nin İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyası. 10 dekabr 1984-cü il: [Elektron resurs]. URL: https://files.preslib.az/projects/azdiplomacy/a4.pdf

44. Cinayət işlərinə dair hüquqi yardım haqqında 29 iyun 2001-ci il № 163-IIQ Azərbaycan Respublikası Qanunu: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/2804

45. Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında 11dekabr 1998-ci il № 585-IQ Azərbaycan Respublikası Qanunu: [Elektron resurs].URL: http://www.e-qanun.az/framework/5098

46. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında 10 fevral 2009-cu il № 767-IIIQ Azərbaycan Respublikası Qanunu: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/16347\

47. "Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında Avropa Konvensiyasının və ona Əlavə Protokolun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 1 mart 2003-cü il, № 421-IIQ Qanunu: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/2124

48. "Cinayət işlərinə dair hüquqi yardım haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə 11 avqust 2001-ci il № 554 Azərbaycan Respublikası Prezidentinin Fərmanı: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/2813

49. Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında Azərbaycan Respublikasının Qanunu. 15 may 2001-ci il, № 132-IIQ: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/3550

50. Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılması, aşkar olunması, götürülməsi və müsadirə edilməsi haqqında Konvensiya. Strasburq, 8 noyabr 1990-cı il: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/2123

51. Cinayət prosesi. Xüsusi hissə. Dərslik /Abbasova F.M. – Bakı: Hüquq yayın evi, – 2019. –524 s.

52. Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında Avropa Konvensiyası və Əlavə Protokolu: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/2124

53. Cinayət prosesində xüsusi icraatlar. Dərs vəsaiti/Abbasova F.M. –Bakı: Ecoprint, –2018. –192 s.

54. Dini etiqad azadlığı haqqında Azərbayvan Respublikası Qanunu. 20 avqust 1992-ci il, № 281: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/7649

55. Məhkəmə ekspertizası fəaliyyəti haqqında 18 noyabr 1999-cu il № 758IQ Azərbaycan Respublikası Qanunu: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/91

56. Dövlət sirri haqqında 7 sentyabr 2004-cü il № 733-IIQ Azərbaycan Respublikası Qanunu: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/5526

57. Qarşılıqlı //Obastan -Azərbaycan dilinin izahlı lüğəti: [Elektron resurs]. URL:https://obastan.com/qar%C5%9F%C4%B1l%C4%B1ql%C4%B1/24093/?l=ru

58. Ekstradisiya haqqında Avropa Konvensiyası və protokolları: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/963

59. Elektron imza və elektron sənəd haqqında Azərbaycan Respublikasının Qanunu. 9 mart 2004-cü il,№ 602-IIQ: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/5916

60. "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 13 fevral 2014-cü il, № 268: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/26996

61. Eyvazov H.Q. Pprokurur nəzarətinin əsas istiqamətləri və prokuror akrları. Prokurorluğa nəzarət//–Bakı: DİN Polis Akademiyasının Elmi Xəbərləri, – 2020. № 2 (26), – s.31-46.

62. Eyxman: [Elektron resurs].URL:

https://az.wikipedia.org/wiki/Adolf_Eyxman

63. Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı. 30 mart 2006-cı il, №5: [Elektron resurs]. URL: http://supremecourt.gov.az/post/view/164

64. Əsgərov, B.M. Cinayət işləri üzrə sübutetmədə əməliyyat-axtarış informasiyasından istifadənin problemləri/ B.M. Əsgərov. – Bakı: Digesta, –2018.– 320 s.

65. Əhalinin sağlamlığının qorunması haqqında 26 iyun 1997-ci il, № 360-IQ Azərbaycan Respublikası Qanunu: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/4078

66. "Əməliyyat-axtarış fəaliyyəti" haqqında Azərbaycan Respublikasının Qanunu. 28 oktyabr 1999-cu il, № 728-IQ: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/2938

67. Hava gəmisində törədilmiş cinayətlər və bəzi digər aktlar haqqında Konvensiya. 14 sentyabr 1963: [Elektron resurs]. URL:

https://files.preslib.az/projects/azdiplomacy/a4.pdf

68. Hava gəmilərinin qanunsuz zəbt edilməsinə qarşı mübarizə haqqında Konvensiya. 16 dekabr 1970: [Elektron resurs]. URL:

https://files.preslib.az/projects/azdiplomacy/a4.pdf

69. Hesablama Palatası haqqında 29 iyun 2018-ci il № 1199-VQ Azərbaycan Respublikası Qanunu: [Elektron resurs]. URL:http://e-qanun.az/framework/39922

70. Hərbi əsirlərlə rəftara dair 1949-cu il 12 avqust tarixli III Cenevrə Konvensiyası: [Elektron resurs].

URL:http://www.redcrescent.az/images/ihl/aze/conv3az.pdf

71. Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında 12 dekabr 2003-cü il № 560-IIQ Azərbaycan Respublikası Qanunu: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/5403

72. Xarici rəsmi sənədlərin leqallaşdırılması tələbini ləğv edən Konvensiya, 5 oktyabr 1961-ci il: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/5827

73. Xəqani Məmmədov. Məhkəmə-hüquq islahatlarının növbəti mərhələsi // Xalq qəzeti.- 2019, 21 dekabr. - s.5.

74. Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısı və həmin fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsinə görə ödənilən dövlət rüsumunun Məbləğləri. ƏLAVƏ № 2. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 dekabr tarixli 510 nömrəli Fərmanı ilə təsdiq edilmişdir: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/12544

75. İsmayılov, X.C. Azərbaycanın hüquq tarixi*:* dərslik / X. C. İsmayılov*;* elmi red.M. F. Məlikova.Bakı: Elm və Təhsil, 2023. –588 s.

76. İbtidai araşdırma zamanı tərtib edilən prosessual sənədlərin nümunələri : metodik vəsait /S.Ağayev, İ.Eyyubov, A.Mikayılov. – Bakı: Mütərcim, – 2015. –155 s.

77. İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında 3 aprel 1998-ci il № 460-IQ Azərbaycan Respublikası Qanunu: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/3525

78. "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası (ETC№30) və onun 1, 4, 6 və 7 saylı Protokolları: [Elektron resurs]. URL: https://files.preslib.az/projects/azdiplomacy/a4.pdf

79. Kibercinayətkarlıq haqqında Konvensiya, Budapeşt, 23 noyabr 2001-ci il: [Elektron resurs]. URL: https://e-qanun.az/framework/18619

80. Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında Avropa Konvensiyası: [Elektron resurs]. URL: /http://www.e-qanun.az/framework/5406

81. Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu. 13 yanvar 2004-cü il, № 580-IIQ: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/5809

82. Konstitusiya Məhkəməsi haqqında Azərbaycan Respublikası Qanunu, 23 dekabr 2003-cü il, № 561-IIQ: [Elektron resurs]. URL: https://e-qanun.az/framework/5404

83. Kriminalistika. Dərslik /B.Ə.Əliyevin məsul redaktorluğu ilə. – Bakı: Qanun, – 2010. – 752 s.

84. Kütləvi informasiya vasitələri haqqında Azərbaycan Respublikasının Qanunu. 7 dekabr 1999-cu il, № 769-IQ: [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/30

85. Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyası. Istanbul, 11.05.2011: [Elektron resurs]. URL: https://rm.coe.int/ic-explanatory-ic-aze-web/16808e9a39

86. Qaçqınların statusu haqqında Konvensiya (1951): [Elektron resurs]. URL: http://scfwca.gov.az/store/media/qa%C3%A7q%C4%B1n%20statusu.doc

87. Qaçqınların statusu haqqında 1967-ci il Protokolu: [Elektron resurs]. URL:https://migration.gov.az/content/pdf/5acb1-0ef06d94_protokol%20qa%C3%A7q%C4%B1n.pdf

88. Qəfərov, M.S. Azərbaycan Respublikasının cinayət prosesində şəxsiyyətin hüquqlarının təmin edilməsi. – Bakı: Qanun, 2006. –248 s.

89. Qurani-Kərimin Azərbaycan dilinə tərcümə və şərhi/Ağabala Mehdiyevin tərcüməsi. 370 s.: [Elektron resurs]. URL:https://www.leader.ir › download › QURANİ-KƏRİM

